Qeyd etmək lazımdır ki, hüquq haqqında biliklərin hüquq nəzəriyyəsi adlandırılması sahəsində müxtəlif fikirlər olmuşdur. Bəzi alimlər (məsələn, N.M.Korkunov və b.)hesab edirdilər ki, hüquq fəlsəfəsi və hüquq ensiklopediyası eynidirlər və ümumiləşdirici elm kimi ümumi hüquq nəzəriyyəsinin yaranması üçün əsasdırlar. Bu dövrdə hüquq nəzəriyyəsində əsasən hüququn sosiologiyası (N.M.Korkunov, M.M.Koralevski, S.A.Muromtsev, Q.D.Qurviç, E.Levi, E.Erlix Q.Kantoraviç və b.) üstünlük təşkil edirdi. Hüquq nəzəriyyəsinin predmeti qismində bir tərəfdən hüquqi doqma tanınmışdırsa, digər tərəfdən hüquq münasibətlərinin məzmununu (hüquq qaydası)" (6,s.49-50), "etik hisslər, yaşantılar atributiv xarakterli emosiya" (7, s.75) əks etdirən "sintetik hüquq nəzəriyyəsi" formalaşdırılırdı.

Bəzi müəlliflər (məsələn, E.V.Kuzneçov və b.) göstərirlər ki, hüquq nəzəriyyəsinin predmeti həmişə müsbət hüquq olub və onun müxtəlif növləri vardır. Məsələn, L.İ.Petrajitski müsbət hüququn aşağıdakı növlərini göstərir: kitab hüququ (müqəddəs kitablar, adət hüququ məcmuələri, elmi faktorlar); elmdə qəbul olunmuş rəy, fikir hüququ (communis doctrum opinio); ayrı-ayrı hüquqşünas alimlərin hüququ;roma hüquqşünas-

larının yuridik ekspertiza hüququ (responsa),roma imperatorlarının reskriptləri, hüquq fakultələrinin rəyləri, hüquqi məsələlər üzrə kassasiya məhkəmələrinin qərarı; dini-etik nüfuzların kəlamları hüququ (dinin yaradıcıları, peyğəmbərlər, apostollar, müqədəslər); müqavilə hüququ, proqram hüquq (dövlətin bu və digər beynəlxalq məsələlərə münasibəti haqqında milli, partiya proqramları); presedent hüququ; atalar sozü hüququ, ümumixalq hüququ (“bütün dünyada belə qəbul olunub”); qeyri-müəyyən müsbət hüquq (bunun üçün normativ fakt “belə güman edirlər”) və s. (7, s.516)

Hüquq fəlsəfəsi, Q.Şerşenevıçə görə fəlsəfənin bir hissəsidir (10, s.24). Q.Şerşeneviçin fikrincə hüquqşünaslar hüququ olduğu kimi öyrəniblər, filosoflar isə ideal hüquq yaradıblar. O, hesab edirdi ki, hüquq fəlsəfəsi təbii hüquq haqqında anlayışı ümumi hüquq nəzəriyyəsi anlayışından təcrid etməlidir. Elmi ədəbiyyatda belə bir fikir formalaşmışdır ki, Q.F.Şerşeneviç hüquq siyasətini hüquq nəzəriyyəsi çərçivəsindən kənara “çıxarır” və bu əsasla da hüquq fəlsəfəsini yuridik elm deyil, fəlsəfi elm adlandırır. Hüquq fəlsəfəsinin strukturu aşağıdakılardan ibarətdir: ümumi hüquq nəzəriyyəsi, hüquq fəlsəfəsinin tarixi, hüquq siyasəti. Q.F.Şerşnevits hüquq fəlsəfəsinin struktur elementlərinin hər birinin vəzifələrini də ayrı-ayrılıqda izah edir. Onun fikrincə ümumi hüquq nəzəriyyəsi hüquq fəlsəfəsinin nəzəri hissəsidir. Hüquq fəlsəfəsinin tarixi ideal hüquq qaydası haqqında təsəvvürlərin sistemidir. Hüquq siyasəti isə birincisi, mövcud qanunvericiliyi qiymətləndirmək, ikincisi onu inkişaf etdirməkdir.

Hüquq fəlsəfəsi anlayışı ilə bağlı XIX əsr elmi ədəbiyyatında “normal hüquq”, “ağlabatan hüquq”, bütün dövrlər və xalqlar üçün ümumi olan “ən ümumi hüquq” və s. kimi terminlər işlədilmişdir. Bu dövrdə bəzi müəlliflər (məsələn R.İyerinq və b.) əsasını iradə təşkil edən“hüquq ideyası” termini də elmi dövriyyəyə daxil etmişdilər.

Elmi ədəbiyyatda belə bir fikir vardır ki, tarixi baxımdan əvvəlcə hüquq fəlsəfəsi fəlsəfənin tərkib hissəsi kimi çıxış edib, sonralar isə o, fəlsəfə və hüquqşünaslığın qovuşuğunda xüsusi istiqamət kimi formalaşmışdır. Hüquq fəlsəfəsi hüququn ideal əsaslarını tədqiq etməklə qüvvədə olan hüquq normalarına qarşı qoyulurdu. Hüquqşünaslığın inkişafı gedişində hüquq haqqında ümumiləşmiş elmin məzmununun dəyişməsi nəticəsində onun “ümumi hüquq nəzəriyyəsi” adlandırılması məsələsi ortaya çıxmışdır.

Hüquq fəlsəfəsi ilə bağlı belə bir elmi fikir formalaşmışdır ki, o müsbət (sonralar pozitiv) hüququn və xüsusi yuridik elmlərin materialları ilə kifayətlənmir. Onun vəzifəsi sosial həyatın hüquq hadisəsinin mahiyyətini dərindən öyrənmək və onu dünyəvi idraki-etik qayda ilə əlaqələndirməkdən ibarətdir. Bu vəzifənin həlli üçün ümumi hüquq nəzəriyyəsinin materialları kifayət etmir. Ona görə də hüquq fəlsəfəsi yuridik elmlərədən başqa qeyri-yuridik elmlərin, ümumi (xüsusən, metafizika və etikanın) məlumatlarından da geniş istifadə etməlidir.

Buradan da hüquq fəlsəfəsinin ali idraki etik baglangıclar baxımından hüquqi həyatın hadisələrinə qiymət vermək, hüququn cəhd etməli olduğu idealı göstərmək vəzifəsi meydana gəlir.Öz-özlüyündə əlbəttə ki, bu vəzifələrin həlli üçün hüquq fəlsəfəsi xalis yuridik sahədən kənara çıxmalıdır, o, müsbət hüquq və xüsusi elmlərin ümumiləşdirilməsindən yüksəkdə durmalıdır, çünki, qiymətləndirmə üçün meyarlar öyrənilən hadisənin özündən əxz oluna bilməz. Beləliklə, ümumihüquq nəzəriyyəsindən fərqli olaraq hüquq fəlsəfəsi metafizika və idealist xarakterlidir, ümumi hüquq nəzəriyyəsinin relyativizmini inkar edərək hüquqi hadisələrin prinsipial qiymətləndirilməsi əsaslarının mövcud mütləq başlanğıclarının olduğunu irəli sürür.

Belə bir elmi fikir də formalaşmışdır ki, xüsusi yuridik elmlərə nisbətən hüquq fəlsəfəsi ümumi fəlsəfənin bütün digər elmlərlə münasibətinə oxşar vəziyyətə malikdir.

Ümumi hüquq nəzəriyyəsi ilə hüquq fəlsəfəsi arasında fərq isə metafizika ilə hüquqi pozitivizm arasında münasibətə bənzəyir.

Hüquq fəlsəfəsi yuridik elmlərin bütün məcmusunun vahidliyini təmin edir,bütün yuridik elmlərin əsasında duran anlayışları və metodları təhlil edir. Bundan başqa o, bir sosial hadisə kimi hüququn mahiyyətini dərk etməyə cəhd edir və hüququ ümumi dünyəvi etik qayda ilə əlaqələndirir,hüquqi həyatın qiymətləndirilməsi üçün mütləq meyarlar müəyyən edir.Odur ki,bəzi müəlliflər (İ.V.Mixaylovski və b.)hesab edirlər ki, hüquq fəlsəfəsi xalis yuridik elm deyil.O, özündə fəlsəfə ilə hüquqşunaslığın arasında vasitəçi həlqədir,həm xalis yuridik (ümumi hüquq nəzəriyyəsi adlandırılan),həm də xalis fəlsəfi elementləri birləşdirir.

**Hüquq fəlsəfəsinin predmeti**

Hüquq ədəbiyyatında hüquq fəlsəfəsi və ümumi hüquq nəzəriyyəsinin iki müstəqil fənn olması haqqında fikirlərə də rast gəlinir.Lakin,belə hesab olunur ki, ayrı-ayrılıqda elm olsalar da, onları bir elmdə birləşdirmək lazım deyil. Belə ki, hüquq fəlsəfəsi öz predmetində ancaq hüququn dərin əsaslarını və onların dünyəvi etik qaydasını ifadə etməlidir. Digər tərəfdən ancaq "ümumi hüquq nəzəriyyəsi" "hüquq fəlsəfəsi" ilə müəyyən olunan əsas prinsiplərin konkret formalarına həyati məna verə bilər.Ümumi fəlsəfə dünyanın mütləq ilkin başlangıclarını və bu ilkin əsasların söykəndiyi qaydanı dərk etməyi öyrədirsə, dünyəvi etik qaydanın tərkib hissəsi kimi hüquq fəlsəfəsi ümumi prinsipləri müəyyən edir.

Hüquq fəlsəfəsini ümumi hüquq nəzəriyyəsinin qneseoloji istiqaməti kimi təhlil edən C.A.Kərimov göstərir ki, ümumi hüquq nəzəriyyəsinin müasir vəziyyəti əsasən hüquqi reallıqların sosioloji şərhi kimi təqdim olunur (4,s.58). C.A.Kərimov hüquq fəlsəfəsinin maraq dairəsini müəyyən edən məsələlərin aşağıdakılardan ibarət olduğunu göstərir: ontoloji nəzəriyyə çərçivəsində hüquqi hadisələrin və proseslərin özünüdərkinin yolları, metodları və üsulları, onların qneseoloji təbiəti.Beləliklə, hüquq fəlsəfəsi, bir tərəfdən, fikrin hüquqi varlığa doğru hərəkətini müəyyən edən tədqiqatın ilkin əsaslatı kimi çıxış edir, digər tərəfdən, özü dərketmə prosesinin nəticəsidir.Bu zaman, hüquq fəlsəfəsinin qneseoloji məzmunu real hüquqi varlığın hüququn sosiologiyası tərəfdən əldə olunmuş konkret ontoloji biliklərindən az qiymətli deyildir. Beləliklə,burada hüquq fəlsəfəsini müstəqil və ya fənnlərarası bilik sahəsi kimi deyil,ümumi hüquq nəzəriyyəsinin bir istiqaməti (tərkib hissəsi) kimi müəyyən edir.

Bir qrup alimlər (məsələn, M.N.Marçenko və b.) hesab edirlər ki, hüququn fəlsəfəsi təbiətcə və xarakterinə görə eyni zamanda həm yuridik, həm də fəlsəfi fəndir bu, fəlsəfənin, yurisprudensiyanın, sosiologiyanın, psixologiyanın və digər sosio-humanitar fənlərin səylərini birləşdirən fənlərarası bilik sahəsidir.Belə yanaşma ümumi dövlət və hüquq nəzəriyyəsi və hüquq fəlsəfəsi arasında müəyyən dəqiq sərhəd qoymağa imkan verir. Belə ki əgər ümumi hüquq nəzəriyyəsi hər şeydən əvvəl hüququn meydana gəlməsi,inkişafı və qaunauyğunluğunu üzə çıxararsa, hüququn fəlsəfəsi isə özündə hüququn müasir dünyada yeri və rolunun müəyyən edilməsinə, ona dəyər kimi yanaşılmasının təqdiqini əks etdirir. Digər qrup alimlər isə (məsələn, M.N.Korkunov və b.) hüquq fəlsəfəsi elminin mövcudluğuna şübhə ilə yanaşırlar. Bu zaman onlar F.Engelsin belə bir müddəasına əsaslanırlar ki, ideoloqun hadisələrin həqiqi əlaqələrini uydurma əlaqələrlə əvəz etdiyi vaxtda tarixin,hüququn,dinin fəlsəfəsi pozitiv nəzəri biliklərin kifayət etmədiyi şəraitdə meydana gəlmişdir. Hesab olunur ki, F.Engelsin bu müddəası indi də öz əhəmiyyətini itirməmişdir və hüququn həqiqi qanunauyğunluqlarına istiqamətlənmiş ümumi hüquq nəzəriyyəsi onun fəaliyyət göstərməsi və inkişafının daha ümumi

qanunauyğunluqları haqqında vahid elm olmalıdır.

Bəzi müəlliflər (məsələn, V.M.Sırıx və b.) hesab edirlər ki,hüququn fəlsəfəsi vaxtilə hüquq haqqında kifayət qədər biliklərin olmadığı dövrdə vaxtilə meydana gəlmiş və inkişaf etmişdir. Marksizmin meydana gəlməsindən sonra hüququn fəlsəfəsi tədricən öz əhəmiyyətini itirmişdir. Belə ki, K.Mark və F.Engels hüququn dərki prosesini həqiqi elmi etmişlər. Lakin, fəlsəfə isə bir elmi bilik sahəsi kimi tükənməyib, çünki,özünün spesifik predmetinə malikdir. Dövlət və hüququn fəlsəfi aspektləri haqlı olaraq həqiqətən də elmi fənn olan ümumi dövlət və hüquq nəzəriyyəsi çərçivəsində baxıla bilər. Hesab edirik ki, əksinə, hələ Kantın, Hegelin,Q.Radbruxun dövründən başlayarq hüquq fəlsəfəsi elmi meydana gəlmişdir. Digər qrup alimlərin (məsələn, məsələn,V.N.Rastorquev və b.) qənaətinə görə hüquqi və qeyri-hüquqinin fərqləndirilməsi haqqında fəlsəfədən başqa hər-hansısa bir instrumentin olmadığını nəzərə alsaq hüququn fəlsəfəsi ikiqat hüquqdur. Hüquqa institusional yanaşma ancaq fəlsəfi təhlilin sayəsində aşkarlanır.Sosial dövlət quruculuğu bir elmi istiqamət və tədris fənni kimi hüququn fəlsəfəsinin inkişafı olmadan mümkün deyildir.

Beləliklə, müstəqil bilik sahəsi və tədris fənni kimi hüquq fəlsəfəsi daim filosofların və hüquqşünas alimlərin diqqətini cəlb etmişdir. Bu sahədə kifayət qədər ədəbiyyatın olmasına baxmayaraq,indiyədək hüquq fəlsəfəsinin statusu haqqında elmdə vahid fikir yoxdur. Fikir ayrılığı əsasən hüquq fəlsəfəsinin predmet müəyyənliyi, fənn mənsubiyyəti və s.ilə əlaqədardır. Belə ki, məsələn, hüquq fəlsəfəsinin hüquq və ya fəlsəfi elm və fənn olması hələ ki, mübahisəlidir. Döğrudur hüquq fəlsəfəsinin obyektinin hüquq (hüquqi reallıq və s.) olması əksər hüquqşünaslar və filosoflar alimlər tərəfindən tanınır, lakin, onun məzmunu və mahiyyəti ilə bağlı bir-birinə zidd olan müxtəlif anlayış və konsepsiyalar mövcudur.

Fəlsəfi-hüquqi ədəbiyyatda hüquq fəlsəfəsinin predmet və fənn mənsubiyyəti ilə bağlı tarixən aşağıdakı konsepsiyalar formalaşmışdır: a) hüquq fəlsəfəsi xüsusi fəlsəfəsinə malik məxsusi vəzifələrini həll edən yuridik fənndir; b) ümumi hüquq nəzəriyyəsindən və hüququn sosiologiyasından fərqli müstəqil yuridik fənndir; ç) hüquq fəlsəfəsi “yuridik metafizika”dır.

Birinci fikri müdafiə edənlər hüquq fəlsəfəsinə hüququn sosiologiyası kimi ümumi hüquq nəzəriyyəsinin bir tərkib hissəsi kimi baxır. İkinci qrup alimlər (məsələn alman alimi K.Brinkman və b.) hüquq fəlsəfəsinə qüvvədə olan hüququn pozitiv əsaslandırılmasına yönələn bilik sahəsi kimi baxırlar. Üçüncü baxışa əsasən (J.L.Berjel və b.) hüququn fəlsəfəsi “yuridik metafizikadan” başqa şey deyildir.

J.L.Berjel hüquq fəlsəfəsi dedikdə, yuridik metafizika başa düşür. O, göstərir ki, bir yuridik metafizika kimi hüquq fəlsəfəsi “hüququ onu texniki aparatdan o mənada uzaqlaşdırmağa cəhd edir ki, burada hüququn mahiyyətinə varılsın və hüququn müdafiə etdiyi hüquq və dəyərlərin metayuridik əhəmiyyətini, eləcə də insanın dünyaya bütöv baxışına nisbətən hüququn mənasını başa düşmək mümkün olsun” (2,s.19). S.P.Sinxa da təxminən bu fikirdədir: hüququn fəlsəfəsi “hüququn təbiəti, ədalətən mahiyyəti,hüquq pozuntusu,cəza, şəxsi hüquqlar və s.” məsələləri araşdırır (8,s.5).

Qeyd etmək lazımdır ki, “hüquq fəlsəfəsi”terminini ilk dəfə olaraq elmi dövriyyəyə daxil edən Q.Hüqo, onu pozitiv hüquq baxımından təbii hüquq kimi şərh etmişdir. Sonralar hüquq fəlsəfəsinin fəlsəfi bilik sahəsi kimi genişlənməsində Hegelin xüsusi rolu olmuşdur. Hüququn fəlsəfi dərkinin rüşüymləri çox qədim dövrlərə gedib çıxır, lakin, bu yanaşmanın dəqiq və əhatəli təcəssümü Kant və Hegeldə özünü göstərir. Hegelin fikrincə hüquq haqqında elm fəlsəfəsinin bir hissəsidir. O, “hüquq fəlsəfəsi”nin girişində yazır “hüquq haqqında fəlsəfi elmin predmeti hüququn anlayışı və onun həyata keçirilməsindən ibarət olan hüquq ideyasıdır” (3,s.59). Hegeldə, söhbət öz mahiyyəti və məzmununa görə

müstəsna olaraq dövlətdən irəli gələn, real mövcud olan pozitiv hüquqdan gedir. Hegelə görə hüquq "ümumiyyətlə" pozitivdir.

Kant qeyd edirdi ki,"hüquq nədir?" sualı "hüquqşünası təşvişə sala bilər", bu və ya digər yerdə, bu və ya digər zamanda qanunların nə dediyini və dediklərini o hələ göstərə bilər. Lakin onların tələb etdikləri hüquq durumu və ümumiyyətlə hüququ və qeyri-hüquqini fərqləndirmənin hansı ümumi meyarları vardır-bu, onun üçün sirr olaraq qalır (5,s.33). Hegel hüququn tətbiqi və hüququn fəlsəfəsi anlayışlarını fərqləndirir. Fəlsəfi anlayış filosoflar və qanunvericilər üçün,tətbiqi isə praktik yurisprudensiya və vətəndaşlar üçün müəyyən olunur. Hüququn tətbiqi dərki (düşüncəsi) dövlət tərəfindən təminatı olan qanun,real normalardır. Hegelin həmçinin hüquq ideyası adlandırdığı fəlsəfi anlamı isə azadlıqdır.

Hegel hesab edirdi ki,mütləq ideya fəlsəfənin yeganə predmetidir.Bu ideyanın inkişafının müxtəlif formaları xüsusi fəlsəfi elmin dərkinin vəzifəsidir.Buna görə də xüsusi fəlsəfi elmlər olan "hüquq fəlsəfəsi", "tarix fəlsəfəsi", "dini fəlsəfə" xüsusi metodlara malik deyillər.

Hüquq fəlsəfəsinin inkişafı Hegelin "Hüquq fəlsəfəsi"ilə bağlı oldu.Hegelə görə hüquq fəlsəfəsi, Q.Qrotsinin də tərəfdarı olduğu kimi hüquqi yox,fəlsəfi fəndir.O,elmin yox, fəlsəfənin bir hissəsidir. Ona görə də hüquq fəlsəfəsinin predmeti kimi onun konkret həyata keçirilməsi yox, hüquq ideyası çıxış edir. Hüquq fəlsəfəsinin predmetinin Hegel şərhi təfəkkür və varlıq, məntiqi və həqiqinin eyniyyəti haqqında hüquq fəlsəfəsinin əsas vəzifəsini-"nə varsa onu dərk etmək, nə varsa hamısı məntiqidir" də müəyyən edir. XIX – XX əsrlərdə elmi ədəbiyyatda bu fənnin fəlsəfi bilik sahəsi olduğu tanındı.

Hüquq fəlsəfəsi bir fəlsəfi ideya kimi alman alimi Q.Radbrux tərəfindən daha əsaslı işlənilmişdir. Q.Radbrux hesab edir ki, hüquq anacaq dəyərə aid kateqoriyalar cərçivəsində başa düşülə bilər. Hüquq mədəniyyətin elmidir, yəni dəyər kateqoriyasına aid olan faktdır. Hüquq anlayışını mənası hüquq ideyasının realizəsindən ibarət olan "mövcudluqdan" başqa cür müəyyən etmək olmaz" (1,s.17). Q.Radbruxda hüquq fəlsəfəsinin predmeti əsasən həqiqətən hüquqdur, burada dövlətin problemləri zəruri hallarda nəzərdən keçirilir. Lakin, onun fəlsəfi diqqəti ideal deyil, dövlətdən irəli gələn real hüquqa,yəni qanun-vericiliyə yönəlmişdir. Belə ki, müəllif real qüvvədə olan hüququ (xüsusən, cinayət) araşdırır və onun fəlsəfi mənasını, real qüvvədə olan hüququn ideal mahiyyətini axtarıb tapmağa çalışır. Q.Radbrux hüquqa aşağıdakı üç aspektdən yanaşır: 1)dəyərə aid olan anlayışlar (wertbezieziehende Betrachtunğ), yəni hüquq elminin mahiyyətini təşkil edən mədəniyyət faktı kimi; 2) dəyərləndirici baxış (betwerttende Betrachtunğ), yəni hüquqa bir mədəni dəyər kimi yanaşma. O, hüquq fəlsəfəsi üçün xarakterikdir;3) nəhayət, hüquqa onun mahiyyəti və yaxud bu mahiyyətin olmaması baxımından metafizik yanaşma. Bu artıq dini hüquq fəlsəfəsinnin vəzifəsidir.

Hüquq fəlsəfəsinin tam fəlsəfi fənn olmasını hazırda da müdafiə edən müəlliflər ona sosial fəlsəfənin bir hissəsi (Q.İ.İkonnikova,V.P.Lyaşenko,S.L.Frank və b.)kimi yanaşırlar. Lakin, hüquq fəlsəfəsinə fənnlərarası elm (İ.İ.Kalnoy və s.), hüququn mənası haqqında təlim (Y.V.Tixonravov və b.), müstəsna olaraq metodoloji funksiyanı yerinə yetirən, ümumi hüquqi anlayışlar müəyyən edən və hüquqi dünyagörüş formalaşdıran bir elm kimi də yanaşırlar (C.A.Kərimov, V.Kubeş və b.).

Hüquq fəlsəfəsinin predmet və fənn müəyyənliyi haqqında yuxarıda göstərilən fikirlər, göründüyü kimi birtərəflidir və tam deyildir. Belə ki,burada ya ancaq hüquq fəlsəfəsinin fəlsəfi mahiyyəti,ya da onun ancaq hüquqi mahiyyətinə üstünlük veririlir.Bu isə hüquq fəlsəfəsinin iki komponentinin ayrı-ayrılıqda dərindən və geniş təhlilinə və nəticədə predmetin pərakəndəliyinə gətirib çıxarır. Bundan başqa hüquq fəlsəfəsi ya

fəlsəfənin (sosial fəlsəfə), ya da hüquq nəzəriyyəsinin predmeti ilə eyniləşdirilir. Deməli,belə çıxır ki, hüquq fəlsəfəsi ya fəlsəfədir,ya da hüquq nəzəriyyəsidir. Lakin hüquq fəlsəfəsi fənnləarası xarakter daşıyır. Bu ideya,eyni zamanda elmi ədəbiyyatda bir qrup alimlər (məsələn, M.N.Marçenko və b.) tərəfindən də müdafiə olunur, təbiətinə və xarakterinə görə onun fənnlərarası bilik olması əsaslandırılır. Belə ki,hüquq fəlsəfəsi özündə eyni zamanda fəlsəfi və hüquqi bilik sahələrini birləşdirir. Hüquq fəlsəfəsi bir tərəfdən, fəlsəfənin və hüquqşünaslığın qovuşuğunda mövcuddur, digər tərəfdən bütövlükdə humanitar elmlərin (sosiologiys, etika, psixologiya və s.) mühüm problemlərini özündə ifadə edir. Belə elmi mövqe hüquq ədəbiyyatında bir sıra müəlliflər tərəfindən (məsələn, C.A.Kərimov və b.) müdafiə olunur və göstərilir ki, hüquq fəlsəfi fəlsəfənin, sosiologiyanın, ümumi hüquq nəzəriyyəsinin sahəvi hüquq elmlərinin və bir sıra digər elmlərin mürəkkəb sintezi, dərketmə prinsiplərinin intiqrasiyasıdır(9,s.18).

Hüquq fəlsəfəsi ideologiya ilə qarşılıqlı bağlıdır. Belə ki,məsələn,əgər sovet hüquq elmində hüquq hakim sinfin iradəsinin ifadəsi kimi qiymətləndirilirdisə, hazırda hüquq əsasən ümumbəşəri dəyər kimi başa düşülür. Hüquq bir tərəfdən “ictimai qayda”, digər tərəfdən “mədəni dəyər” (Q.Radbrux), o biri tərəfdən “əmr” (C.Ostin və b.) kimi müəyyən edilir.Onun ideologiya ilə sıx bağlılığı həm də cəmiyyətin sosial-iqtisadi,mədəni-tarixi və mənəvi inkişaf mərhələləri ilə şərtlənən müxtəlif konsepsiya, təlim və nəzəriyyələrdə (təbii hüquq, yeni hegelçilik, yeni kantçı, konsepsiyaları və s.) də ifadə olunur. Bu baxımdan,məsələn, M.N.Marçenko hüquq fəlsəfəsini nəinki inteqral və ümumiləşdirici xarakterli, ümumi hüquq nəzəriyyəsi, hüquq sosiologiyası və digər qonşu fənnlər kimi nisbətən müstəqil fənnlərarası bir fənn kimi ayırır (2,s.18).

**Nəticə**

Elmi ədəbiyyatda bir qrup müəlliflər (M.N.Marçenko, C.A.Kərimov, V.A.Baçinin və b.) hüquq fəlsəfəsinin strukturunun çoxsəviyyəli xarakterliliyini əsaslandırırlar. Bu zaman aşağıdakılar ayrılır: ali, orta, xüsusi-elmi. Ali səviyyədə hüququn dərkinin ən vacib istiqamətləri və ümumi prinsipləri,orta səviyyədə onun ümumelmi və ya fənnlərarası xarakteri, xüsusi səviyyədə isə ayrı-ayrı obyektlər öyrənilir. Hüquq fəlsəfəsinin çoxfunksiyalılığı onun metodoloji, dərketmə, dəyərli-istiqamətləndirici, dinamik və digər finksiyaalrı ilə bağlıdır.

Beləliklə, nəticə olaraq qeyd etmək lazımdır ki, hazırda hüquq fəlsəfəsi fənninin dərkində iki yanaşma mövcuddur.Birinci yanaşma hüquq fəlsəfəsinə ümuni fəlsəfənin bir hissəsi kimi baxır və onu əxlaq fəlsəfəsi, dini fəlsəfə, siyasətin fəlsəfəsi kimi və s. fənnlərdən biri hesab edir. Belə ki,bəzi müəlliflər (məsələn, V.S.Yurçuk və b.) hüquq fəlsəfəsinin fəlsəfə elmi və fənni kimi sübut etməyə çalışaraq göstərirlər ki, fəlsəfi-hüquqi problematika idraki,metodoloji və yuridik elmlərin digər imkanlarından genişdir. Bu, ümumi fəlsəfənin tərkib hissəsi, müstəqil fəlsəfi fənndir. Bu elmi mövqeyi müdafiə etməyə çalışan müəlliflər göstərirlər ki, məsələn, tibbi fəlsəfə fəlsəfədir, tibb deyil, antripolojiya fəlsəfəi antropolojiya deyil, fəlsəfədir, tarix fəlsəfəsi tarix deyil, fəlsəfədir və s.Başqa sözlə, baxış səviyyəsi fəlsəfədirsə fəlsəfə nəyi araşdırırsa o, fəlsəfə elmi olaraq qalır.Elmi ədəbiyyatda sosial fəlsəfənin bir hissəsi kimi hüquq fəlsəfəsinin predmetinə aşağıdakı məsələləri aid edirlər: hüquq və onun mənası, hüququn hakimiyyət, cəmiyyət, əxlaq, din, insan fenomenləri ilə əlaqəsi, hüququn mahiyyət xarakteristikası, hüquqi reallığın hüquqi hadisələrdə dərki və s. İkinci yanaşma hüquq fəlsəfəsini hüquq elmləri sahəsinə aid edir, hüquq fənni, hüquq nəzəriyyəsinin bir istiqaməti və ya fənnlərarası bilik sahəsi kimi dəyərləndirir.Bu baxımdan o, pozitiv hüququn və pozitiv hüquq haqqında elmin yaranması üçün nəzəri fundament hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Radbrux Q.Hüquq fəlsəfəsi/tərcüməçi Ə.İ.Hüseynov, Bakı.: Qanun,2016
2. Бержель Ж.-Л. Общая теория права.М.2000
3. Гегель Г. Философия права.М., 1980
4. Керимов Д.А.Методология права. Предмет,функции,проблемы философии права. М.: СГА, 2003
5. Мартышин О.В.Метафизические концепции права //Государство и право, 2006, №2
6. Муромцев С.А.Определение и основное разделение права. Изд.Дом С.-Петерб. Гос. Ун-та, 2004
7. Петражицкий Л. И. Теория права и государства в связи с теорией нравственности. Санкт-Петербург.: Лань, 2000
8. Синха С.-П. Юриспруденция. Философия права.М.,1996
9. Философия права. Курс лекций: учебное пособие в 2 т. т. 1/Отв. ред.М.Н.Марченко М.: Проспект 2013
10. Шершеневич Г.Ф. Общая теория права / Учебное пособие (по изданию 1910-1912 гг.). Т. 1. М., 1995


**Абульфаз Гусейнов**

## ПРЕДМЕТ И ПОНЯТИЕ ФИЛОСОФИИ ПРАВА

### *Резюме*


В истории философско-правовой мысли существовали разнообразные подходы к определению философии права и её предмету. В современной философии права её предмет так же определяется по-разному. От самых широких определений до самых узких. Такое многообразие подходов к предмету философии права вполне закономерно, ибо его определение предполагает выявление отношения исследователя, как к праву, так и к философии. Предметом философии права являются и неюридические основания права, которые в трактовке некоторых авторов справедливо раскрываются как познавательные, ценностные, социальные и антропологические основания права. Теория же права представляет собой, главным образом, учение о действующем праве.

***Цель*** **-** определения понятия и предмета философии права

***Методология*** **-** диалектики, аналитический анализ

***Результат*** **-** обосновать философию права как высшая уровень познания права.


***Ключевые слова*****:** право, философия, объект, предмет, понятие, энциклопедия, теория

**Abulfaz Guseynov**

## SUBJECT AND CONCEPT OF THE PHILOSOPHY OF LAW

### *Summary*


In the history of philosophical and legal thought there were various approaches to definition of legal philosophy and its subject matter. In modern legal philosophy its subject matter is also defined differently. From the broadest definitions to the narrowest. Such variety of approaches to a subject of legal philosophy is quite natural because its definition assumes identification of the relation of the researcher, both to the right, and to philosophy. A subject matter of legal philosophy

are also non-legal grounds of law which in the interpretation of some authors rightly disclosed as the cognitive, valuable, social and anthropological bases of the law. The theory of the right represents, mainly, the doctrine about the law in force.

***Purpose* -** definitions of the subject and concept of philosophy of law

***Methodology* -** dialectics, analytical analysis

***Findings* -** to substantiate the philosophy of law as the highest level of knowledge of law

***Keywords****:* law, philosophy, object, subject matter, concept, encyclopedia, theory

**UOT 1:001**

**Söhrab Məhərrəmov**
***AMEA Fəlsəfə İnstitutu,***
***aparıcı elmi işçi, fəl.f.d.***

# İNFORMASİYALAŞDIRMA SOSİAL TƏRƏQQİNİN MÜHÜM TƏRKİB HİSSƏSİ KİMİ

*İnformasiyalaşdırma sahəsində cəmiyyətin inkişafının müasir mərhələsi mümkün olan ən yüksək səviyyəyə - qloballaşmaya çatmışdır, bununla bağlı cəmiyyətin həyatının bütün sahələrində - siyasətdə, iqtisadiyyatda, kültürdə, səhiyyədə, əmək sahəsində və məşğulluqda transformasiyalar baş verir.*

***Məqsəd*** **-** məqalədə informasiya cəmiyyətinə keçid prosesində cəmiyyətin informasiyalaşdırılması zamanı baş verən proseslərin qarşılıqlı fəaliyyəti araşdırılır, şəxsiyyətə əlavə imkanlar yaradan informasiyalaşdırma dərindən təhlil edilir.

***Metodologiya*** - məqalənin hazırlanmasında sistem-nəzəri yanaşma metodundan istifadə olunub, işdə müqayisəli təhlil metodu tətbiq edilib.

***Elmi yenilik*** **-** Hazırda İKT sahəsində əldə olunmuş texniki avadanlıq və informasiya məkanında mövcud olan maksimum konsolidasiya sayəsində cəmiyyət informasiyalaşdırma sahəsində tsiklik inkişaf vəziyyətindən çıxmışdır.

***Açar sözlər:*** informasiya, informasiya cəmiyyəti, informasiyalaşdırma, bilik cəmiyyəti, İKT, qloballaşma, komputerləşmə.

## Giriş

İkinci minilliyin sonu və üçüncü minilliyin əvvəli sivilizasiyanın yaxın illərdə və onilliklərdə nüvə və ekoloji fəlakətlərə keçmək təhlükəsi olan qlobal böhranın dərinləşməsi ilə xarakterizə edilir.

Son illər dünyada bütün sivilizasiyanın sonrakı taleyini dəyişə bilən kardinal transformasiyalar baş verir. Bu dəyişilmələr bəşəriyyətin düşdüyü böhran vəziyyətinin dərk edilməsi ilə və gözlənilən qlobal fəlakətin aradan qaldırılması üçün görülən işlərlə bağlıdır. Olduqca təbiidir ki, bu məsələ bizim bu prosesdə informasiyalaşdırmanın rolu haqda təsəvvürlərimizə də toxunur və mahiyyətcə, cəmiyyətin həyatında informatikanın perspektivinin, onun uzunmüddətli informasiya strategiyasının yeni görüntüsünü formalaşdırır.

Dünya sivilizasiyasının inkişafının müasir mərhələsində fəaliyyətin bir çox sahələrinin böyük həcmdə informasiyanın emal edilməsini tələb edən informasiya xidmətlərinə ehtiyacı var. Hamıya məlum bir həqiqətdir ki, komputer insan fəaliyyətinin bütün sahələrində istifadə edilən informasiyanın emalının və ötürülməsinin universal üsulu və texniki vasitəsidir. Beləliklə, cəmiyyətin informasiyalaşdırılması qloballaşmanın inkişafına yardım etməklə yanaşı, həm də müasir sosial tərəqqinin qanunauyğunluqlarından biridir.

Müasir cəmiyyətdə informasiyalaşdırmanın rolunun gücləndirilməsi ilə, insana, fəaliyyətin müxtəlif növlərinin həyata keçirilməsinin perspektivini açan yeni informasiya və kommunikasiya texnologiyalarının yaradılması ilə bağlı qlobal dəyişikliklər baş verir.

Cəmiyyətin informasiyalaşdırılması şəraitində insan informasiya sistemi yaratmaqla

qalmır, həm də, özünün yaratdığı sistemin təsir obyektinə çevrilməklə, kommunikasiya qarşılıqlı təsirinin "insan – informasiya texnologiyaları" kimi yeni tipini formalaşdırır.

**İnformasiyalaşdırma prosesi**

Müasir cəmiyyəti xarakterizə edən əsas proseslərdən biri informasiyalaşdırmadır. İnformasiya texnologiyasını bilmək yazmaq və oxumaq kimi keyfiyyətlərlə bir sıraya qoyulur. İnformasiya terminini müxtəlif tədqiqatçılar fərqli mənada işlədirlər. İnformasiyalaşdırma – (ingilis. informatization) ərazicə paylanmış informasiya resurslarını birləşdirən telekommunikasiya infrastrukturunun qurulmasına və inkişafına yönəlik siyasət və proseslərdir. İnformasiyalaşdırma prosesi informasiya texnologiyasının inkişafında texnolojinin transformasiyasının nəticəsi, postsənaye istehsal üsulunun məhsuludur. İnformasiyalaşdırmanın əsasında idarə etmənin kibernetik metodları və vasitələri, həmçinin informasiya və kommunikasiya texnologiyasının instrumentariləri durur. İnformasiyalaşdırma deyəndə, istehsalın müxtəlif sahələrinə, insanların ictimai və şəxsi həyatlarına komputer texnikasının və yeni informasiya texnologiyalarının tətbiqi başa düşülür.

Hazırda informasiyalaşdırma və qloballaşma kimi anlayışların cəmiyyətin formalaşmasının vahid sisteminin elementləri kimi yaranma mənbələri və tərifləri, onların qarşılıqlı asılılığı və qarşılıqlı şərtlənməsi ətraflı işlənməmişdir. Məlum olduğu kimi, cəmiyyətin inkişafının əsasında informasiya, daha dəqiq desək, insanın informasiyanı istehsal etmək, ona yiyələnmək, onu dəyişmək və ötürmək qabiliyyəti durur.

Dediklərimizi ümumiləşdrsək, bəşəriyyətin inkişafına təsir edən bəzi amilləri qeyd edə bilərik. Bu amillərdən birincisi, informasiya bazasının böyüməsi, ikincisi, informasiya məkanının genişlənməsi idisə, üçüncüsü cəmiyyətin informasiyalaşdırılmasının səviyyəsi idi.

Müasir cəmiyyətin informasiyalaşdırılması prosesi o qədər sürətlə gedir ki, hazırda onun insan fəaliyyətinin hansısa bir sahəsinə ciddi şəkildə toxunmadığını demək çətindir.

İnformasiyalaşdırma – informasiya kommunikasiya texnologiyalarını (İKT) tətbiq etməklə istifadəçilərin informasiya tələbatlarının ödənilməsi üçün optimal şəraitin yaradılması prosesidir. İnformasiyalaşdırma prosesində, ilkin olaraq, informasiyanın toplanması, emalı, onun saxlanması və təhlili üçün böyük işlərin görülməsi zəruridir. İstənilən sahədə rasional həll yollarının tapılması böyük həcmdə informasiyanın emalına əsaslanır, bu isə xüsusi texniki vasitələr cəlb olunmadan praktiki olaraq mümkün deyildir. (1)

İnformasiyalaşdırma – texnoloji olmaqdan çox, əhalinin həyat tərzində baş verən ciddi dəyişikliklərlə bağlı sosial və hətta kulturoloji prosesdir. Belə proseslər hakimiyyətin deyil, bir çox istiqamətlərdə informasiya kommunikasiya texnologiyalarının istifadəçilərinin bütün birliyinin komputer savadsızlığının ləğv edilməsi, yeni informasiya texnologiyasından istifadə kültürünün formalaşması və s. daxil ciddi səylərini tələb edir.

İnformasiyalaşdırma – komputer vasitələrinin informasiya və kommunikasiya texnologiyalarının sistemli inteqrasiyası, insanın, qrupun, sosiumun məhsuldar fəaliyyətini daha səmərəli təşkil etməyə imkan verən yeni ümumi sistem xassələrinin alınması məqsədinə istiqamətlənmiş prosesdir. (2)

İnformasiyalşdırma vətəndaşların, dövlət orqanlarının, yerli özünü idarəetmə orqanlarının, təşkilatların informasiya resurslarının formalaşması və istifadəsi əsasnda yaranan ictimai birliklərin informasiyaya olan tələbatının ödənilməsi üçün optimal şəraitin yaradılması və hüquqlarının reallaşması yolunda yaradılan təşkilatı, sosial-ekomik və elmi texniki prosesdir.

Hazırda dünyanın bütün ölkələrində informasiyalaşdırma prosesi bu və ya digər dərəcədə həyata keçirilir. İnformasiyalaşdırmanın strategiyasının düzgün seçilməməsi və ya onun dinamizminin və mobilliyinin çatışmazlığı ölkə həyatının bütün sahələrində ciddi,

bəzən isə dramatik dəyişikliklərə səbəb ola bilər.

İnformasiyalaşdırma dövlət ilə vətəndaş cəmiyyəti araslnda birbaşa və əks əlaqənin genişlənməsinə şərait yaradır, əhalinin müxtəlif qrup və təbəqələrinin ölkənin, onun regionlarının, yerli birliklərin idarə edilməsində iştirakını fəallaşdırır, dövlətin istər bütövlükdə, istərsə də ayrı-ayrı istiqamətlərdə inkişafında işlərin gedişi haqda informasiyanın toplanması, emalı və təhlilini tələb olunan səviyyəyə qaldırır. İnformasiyalaşdırma bütövlükdə dövlət aparatının rasionallaşmasına, onun fəaliyyətinin ən səmərəli forma və metodlarının tapılması və seçilməsinə şərait yaradır.

**Sosial yönümlü informasiyalaşdırma**

İnformasiyalaşdırmanın sosial yönümü ilk növbədə ölkənin vətəndaşlarına açıq informasiya resurslarına çıxışının olması haqda konstitutsiya hüquqlarını reallaşdırmaq imkanı verməsi ilə, informasiya, komputer və telekommunukasiya xidmətləri sənayesinin və infrastrukturunun inkişafında özünü göstərir.

Sosial-əmək sahələrinin informasiyalaşdırılması dedikdə vətəndaşların sosial əmək sahəsinin idarə subyektlərinin, idarələrin, müəssisələrin, ictimai birliklərin informasiyaya olan tələblərinin təmin edilməsi və reallaşması üçün təşkilatı sosial-ekonomik və elmi texniki şəraitin yaradılması prosesi başa düşülür.

Qeyd edilməlidir ki, informasiyalaşdırma yeni informasiyanın yaradılması, ona yiyələnmə, əldə edilmiş təcrübənin bu və ya digər sahəyə ötürülməsi üçün onun təcrübədə və informasiya, informasiya-kommunikasiya texnologiyalarının hazırlanmasında istifadəsini əhatə edən prosesdir.

Postsovet məkanında informasiyalaşdırma anlayışı ilk dəfə rus tədqiqatçı akademik A.P.Yerşov tərəfindən işlədilmişdir: “İnformasiyalaşdırma – insan fəaliyyətinin bütün ictimai əhəmiyyətli növlərində doğru, hərtərəfli və müasir biliyin tam istifadəsinin təmin edilməsinə yönəlmiş tədbirlər kompleksidir”. (3)

Digər rus tədqiqatçı A.İ.Rakitov informasiyalaşdırmanı “İnformasiyanın istehsalı, emalı, saxlanması və yayılması işində informasiya texnologiyasının istifadəsinin tədricən artan prosesi” kimi müəyyən edir. ( 4)

İnformasiyalaşdırmanın məqsədi – məhsuldarlığın yüksəldilməsi və əmək şəraitinin yüngülləşməsi yolu ilə insanların həyatlarının keyfiyyətinin yaxşılaşdırılmasıdır. İnformasiyalaşdırma – əhalinin həyat tərzində baş verən ciddi dəyişikliklərlə bağlı olan mürəkkəb sosial prosesdir.

İnformasiyalaşdırmanın məqsədi – cəmiyyətin hərəkət verici qüvvələrinin xidmət istehsalına, maddi məhsulun deyil, informasiya istehsalının formalaşmasına yönəlməli olan transformasiyasıdır. Informasiyalaşma gedişində istehsala yanaşmanın vəzifələri həll edilir, həyat ukladı, dəyərlər sistemi modernləşdirilir. Bu zaman asudə vaxt xüsusi dəyər kəsb edir, intellekt, bilik yenidən istehsal və istehlak edilir, nəticədə əqli əməyin payı artır.

Cəmiyyətin informasiyalaşdırılması deyəndə - vətəndaşların və dövlət hakimiyyət orqanlarının, yerli özünü idarəetmə orqanlarının, təşkilatların, ictimai birliklərin informasiya resurslarının formalaşması və istifadəsi əsasında informasiya tələbatının ödənilməsi gedişində optimal şərait yaradılması üçün təşkil edilmiş sosial-ekonomik və elmi-texniki proses başa düşülür.

Müasir cəmiyyətin formalaşması mürəkkəb sosiotexnoloji prosesin – qlobal informasiyalaşdırmanın nəticəsində baş verir. İlk dəfə bu termin 1978-ci ildə bir qrup fransız mütəxəssisi tərəfindən prezident Valeri Jiskar De Estyenin tapşırığı ilə hazırlanmış “Cəmiyyətin informasiyalaşdırılması” adlı məruzədə işlədilmişdir. Sonra, 1980-ci ildə bu sənəd ingilis dilinə tərcümə ediləndə “Cəmiyyətin komputerləşməsi” kimi yazılmışdır.

Beləliklə, informasiya cəmiyyətinin formalaşması prosesinin fəlsəfi anlaşılmasının başlanğıcında bu məsələnin həllində iki bir-birini qəbul etməyən, kifayət qədər fərqli yanaşma mövcud idi.

Birinci yanaşmada, cəmiyyətin informasiyalaşdırılması praktiki olaraq komputerləşmə ilə, süni intellektə xüsusi yer verilən elektron-hesablama texnikası vasitələrinin hər yerdə tətbiqi ilə eyniləşdirilirdi. Tarixən birinci olan belə yanaşma, bu günə kimi aktuallığını qoruyub saxlamış, geniş yayılmış, ciddi inkişaf etmişdir və hələ də çox saylı tərəfdarlara malikdir.

İkinci yanaşma hesab edir ki, komputer texnikası əhəmiyyəti və müasir cəmiyyətə göstərdiyi inqilabi təsirinə baxmayaraq, sadəcə olaraq informasiyalaşdırmanın bir vasitəsi (olduqca vacib olsa da) olaraq qalır. Bu yanaşmada prinsipial olanı odur ki, informasiyanın emalına texniki vasitələrin, xüsusilə də komputerin tətbiq edilməsi, cəmiyyətdə informasiya proseslərinin özünün rasionallaşmasından əvvəl olmalı idi, yəni konkret fəaliyyət növünün informasiyalaşdırmaya hazırlanması, mahiyyətcə sosial intellektin uyğun strukturunun formalaşmasıdır.

Cəmiyyətin inkişafının müasir dövrü İKT sahəsində qazanılan texniki avadanlığı və informasiya məkanının bu gün əldə edilən konsolidasiyası sayəsində onun tsiklik inkişaf dövründən çıxdığını, informasiyalaşdırmanın yeni səviyyəsinə yüksəldiyini deməyə imkan verir.

Müasir elmi texnologiyaya uyğun olaraq informasiya məkanının belə konsolidasiyasını qloballaşdırma adlandırırlar. Qloballaşma nəticəsində cəmiyyətin yeni tipi, müasir İKT bazasında hərtərəfli informasiyalaşdırma olaraq xarakterizə edilən, "postsənaye" və ya "informasiya cəmiyyəti" formalaşır.

İnformasiyalaşdırma prosesinin ölçülməsi, informasiya texnologiyalarının ictimai həyatın bütün sahələrinə tətbiqinin miqyasının müəyyən edilməsi ilə həyata keçirilir. Müasir informasiya texnologiyalarında komputer texnikasından çox istifadə edildiyini nəzərə alaraq, çox vaxt "informasiyalaşma" və "komputerləşmə" anlayışları arasında bərabərlik işarəsi qoyulur.

Adətən informasiyalaşdırmanın yaranmasını komputer texnikasının meydana gəlməsi ilə bağlayırlar. Bu yəqin ona görədir ki, tez-tez belə bir fikir irəli sürülür ki, məhz komputer, informasiyalaşdırmanın və informasiya cəmiyyətinin meydana çıxmasının başlıca səbəbi olmuşdur.

Komputerlər və onunla bağlı bütün qurğular və hətta İnternet, informasiyalaşdırmanın ancaq, texniki bazası, vasitəsidir. Məhz onlar informasiya cəmiyyətinə keçid zamanı yaranan vəzifələri həyata keçirmək üçün ən səmərəli vasitə oldular. Əgər informasiyalaşdırmanın inkişafında ciddi mərhələlərin müəyyən edilməsindən danışsaq, onlar hesablama texnikasının inkişaf dinamikası və komputerlərin istifadəsinə yönəlik elektron qurğuların geniş spektrləri ilə bağlıdır, çünki, məhz onlar ən mühüm dəyişilmələr üçün şərait yaratdılar.

Cəmiyyətin informasiyalaşdırılması müasir sosial tərəqqinin qanunauyğunluqlarından biridir. Bəzən bu termin cəmiyyətin komputerləşməsi termini ilə əvəz edilir. Ancaq bu terminlər bir-birindən ciddi şəkildə fərqlənir.

Cəmiyyətin komputerləşməsi vaxtı əsas diqqət informasiyanın emalının nəticələrinin operativ şəkildə əldə edilməsini təmin edən komputerlərin texniki bazasının inkişafına tətbiq edilməsinə verilir.

Cəmiyyətin informasıyalaşdırılması vaxtı əsas diqqət biliyin insan fəaliyyətinin bütün növlərində etibarlı, hərtərəfli və vaxtında tam istifadə edilməsinə yönəlik tədbirlər kompleksinə verilir. Beləliklə, "cəmiyyətin informasiyalaşdırılması", "cəmiyyətin kom-

puterləşməsinə " nisbətən daha geniş anlayışdır və informasiyanın öz tələbatının daha tez təmin olunmasına yönəlib. "Cəmiyyətin informasiyalaşdırılması" anlayışında əsas aksent texniki vasitələrdən çox, sosial-texniki tərəqqinin mahiyyətinə və məqsədlərinə yönəldilməlidir. Yaddan çıxarmaq olmaz ki, komputer cəmiyyətin informasiyalaşdırılması prosesinin texniki fazasını təşkil edir.

İnformasiyalaşdırma ictimai inkişafın bütün istiqamətlərində informasiyanın rolunun kardinal şəkildə dəyişməsi səbəbindən yaranmışdı. Əgər XX əsrin ortalarında informasiya köməkçi xidmət funksiyalarını yerinə yetirirdisə, əsrin 50-ci illərindən başlayaraq, elmi-texniki inqilab elm və sənayenin sıx birləşməsini, elmi tədqiqatlara mütəxəssislərin geniş dairəsini cəlb edəndə, informasiyanın rolu dəyişməyə başladı. Bu zaman əməkdaşlardan təkcə öyrənmə vaxtı deyil, həm də istehsal prosesində informasiya ilə işləmək tələb olunurdu. Həm də, bu zaman iş sadəcə bu sahəyə aid ədəbiyyatla tanış olmaqdan ibarət deyildi, bu zaman eyni vaxtda axtarış, təhlil və digər intellektual əməliyyatların icrası tələb olunurdu.

Artıq bu vaxt məlum oldu ki, strukturlaşmış informasiyanın böyük bazasına (potensial biliklərlə) və ona çıxışın mükəmməl vasitələrinə malik olmaq ekonomik, elmi, texnoloji və siyasi uğurun əsasına çevriləcək. İnformasiya müstəqil əhəmiyyət kəsb etməyə başladı. İnformasiyalaşdırma anlayışının istənilən izahında, aydın başa düşmək lazımdır ki, informasiyalaşdırmanın əsasını texniki vasitələrin bolluğu yox, yüksək keyfiyyətli, sistemləşdirilmiş, hərtərəfli informasiyanın olması təşkil edir.

Cəmiyyətin informasiyalaşdırılmasının növbəti mərhələsi fərdi hesablama maşınlarının, fərdi çap və surətçıxarma vasitələrinin, sənədlərin qrafik obrazlarının ötürülməsi, mobil rabitənin və İnternetin meydana gəlməsi ilə bağlıdır. Hər bir insan üçün fərdi iş zamanı prinsipcə yeni texnologiyaya keçid imkanı, informasiya resurslarının ən geniş spektrinə, əyləncə spektrinin genişlənməsinə çıxış imkanı yaranır. Fərdi kompüterlər ancaq iş üçün deyil, həm də əyləncə üçün nəzərdə tutulduğu üçün, onlar hər bir evə daxil olur və tədricən televizor, telefon kimi adi cihazlara çevrilir.

XX əsrin 50-60 illərin informasiya şəraitinin aspektlərindən biri çoxalan informasiyanın həcminin o vaxtkı mövcud informasiya texnologiyalarının köməyi ilə emalının mümkünsüzlüyünün başa düşülməsi idi. "İnformasiya partlayışı" informasiyanın yığılması, onun saxlanması, sistemləşdirilməsi və istifadəsi ilə bağlı çətinlikləri aradan qaldırmağa, həll etməyə imkan verən yeni informasiya texnologiyaları tapılmasını bir vəzigə olaraq qarşıya qoydu. Ənənəvi texnologiyalar köhnəlmiş, özlərini tükətmişdi. Ona görə də 60-cı illərin sonundan başlayaraq komputer texnologiyasından təkcə mürəkkəb hesablama işlərində deyil, həm də informasiya ilə iş daxil, insan fəaliyyətinin praktiki olaraq bütün sahələrinin avtomatlaşdırılmasında fəal istifadə edilməyə başlandı. Maqnit daşıyıcılarının (maqnitli lentlər, maqnitli disk sistemləri) yaranması elektron bazasının və məlumat banklarının formalaşmasına imkan verdi. Qərbin inkişaf etmiş ölkələrində komputerdən istifadə etməklə informasiya texnologiyalarının yaradılmasına kommersiya strukturları qoşuldu. İnformasiya xidmətlərinin, komputer texnikası bazarının formalaşmasına başlanıldı.

İnformasiyalaşdırmanın proqnozlaşdırılan nəticələri araşdırılan ədəbiyyatda tədqiqatçılar ən çox İsveçrəli tədqiqatçı K. Xessliqin "Komputer qorxusu" kitabında təqdim edilən cədvələ istinad edirlər. Burada XX əsrin 80-ci illərində İsveçrə əhalisi arasında keçirilmiş sorğunun cavabları əks olunmuş, respondentlərin cavabları toplanmış və sistemləşdirilmişdir. Tədqiqatın keçirilməsindən otuz ilə yaxın vaxt keçməsinə baxmayaraq, toplanan məlumatlar müasir dövrdə də aktual hesab edilə bilər, çünki, İsveçrədə artıq çoxdan informasiya cəmiyyətinin bütün klassik ilkin şərtləri praktiki olaraq gəlişmiş, forma-

laşmışdı.

Aparılan tədqiqatlarda respondentlərin verdikləri cavablarda informasiyalaşmanın müsbət və mənfi tərəfləri qeyd edilir. Kültür və cəmiyyət səviyyəsində müsbət hal kimi, fərdin azad inkişafı, informasiya cəmiyyətinin yaranması, informasiyanın sosiallaşması, kommunikativ cəmiyyətin formalaşması, sivilizasiyanın böhranının aradan qaldırılması müsbət hal kimi qeyd edilir. Mənfi hal kimi isə cəmiyyətin dehumanizasiyası, texnokratik şüur, kültür səviyyəsinin azalması, informasiya axını, biliyin elitarlılığı, fərdin izolyasiyası göstərilir. Siyasi sahədə azadlığın genişlənməsi, mərkəzsizləşmə, hakimiyyət iyerarxiyasının nizamlanması, ictimai həyatda iştirakın genişlənməsi müsbət hal kimi, azadlığın azalması, mərkəzləşmə, nəzarətçi-dövlət, dövlət bürokratiyasının genişlənməsi, biliyin artmasına görə hakimiyyətin güclənməsi, insanlarla manipulyasiyanın güclənmsı isə mənfi hal kimi qeyd edilir.

İnformasiya cəmiyyətinə keçid informasiya böhranının kəskin fazası ilə - sivilizasiyanın probleminin sonrakı inkişafına mane olan, ağrılı dövrü ilə eyni vaxta düşdü. Cəmiyyət insanın informasiyanı qəbul etməkdə olan məhdud imkanları və saxlanan informasiyanın nəhəng, böyük axını və kütləsi arasındakı ziddiyyətlə üz-üzə qaldı. İnformasiya "aclığı" ilə indormasiya "axınını" uzlaşdırmaq zəruridir. Ona görə informasiyalaşdırmanın gözlənilən başlıca müsbət nəticəsi bu problemin aradan qaldırılması, həll edilməsidir. Belə mürəkkəb vəzifənin həll edilməsində ilk addımlardan biri müasir informasiya texnologiyalarının hazırlanmasıdır. Bu texnologiya informasiya ilə bağlı hər bir əməliyyat haqda sorğunu təbii dilə yaxın formalaşdırmalı, informasiya səs-küyünü effektiv şəkildə kəsməli olan məlumatları istifadəçiyə münasib formada çatdırmalıdır.

İnformasiyalaşdırmanın digər bir mühüm vəzifəsi hər bir insanın sivilizasiyanın bütün informasiya resurslarına azad çıxışını reallaşdırmaqdır. Hazırda bu çıxış əhəmiyyətli dərəcədə inzibati, dövlətlərarası və ekonomik maneələrlə məhdudlaşdırılmışdır. Dövlət, beynəlxalq təşkilatlar qanunverici aktlar, müqavilələr, məqsədli proqramlarla sivilizasiyanın səmərəli inkişafını təmin edən informasiyaya çıxışı ağıllı şəkildə nizamlamalıdır. Nizamlamanın ağıllılığı, onun bağlılığı, dövlət və korporativ maraqlarla əsaslandırılmış müəyyən informasiya spektrinin olduğunun qəbul edilməsindədir. İnformasiyalaşdırma prosesi çıxışın ağıllı sərhəddini müəyyən etməlidir. Bundan əlavə, çıxış müəlliflik hüquqlarına əməl edilməsi ilə razılaşdırılmalıdır. İnformasiya cəmiyyətinin əsas prinsipi bu müddəa olmalıdır: "İnformasiyanın azad yayılmasının məhdudlaşdırılması dövlətə zərər verir".

Yeni sənayenin – informasiya sənayesinin yaranması aqrar və sənaye sektorunda ixtisarları kompensasiya etməlidir. Yeni iş yerlərinin yüksək ixtisaslı mütəxəssislər tələb etməsi, ali məktəblərdə və sonrakı təhsil proseslərinin dərinləşməsini müəyyən edirdi. Təhsil, mürəkkəb elektron cihazlarla iş vərdişləri informasiya cəmiyyətində özünü realizə etmənin əsas şərtinə çevrilir.

İnformasiyalaşdırmanın müsbət işi, fərqli yeni məşğulluq formalarına keçidin olmasıdır. Ditansiyadan işləmək zamanı aşağıdakı imkanlar yaranır: tele iş, telekomyuntinq, SOHO sektorunun (kiçik və ev ofisi) genişlənməsi. Bir sıra ixtisaslar üçün indi çevik iş qrafiki tutmaq mümkündür. Bu zaman bütün iştirakçılar üçün xərclər ciddi şəkildə azalır (ofis binası, nəqliyyat xərcləri, istehsal infrastrukturunun ixtisar edilməsi), işçi orqanizminin səmərəli işlədiyi vaxtdan daha effektli istifadə imkanı qazanır, "işlədiyim yerdə yaşayıram" arzusunu həyata keçirmək imkanı yaranır, ekologiya yaxşılaşır. Distansiyadan işin daha bir qanunauyğun nəticəsi işçilərin işə qəbulunda dövlət sərhədlərinin aradan qalxmasıdır – kontraktlarla iş zamanı, iş verənlə birbaşa kontakta girməmək mümkündür.

İnformasiyalaşdırmanın digər müsbət nəticələrindən bunları qeyd edək:

- kütləvi standartlaşma və unifikasiyadan imtina – cəmiyyətin hər üzvü özünün fərdi keyfiyyətlərini göstərmək üçün ona ən uyğun fəaliyyət növü seçməklə, operativ şəkildə ən minimal inzibati maneələrlə İnternet istifadəçilərinin ən geniş dairəsinin istənilən məsələsinə özünün xüsusi fikrini, mövqeyini ifadə etmək imkanı əldə edir;
- ekonomik və sosial proseslərin informasiya-hesablama təminatının təkmilləşməsi;
- qərarların qəbulu prosesinə informasiya və analitik dəstəyin genişlənməsi;
- resursların əlçatanlığı və çeşidliliyi, əlçatanlıq vasitələri spektrinin genişlənməsi sayəsində əhalinin informasiyaya tələbatının artması və inkişafı.

İnformasiya cəmiyyətində təkcə istehsal deyil, bütün həyat tərzi, dəyərlər sistemi dəyişir, maddi dəyərlərə münasibətdə kültürlü asudə vaxtın əhəmiyyəti artır. Fiziki imkanları məhdud olan, məsələn, yaşlı insanlar, təqaüdə çıxdıqdan sonra da işləyə bilirlər, çünki, iş qabiliyyətli olmağın yaş həddi yüksəlir.

İnformasiyalaşdırmaya Qərb və Asiya yanaşması kimi iki prinsipial yanaşma modeli mövcuddur. İnformasiyalaşdırmanın Qərb modelini sənayecə inkişaf etmiş ölkələrin getdiyi yol adlandırırlar. Bu yol çərçivəsində kontinental Avropanın getdiyi yolu, amerika-ingilis yolundan fərqləndirmək lazımdır. Avropa yolu dövlət tərəfindən tam nəzarət ilə bazarın kortəbiiliyi arasında balans axtarışıdır. Hakimiyyət bazarın onlardan hər birinin zamana görə oynadığı rolun dinamik uyğunlaşmasıdır. Avropa İttifaqının bütün üzvlərinin informasiyalaşdırmaya aid hər birinin, əsas ideyası sosial istiqamət və əsas proseslərin dövlət tərəfindən nizamlanması olan, cəmiyyətin dəyişilmələrinə toxunan baxışları və proqramları var.

İnformasiyalaşdırma prosesində dövlətin iştirakı xüsusi proqramlar şəklində sənədləşdirilir, həm də hər bir dövlət informasiya cəmiyyətinə keçid prosesinə özünün dəstək taktikasını özü müəyyən edir. İnformasiyalaşdırmanın milli planlarının təhlili onlar arasındakı fərqləri müəyyən etməyə imkan verir. Bunlara aşağıdakılar aiddir:

- ekonomik potensial, dövlət quruluşu, siyasi situasiya;
- informasiya cəmiyyətinə hərəkəti təmin edən (və ya ləngidən) qanunların spesifikliyi;
- informasiya cəmiyyətinin formalaşması kontekstində dövlətin makroekonomik siyasəti;
- informasiya cəmiyyəti qurulmasının ideologiyasının xüsusiyyətləri;
- milli kültürün və mentalitetin xarakteristikası.

İnformasiya cəmiyyətinin inkişafının amerika-ingilis yolu dövlətin funksiyasının minimum, fərdi insanların rolunun maksimum olduğu sosial-ekonomik model kimi müəyyən edilir. Həqiqi amerikan yolu – inkişafın bütün təzahürlərində özəl təşəbbüslərin üstün olduğu yoldur: hər şeyi özəl sektorun və bazarın əlində saxlamaq, informasiya texnologiyaları bazarının bütünlüklə liberallaşması, telekommunikasiya sahəsində dövlət idarəsinin məhdudlaşdırılması.

**İnformasiyalaşdırmanın Asiya modeli**

İnformasiyalaşdırmanın Asiya modeli dövlət ilə bazarın səmərəli əməkdaşlığı, sosial transformasiyalar və kültür dəyərləri arasında əlaqə qurmaq cəhdi üzərində qurulur. Bu model regionun sosial-ekonomik inkişafı və Qərblə konfrontasiya üsulunun alternativi kimi, birgəyaşayışın və çiçəklənmənin fəlsəfi prinsiplərini əks etdirir. Asiya modeli çərçivəsində Yaponiya və "Asiya pələngləri" (Cənubi Koreya, Tayvan, Sinqapur və Honkonq) fərqlənir.

Şərqi və Cənub-Şərqi Asiya regionunun – " dörd pələng" – inkişafının əsasında

Yaponiya modeli durur. Ancaq bu ölkələrdə informasiya cəmiyyətinə keçid prosesinin start şəraiti Yaponiyadan fərqlənir. Bu ölkələri inkişaf etməkdə olan ölkələr sırasına aid edirlər. “Pələnglərin” ekonomikadakı uğurlarına Yaponiya kapital qoyuluşu kömək etmişdi, bununla yanaşı onlar Yaponiyadan dövlət və biznesin qarşılıqlı münasibətlərinin fəlsəfəsini də qəbul etdilər. Bu ölkələrdə “dövlət-bazar” qarşılıqlı münasibətləri təmiz ekonomik deyil, sosioloji və siyasi xarakterdədir.

İnformasiyalaşdırma prosesi Yaponiyada cəmiyyətin başlıca ideyasına əsaslanmağa borcludur, burada hər bir fərd digərlərinə münasibətdə öz yerini bilir və özünü üzvü olduğu qrupun məqsədlərinə uyğun aparır. İdarəetmənin Yaponiya üsulu Avropa üsulundan fərqli korporativ kültürə əsaslanır, burada idarə edənlər, tabelərində olanlara qayğı göstərməlidirlər, ikincilər də direktivlərə sözsüz əməl etməlidirlər. Buna görə dövlət və biznes informasiya cəmiyyətinə keçid zamanı yaranan bütün problemlərə birgə məsuliyyət daşıyırlar və onları birgə səylərlə həll edirlər.

Извечный вопрос: что есть Истина? Двухтактная логика, на которой основана обычная философия, в описании процесса познания не обладает чёткой системностью и тем более шириной и глубиной. Причина в том, что сознание пользуясь двухтактным алгоритмом всё разделяет на две части и исследует противоречия, чтоб в конце концов получить осознание в виде некой аксиомы, истины не требующей доказательства. Стоит отметить что полученное осознание есть третья точка, находящаяся в той же плоскости, а <u>истиной может называться лишь то, что возвышается над плоскостью исследования</u>. К тому же метод двойного разделения выявляет слишком много противоречий. Для того чтоб сознанию исследователя их удержать в поле внимания и устранить в течении жизни требуется срок жизни в несколько тысяч лет. Более эффективен подход не плоского анализа-синтеза для выявления противоречий, а объёмной индукции-дедукции в каждом явлении, событии, объектах исследования трех составляющих сторон и различных уровней для выявления истины. Прежде всего <u>разделим один неделимый мир в котором</u>

живет человек на три, чтоб начать получать первичные выгоды уже в ходе нашего анализа. То есть получается процесс познания распространяется на три мира, за эти движения отвечают три разные отдела мозга, а значит мы существуем в трех мирах одновременно. Это уже снимает вопрос о смерти человека, так как оставшиеся две трети абсолютно нематериальны. Этот метод в трехмерной системе называется системный анализ с трех разных сторон и на трех уровнях сложности. Приучая сознание делить все на три, рассматривать с трех сторон и на трех уровнях сложности в человеке вырабатывается трёхтактный алгоритм движения сознания. Следующей выгодой после сокращения объема информации станет раскладка, упорядочивание всех терминов, касающихся познания внутреннего мира, разгрузка ума и снятие всех ограничений процесса познания. Чтоб определиться с мирами нужна ясность, которую можно получить, ответив на вопрос что такое познание. Это не просто некая последовательность, а сложнейший структурный процесс

**Процесс познания в трёхмерной логике.**

Итак, Познание миров— это сложный процесс совершенствования движения сознания в результате комплексного взаимодействия опыта, знаний и понимания

**1. Опыт.**

Оказавшись в неизвестном месте или взяв непонятную вещь первое что делает человек — это визуальная оценка местности, объекта или события. Вторым делом происходит анализ через органы чувств, как-то оценка запаха, вкуса, прочности. Третьим делом становится практическое действие для извлечения пользы. Наглядным примером этому являются дети, получившие новую игрушку. Осмотрев ее, они получают представление, далее пробуют на вкус, обоняние, ломают ее чтоб получить первичное знание. Единственное чего не хватает детям, так это практических навыков, прививание которых является целью воспитательного процесса.

**2. Знание.**

Множество опытов приводит к накоплению неких знаний, создаются различные теории гипотезы и универсальные принципы в виде наук. С их помощью опыты усовершенствуются, но не устраняется необходимость самих опытов.

**3. Понимание.**

Человек обладающий достаточным опытом и знаниями наделяется совершенством более высокого уровня, когда отпадает необходимость проведения опытов. Все великие ученые получают некое чутье, благодаря которому широкий спектр опытов сужается под необходимые цели. Другими словами, опыты и знания могут иметь направленность. Понимание дела и цели устраняет необходимость независимых в привычном смысле опытов и знаний. **Цель** диктует создание нового типа **знаний**, реализуемых на **практике нового поколения**. В идеале мы должны построить новую парадигму образования, основанную не на знаниях, развивающих ум, а на понимании, развивающем разумную сторону человека. Невозможно провести все в мире опыты, невозможно изучить все знания, но с помощью Разума Всё можно понять… и чтоб сделать первый шаг в этом направлении, следует принять новое определение **философии как Науки наук,** вложить его в основание всех наук и перевести человечество на новый уровень бытия.

**Миры познания**

**1. Материальный мир.**

Инструментом познания является **«Сознание»**, а весь сложнейший комплекс его движений, уникальный по своей сути для каждого человека называется **«мышлением».** Мышление человека затрагивает только некоторые миры, в которых

человек реализуется в рамках присущего ему «**мировоззрения**». Мировоззрение — это тот узкий круг интересов человека на поле всех миров познания, в которых действует сознание. Как и все инструменты данные инструменты могут видоизменяться, совершенствоваться и усложняться с возрастом. Общество реализуется в рамках Культуры, Мир в рамках Философии.

С точки зрения двухмерной логики существует множество взглядов на понятия сознание-подсознание, знание-незнание, источник-отражение. Создается впечатление как будто между ними есть некая стена. С трехмерной точки зрения **сознание — это динамический элемент** познания, **подсознание** же, по наитию принимающееся как сознание, это территория, владения **где правит сознание** или его отражение. В идеале это совокупность всех миров. Образно выражаясь сознание — это звонарь в церкви, который двигает множество колоколов-миры, чтоб получить мелодию жизни. У каждого человека своя мелодия и ему может быть достаточным использование одного колокола, но это не значит, что другие отсутствуют, они спят. Называемое Подсознанием является непознанным. Неудачный опыт человека в виде страхов переживаний тоже как территория в пределах подсознания и во власти сознания, но игнорируется сознанием. Её можно принять за территорию неосознанного.

Итак, *Образно выражаясь* Мировоззрение является окном, призмой через которое свет солнца сознания отражается на полу (познанное, культура) в доме (человеке, философия). Страхи есть пятна на этом стекле, непознанное является неосвещённой частью пола. Чтоб расширить сферу познанного не имеет смысла пытаться пересечь границу между светом и тьмой на полу, искусственно освещать ее зеркалами. Единственно правильный метод – это расширение рамок окна мировоззрения.

**2. Интеллектуальный – мир Ума, знаний, Культура.**

**«Человек»** как указано выше обладает «**мировоззрение**м». Оно не может выходить за рамки «**философии»** общества **- Культуры**, благодаря которой общество и существует в доме общей Философии. Ни одно изобретение или открытие не может быть создано вне рамок философии мира, потому что новшество проходит через сито личного мировоззрения первооткрывателя. Личное мировоззрение возможно поднять на уровень общества, таким образом рождается ученый. Если его поднять выше на уровень, **мира** родится провидец, или гений, способный видеть рамки «эволюции» в которых находится «мир» и направление развития;

**3. Духовный мир – мир Разума, нравственность, Философия.**

Вся жизнедеятельность человека направлена на обретение **ценностей**, которые гарантируют ему счастье. Первым признаком счастья является безопасность, когда ему не стоит тратить силы на защиту своей жизни, жизни окружающих и общества, страны в целом. Силы вкладываются исключительно в созидательный труд, вид которого он выбирает сам и сам же имеет право распоряжаться результатами своего труда. Процесс обретения ценностей приводит к набору правил, благодаря которым они сохраняются – **нравственность**. Глобальное понятие **Культура** – это и есть **Философия**, способ поведения, способствующий решению проблем в определенном этапе развития эволюции, коротко выражаясь это эталон эволюции. То есть можно быть некоторое время нравственным и ценностным человеком, но нахождение вне невидимых рамок Философии через непринятие её ограничивает человека, а точнее лишает его будущего, то есть жизни.

Итак, **Философия** – это наука об используемых в **процессе мышления**

**принципах познания** различных **миров** для перехода на более совершенный уровень ***бытия***. **Идеалом Философии,** целью данного изложения является искусство прямой материализации движения мысли, благодаря которому реализуется новый способ бытия и надобность в философии отпадёт.

**Список использованной литературы**

1. Канке В.А. Основы Философии. М.:Логос, 2008.
2. Горелов А.А. Основы философии. 15-е изд. - М.: 2014.
3. Сабиров, Соина: Основы философии. Флинта, 2012.
4. С.А. Валуев, В.Н. Волкова. Системный анализ в экономике и организации производства. Ленинград: Политехника, 1991.
5. Я.А. Слинин: Аристотель и онтологические основания логики. М.:Наука, 2013.
6. Аристотель, Кант, Декарт: Вся великая философия в одной книге. М.: АСТ,2018.
7. Гегель. Наука логики. М.: АСТ,2018.

**Ömər Ömərov**

## YENİ DÜNYANIN FƏLSƏFƏSİNİN ƏSASLARI

### *Xülasə*

Məqalədə dünya, cəmiyyət və insan üçün idrakın yeni üfüqləri açıqlanır. Bunun üçün müasir insanda idrak prossesinin ciddi analizini apararaq təfəkkürün alqoritmi və çatışmamazlıqlarını göstərərək daha səmərəli səviyyəyə keçirmək önəmlidir. Məqalədə nəzəri və praktiki misallar vasitəsi ilə insanın beyninin 21 pilləsindən 6-nın fəaliyyəti aydınlaşdırılır. Gənc mütəxəssislər, alimlər və tələbələr üçün yeni paradiqmanın açıqlanması onların cəmiyyətə inteqrasiyasına imkanlar yaradır.

***Məqsəd –*** dünya, cəmiyyət və insan üçün idrakın yeni üfüqlərini açıqlamaq.

***Metodologiya –*** Məqalənin metodoloji əsasını üçtərəfli sistem nəzəri yanaşma təşkil edir.

***Tədqiqatın nəticələri —*** İnsanın effektivliyinin, cəmiyyətin, ölkənin və dünyanın rifahının artırılması.

***Açar sözlər:*** fəlsəfə, idrak, təfəkkür, ağıl, dərrakə, bilik

**Omar Omarov**

## FOUNDATIONS OF THE NEW WORLD'S PHYLOSOPHY

### *Summary*

The article open new horizons of cognition to a person, to people, to the world. We need to analyse the algorithm of mindset of a modern person thoroughly, and to change it to a better way of functioning for finding out the essence of educational process. During the article theoretically and on practical examples there will be presented six of 21 levels of brain work. Thanks to the new algorithm of thinking. It is more prioritized to show to the young specialists, scientists and students the new paradigm of science, which will cause significant breakthroughs on all the areas of community life.

***Purpose –*** open the new horizons of cognition to a person, to people, to the world

***Methodology –*** systemic analysis from 3 different sides

***Findings –*** the increase of efficiency of a person, improvement of welfare of society, of the country and all the world.

***Keywords:*** philosophy, cognition, intellection, thinking, mind, knowledge.

**UOT 1 (091)**

**Göyərçin Kərimi**
***Şair-yazıçı-publisist,***
***AYB-nin üzvü***
*gkarimli @rambler.ru*

# DİN VƏ FƏLSƏFƏ: EPİZODİK BAXIŞ

***Din dühanın məhsuludur, o, bütün dövrlərdə layiqli qiymətini almış və bütün xalqların həyatında xilaskar rolu oynamışdır.***

**Artur Şopenhauer**

*Fəlsəfənin də tarixi dinin tarixi qədər qədimdir, lakin bu iki proses arasında əsaslı, ya əsassız baş verən çəkişmələr bütün dövrləri əhatə etdiyi kimi bu günümüzdən də yan keçmir. Silsiləvi davam edən mövcud ideoloji mübarizə fərqli olsa da, həmişə özü haqqında yeni fikir, yeni düşüncə tərzi formalaşdırır. Sözügedən ziddiyyətlərin davamlı olmasının əsas səbəblərindən biri məsələyə mahiyyət baxımından deyil, məqsədyönlü yanaşmadır və bu mənada mahiyyətin diqqət mərkəzinə çəkilməsi həmişə vacib amillərdən biri kimi nəzərdən keçirilməlidir.*

***Məqsəd*** **-** din və fəlsəfə haqqında müəyyən təsəvvürlərin təhlilinə çalışmaq, fərqli baxışlara münasibət bildirmək, mahiyyətin mahiyyətinə sadiq qalmaq prinsipinə əməl etmək

***Metodologiya*** **-** müqayisəli araşdırma və sistemli təhlil

***Tədqiqatın nəticələri*** **-** Fəlsəfə ilə din arasında pessimist, optimist kimi sərhədlər yoxdur; pessimizm, yaxud optimizm məqsədli arzuetmə məsələsi olduğu üçün fəlsəfəyə aid mövzu deyil, çünki sonuncunun işi təlqinetmə yox, həqiqəti öyrənməkdir. Mövzuda yenilik ondan ibarətdir ki, dini, bütövlüklə, nə ehkam kimi qəbul etmək, nə də inkar etmək olar, hər iki prinsip birtərəflidir.

***Açar sözlər:*** iradə, Həqiqət, metafizika, təsəvvür, idrak, tanrıyaqovuşma, pessimist, optimist, obyektiv, subyektiv

## Giriş

Məqalənin yazılmasında məqsəd dini fəlsəfə ilə müqayisə, həmçinin, dini fəlsəfəyə, fəlsəfəni dinə əngəl hesab edənlərin, yaxud dini fəlsəfədən, fəlsəfəni dindən uzaq tutanların dünya görüşünə üçüncü şəxs olaraq fikir sərgiləmək, dinin fəlsəfə ilə paralel, yaxud qarşılıqlı şəkildə müqayisəsini özəl variantda oxucularla bölüşməkdir. Hədəf bəşəriyyətin xilasını dini inkar etməkdə görənlərin və yaxud din adına törədilən ayrı-ayrı cinayət tərkibli əməllərin dinə yox, insanlara aid olduğunu iddia edənlərin fikirlərinə, optimist din və ya pessimist fəlsəfə kimi çağırışlara yeni münasibət bildirməkdir.

Məqalə düşünməyi bacaran hər kəs üçün nəzərdə tutulmuşdur; din və fəlsəfə mövzusunda bəzi qarşılıqlı ittihamların epizodik araşdırılması, o cümlədən, dini, yaxud ladini fəlsəfənin mahiyyət baxımından eyniliyi, fəlsəfənin ancaq dinin təcrübəyə əsaslanan mərhələsilə müəyyən ziddiyyətlər təşkil etdiyinə dair fikirlər üzərində qurulmuşdur.

Ümidverici hal o hesab oluna bilər ki, mövzu ilə yaxından tanış olub söylənənləri uyğun müstəvidə dərk etməyə çalışan hər hansı oxucu öz subyektivliyindən irəli gələn bir çox sualın təsir dairəsindən xilas olmağı öyrənə biləcək.

Nə qədər ki, insanlar arasında kateqoriya, o cümlədən, düşüncə tərzi arasında fərq var, bu problem həmişə aktualdır və aktual olaraq da qalacaq.

Dünya, kimin onu necə adlandırmasından asılı olmayaraq, ilahi iradənin, yaxud iradənin gücüylə idarə olunur, əlbəttə, söhbət o idarəetmədən gedir ki, insani müdaxilədən azaddır.

**Fəlsəfənin və dinin məqsədi**

Qeyd etdiyimiz kimi Yer kürəsində yaşayan, eyni zamanda düşünməyi bacaran hər kəs anlayır ki, dünya gözəgörünməyən iradi qüvvə tərəfindən idarə olunur və bu qüvvə fəlsəfənin, dini fəlsəfənin öyrənməyə çalışdığı yeganə Həqiqətdir, o cümlədən, bu yeganə Həqiqət fərqli fəlsəfələrdə "bir-birinin dilini bilməyən çoxbaxşlı əjdaha" [1, s. 147 misalı müxtəlif adlar altında özünü büruzə verir. Bu barədə A. Şopenhauer deyir: "Həqiqətin gücü də bundadır: onun qələbəsi çətin və əziyyətlidir, lakin bir dəfə qazanıldıqda, bir daha əldən verilməz". [1, s. 59]

Dində yeganə Həqiqət Allahdır və filosoflar yəqin bilirlər ki, bu Həqiqətin mahiyyətinə tam olaraq varmaq qeyri-mümkündür; məhz fəlsəfənin nail olduğu, dinin qovuşmaq istədiyi, yaxud qovuşduğu məqam tək olan Həqiqətin – Allahın dərk olunmazlığını dərk etmək xüsusiyyətilə tamamlanır, yəni din də, fəlsəfə də, olsa-olsa, tək olan yaradıcı qüvvəni tanımanın sərhədlərinə yaxınlaşa bilərlər. Artur Şopenhauer öz fəlsəfi nəzəriyyəsində **iradə** adlandırdığı yeganə hakim qüvvənin özündən yox, bütün xassə və xüsusiyyətlərindən söz açdığı kimi, din də, eynən məhəbbət haqqında söylədiklərimizə oxşar olaraq, uzun-uzadı Allahın keyfiyyətlərindən bəhs edir, lakin təsvirini verməkdə çətinlik çəkir.

Mənsur Həllac yolçuluğunun sonu – Tanrıya qovuşma məhz Ona qovuşmağın mümkün olmadığı barədə biliklərin əldə olunma səviyyəsinə deyilir. Həm dinin, həm də fəlsəfənin inkişaf etməsinə səbəb **Həqiqətin** gizləndiyi aləmə canatmadır və hər kəs bu **Həqiqətə** yaxınlaşa bildiyi qədər xoşbəxt olur. Bəlkə bir gün din də, fəlsəfə də bu gizlilik pərdəsini qaldırmağa müvəffəq olacaq, lakin hə min gün, yəqin ki, bu dünyanın axırı gəlməlidir. Fikrimizin təsdiqi kimi "Nəhcul-bəlağə"dən misal gətirdiyimiz doxsan üçüncü xütbəyə müraciət edək: "Hər şeydən üstün olan Allahdır, uca hümmətlər belə, onu dərk edə bilməz və zəkalı insanların zirəkliyi ona çatmaz. Zatının həqiqətinin əslini başa düşməzlər, çünki müəyyən bir hədlə məhdudlaşmır ki, onu dərk etmək mümkün olsun. Ən əvvəldir və onun üçün son yoxdur, deməli axırına çatmaq da yoxdur". [ 2]

Fəlsəfi idrak fərdiliyin aradan qaldırılması yolu ilə nəyə qovuşursa, Allaha gedən yolun sonu da həmin məqama yetişmə kimi nəzərdən keçirilməlidir, çünki hər iki yolun yolçuları filosoflardır. Əslində, bu yollar arasında nəzərə çarpan fərq yoxdur; yolçular fərdlər deyil, amma yollar fərdi, məqsəd eyni: insan və Həqiqətin dərk olunması, nəticə də eynidir.

İlk din, yaxud fəlsəfə insanın bioliji varlıq qılafından çıxmaq ehtiyacından əmələ gəlmişdir, amma birinciyə mənəviyyatın doldurulması, ikinciyə zehnin işıqlandırılması istəyi səbəb olmuşdur; belə ki, dinin məkanı ürək, fəlsəfənin ki, zəkadır. Din o zaman müqəddəslik statusu qazanır ki, fəlsəfə ilə birləşir. Fəlsəfənin yolu alfadan omeqaya kimidir və kamil din də öz fəaliyyətini bu istiqamətdə qurmalıdır. Fəlsəfi yol fərdiyin dəf olunması üçün insandan xüsusi istedad tələb edir, amma din hamı üçündür; o, işinə başlamaqdan ötrü insani üstünlüyün ali dərəcəsinə can atmır, əlbəttə ki, müəyyən

intervalda.

Fəlsəfənin məqsədi öyrənmək, dinin vəzifəsi öyrətməkdir. Əgər din tamam və ya qismən dərk olunmuş ilahi iradənin uyğun pillələrdə obyektivliyini əks etdirmirsə, qanuna bənzəyir.

Keçici, yaranan və əmələ gələn hər şeyin köhnəlib-qocalıb-öldüyü dünyada təzələnmə ağacı həmişə yaşıl qaldığına, yaradanın emanasiyası əbədi və tükənməz, elçilərin vasitəçiliyi göz önündə olduğuna görə, varlıqlar yenisilə əvəz olunduğu kimi, dini hökmlər də ilahi iradə ilə ziddiyyət təşkil etmədən təşəkküldə olmalıdır.

Varlığın iç: fəlsəfə, dini fəlsəfə və çöl: din kimi tərəfləri, yəni zahiri görünüşü və daxili mahiyyəti var. Şair, rəssam, heykəltəraş, ssenarist, əsasən, hadisələrin çöl təsvirini ötürməyə çalışır, amma fəlsəfə mahiyyəti öyrənir. Istənilən sənət əsəri o vaxt ölməzlik qazanır ki, ayrıca şeylərin adi idrakından ideyanın idrakına keçid mərhələsi baş verir. Hər hansı dinin mahiyyətinə ancaq fəlsəfi yolla varmaq mümkündür, deməli mahiyyət mənada həm dini, həm ladini fəlsəfə eyni yolla irəliləyir.

Dinin kilsə, yaxud məscid səviyyəsində təbliğinə gəldikdə isə xətalar və yanlışlıqların meydana çıxması labüddür. Çünki fərdiliyini yox etməyən insan ilahi iradənin məziyyətlərini ehtiva edən tezliyə uyğun gəlməyə bilər, lakin vasitəçiliyin bu kimi təhriflərlə səciyyələnən fəaliyyətini bütövlüklə dinin ayağına yazmaq olmaz.

Fəlsəfə ilə dinin insana təsir troyektoriyası üst-üstə düşmür; birinci, yuxarıdan aşağı, ikinci, əks-meyillidir. Başqa sözlə, insan fəlsəfəni öyrənməyə təbiəti başa düşmək cazibəsi, yaxud filosofları oxumaq – dərk olunmuş ideyanın təkrar dərki [iterum discernentes, ifadə müəllifindir - G.K] ehtiyacı ilə başlayır, amma dinin başlanğıcı müqəddəs sadəlövhlüklərlə doludur.

Din xalqı yekdil vəhdətə çağıran yeganə qüvvədir, fəlsəfə seçilmiş insanlar arasında belə ayrı-seçkiliyə səbəb olur.

Qanun kimi tətbiq olunmayan dini hökmlərə tabe olmadan da həyatı yaşamaq olar, necə ki, dini qanundan uzaq tutan ölkələrin vətəndaşları yaşayır.

Din insanla Allah arasında uzun bir yoldur; hər kəs şüurunun hüdudları qədər irəli gedə bilər.

Dinə münasibətlə Allaha münasibət həm qismən, həm üst-üstə düşə, həm də düşməyə bilər və buna səbəb, peyğəmbərlər istisna olmaqla, Allahın yerdəki vasitəçiləridir.

Bütün dövrlərdə dinin əleyhinə niyyətlərini açıq-aşkar öz yazılarında işıqlandırmaqdan çəkinməyən çoxlu sayda ziyalı – alim, şair və yazıçılar mövcud olmuşlar ki, onlar bəşəriyyətin, ayrı-ayrı xalqların, millətlərin xilasını ibadətdən uzaqlaşmaqda görüblər, lakin siyasətçilərin nifaq məqsədilə, yaxud öz çirkin əməllərini həyata keçirməkdən ötrü mahiyyətə xələl gətirmək istədikləri bəzi naqisliklərin köklü səbəblərini araşdırmadan belə nəticəyə gəlmək düzgün deyil. Axı insan-din bağlılığının təməlini mənəvi ehtiyac təşkil edir. Bu belə olmasaydı, doxsan yaşlı valideynimizin həyatda qalması üçün əlimizdən gələni əsirgəyər, ünsiyyətindən zövq almazdıq, axı biz onlara da ruhən pənah aparırıq.

Dinə qarşı çıxırlar, lakin din irsən qəbul olunur, çünki hələ dünyada dövlət, fəlsəfə olmayanda o var idi və dünyaya göz açan insan – varlığın ilk tanıdığı böyük isim Allah kəlməsidir. Misal üçün Suriyada güllə yarası almış üç yaşlı uşağın sonuncu – hamsını Allaha deyəcəyəm cümləsini _xatırlayaq. [3] Elə buna görə də dini haqlı, ya haqsız insanın həyatından çıxarmağa çalışanlar müsbət nəticə əldə edə bilmirlər.

Din adına ləkə sayıla biləcək bir çox hadisələr var ki, bununla əlaqədar bəzi din xadimləri məsuliyyəti öz üzərilərindən atsınlar deyə baş verənlərin din yox, insanlar tərəfindən törədildiyini iddia edirlər. Lakin heç kimə sirr deyil ki, dinin aparıcı qüvvəsi insandır və əgər insan yoxdursa, onun varlığını üç hərfdən ibarət mahiyyəti olmayan bir

söz təşkil edər. Deməli mülahizədən belə nəticə əldə etmək olar ki, hər hansı şahın zamanında baş verən insanlığa zidd hadisə dövlətə, hökumətə yox, ancaq hökmdarın özünə aid edilməlidir və din adına baş verən istənilən hadisəyə görə məsuliyyəti məhz bu mənada insan daşıyır.

Din ilkin səviyyəsində ehkam kimi səsləndirilir, böyük hiss və həqiqətə yaxınlaşma həyəcanı ancaq onun fəlsəfəsilə vəhdətdə olduğumuz anlarda baş verir. Yəqin ki, Artur Şopenhaueri oxumaq istəyən hər kəs paralel olaraq vedaları, upanişadaları, sufiləri də oxumalıdır.

Fəlsəfə işıqlanmaya can atmadır; əzabdan xilas olmağın yeganə yolunu Qautman Budda [4] işıqlanmada görür, deməli işıqlanmaya xidmət göstərən din, ya fəlsəfə ilə üst-üstə düşməli, ya da onun tərkib hissəsinə çevrilməlidir.

Mövlana deyir: "Bu dünya zindandır, biz də zindandakılar... Qumaş, gümüş, oğul, qadın dünya deyil, dünya Allahdan xəbərsiz olmaqdır... Gəmiyə dolan su gəmini batırır, lakin altında qalan onu üzdürür". [5 ]

Şopenhauer deyir: "Əzabkeş kömək üçün əbəs yerə tanrısına üz tutur, o, amansızcasına öz taleyinə qurban verilmişdir". [ 1, s. 467 ]

Əlbəttə, Mövlana gəmini üzdürən su deyəndə artıq bu dünyanı deyil, gerçəküstü – fövqəl dünyaya yüksəlməni, Şopenhauer isə, əksinə, gerçək dünyada baş verənləri nəzərdə tuturdu və zahiri fərqliliyə baxmayaraq, təbii ki, hər iki filosofun qənaəti eynidir.

Gəldiyimiz nəticəyə görə İbn Ərəbinin "Vəhdətül-vücud" nəzəriyyəsilə Artur Şopenhauerin ***İradə*** fəlsəfəsi arasında bir-birini tamamlayan məqamlar az deyil. Mövlananın "hər kəs yaradılışına görə xidmətə sahibdir" [6] fikri ilə Platon ideyaları – təbiətin bütün üzvi və qeyri-üzvi cisimlərinin müəyyən şəkilləri, ilkin, dəyişməz xassələrinin yerləşdiyi müvafiq pillələr eyni mahiyyəti paylaşmırmı? [1, s. 260] Platon deyir: "Heç vaxt üzə çıxmadan əbədi var olan və həmişə zühur edib yox olan nədir?" [1 s. 259], Mövlana buyurur: "Yoxluqdan meydana gələn göz, varlığı tamamilə yox gördü". [6 ]

Bütün **apriori** dərk olunan biliklərin təcrübəyə əsaslanan ayrılmaz xassəsi olur və əgər bu xassələrin sabitliyi pozularsa, biliyin doğruluğuna şübhə yaranar. Dörd fəsildən birində, məsələn, yayda qar yağarsa, fəslin nəzərdə tutulan mahiyyəti dəyişər, ya yayda qar yağmamalıdır, ya da fəslin adı əvvəl nəzərdə tutulandan fərqli məna kəsb etməlidir. Nə şəkildə uydururlar-uydursunlar, əzan səsinə neçə putluq dəyirman daşı fırlanmaz. Deməli din elmə, yaxud fəlsəfəyə qarşı çıxarsa, Allah-din qarşıdurması baş verər, yəni öz mahiyyəti ilə üz-üzə dayanar.

Apriori bilik təcrübəni inkar edəndə inamların soyqrımı başlayır, ona görə də, apriori dərk etdiyimiz Allahın əmr və göstərişləri movcud təcrübənin sərhədlərini aşmamalıdır, axı o sərhədləri də Allah müəyyənləşdirib. Məsələyə təcrübəni inkar etmək nöqteyi-nəzərindən yanaşmaq bizi o düşüncəyə gətirib çıxarar ki, guya Allahın işi-gücü nəsə yaratmaq və yaratdığını pozmaqdan ibarətdir. Deməli təcrübəyə zidd çıxan din məhz bu mənada fəlsəfənin yolunda əngəl olmağa başlayır. İstər din olsun, istər fəlsəfə, insan təcrübə vasitəsilə mənimsədiyi hər hansı həqiqəti, yaxud varlığın mahiyyətini təcrübəyə zidd üsullarla qavraya bilməz.

Gündə neçə-neçə qadın və kişinin, uşağın dünyadan köçməsinə şahidlik edən və bir gün özünün də öləcəyini yaxşı bilən insanın heç ölməyəcək kimi mal-pul, sərvət toplamaq hərisliyindən belə məlum olur ki, o, heç də ölümünü yaxınlıqda hiss etmir. Bu barədə ustadım A.Şopenhauerin açıqlaması belədir ki, insan ölümü şəxsi təcrübəsində yaşamadığına görə, nəzəri həqiqət kimi kənara qoyur və elə bu səbəbdən də özü gücdən düşüb yaşamaq istəməyənə qədər ölümü ağlına gətirmir. Deməli insanın öz əməlləri və insana aid bütün əməllərin mövcudluq qənaəti təcrübə vasitəsilə əldə olunur. [ 1, s. 433]

Din fəlsəfənin təməl daşıdır, çünki ilk yaranan birincidir, lakin din müxtəlif xalqlar arasında ayrı-seçkiliyə səbəb olur və yaxud başqa dinləri aşağılayırsa, təkamüldən yox, tənəzzüldən xəbər verir. Onu da qeyd eləyim ki, siyasətçilərin vasitəçiliyi olmasa, mahiyyətinin eyniliyi baxımından din dini, əlbəttə, aşağılamaz.

Din millətlərin ortaq məxrəcə gəldiyi yeganə kəsrdir ki, surətin, yaxud məxrəcin süni şəkildə böyüdülüb-kiçildilməsi kütləvi qırğınlara yol açır. Məsələn, hansı şəraitdə, hansı səbəbdən baş verməsinə baxmayaraq, "Varfolomey gecəsi" – 24 avqust 1572-ci il – din adına böyük ləkədir.

Din ancaq fəlsəfə ilə yox, tarix boyu öz daxilində, yəni batin əhli və zahir əhli təmsilçilərinin arasında da dartışmalara səbəb olmuşdur.

Bütün dinlərin yekdil fikirdə olduğu və Qurani-Kərimin ana xəttini təşkil edən bir ayə var: "Həqiqətən, Allah ehtiyacsızdır..." [7] İnsanın müqəddəsliyi Allahın nəhayətsiz müqəddəsliyinə nə yaxşı, nə pis mənada təsir göstərə bilməz, yəni insan insan üçündür; onun bütün yaxşı və pis əməllərinin gerçəkləşdiyi səhnə insani mövcüdatdır. Deməli müqəddəs insan anlayışı dində və fəlsəfədə fərqli yolçuluqlar hesabına əldə olunsa da, nəticə eynidir: mümkün qədər heç kimə, heç nəyə zərər verməmək hissinin formalaşması – ülvilik məqamı. Fəlsəfədə müqəddəslik anlayışı mütləqdir, dində isə bu məqam dini fəlsəfənin təcrübədən asılı olmayan nəzəriyyəsi hesabına əldə olunur. Qəbul edilən, yaxud edilməyən qaydaları ülvilik xatirinə bilərəkdən rədd etmək müqəddəs olmaq anlamına gəlməz, müqəddəslik ehtiyacı yox kimi qarşılamaq keyfiyyətidir, yəni müqəddəslik ehtiyacsızlıqdır, ehtiyacların bilərəkdən inkar edilməsi deyil. Mən bu barədə özümün "İdraki vəcd nədir?" adlı kitabımın 23-cü səhifəsində belə yazmışam: "Ülvilik məqamına yetişmək üçün az yemək, oyaq qalmaq vasitə ola bilməz, amma ülvilik hissi az yemək, oyaq qalmağa vasitəsiz vasitədir. Nədənsə bunların yerini dəyişik salırlar".

Söhbətin bu yerində F. Nitşeni xatırlamamaq mümkün deyil. Axı onun Allahı fövqəlinsandır. Əvvəlki abzastda qeyd etdiyimiz "insanın taleyi insanın əlindədir" fikrini əsas gətirsək, bəlkə də o, haqlıdır. Digər tərəfdən Allah öz "məkanını", "əhatə dairəsini" heç kəsə görə tərk etmir, Onun fəaliyyət "trayektoriyasını" dəyişmək, insana fiziki təsir göstərmək kimi imkanlarından söhbət açmaq gülməli olar. Deməli nəbatəti, heyvanlar aləmini, yaxud təbiət qüvvələrini nəzərə almasaq, dünyada baş verən bütün hadisələrin yeganə hərəkətverici qüvvəsi insandır. Çox hörmətli Nitşeyə istinadən onu da söyləyə bilərik ki, bəşəriyyətin xilaskarı, həqiqətən, istər din, dini, yaxud ladini fəlsəfə olsun, fövqəlinsan olmalıdır, lakin özü xilas olmaq istəməyən insanı təzyiq göstərmədən, zor tətbiq etmədən, yeri gəlmişkən, qanunlar həmin funksiyanı daha yaxşı yerinə yetirir, necə islah etmək olar? Onda belə bir sual ilə üz-üzə qalarıq: – Fövqəlinsanın xaotik hərəkətdə olan insanlar aləmini idarə etmək gücü varmı? – Nədənsə, güc deyəndə insanın ağlına ilk gələn silah olur, yəni silahı, ordusu, sərvəti varmı? Fövqəlinsan, olsa-olsa, dünyaya üstün düşüncə tərzi və mənəviyyat nöqteyi-nəzərindən "allahlıq" edə bilər, o da anlayan bəndələr üçün keçərlidir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, fəlsəfənin, o cümlədən, fövqəlinsanın silahı yoxdur, lakin din həmişə müsəlləhdir.

Fəlsəfə hansısa sirrə vaqif olmaq istəyindən başlayır, din isə əxlaq, davranış normasıdır və onun vəzifəsi insani keyfiyyətlər çoxluğunu böyüdüb təkmilləşdirmək işinə xidmət etməkdir. Din adamı hazır yolla irəliləyir, çətinlik təcrübədən asılı olmayan nəzəriyyə yaratmaq mərhələsində başlayır, lakin fəlsəfənin yolu birinci addımdan dərk olunmazlıqlarla doludur. Fəlsəfə qalın-qalın pərdələri qaldıra-qaldıra, daha doğrusu, qaldıra bildiyi qədər arxasında nəsə tapır, dinin pərdə qaldırmaq missiyası yoxdur.

Nəzərdən qaçırmayaq ki, fəlsəfə ilə dini fəlsəfə nəinki bir-birini tamamlayır, hətta musiqiyə münasibət məsələsində də eyni müstəvini paylaşırlar, lakin din fərqlidir.

Məqsədyönlü hökmlərə tabe olduğu və tənhalığı sevmədiyi üçün din azad deyil, amma fəlsəfə həmişə azaddır. Dində ən böyük azadlıq tək olan Allahın iradəsinə, fəlsəfədə isə mütləq ideyaların yeganə subyektinə aiddir. Görünür, Şopenhauerin "hər kəs təkliyi sevmirsə, eyni zamanda azadlığı da sevmir" [8] ifadəsi məhz bu mənada özünün əsl mahiyyətinə qovuşur.

Həqiqi din öz hökmlərinə qarşı çıxan ayrı-ayrı şəxsləri, fəlsəfədə belə çağırış yoxdur, məhv etmək missiyasından uzaq olmalıdır. Mənsuru dara çəkdilər, Brunonu yandırdılar, sinaqqoq Spinozanı lənətlədi, nəticə necə oldu? Əgər düşüncə tərzini öldürmək mümkün olsaydı, onda din bu mənada hökmən nəsə qazanardı, lakin birinci həmişə hər yerdə baş verdiyindən ayrı-ayrı şəxslərin ölümü ilə sona yetməz və heç bir din insanın dərk olunmuş azadlığını, hətta ölüm hökmü oxunmuş məhkuma aid olsa belə, əngəlləyə bilməz, çünki bu kimi azadlıqlar, əsasən, gözlə görünən əməllərdə zahirə çıxmır.

Filosofun, yaxud hər hansı din xadiminin ayrıca insanı olmur, insan insandır, sadəcə onun mürəkkəb xüsusiyyətlərini hər kəs öz düşüncəsinin sərhədlərinə görə araşdırır. Sapiens yarandığı ilk gündən dünyaya hansı iradə ilə təşrif gətiribsə, bu gün də odur, sivilizasiya insanın həyat tərzinə, yəni texniki inkişafına, elmi nailiyyətlərinə aiddir, düşüncə qabiliyyətinə yox. Bu mənada dinin payına daha çox məsuliyyət düşür, nəinki fəlsəfənin, lakin dinin pis əməllərin islahı tendensiyası insani hüquqların məhdudlaşdırılması hesabına olmamalıdır; balansın pozulması dinin bayağı hökmlərinə gətirib çıxarır.

**Din və fəlsəfə zehni fəaliyyət formaları kimi**

Din və fəlsəfə zehni fəaliyyətin müxtəlif formalarıdır; birinci, Allahla qaibanə ünsiyyətdə keçən həyatdır ki, xilasolmada insan mənəviyyatının şəxsi ehtiyaclar səviyyəsində ödənilməsi, bağlılığın davamlı və möhkəm olması, ruhi sakitliyin sabitliyi və zövqalma məqsədilədir, ikinci, mahiyyət etibarıyla hər hansı ali maraqdan qətiyyən asılı olmadan mütləq ideyalar əsasında varlığın dərk olunması işini tamamlamağa çalışır.

Din həmişə gələcəkdən bəhs edir, fəlsəfədə gələcək adında zaman yoxdur; birinci yanlışlığa yol verə bilər, çünki o daima təkamüldə olandır, ikinci ortaya alternativi olmayan kamil nəticə çıxarmalıdır. Elmin dinə bəlkə də, ehtiyacı yoxdur, amma fəlsəfəsiz heç bir kəşf, ixtira işıqlana bilməz. Albert Eynşteyn: "Dinsiz elm kor, elmsiz din topaldır"– söyləməklə, yəqin ki, fəlsəfəyə zidd çıxmayan, təcrübəni inkar etməyən dinin elm üçün gərəkli olduğunu nəzərdə tuturdu, yaxud da dini fəlsəfəni. [ 9, s. 199]

Zərdüştdən başlamış müasir günə kimi din insana əvəzsiz hədiyyə vəd etmir: "... son hesab günündə yalanpərəstlərə ən pis həyat və doğru tərəfdarlarına ən yaxşı yaşayış məskəni nəsib olacaqdır, Avesta". [10] Lakin fəlsəfənin məqsədi şirnikdirib hökm qəbul etdirmək yox, həqiqəti söyləməkdir, öyrənib-öyrənməmək isə birbaşa insanın özündən asılı məsələdir və fəlsəfi xoşbəxtlik təmənnasızdır, yəni dində xoşbəxtliyə səbəb istəklərin həyata keçməsi hesab edilirsə, fəlsəfi xoşbəxtlik ehtiyacsızlığın mümkün sərhədlərinə qovuşmaqla əldə olunur.

Din insana əvəzsiz hədiyyə vəd etmədiyi kimi insanlar da Allahı, əlbəttə, istisnayi halları nəzərə almasaq, təmənnasız sevmir, hətta onlar dinin, Tanrının ünvanına söylənmiş haşiyədən kənar nəsə eşitsələr, qulaqlarını əllərilə tutub uzaqlaşırlar ki, başlarına pis hadisə gələndə Ona yalvarmağa üzləri olsun. Dinin bəxş etdiyi xoşbəxtliyin müqabilində insanın qəbul etməli olduğu şərt bəzən öz iradəsilə ziddiyyət təşkil etdiyinə və bu mənada mahiyyət beyindən getdiyinə görə, yəqinliklə söyləmək olar ki, o, Yaradanı təmənnalı sevir; arzusuna qovuşan kimi Allahı unudur. Bu barədə Rabiə əl-Ədəviyyədən gətirdiyimiz misal yerinə düşər: "Məqsəd görünsün deyə cənnəti yandırıb, cəhənnəmi söndürmək

istəyirəm ki, bu yolu bağlayan iki pərdə aradan qalxsın, Tanrının qulları Ona ümid və qorxusuz qulluq etsinlər; əgər cənnət ümidi, cəhənnəm qorxusu olmasaydı, heç kim tanrıya baş əyib, itaət göstərməzdi". [12].

Mövzumuzun əhatə dairəsindən uzaqlaşmadan dinin, yaxud fəlsəfənin tam şəkildə izah edə bilməyəcəyi hadisələrdən birinə toxunaq. Məsələn, həyatımızda bəzən elə qəribəliklər baş verir ki, ilahi ədalətin hökmünə inanmamaq olmur. Bu arada məhşur "Nature non contristatur!" – "Təbiət kədərlənmir" [ 1, s. 429] kəlamı yada düşür və belə sual doğurur: "Əgər təbiət kədərlənmirsə, bəs onda kədərlənən kimdir və ilahi ədalət hansı qüvvənin hökmü ilə baş verir?" Dünyanın ilahi iradə tərəfindən idarə olunmasını qəbul edən hər kəs belə düşünür ki, ilahi ədalət ilahi iradənin müvafiq təsirinin nəticəsidir. Onda Şopenhauerin fəlsəfi nəzəriyyəsinə görə, kor iradə tərəfindən idarə olunan dünyada ilahi ədalətdən söhbət açmaq düzgün olmaz və əgər özünü rədd etmiş, yaxud etməmiş iradə biz özümüzüksə, ilahi ədalətin "bir iradə olan insan"la əlaqəsi nədən ibarətdir? İlahi ədalət anlayışının mövcudluğunu ancaq və ancaq "Qurani-Kərim" və onunla həmfikir olan ayrı dinlərin təqdimatında Allahın xüsusiyyətlərinə aid etmək mümkün sayılsa da, o, həmişə, hər lazımi şəraitdə baş verməyən nadir hadisə, yaxud heç baş verməyəndir. Əgər ilahi ədalət həmişə, hər lazimi şəraitdə baş verməyən nadir hadisədirsə, onda başvermənin səbəbi insanın müqəddəsliyi, yaxud özünü rədd etmiş iradəsi olmaya? Və əgər ilahi iradənin baş verməsinə insanın müqəddəsliyi, yaxud özünü rədd etmiş iradəsi səbəb olmalıdırsa, onda başlanğıcını Muhiddin Ərəbinin "Vəhdətül-vücud" nəzəriyyəsindən götürən panteizm **kainatı bütövlükdə Tanrı kimi qəbul etmək: B.Spinoza, C.Bruno və təbiətdən yüksəkdə heç nə yoxdur: İ.S.Erougena** kimi hər iki variantında ilahi ədalət prinsipilə ziddiyyət təşkil etməməlidir.

Əlbəttə, insanın dünyanı sona kimi dərk etmək qabiliyyəti məhduddur və bəlkə də, bunun səbəbi ömrünün qısa olması – beynin ardıcıl düşünmə prosesinin kəsilməsi, subyektin materiyasının məhv olmasıdır.

Əgər ən böyük və ən ağır fəaliyyətin zehinlə əlaqəli olduğunu nəzərə alsaq, rahib olmaq, yaxud dindarlıq etmək insandan böyük zəhmət tələb etmir; fəlsəfə isə, əksinə, ən çox zəhmət tələb edən sahədir.

Beynin belə bir funksiyası var ki, təcrübədən asılı olmayan istənilən hadisəni dərrakə yolu ilə təhlil edə bilir, lakin din insana təhlil yox, qəbul olunmaq üçün təqdim olunub; onun yanından ötmək, yaxud başı üzərindən o yan-bu yana adlamaq caiz olmadığına görə, düşüncəni əngəlləyir.

Əsrlər boyu dini hökmlər insanın tərbiyəsi uğrunda mübarizə aparırkən, mövcud müstəvidə nəticənin necə olması hər bir dərrakəli oxucu üçün işıq kimi aydındır. Öz yoluna düşünülmüş deyil də, diktə ilə davam edən insan bu yolda həmişə büdrəyə bilər, davametmə prosesi qarşıya daha güclü "diktator" – diktə edən çıxana qədərdir.

Əksər dinlər, əsasən, optimizmi təbliğ etsələr də, filosoflar arasında pessimist kimi tanınanlar az deyil. Dinə optimist nöqteyi-nəzərindən yanaşmaq bizdə təbii bir sual doğurur: – Insanın öz ölümünü hər an burnunun ucunda hiss etməsi pessimizm deyilmi? Ölümünü gözünün önünə gətirməyən insan heyvandır, çünki heyvan da ölməyənə qədər öləcəyini bilmir və o da məlumdur ki, axirətə inanan insanlar ölümü təbii hadisə kimi qarşıladıqlarına görə pessimist olmurlar, lakin axirətə inanıb-inanmamaq hər kəsin özündənmi asılı məsələdir? Yox, əgər söhbət pessimist filosoflardan düşər və bu filosofların başında Artur Şopenhauer durarsa, bu barədə söyləyəcəyim tək bir cümlə var: onun qəmli fəlsəfəsi elə sevinc gətirir ki... Şopenhauer necə pessimist filosofdur ki, ölümün ən nikbin metafizikasını yaradıb?! Onun şah əsəri sayılan «Dünya iradə və təsəvvür kimi» kitabından 54-cü paraqrafa istinadən aşağıdakı bir neçə cümləni arakəsmələrlə xatırlatmağı

özümə borc bilirəm: "... atılmış materiyaya görə göz yaşı axıtmayacağımıza oxşar olaraq... bədənimizin materiyasının saxlanılmasını tələb etmək o qədər məqsədəuyğun deyil, çünki bu materiya daim yenisilə əvəz olunur. Bədənlə bağlı olan fərdi şüura qaldıqda isə yuxu onu hər gün tamamilə dayandırır. Dərin yuxu davam etdiyi müddətcə ölümdən heç nə ilə fərqlənmir, donmuş adamlarda olduğu kimi o, tədricən ölümə də keçə bilir. Ölüm fərdiliyi unutduran yuxudur, çox güman ki, o, başqa şəkildə yenə oyanır və yaxud heç yuxuya getməmişdi də". [ 1, s. 430] Göründüyü kimi fəlsəfə ilə din arasında optimist, pessimist kimi sərhədlər yoxdur və mənim bu barədə fikrim belədir: ***"Pessimizm, yaxud optimizm məqsədli arzuetmə məsələsi olduğu üçün fəlsəfəyə aid mövzu deyil, çünki sonuncunun işi təlqinetmə yox, həqiqəti öyrənməkdir".***

Söhbətin bu yerində onu da qeyd etmək yerinə düşər ki, fəlsəfə ilə əlaqəsi olmayan, lakin fəlsəfə adına yazılmış... yazılacaq qalın-qalın kitablar da az deyil...

Əgər din bəla hesab olunsaydı, çox ciddi bəla olardı, çünki o, insanı etnik kimliyindən qoparır; istənilən dində ümmət anlayışı ilkin şərtdir və insanın öz dininə sadiqliyi etnik kimliyin yox edilməsilə xarakterizə olunur. Bəs fəlsəfə? Fəlsəfə də belədir: fərdiliyini yox etmiş subyekt, yaxud dahi üçün, sadəcə, insan amili – bəşəriyyət ideyası var; ziddiyyət ondan ibarətdir ki, dində kütləvilik, fəlsəfədə öz cəminə qovuşmuş təklik hökm sürür.

Allahı dərk etmədən sevməyin özü də bütpərəstlik kimi dəyərləndirilməlidir, axı əksəriyyət Ona arzularını gerçəkləşdirmək üçün yalvarır. Deməli din dar günün mənəvi yoldaşıdır, hətta fəlsəfə də belədir, fərq ondadır ki, birincidə özünüaldatma, ikincidə özünüdərk hadisəsi baş verir. Əgər özünü dərketmə yalnız seçilmiş insanların qismətinə düşürsə, deməli seçilməmişlərin üz tutacaqları yeganə məbəd Dindir!

**Nəticə**

Dahi alman filosofu A. Şopehhauer insanları üç kateqoriyaya ayırır və birincilik o qrupun payına düşür ki, başqaları ilə ünsiyyət qurmadan özlərini təsəvvür edə bilmirlər, lakin ikincilər öz daxili zənginlikləri hesabına gərəksiz əlaqələrdən aralı dayansalar da, mövzu dairəsində həmsöhbət olmaqdan çəkinmirlər. Üçüncülər isə prinsip etibarı ilə hər cür ünsiyyəti inkar edənlərdir: dahilər. [11]

Şopenhauerin "Parerqa and Paralipomena" – "Əlavələr və xətalar" adlı kitabından din haqqında yazılan on dördüncü başlığın elə ilk səhifəsində oxuyuruq: "... Allahın şəxsiyyət və səbəbiyyət kimi iki soyundurula bilməyən geyimi – ayrılmaz xüsusiyyəti var ki, bunlarsız onun haqqında nəsə danışmaq mümkün olsa da, özünü təsəvvür etmək imkan daxilində deyil... və bu hissi, müvəqqəti, yalnız düşüncədə mövcud olan dünyada, şübhəsiz, şəxsiyyət və səbəbiyyət, hətta sonunculara ehtiyac var. Lakin ali şüur məni elə bir dünyaya yüksəldir ki, burada artıq nə şəxsiyyət, səbəbiyyət, nə də subyekt, obyekt mövcuddur. Mənim ümid və inamım onunla sonuclanır ki, bu yüksək şüur tək olan varlıqdır və bu nöqteyi-nəzərə istinadən düşünürəm ki, Allah yoxdur. Əgər "allah" ifadəsindən məhz bu yüksək şüurun təyinatı, yaxud buna bənzər nəyisə xüsusiləşdirməyi və adlandırmağı bacarmadıqları üçün simvolik olaraq istifadə etmək istəyirlərsə, buyursunlar, amma, zənnimcə, filosflar arasında yox".

Məqalədə Artur Şopenhauerin hər iki fikrinə münasibət bildirilib və qeyd olunub ki, əgər fərdiliyin yox edilməsi hesabına əldə olunan bu ali şüur üçüncülərin – dahilər və dahilik həddinə qədər ilhamlanmış şəxslərin nail olduqları səmasız yüksəklikdirsə, onda birinci və ikinci kateqoriyadan olan insanların mənəvi ehtiyacını məhz din ödəyə bilər.

Yazının xarakterik cəhətlərindən biri də, optimist din, yaxud pessimist fəlsəfə kimi fikirlərə aydınlıq gətirərək onlar arasında sərhədlərin olmadığı qənaətinin əldə edilməsi,

düşüncə tərzini öldürmək mümkün olmadığı halda, düşüncə tərzinə görə ayrı-ayrı adamların öldürülməsinə rəvac verməyin yanlış qərarlar kontekstində nəzərdən keçirilməsidir. Məsələn: Mənsuru dara çəkdilər, Brunonu yandırdılar, sinaqqoq Spinozanı lənətlədi, nəticə necə oldu?

**İstifadə edilmiş ədəbiyyat:**


1. Şopenhauer A . Dünya iradə və təsəvvür kimi. http://www.kitabxana.net/files/books/file/1468348403.pdf
2. Həzrət Əli. Nəhcul-bəlağə. 93-cü xütbə. *www.az.islamic-sources.com download nehcul-belaqe-3*
3. http://www.cumhuriyyet.net/sonxeber/3331-suriyali-ushagin-shok-sozleri.html
4. https://az.wikipedia.org/wiki/Qautama_Budda
5. Mövlana .Məsnəvi, I cild, 982, 983, 985
6. Mövlana. Məsnəvi. VI cild,https://www.idefix.com/Kitap/Mesnevi-6-Cilt-Takim/Mevlana-Celaleddin-i-Rumi/Din-Mitoloji/Tasavvuf/urunno=0000000246213
7. Qurani-Kərim. Bakı, 1995. Həcc surəsi, 64-cü ayə
8. http://resfeber.ru/20-udivitelnyh-tsitat-artura-shopengauera-ob-odinochestve-i-svobode/
9. Eynşteyn A. Sitatlar və aforizmlər. Bakı, 2011
10. Avesta http://www.kitabxana.net/files/books/file/1449856361.pdf
11. ru-philosobhu.livejournal.com/294477html
12. V. Məmmədəliyev. Sufilərin qadın piri: Rabiə Ədəviyyə s. 10 http://isamveri.org/pdfdrg/D02632/2016_26/2016_26_memmedeliyev_memmedeliyevA.pdf


**Гойарчин Керимли**

## РЕЛИГИЯ И ФИЛОСОФИЯ: ЭПИЗОДИЧЕСКИЙ ВЗГЛЯД


***Резюме***

История философии столь же древняя, как и история религии, но фундаментальные или необоснованные конфликты между этими двумя процессами недалеки от настоящего. Хотя существующая идеологическая борьба в серии отличается, она всегда формирует новый образ мышления. Одна из основных причин сохранения этих противоречий заключается в том, что это не вопрос цели, а целенаправленный подход, и в этом смысле внимание на сущность должно всегда рассматриваться как важный фактор.

***Цель*** **-** проанализировать определенные представления о религии и философии, выразить разные взгляды, придерживаться принципа соблюдения сущность сущности.

***Методология*** **-** сравнительные исследования и системный анализ

***Результат*** **-** между философией и религией нет пессимистических, оптимистических границ; пессимизм или оптимизм - это не вопрос философии, потому что это вопрос желания, потому что последнее - учить правду, а не беспокоить. Новизна в предмете состоит в том, что религия совершенно неприемлема и не может быть ни отвергнута, ни опровергнута.


***Ключевые слова:*** воля, истина, метафизика, воображение, познание, божественность, пессимист, оптимист, объективность, субъективность

**Goyarchin Karimli**

## RELIGION AND PHILOSOPHY: AN EPISODIC VIEW

***Summary***

The history of philosophy is as old as the history of religion, but the fundamental or unfounded conflicts between these two processes are not far from the present. Although the existing ideological struggle in the series is different, it always forms a new way of thinking and a new way of thinking. One of the main reasons for the persistence of these contradictions is that it is not a matter of purpose but of a purposeful approach, and in this sense the focus of attention must always be considered as an important factor.

***Purpose* -** to analyze certain ideas about religion and philosophy, to express different views, to adhere to the principle of adherence to the essence of the essence.

***Methodology* -** comparative research and systematic analysis

***Findins* -** There are no pessimistic, optimistic boundaries between philosophy and religion; pessimism or optimism is not a matter of philosophy because it is a matter of desire, because the latter is to learn the truth, not to be disturbed. The novelty in the subject is that religion is wholly unacceptable and can be neither rejected nor denied.

***Keywords*:** Will, Truth, Metaphysics, Imagination, Cognition, Divinity, Pessimist, Optimist, Objective, Subjective

**UOT - 316**

**Айгюн Гусейнова**
***Бакинский Государственный Университет,***
***Докторант***
*mühasib_aygun@mail.ru*

# К ВОПРОСУ О ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКЕ В СОЦИАЛЬНО-КУЛЬТУРНОЙ СФЕРЕ

Социокультурная сфера – это, по сути, сфера, которая служит удовлетворению социальных потребностей. Целью и функцией социально-культурной сферы является удовлетворение потребностей людей и их организация. Каждый сектор услуг имеет свои собственные, специфические для ресурса возможности. Мобилизация этих возможностей является ключевой задачей управления. Таким образом, цель управления состоит в том, чтобы создать наиболее эффективную и действенную форму действий в рамках существующих возможностей.

***Цель*** - Анализ государственной политики в социально-культурной сфере в Азербайджане

***Методология*** -Функциональный анализ

***Результат*** - В статье показывается, что государство при осуществлении культурной политики должно отказаться от остаточного принципа финансирования и следовать принципу инвестиционных вложений в социально-культурной сфере.

***Ключевые слова:*** социокультурная сфера, государственная политика, бюджет, государственное управление, инновация, инфраструктура.

## Введение

Важным инструментом управления социально-культурной сферой является культурная политика государства. Существует три типа культурной политики – патерналистская, популистская и социодинамическая. В их основе лежит вопрос степени влияния государства на реализацию культурной политики, что, в свою очередь, зависит от уровня развитости общественных отношений в самом государстве. При патерналистской политике право и основные каналы распространения культурных ценностей принадлежат определенной партии, религиозному течению или государству в целом; под популистской («демагогической») политикой понимается максимальное удовлетворение культурных потребностей наибольшего числа людей; наконец, социодинамическую политику можно понять как политику, которая пытается соответствовать непрерывному процессу изменения культуры. Социодинамическая культурная политика может иметь два направления: прогрессивное и консервативное. В первом случае субъект такой политики стремится ускорить, во втором - наоборот - замедлить ход эволюции культуры.

Преобладание в Азербайджане патерналистского типа культурной политики обусловлено сложившейся ситуацией, недостаточным уровнем развития гражданского общества. В современных условиях большое значение имеет вопрос обновления целей культурной политики, отказа от ее унификации и содействия процессу

разнообразия культуры, учета культурных интересов представителей различных национальностей, культурных меньшинств, возрастных категорий.

При разработке культурной политики необходимо отказаться от остаточного принципа финансирования культуры и следовать принципу инвестиционных вложений в социально-культурной сфере, способствовать использованию ее возможностей для глубокой социальной и экономической интеграции в стране. Главными направлениями реализации целей культурной политики могут также стать децентрализация власти; установление четких стандартов на культурное обслуживание населения; формирование системы социальных заказов (форма частно-государственного предпринимательства); конкуренция и разрушение устоев монополизма со стороны государственных структур, развития системы партнерских отношений с некоммерческим и бизнес-секторами; активное использование эффективных социальных технологий, маркетинговых коммуникаций для практической реализации целей культурной политики.

**Технологии как средства оптимизации управления**

Для решения задач культурной политики на уровне практического действия имеют большое значение технологии как средства оптимизации управления и выработки рациональной модели управления социально-культурной сферы. Применение технологий связано с разработкой определенных правил и использованием эффективных методов воздействия на соответствующие социальные процессы - решения задач управления по результатам, рационализации эффективности «затрат» при условии сокращения бюджетных расходов, развития процедур тщательной проработки и экспертизы конкретных государственных программ и проектов, составляющих основное содержание «пакета нового государственного менеджмента».

Для устранения институциональных препятствий на пути привлечения негосударственных структур к участию в финансировании деятельности социально-культурных учреждений, следует принять Закон о меценатстве, найти гибкий подход к нормам законодательства, запрещающим приватизацию государственных и муниципальных социокультурных объектов. Следует создавать более широкие возможности для правового обеспечения новых форм взаимодействия трех секторов общества в процессе организации социальнокультурной деятельности - государства, некоммерческого (негосударственного) и коммерческого секторов.

Следует четко определить обязательства государства по обеспечению доступности культурных благ и сбалансировать эти обязательства с реальными финансовыми потоками. Обязательства должны быть специфицированы в нормативах и стандартах, определяющих перечни и объемы услуг, предоставляемых населению платно и бесплатно, и размеры затрат на них, гарантированные государством. Для рационального расходования государственных средств необходимо добиться "прозрачности" соответствующих финансовых потоков и экономической деятельности государственных и муниципальных некоммерческих организаций, осуществление таких мер, как введение системы национальных счетов в социально-культурных отраслях; установление конкурсного порядка закупки оборудования, расходных материалов и т.п., обязательность публикации всеми получателями государственных средств отчетов о расходовании этих средств и своих бюджетов.

Организационно-экономические механизмы управления социально-культурной сферой используются для решения проблем рациональной организации и распре-

деления финансовых и материальных ресурсов, приспособления системы к изменениям внутренней и внешней среды.

Применение в социально-культурной сфере современных и эффективных технологий управления и методов маркетинговой деятельности должно способствовать созданию необходимых условий для оптимального функционирования социально-культруной сферы в сложившейся ситуации.

В связи с тем, что Азербайданская Республика представляет собой социально направленное государство, государственное управление охватывает наряду с другими сферами ещё и социальную и культурную сферы. Государственная политика в социально-культруной сфере осуществляется непосредственно такими министерствами как: Министерство образования АР, Министерство здравоохранения РФ, Министерство труда и социальной защиты АР, Министерство молодёжи и спорта АР, Министерство культуры АР. В постановке и решении социально-культурных проблем необходимо в современной государственной культурной политике переходить к общественно-государственному партнѐрству, поскольку это способствует повышению уровня самоорганизации общества.

**Меры по активизации инновационной деятельности в сфере культуры**

На государственном уровне для осуществления мер по активизации инновационной деятельности в сфере культуры необходимо принятие мер, которые включают рационализацию взаимодействия элементов системы государственных инвестиций, налоговой и кредитной политики, внебюджетного финансирования. Совершенствованию инновационно-инвестиционных процессов в сфере культуры, а также расширению современной инновационной инфраструктуры будет способствовать развитие фондов поддержки НИОКР культурной отрасли, а также системы конкурсного отбора проектов.

Управление в социально-культурной сфере заключается, прежде всего, в создании экономических и организационных условий саморазвития социальнокультурной жизни. В азербайджанской действительности к традиционным требованиям гуманитарного и культурологического характера добавляются знания организации, маркетинга, технологии и финансового контроля.

Следует отметить, что предприятия и организации СКС в современной азербайджанской действительности вынуждены искать новые направления. Это обусловлено, в первую очередь, такими реалиями нашего общества, как рост конкуренции и снижение государственной финансовой поддержки. В связи с этим назрела необходимость на различных уровнях определения роли государственных органов управления, закрепления прав собственности, реформирования нормативно-правовой базы, создания социальных и рыночных институтов.

Одним из важных направлений государственной политики в СКС является создание условий для развития частного предпринимательства в сфере культуры посредством применения технологии социального заказа. Структура социального заказа позволит затронуть все основные направления сферы культуры, среди которых хотелось бы отметить музейное дело, кинематографию, музыкальное воспитание и т.д. В современных условиях со стороны государства при формировании эффективно функционирующего механизма управления процессом инновационного развития в социально-культурной сфере необходим комплексный подход. Данный подход должен способствовать взаимодействию субъектов хозяйствования сферы культуры, государственных органов управления на всех уровнях, банковских

структур, индивидуальных и институциональных инвесторов, населения, фондов. В результате чего будет достигнуто увеличение конкурентоспособности социально-культурной сферы, сформируются основы нового этапа инновационного развития культурной отрасли, а также ликвидируется общее научно-техническое отставание в социально-культурной сфере.

Эффективность партнерства в сфере культуры может быть достигнута в результате сотрудничества трех секторов финансирования социокультурной деятельности - государственного, коммерческого и общественного, каждый из которых имеет свои сильные и слабые стороны и определенные стимулы к такому сотрудничеству. Взаимодействие, в котором коммерческие организации и учреждения поддерживают культурные, образовательные, социальные проекты, улучшая свой имидж у населения и власти, а в социокультурной сфере сохраняются, распространяются и приумножаются культурные ценности, что способствует уменьшению социальной напряженности, - власть стимулирует эти процессы. В результате в таком взаимодействии заинтересованы все. При этом, если бюджетный тип финансирования ориентирован на удовлетворение социально-культурных потребностей и ценностей и поддержку социально незащищенных слоев населения, то рыночный - более подходит для удовлетворения индивидуальных культурных потребностей состоятельной части населения. В бюджетной системе финансирования государство получает прямую возможность контролировать культурные институты, тогда как контроль рыночной системы не является прямым, а осуществляется в том случае, когда возникают диспропорции между реализацией культурных продуктов и услуг и экономическим доходом от данных видов деятельности. Ни бюджетный, ни рыночный тип финансирования в полной мере не соответствует целям, которые определяются миссией культуры в современном обществе. Поэтому-то и возникает необходимость внедрения новых оригинальных решений, которые преодолели бы недостатки обоих типов и сохранили бы их положительные качества. Бюджетный тип более подходит для культурных институтов, выражающих общие национальные интересы.

Некоторые виды культурной деятельности, такие, например, как шоу-бизнес, издательское дело и т.д. потребителями которых являются отдельные категории людей, по своей природе ориентированы на рынок. Нельзя отрицать, что рынок имеет более разнообразный спектр культурных продуктов и услуг, который мог бы удовлетворить культурные интересы более широких слоев населения. В этом плане рынок является более разумной системой финансирования и более надежной, нежели финансирование из фондов и от частных спонсоров. Кроме того, такие механизмы экономики культуры, как благоприятная процентная и налоговая политика, - могли бы дать возможность рыночно ориентированным культурным структурам полнее удовлетворять культурные потребности основной массы населения, обеспечивая широкий ассортимент и качество продуктов и услуг. Недостаток средств в учреждениях культуры - проблема постоянная и мировая. Нехватка денег в культуре - проблема, конечно, серьезная, она влияет на качество и масштабы работы, моральное состояние коллектива, уровень зарплаты, техническое оснащение учреждений культуры и на многое другое, но все же она не является решающей, главенствующей, она не может парализовать окончательно деятельность учреждений культуры. Их спасают бюджетные деньги. Стремление получить дополнительные деньги от спонсоров - это не основная деятельность учреждений культуры, это - средство работать лучше, здесь деньги не являются самоцелью и смыслом жизни, они лишь дают дополнительный импульс развитию культуры. И, в связи с

этим, аккумулирование дополнительных финансовых средств на развитие социокультурной сферы является важным направлением в работе каждого учреждения культуры, что не всегда очевидно для возможных партнеров и инвесторов.

Недостаток ресурсов не позволяет учреждениям культуры успешно разрабатывать и реализовывать корпоративную стратегию, выполнять институциональные функции даже подчас в самых благоприятных внешних условиях. Роль ресурсов принципиально важна. Их стратегическое значение состоит в заключающихся в них возможностях разрабатывать оптимальную для субъекта стратегию, в принципиально возможном воздействии на внешнюю среду организации, в специфически стратегической постановке цели субъекта. Ресурсное обеспечение затрагивает все сферы деятельности учреждений сферы культуры и, естественно, всегда представляло собой объект управления. Однако, отставание теоретических разработок от практики управления на современном этапе объясняется стремительным появлением новых видов ресурсов, источников их формирования и способов оценки. Новые ресурсы требуют адекватных методов, технологий и правил ресурсного обеспечения деятельности учреждений культуры. Несмотря на свое первостепенное значение, ресурсное обеспечение не является целью деятельности учреждений культуры. Задача деятельности учреждений сферы культуры состоит в достижении наиболее значимых общественных или локальных результатов, к которым относится производство и воспроизводство культурного продукта при наименьших затратах.

Современная теория управления приходит к необходимости, во-первых, согласования показателей эффективности управления с показателями эффективности учреждений сферы культуры, которые должны выбираться в соответствии со следующими требованиями: они должны учитывать специфику деятельности учреждений данной группы и легко проверяемы с помощью данных учета. Количество показателей может быть произвольным, но они должны быть важны для целей сравнения и менеджмента учреждения культуры в целом. К базовым показателям эффективности работы учреждений культуры относятся: показатели объема работы (количество экскурсий, лекций, выставок, прирост читателей, количество кружков, коллективов, количество аттракционов и др.), показатели качества работы (отсутствие зафиксированных жалоб, количество постоянных посетителей, количество отчетных мероприятий и др.), показатели эффективности (выполнение финансового плана, доля самоокупаемости, количество читателей на 1 штатного работника, сумма доходов на 1 штатного работника и др.) Исходя из этого, считаем, что внедрение новых технологий управления ресурсами учреждения культуры необходимо сочетать с использованием уже существующих, скорректированных с учетом новых форм взаимоотношений между хозяйствующими субъектами.

Анализ существующих подходов показал, что к возможным источникам финансирования деятельности учреждений культуры относятся: использование резервных фондов и доходов от них, собственная коммерческая деятельность, самостоятельная предпринимательская, страховая деятельность в сфере культуры.

И наконец, традиционным внебюджетным источником финансирования в сфере культуры является собственная коммерческая деятельность учреждения культуры. Помимо традиционных платных культурных услуг, это могут быть и банковский депозит, и совместное использование помещений и пр. Более эффективно активное использование потенциала учреждений культуры для PR-деятельности фирм, участие в стимулировании продаж, рекламных акциях и т. п. Немалый результат может дать и самостоятельная предпринимательская деятельность,

доходы от которой могут идти на обеспечение основной деятельности организации или учреждения.

**Эффективность управления социокультурными процессами**

Без глубоких знаний и обобщений невозможно эффективное управление социокультурными процессами, определение оптимальных социальных альтернатив, предвидение возможных последствий от принятия тех или иных управленческих решений и их практической реализации. Управленческое решение имеет научно обоснованный характер, если оно продиктовано знанием внутренней сущности объекта управления, его особенностями, закономерностями функционирования и развития.

Государственное управление сферой культуры зачастую приводит не к тем результатам, которые ожидаются чиновниками, определяющими стратегию и тактику ее развития и членами социума. Это происходит потому, что в процессе принятия управленческих решений не всегда улавливаются исторические традиции и менталитет народа, поскольку каждый участник социокультурного процесса имеет свое видение, свои представления о дальнейшем развитии сферы культуры, удовлетворяет «свои» интересы и потребности, причем не только культурно-духовные. При этом, если официально декларируемые интересы известны многим участникам процесса, их считают общепризнанными и даже в какой-то мере обязательными, то реальные интересы, как правило, либо тщательно скрываются, либо не осознаются самими представителями этих групп.

Культура, как саморегулирующаяся сфера общественной жизни, имеет собственную логику развития и присущие только ей внутренние интенции. Культура «с одной стороны, является продуктом, а с другой - детерминантой систем человеческого социального взаимодействия». В связи с этим управление сферой культуры будет продуктивным до тех пор, пока оно не препятствует внутренней самореализации культурной жизни.

**Заключение**

Проблемы, требующие решения путем управленческого воздействия, возникают на всех этапах качественного движения социального объекта, каким является сфера культуры. Анализ состояния сферы культуры показывает, что наиболее важной из них является проблема нахождения оптимума в процессе социального взаимодействия между социальными институтами, социальными группами в процессе управления сферой культуры. Быстрота нахождения оптимума, его научность зависят от культуры управления, составляющей совокупность механизмов и методов управления, способствующих реализации управленческого действия для достижения целей функционирования системы с учетом социальной сущности управляемого объекта.

**Список использованной литературы:**

1. http://cheloveknauka.com/upravlenie-sferoy-kultury-kak-sotsiologicheskaya-problema#ixzz64Dz80NYc
2. http://cheloveknauka.com/upravlenie-sferoy-kultury-kak-sotsiologicheskaya-problema#ixzz64DzDuZo7
3. Заволодько А.С., Бреусова Е.А. Вопросы стратегического развития муниципального образования на применре г. Шахты, ростовская область. Естественно-гуманитарные

исследования 2015. №7 (1) с.32-38.
4. Бреусова Е.А., Загорулько А.В. Проблемы управления сферой культуры на современном этапе рыночных преобразований // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 2. – С. 571–575. – URL: http://e-koncept.ru/2016/46133.htm.)
5. http://cheloveknauka.com/upravlenie-sferoy-kultury-kak-sotsiologicheskaya-problema#ixzz64Dz80NYc
6. Курнышева И.А. Условия инновационного развития // Проблемы теории и практики управления. 2003. № 5. С. 9-18.

**Aygün Hüseynova**

## SOSİAL-MƏDƏNİ SAHƏDƏ DÖVLƏT SİYASƏTİ MƏSƏLƏSİ

### *Xülasə*

Sosial-mədəni sahələr öz mahiyyəti etibarilə sosial tələbatı ödəmək üçün fəaliyyət göstərən sahələrdir. Sosial-mədəni sahələrin məqsədi və vəzifəsi xalqın xidmət tələbatını ödəmək və onu təşkil etməkdən ibarətdir. Hər bir xidmət sahəsinin özünəməxsus obyektiv məqsədi, resursu-bütövlükdə müəyyən imkanları mövcuddur. Bu imkanların səfərbər olunub istifadə olunması idarəetmənin əsas vəzifəsidir. Beləliklə, idarəetmənin məqsədi mövcud imkanlar daxilində maksimum səmərəli, effektli fəaliyyət formasını təşkil etməkdən ibarətdir.

***Məqsəd* -** Azərbaycanda sosial-mədəni sahədə dövlət siyasətinin təhlili

***Metodologiya* -** funksional analiz

***Tədqiqatın nəticələri* -** Məqalədə göstərilir ki, dövlət mədəniyyət siyasətini həyata keçirərkən qalıq maliyyələşdirmə prinsipindən əl çəkməli və sosial-mədəni sahəyə investisiya qoyuluşu prinsipinə əməl etməlidir.

***Açar sözlər:*** sosial-mədəni sahə, dövlət siyasəti, büdcə, dövlət idarəçiliyi, innovasiya, infrastruktura.

**Aygun Huseynova**

## TO THE QUESTION OF STATE POLICY IN THE SOCIO-CULTURAL SPHERE

### *Summary*

Social-cultural areas are, in essense, functioning to meet social needs.The purpose and function of sosial and cultural spheres is to meet and organize the needs of the people. Each servise sector has its own unique objective, resource-specific capabilities. The mobilization of these opportunities is a key management task. Thus, the obyective of goverrnance is to create a maximally efficient, effective form of action within existing capacities.

***Purpose* -** Analysis of state policy in the socio-cultural sphere in Azerbaijan

***Methodology* -** Functional analysis

***Findings* -** The article shows that the state, when implementing a cultural policy, should abandon the residual principle of financing and follow the principle of investment in the socio-cultural sphere.

***Keywords***: socio-cultural sphere, state policy, budget, public administration, innovation, infrastructure.

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 332.142.4**

**Vilayət İsmayılov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.***
*ismaylov1953@mail.ru*

## KƏND TƏSƏRRÜFATI İSTEHSALINDA İQTİSADİ ARTIMIN PROQNOZLAŞDIRILMASI

*Məqalədə iqtisadi artım anlayışı, onun tipləri göstərilmiş, istehsal funksiyası və istehsalın iqtisadi artım proqnozunun təhlili verilmişdir. Həmçinin, istehsalın makroiqtisadi göstəriciləri qeyd edilmiş və ETT-nin müxtəlif tiplərinin iqtisadi artıma təsiri göstərilmişdir.*

*Təhlil əsasında müəyyən edilmişdir ki, kənd təsərrüfatında gözlənilən ümumi məhsulun həcmi 16,3% artacaq, ümumi gəlir isə11,3% azalacaqdır.*

***Məqsəd*** **-** Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun həcmi və əldə edilən gəlirin iqtisadi artımının müəyyənləşdirilməsi və proqnozlaşdırılması.

***Metodologiya*** **-** Tədqiqat işində statistika və ekonometrikanın modellərinin birliyindən ibarət istehsal funksiyaları aparatından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **-** Kənd təsərrüfatında ümumi məhsul istehsalı və gəlirin artım tempi əsasında ETT-nin təsirindən asılı gözlənilən proqnoz qiymətlər hesablanmışdır.

***Açar sözlər:*** iqtisadi artım, istehsal funksiyaları, amillər, proqnozlaşdırma

### Giriş

İqtisadi artım-qısa müddət ərzində istehsalın artma və azalma sürətini deyil, uzun müddət ərzində iqtisadi inkişafın parametrlərini nəzərə alaraq onun real həcminin dəyişməsi istiqamətini müəyyən edir. İqtisadi artım, insanların həyat səviyyəsinin yüksəldilməsinə imkan verən, kəmiyyətcə çox, keyfiyyətcə yaxşı mal, əmtəə və xidmətlərin istehsalıdır. Beləliklə, iqtisadi artım mahiyyətcə müəyyən müddətdə istehsal edilmiş ümumi milli məhsulun (xalis milli məhsulun) faizlə artımını və hər nəfərə düşən kəmiyyətini göstərir.

Ənənəvi olaraq iqtisadi artım istehsal miqyasının genişləndirilməsini, iqtisadi fəaliyyətin son nəticələrinin artımını əks etdirir. "İqtisadi artım"a nisbətən "iqtisadi inkişaf" daha geniş anlayışdır. İqtisadi inkişaf bazar iqtisadiyyatı üçün ənənəvi olan iqtisadi amillərin artımı ilə məhdudlaşmır, eyni zamanda təhlilə milli iqtisadiyyatın sosial, institutsional və siyasi strukturlarını da daxil edir. Adətən bu amillərin istifadəsi onların iqtisadi ölçmələrində yaranan problemlərlə qarşılaşır. BMT çərçivəsində göstəricilər yığımı işlənilmişdir ki, bu da inkişaf etmiş ölkələrin nisbətən sosial və iqtisadi inkişaf səviyyəsini kompleks xarakterizə etməyə imkan verir. Qeyd etmək lazımdır ki, iqtisadi artımın təhlili və proqnozlaşdırılmasında əsas məqsəd vaxt və ərazi tərtibatına görə iqtisadi inkişafın əsas tendensiyalarının xarakterinin müqayisəli qiymətləndirilməsidir [2, səh. 17].

### 1. İqtisadi artımı xarakterizə edən əlamətlər

İqtisadi artım resusların məhdudluğu probleminin həllinə imkan verir. Müasir dövrdə inkişafın aktuallığı təkcə məhdud qeyri-təkrar istehsal resurslarının deyil, eyni zamanda

ziyanın, təkrar istehsalın və istifadənin kompensasiyaya cəlb edilməsini təmin edir. İqtisadi fəaliyyətin son nəticəsi kimi əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul (ÜDM) göstəriciləri tətbiq edilir. İqtisadi artım yaradılmış məhsulun strukturu, onun cari istehlaka və yığıma görə bölüşdürülməsi nöqteyi nəzərindən təhlil edilir. Bu isə təkrar istehsal prosesinin tendensiyasını müəyyən edir. İqtisadi kateqoriya kimi iqtisadi artım əsasən aşağıdakı spesifik əlamətlərinə görə xarakterizə edilir:

- sintetik kateqoriya olmaqla, sosial-iqtisadi inkişafı əks etdirir;
- əmək, pul və əmtəə bazarlarının səmərəli fəaliyyətini xarakterizə edir;
- vaxta görə tendensiyanı əks etdirir.

İqtisadi artımın təhlilinin əsasında istehsal prosesinin aşağıdakı əsas amillərinin cəlbedilmə sxemi durur: əmək, kapital, təbii resurslar, intellekt və texnologiya. İstehsalın bazar şəraiti məcmu tələbin əmtəəyə təsirinin uçotunu tələb edir, belə ki, əmtəə bazarında tarazlıq əmək və kapital bazarlarının tarazlığından müəyyən edilir.

**2. İqtisadi artıma təsir göstərən amillərin qiymələndirilməsi**

İqtisadiyyatda qarşılıqlı əlaqənin empirik təhlili aləti kimi vaxt sıraları çıxış edir. Burada iqtisadi artım kriteriyasının, ona təsir edən amillərin qarşılıqlı münasibəti və onların balanslaşdırılmasının seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Formal olaraq bu halda işçi qüvvəsi və istehsal vasitələrinin müxtəlif kəmiyyətlərinin nisbətində eyni qiymət əldə edilə bilər. İstehsal amilləri və artım tempinin son nəticələrinin nisbətindən asılı olaraq geniş təkrar istehsalın və iqtisadi artımın tipi müəyyən edilir.

İqtisadi artıma təsir göstərən amillərin qiymələndirilməsində statistika və ekonometrikanın digər modellərinin birliyindən ibarət istehsal funksiyaları aparatından istifadə edilir. Makroiqtisadi istehsal funksiyası məcmu son nəticə **(Y)** ilə müxtəlif xərc növləri və ya istifadə edilən resursların həcmi arasındakı asılılığı ifadə edir. Konstruksiyasına görə istehsal funksiyası təbii olaraq qeyri-xətti reqressiya tənliyi şəklində təmsil olunur. İstehsal funksiyasının ən geniş yayılmış asılılığı **Kobba-Duqlas** tərəfindən verilmişdir:

$$\mathbf{Y_t=f(K_t\,,L_t)=AK_t^{\alpha}L_t^{\beta},} \quad (1)$$

burada: **A**-istehsalın səmərəliliyini xarakterizə edən əmsal;

**α və β**-kapitala **(K)** və əməyə **(L)** görə istehsalın elastikliyini ifadə edən əmsallar olub, son məhsulun artımında istehsal amillərinin rolunu və ya vahid məcmu gəlirdə müvafiq amilin payını əks etdirir.

**A** əmsalı istehsal amillərinin miqyasini (ölçüsünü) son nəticənin miqyasına gətirib çıxarır, eyni zamanda nəzərə alınmamış amillərin təsirini də əks etdirir. **α** əmsalı **L=const**. şərtində **K**–nın vahid artımına müvafiq gələn **Y**-in artımını, **β** əmsalı isə **K=const.** şərtində **L-in** vahid artımına müvafiq gələn **Y**-in artımını xarakterizə edir.

**α və β** əmsallarının cəmi iqtisadi artımın tipini müəyyən edir:

1. **α + β>1** şərti intensiv iqtisadi artıma uyğundur; **α > β** halında intensiv əməyə malik iqtisadi artıma, **α < β** halında intensiv fonda malik iqtisadi artıma nail olunur.
2. **α + β<1** şərti məhsul buraxılışının amillərin artımına nisbətən yavaş (tədricən) artımına, yəni iqtisadi artımın olmadığı halına uyğun gəlir.
3. **α + β=1** şərti ekstensiv iqtisadi artımı əks etdirir.

**3. Elmi-texniki tərəqqinin iqtisadi artıma təsiri**

Ekzogen (xarici) elmi-texniki tərəqqidə **(ETT)** istehsal funksiyası ümumi halda aşağıdakı şəkildə yazılır [1, səh. 220-225]:

$$\mathbf{Y=f(K, L, Z)}, \quad (2)$$

burada: **Z**-müəyyən texniki inkişafın səviyyəsini əks etdirən kəmiyyətdir.

(2) formulasını əks etdirən istehsal funksiyası vasitəsilə iqtisadi artımla elmi-texniki tərəqqi arasındakı asıllıq müəyyən edilir. Resursların istifadəsinin və müvafiq olaraq istehsal funksiyasının dəyişməsindən asılı olaraq elmi-texniki tərəqqinin **ekzogen** (xarici), **endogen** (daxili) və **neytral** tipləri fərqləndirilir.

**Ekzogen elmi-texniki tərəqqinin** iqtisadi artıma təsiri özünü istehsal fondlarının səmərəliliyinin yüksəldilməsində göstərir ki, bu da yeni növ avadanlıq və texnologiyaların yaradılması nəticəsində baş verir. Bu halda elmi-texniki tərəqqinin istehsal həcminə təsiri bir sıra amillərlə müəyyənləşdirilir ki, bunlara da əsas istehsal fondlarının artan strukturunu, kapital qoyuluşu yığımının həcmini aid etmək olar.

**Endogen elmi-texniki tərəqqi** resurslara xərclərin dəyişmədiyi halda iqtisadi artım prosesi ilə müəyyən edilir. Bu işçi heyətin ixtisasının yüksəldilməsi, mövcud avadanlıqlardan və digər resurslardan pasional, intensiv istifadə edilməsi hesabına baş verə bilər.

**Elmi-texniki tərəqqi o zaman neytral** tipdə olur ki, o, istehsal funksiyasının müəyyən parametrləri nisbətinin əhəmiyyətini dəyişə bilmir. Konkret parametrlərin nisbətinin dəyişməməsindən asılı olaraq Xiksə, Xarrorda və Solouya görə neytral elmi-texniki tərəqqinin üç tipi fərqləndirilir [4, səh. 279-325].

**Xiksə görə neytrallıq.** İqtisadi artımı tədqiq edən ingilis alimi C. Xiks elmi-texniki tərəqqinin neytrallığının qiymətləndirilməsini kapitalla əməyin birgə həddi normasının qeyd edilmiş fondla silahlanma anında vaxt keçdikcə dəyişməməsi şəraitini müəyyənləşdirmişdir. Bu zaman:

$$\frac{K}{L} = \mathbf{const}.\ \text{halında}\quad \mathbf{П_н} = \frac{\delta y / \delta к}{\delta y / \delta l} = \mathbf{const}\ \text{şərti ödənilir.}\ (3)$$

**Xarroda görə neytrallıq.** İngilis alimi Xarrod neytral elmi-texniki tərəqqini sabit fond verimi zamanı kapitalın məhdud məhsuldarlığının dəyişməz qalması kimi təklif etmişdir, yəni

$$\frac{Y}{K} = \mathbf{const.}\ \text{halında}\ \frac{\delta y}{\delta k} = \mathbf{const.}\quad (4)$$

**Solouya görə neytrallıq.** Amerika alimi P.Solou Xarroda görə elmi-texniki tərəqqinin neytrallıq inversiyasını təklif etmişdir. Solouya görə elmi-texniki tərəqqi o zaman neytral olur ki, sabit məhsuldarlıq zamanı məhdud məhsuldarlıq da sabit qalsın, yəni

$$\frac{Y}{L} = \mathbf{const}.\ \text{halında}\ \frac{\delta y}{\delta l} = \mathbf{const}.\quad (5)$$

**4. Kənd təsərrüfat məhsulu istehsalının artım tempinin proqnozlaşdırılması**

Qeyd etmək lazımdır ki, istənilən ölkədə olduğu kimi, Azərbaycanda da bütün növ məhsulların istehsalında iqtisadi artıma elmi-texniki tərəqqinin təsiri danılmazdır. Bu isə müvafiq olaraq kənd təsərrüfatının ümumi məhsul istehsalında elmi-texniki tərəqqinin iqtisadi artıma təsirində də özünü göstərir. Bu məqsədlə, kənd təsərrüfatının ümumi məhsulu **($x_1$)** və əldə edilən gəlirin **($x_2$)** artım tempinin **($\Delta x_1, \Delta x_2$)** proqnozlaşdırılması şərtini təhlil edilməsini vacib şətr hesab edirik və bu təhlilə lazım gələn göstəricilər cədvəl 1.-də verilir.

*Cədvəl 1*

**Ümumi məhsul və gəlirin artım tempinin proqnozlaşdırılması**

| Göstəricilər / İllər | Kənd təsərrüfatının ümumi məhsulu **($x_1$)**, milyon manat | Ümumi gəlir **($x_2$),** milyon manat | Artım tempi | |
|---|---|---|---|---|
| | | | Ümumi məhsul üzrə, **($\Delta$ $x_1$)** | Ümumi gəlir üzrə, **($\Delta$ $x_2$)** |
| 2010 | 187,694 | 71,604 | - | - |
| 2011 | 198,806 | 71,623 | 1,0592 | 1,0003 |
| 2012 | 263,180 | 86,045 | 1,3238 | 1,2014 |
| 2013 | 304,766 | 91,903 | 1,1630 | 1,0681 |
| 2014 | 359,315 | 102,723 | 1,1790 | 1,1177 |
| 2015 | 374,320 | 84,990 | 1,0450 | 0,8274 |
| 2016 | 408,714 | 119,130 | 1,9188 | 1,4017 |
| 2017 | 383,158 | 115,025 | 0,9375 | 0,9655 |
| Cəmi | | | 8,6263 | 7,5821 |
| Orta qiymət | | | 1,0783 | 0,9478 |
| Proqnoz qiymətlər | | | | |
| 2018 | 413,1593 | 109,0207 | | |
| 2019 | 455,5096 | 103,3298 | | |
| 2020 | 480,3930 | 97,9360 | | |

Qeyd: [5]–in məlumatları əsasında müəllif tərtib etmişdir.

Kənd təsərrüfatının ümumi məhsulunun **($x_1$)** orta artım tempini müəyyən etdikdən sonra, həmin göstəricinin üç illik dövr üçün proqnozlaşdırılan qiymətlərini aşağıdakı kimi hesablamaq mümkündür:

**2018-ci il** üçün ümumi məhsulun proqnoz qiyməti: $x_1^{proq} = x_1 \,.\, \Delta x_1$**=413,1593;**

**2019-cu il** üçün: $x_1^{proq}$ **= 445,5096;**

**2020-ci il** üçün: $x_1^{proq}$ **= 480,3930.**

Bu metodikadan istifadə etməklə ümumi gəlirin **($x_2$)** də proqnoz qiymətləri hesablanmış və cədvəl də verilmişdir:

**2018-ci il** üçün əldə edilən gəlirin proqnoz qiyməti: $x_2^{proq} = x_2 \,.\, \Delta x_2$**=109,0207;**

**2019-cü il** üçün: $x_2^{proq} = x_2 \,.\, \Delta x_2$**=103,3298;**

**2020-ci il** üçün: $x_2^{proq} = x_2 \,.\, \Delta x_2$**=97,9360.**

**Nəticə**

Tədqiqatda aparılmış hesablamaların nəticəsi göstərir ki, tədqiq edilən dövrdə ümumi kənd təsərrüfatı məhsulunun artım tempi **16,3%** təşkil edəcəyi halda, onun realizasiyasından əldə edilən gəlir **11,3%** azalma tempinə malik olacaqdır.

Beləliklə, istehsal funksiyaları bir neçə qaydada istifadə edilərkən elmi-texniki tərəqqinin iqtisadi artıma təsiri qiymətləndirilən zaman nəzərə alınmalıdır. Bu qaydalar ondan ibarətdir ki, elmi-texniki tərəqqi-çoxşaxəli hadisədir, cəmiyyətin həyatında çox tərəfi əhatə edir, müxtəlif formalarda meydana gəlir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Афанасьев В.Н., Юзбашев М.М. Анализ временных рядов и прогнозирование. Москва: Финансы и статистика, 2001. 228 с.
2. Лукашин Ю., Рахлина Л. Производственные функции в анализе мировой экономики // Мировая экономика и международные отношения. М.,2004. №1, С.17
3. Маськова Н.Г. Прогнозирование экономического роста. М.,2019,с.5-8
4. Шапкин А.С., Мазаева Н.П. Математические методы и модели исследования операций. Москва, 2005. 397с.
5. https://www/stat/gov/az

**д.э.н. В.И.Исмайлов**

## ПРОГНОЗИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО РОСТА СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ

### *Резюме*

В статье дано понятие экономического роста, указаны его типы, анализ производственных функций и прогноз экономического роста производства. Также, указаны макроэкономические показатели производства и влияние типов НТП на экономический рост.

На основе анализа пришли к выводу, что ожидаемое производство валовой продукции сельского хозяйства увеличится на 16,3%, а валовый доход снизится на 11,3%.

***Цель*** - идентифицировать и прогнозировать валовой объем сельскохозяйственной продукции и экономический рост доходов.

***Методология*** - В исследовательской функции использовался аппарат производственной функции, состоящий из моделей статистики и эконометрики.

***Результат*** - Рассчитаны расчетные прогнозируемые цены, основанные на влиянии НТП на валовую сельскохозяйственную продукцию и темпы роста доходов.

***Ключевые слова:*** экономический рост, производственные функции, факторы, прогнозирование

**Vilayat Ismailov**

## FORECASTING ECONOMIC GROWTH OF AGRICULTURAL PRODUCTS

### *Summary*

The article gives the concept of economic growth, indicates its types, analysis of production functions and the forecast of economic growth of production. Also indicated are macroeconomic production indicators and the effect of STP types on economic growth.

Based on the analysis, it was concluded that the expected production of gross agricultural output will increase by 16,3%, and gross income will decrease by 11,3%.

***Purpose of the research*** - to identify and forecast the gross agricultural output and economic growth in income.

***Methodology*** - The research function used a production function apparatus consisting of models of statistics and econometrics.

***Findings*** - Estimated projected prices based on the impact of STP on gross agricultural output and income growth rates have been calculated.

***Keywords*:** economic growth, production functions, factors, forecasting.

**UOT 330.341.1**

**Nurəngiz Mikayılova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***i.ü.f.d., dosent***
*nurengiz.mikayilova@mail.ru*

# BP ŞİRKƏTİNİN AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

*Məqalədə Azərbaycanda neft sənayesinin tarixindən, müstəqillik qazandıqdan sonra BP şirkərinin bu sənayeyə inteqrasiya etməsindən və əldə olunan müsbət nəticələrdən bəhs olunur. Eyni zamanda BP Şirkətinin Azərbaycanın sosial-iqtisadi həyatında rolu araşdırılmış, tərəfdaşlıq etdiyi müddətdə BP tərəfindən Azərbaycana qoyulan investisiyalar müəyyənləşdirilmişdir. Məqalədə BP şirkətinin Azərbaycandakı fəaliyyətinin nəzərə çarpmayan bəzi tərəfləri təhlil edilmiş, sonda şirkətin ölkəyə verdiyi faydalar haqqında ümumiləşmələr aparılmışdır.*

***Məqsəd*** **-**"Əsrin Müqaviləsi" çərçivəsində BP şirkətinin Azərbaycanın sosial-iqtisadi inkişafında rolunun öyrənilməsi

***Metodologiya*** **-** Tədqiqat işində sistemli yanaşma, iqtisadi - statistik təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **-** Xarici neft şirkətləri ilə müttəfiqliyin Azərbaycana gətirdiyi faydalar müəyyən edilmişdir.

***Açar sözlər:*** BP şirkəti, iqtisadi səmərə, sahibkarlığın inkişafı, milli işçi qüvvəsinin inkişafı, sosial layihələr, ətraf mühit

## Giriş

Orta Asiya və Qafqazda xam neftin mövcud olması XIII əsrdə məlum idi. Azərbaycanda neft hasilatı haqqında məlumatlar erkən orta əsr alim və səyyahlarının əsərlərində dəfələrlə qeyd olunmuş və bu qeyri-adi məhsulun böyük gəlirlər gətirdiyi bildirilmişdir. Lakin o dövrlər neft ancaq məişətdə yanacaq kimi, tibbi və hərbi məqsədlər üçün istifadə olunurdu.

XVI əsrin əvvələrində Bakı ətrafında 500-ə qədər neft çalası və quyu mövcud olmuş və onlardan ağ və qara neft hasil edilmişdir. 1647-ci ildə Türk səyyahı Övliya Çələbi Bakıdakı neft mədənləri, çıxarılan neftin müxtəlif rənglərdə olması, neftin İrana, Orta Asiyaya, Türkiyəyə, Hindistana aparılması və gətirdiyi illik gəlir haqqında məlumat vermiş, Bakıda fəaliyyət göstərən neft şirkətlərini müfəssəl təsvir etmişdir.

1803-ci ildə dünyada ilk dəfə olaraq Bibiheybət körfəzində, sahildən 18 və 30 metr aralıda iki quyudan neft çıxarılmağa başlanmışdır. Lakin 1825-ci ilin güclü dəniz fırtınası quyuları məhv etmişdir. 1846-cı ildə Bibiheybətdə sənaye üsulu ilə 21 metr dərinlikdə kəşfiyyat quyusu qazılmış və müsbət nəticə əldə edilmişdir (3, s. 127).

Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir. XX əsr boyunca neft hasilatını və ixracını artırmaq məqsədilə neft sənayesinə qoyulan sərmayələrdə qeyri-mütənasib artma müqabilində, digər sənaye sahələrinə qoyulan sərmayələr getdikcə azalmağa başlamışdı. SSRİ dağıldıqdan sonra zəngin neft və təbii qaz ehtiyatlarına sahib olan Azərbaycan təəssüf ki, neft və təbii qaz ehtiyatlarından istifadə edə biləcək maddi və texniki gücə sahib deyildi.

Azərbaycanın Xəzər dənizindəki neft hasilatı və inkişafı Günəşli, Çıraq, Azəri və Kəpəz olmaqla 4 sahədə cəmləşdirilmişdi. Ancaq sadə texnologiyanın istifadəsi nəticəsində həm hasilatda, həm də nəqldə bir sıra problemlər ortaya çıxmışdır.

Neft hasilatının artırılması və mövcud ehtiyatlarının yaxşılaşdırılması ancaq müasir texnologiyanın istifadəsi və yeni layihələr həyata keçirtməklə mümkün ola bilərdi. Azərbaycanın sahib olduğu iqtisadi güc və texnologiya mövcud ehtiyatların istifadəsi və inkişafı üçün kifayət etmirdi. Bu problemlər Azərbaycanın böyük neft şirkətləri ilə müttəfiqliyini zəruri etdi.

1991-ci ilin yanvar ayında Azərbaycan neft layihələrinə tender elan etdi. BP, Statoil, Amoco, Unocal və digər şirkətlər bu tenderdə iştirak etdilər. 1991-ci ildə arasında Amoco, BP, McDermott, Pennzoil, Ramco, Unocal, Türkiyə Petrolları Anonim Ortaqlığı (TPAO) və Statoil kimi şirkətlərin olduğu bir qrup xarici şirkətlər Azərbaycanın Xəzər dənizindəki sektorunda yerləşən Çıraq və Günəşli sahələrində tədqiqat işlərini yaxşılaşdırılması istiqamətində 3 il müddətində davam edəcək işlərə başladılar.

1992-ci ildə Xəzərin neft yataqlarında fəaliyyət göstərmək istəyən şirkətlər konsorsiumda birləşərək müqavilələr imzaladılar. Ancaq, Azərbaycanda mövcud olan qeyri-siyasi sabitlik müzakirələrin nəticəsizliyinə gətirib çıxardı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə yenidən danışıqlara start verildi. Nəhayət, uzun sürən danışıqlardan sonra 1994-cü il 20 sentyabr tarixində "Əsrin Müqaviləsi" imzalandı. Qurudakı yataqlar da daxil olmaqla Azərbaycanda dünyanın 19 ölkəsindən 33 şirkətin iştirakı ilə 30-a yaxın beynəlxalq neft müqaviləsi imzalandı (1, s.4). Enerji ehtiyatlarının kəşfi və inkişafı baxımından imzalanan neft müqavilələri ölkəyə xarici kapital axınını sürətləndirmiş, buna paralel olaraq da xarici yardımlar və beynəlxalq maliyyə təşkilatlarının verdiyi kreditlər artmışdır.

BP-nin 27 il bundan əvvəl ilk dəfə Azərbaycana gəlişindən etibarən Şirkətin məqsədi əməyin təhlükəsizliyini və ətraf mühiti prioritetə çevirən, ictimaiyyətin etimadını və hörmətini qazanan, eləcə də bütün maraqlı tərəflər üçün dəyərlər yaradan davamlı bir Şirkət qurub, onu davam etdirmək olmuşdur. Həm dövlətə, həm də tərəfdaşlara fayda gətirmək üçün bu ölkənin nəhəng karbohidrogen ehtiyatlarının işlənilməsini və idarə edilməsini Azərbaycan hökuməti və xalqı, eləcə də tərəfdaşlarımız BP-yə etibar etmiş (1, s.12), BP-də öz növbəsində bu illər ərzində öz qlobal təcrübəsindən və qabaqcıl texnologiyalarından istifadə etməklə nefti və qazı Xəzərdən təhlükəsiz və etibarlı şəkildə hasil və ixrac etmişdir.

**1. BP şirkətinin icra göstəricilərinin təhlili**

Azərbaycanın karbohidrogen ehtiyatlarının Gürcüstan və Turkiyə vasitəsilə dünya bazarlarına nəql edilməsi ilə Xəzər regionu dünyada neft və qaz hasil edən mühüm ərazilərdən birinə çevrilmişdir.

1995-ci ildə əməliyyatların başlamasından bəri AÇG, BTC, Şahdəniz, və CQBK layihələri üçün 69 milyard dollar əsaslı xərclər çəkilmişdir. Azərbaycanda əməliyyatlara başladıqdan etibarən icma inkişafı və təhsil təşəbbüsləri də daxil olmaqla tərəfdaşlarla birlikdə sosial proqramların həyata keçirilməsinə 78 milyon dollar xərc çəkilmişdir.

Eyni zamanda 1997-ci ildən başlayaraq 2017-ci ilin sonunadək 3.3 milyard barel neft AÇG-dən hasil olunmuşdu. 2006-ci ildən başlayaraq 2017-ci ilin sonunadək 89 milyard kubmetr qaz Şahdəniz yatağından hasil olunmuşdur.

*Cəvdəl 1*

**BP şirkətinin beşillik icra göstəriciləri**

| İstismar | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Hasil edilmiş karbohidrogenlərin ümumi həcmi (gündə barel neft ekvivalenti) | 909 | 900 | 903 | 908 | 859 |
| Maliyyə | | | | | |
| Əməliyyat məsrəfləri - sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 1,542 | 1,872 | 1,445 | 1,117 | 1,069 |
| Əsaslı məsrəflər - sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 4,862 | 7,186 | 7,430 | 6,180 | 4,873 |
| Əməyin təhlükəsizliyi | | | | | |
| Ölüm halları - əməkdaşlar | 0 | 0 | 0 | 0 | 0 |
| Ölüm halları - podratçılar | 0 | 0 | 0 | 0 | 0 |
| Qeydiyyata alınan xəsarətlər - işçi qüvvəsi | 40 | 14 | 17 | 22 | 19 |
| Qeydiyyata alınan xəsarətlərin tezliyi - işçi qüvvəsi | 0,27 | 0,09 | 0,08 0. | 07 | 0.09 |
| İşlənmiş saatlar - əməkdaşlar (milyon saat) | 13,47 | 13,41 | 8,5 | 9.2 | 7.3 |
| İşlənmiş saatlar - podratçılar (milyon saat) | 16,5 | 18,8 | 35,2 | 50.2 | 36.44 |
| Ətraf mühit | | | | | |
| Birbaşa karbon dioksid ($CO_2$) ümumi (min ton) | 3 021,80 | 3 846,50 3 | 275,21 | 3,394.17 | 3,224.15 |
| Dolayısı ilə karbon dioksid ($CO_2$) ümumi (min ton) | 0,6 | 0,7 | 1,2 | 1.6 | 2.1 |
| Birbaşa metan ($CH_4$), ümumi (min ton) | 6,8 | 11,6 | 5.9 | 5.9 | 4.3 |
| Birbaşa istixana qazı emissiyaları, ümumi (min ton $CO_2$ ekvivalenti) | 3,164 | 4,067 | 3,400 | 3,543 | 3,331 |
| Məşəldə yandırılma (kəşfiyyat və hasilat), ümumi (ton) | 256,423 | 413,120 | 203,651 | 195,893 | 153,425 |
| Kükürd dioksid (SOx), ümumi (ton) | 122 | 155 | 150 | 154 | 140 |
| Qeyri-metan karbohidrogenlər, ümumi (ton) | 1,505 | 3,406 | 2,438 | 767 | 882 |
| Neft dağılmalarının sayı | 11 | 6 | 6 | 11 | 4 |
| Dağılmış neftin həcmi (litr) | 15,232 | 14,311 | 4,463 | 67,372 | 4,116 |
| Əməkdaşlar | | | | | |
| BP Azərbaycanda daimi işçilərin sayı | 3,255 | 3,393 | 3,150 | 3,243 | 3,135 |
| BP Azərbaycanda daimi ixtisaslı işçilərin sayı | 3,216 | 3,381 | 3,130 | 3,211 | 3,108 |
| Yerli əməkdaşlar | 2,722 | 2,907 | 2,735 | 2,785 | 2,686 |
| Yerli əməkdaşlar (%) | 85% | 86% | 87% | 87% | 86% |
| Əcnəbi əməkdaşlar | 494 | 474 | 415 | 426 | 422 |
| Azərbaycan vətəndaşları olan yüksək vəzifəli menecerlər | 197 | 230 | 275 | 314 | 343 |
| Sosial xərclər | | | | | |
| BP və tərəfdaşları üçün cəmi, ümumi (milyon dollar) | 2,7 | 5,9 | 4,5 | 1.5 | 5.7 |

**Qeyd:** Cədvəl BP şirkətinin illik hesabatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

"Əsrin Müqaviləsi" 30 illik imzalanmışdı və sona çatırdı. Əlbəttə ki, müqavilənin müddəti bitəndən sonra Azərbaycan istənilən başqa tərəfdaşla yeni kontrakt imzalaya bilərdi və bu imkanlar mövcuddur. Ancaq BP ilə SOCAR arasında yaranmış qarşılıqlı etimad, işgüzar münasibətlər bugünkü seçimi şərtləndirdi. 23 il ərzində müqavilənin icrası çox uğurlu idi. Bu illər ərzində "Azəri-Çıraq-Günəşli"dən 440 milyon ton neft hasil edilmişdir. 1994-cü ildə müqavilə imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Ancaq tədqiqatlar zamanı müəyyən edilmişdir ki, hələ də "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı vardır.

2017-ci il sentyabrın 14-də Bakıda 2049-cu ilin sonunadək qüvvədə olacaq yeni Sazişin imzalanma mərasimi keçirildi. “Azəri”, “Çıraq” və “Günəşli” yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş Sazişi Azərbaycan hökuməti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR), eləcə də “BP”, “Chevron”, “İNPEX”, “Statoil”, “ExxonMobil”, “TP”, “TOCHU” və “ONGC Videsh” şirkətləri imzaladılar.

Hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişə əsasən BP layihənin operatoru olaraq qalacaq. SOCAR-ın AÇG-dəki iştirak payı isə 1994-cü ildə bağlanmış müqavilədəkindən fərqli olaraq 11,65%-dən 25%-ə qaldırılacaq və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Növbəti 32 il müddətində AÇG-yə 40 milyard dollardan artıq sərmayə qoyulacağı gözlənilir **(6)**.

Saziş təsdiqləndikdən sonra AÇG-də tərəfdaşların yeni iştirak payları bu nisbətdə olmuşdur: BP- 30,37%; AzACG (SOCAR)- 25,00%; Chevron- 9,57%; INPEX- 9,31%; Statoil- 7,27%; Ex-xonMobil- 6,79%; TP- 5,73%; ITOCHU- 3,65% və ONGC Videsh Limited (OVL)- 2,31%.

İmzalanan yeni saziş 1994-cü ildə imzalanmış sazişdən daha böyük miqyaslı və Azərbaycan üçün daha sərfəlidir. Məhz bu baxımdan yeni sazişin imzalanmasını tarixi gün və “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsində yeni dövrün başlanğıcı kimi qiymətləndirilir.

1994-cü ildə “Əsrin müqaviləsi” imzalanan zaman da bonusun ödənilməsi nəzərdə tutulmuşdu və o zaman Azərbaycan hökumətinə 300 milyon dollar ödənildi. Amma təbii ki, bonus birdəfəlik ödənilmir. İndiki bonusun məbləği isə 23 il əvvəlkindən 12 dəfə çoxdur - 3,6 milyard dollar. Adətən müqavilə bağlandıqdan sonra bonusdan ilkin tranş verilir, daha sonra isə müqavilədə nəzərdə tutulan fəaliyyətlərə uyğun olaraq tranşlar formasında ödənilir.

BP dənizdə Azərbaycanın iri neft və qaz yataqlarının əməliyyatçısıdır. Quruda Şirkət dünyanın ən böyük kompleks neft və qaz emalı terminallarından birini (Səngəçal), həmçinin onu region və dünya bazarları ilə birləşdirən boru kəmərlərini idarə edir.




**Şəkil 1.** BP-nin törəmə şirkətlərinin dünyanın müxtəlif yerlərində maye karbohidrogen hasilatındakı xalis payı (%)

2017-ci ilin sonunda AÇG-də ümumilikdə 115 neft hasilatı quyusu, eləcə də 54 suvurma və qazvurma quyusu istismar olunurdu. 2017-ci ildə BP təhlükəsiz və etibarlı sabit hasilatı davam etdirərək AÇG yataqlarından bütün il üzrə gündəlik hasilat 588.000 barel təşkil etmişdir. (ümumilikdə 215 milyon barel və ya 29 milyon ton) (4).

*Cədvəl 2*

**Azəri-Çiraq-Dərinsulu Günəşli (neft hasilatı)**

| Platforma | Hasilatın başlanma vaxtı | Ölçü vahidi | Hasilat başlanandan sonra 2016-ci ilin sonunadək | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Ciraq | Noyabr 1997 | Milyon barel<br>Milyon ton | 685.8<br>92.7 | 19.7<br>2.7 | 18.5<br>2.5 |
| Mərkəzi Azəri | Fevral 2005 | Milyon barel<br>Milyon ton | 781.9<br>105.7 | 52.7<br>7.1 | 50.0<br>6.8 |
| Qərbi Azəri | Dekadr 2005 | Milyon barel<br>Milyon ton | 709.9<br>96.0 | 41.8<br>5.6 | 45.2<br>6.1 |
| Şərqi Azəri | Noyabr 2006 | Milyon barel<br>Milyon ton | 404.9<br>54.7 | 26.3<br>3.6 | 29.9<br>4.0 |
| Dərinsulu Günəşli | Aprel 2008 | Milyon barel<br>Milyon ton | 397.1<br>533.9 | 46.1<br>6.2 | 42.8<br>5.8 |
| Qərbi Çiraq | Yanvar 2014 | Milyon barel<br>Milyon ton | 102.1<br>13.8 | 43.9<br>5.9 | 28.3<br>3.8 |
| Cəmi | | Milyon barel<br>Milyon ton | 3081.6<br>416.7 | 230.5.<br>31.1 | 214.6<br>29.0 |

Şahdəniz (ŞD) qaz yatağı 1999-cu ildə kəşf edilmişdir. Yataq sahildən dənizə doğru 70 km məsafədə, suyun dərinliyinin 50-600 metr arasında dəyişdiyi bir ərazidə yerləşir. Onun məhsuldar layının qalınlığı 1000 metrdən artıq, uzunluğu isə 22 kilometrdir. Geoloji baxımdan mürəkkəb olan ŞD çox yüksək təzyiqə və çoxsaylı məhsuldar lay horizontlarına malikdir.

2017-ci ildə ŞD yatağından qazın Azərbaycan,Gürcüstan və Türkiyə bazarlarına etibarlı şəkildə çatdırılması davam etmişdir. 2017-ci il ərzində yataqdan təxminən 10,2 milyard kubmetr qaz və 2,4 milyon ton (təxminən 19 milyon barel) kondensat hasil edilmişdir. Şahdənizin mövcud olan obyektlərinin hazırkı gündəlik hasilat gücü 30 milyon standart kubmetr və ya təxminən ildə 10,9 milyard kubfut qazdır.

2017-ci ildə ŞD əməliyyat xərclərinə təxminən 451 milyon, əsaslı xərclərə isə 2,88 milyard dollar vəsait xərclənib, əsaslı xərclərin əksər hissəsi Şahdəniz Mərhələ 2 layihəsi ilə əlaqədar olmuşdur. 2017-ci ildə mövcud Şahdəniz platformasında SDA-10 quyusu tamamlanaraq istismara verildi.

Şahdəniz Mərhələ-2 (ŞD2) Azərbaycandan Türkiyəyə və Avropaya qaz çatdıracaq nəhəng bir layihədir. Bu layihə yeni Cənub Qaz Dəhlizi açmaqla Avropa bazarlarının qaz təchizatını və enerji təhlükəsizliyini gücləndirəcək. ŞD-2 dünyanın ən böyük qaz işlənməsi layihələrindən biridir.

Bu layihə nəhəng Şahdəniz yatağından hasil ediləcək illik 16 milyard kubmetr qazın təxminən 3500 km uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan və İtaliyaya ixracını təmin edəcək. Layihənin mühəndis-texniki, təchizat-tədarük və tikinti işlərinin ümumilikdə 99%-dən çox hissəsi tamamlanıb və işlər Şahdəniz Mərhələ 2 layihəsindən ilk qazın 2018-ci ildə əldə edilməsi planına uyğun irəliləyir. Avropaya ilk təchizat isə 2020-ci ilə gözlənilir (4).

Neft Azərbaycanın ən qiymətli sərvətidir. Hasilatına başlanıldığı tarixdən bu günə qədər iqtisadiyyatımızda mühüm rol oynayan neft hal-hazırda da ölkənin əsas gəlir mənbəyi və ixrac mallarının əsas qaynağı sayılır. Müstəqilik qazandıqdan sonra ölkə inkişafının orta və uzun müddətli perspektivləri birbaşa neft sektorunun güclənməsindən asılı olmuşdur. Neft satışından əldə edilən gəlirlər bir çox sosial və iqtisadi problemlərin həllində açar rolunu bu gün də oynamaqdadır.

"Əsrin Müqaviləsi"nin imzalanması ilə Azərbaycanın sonrakı iqtisadi inkişafının təməli qoyuldu. İlk müqavilə imzalanandan bu günə AÇG-yə 33 miyard dollar sərmayə qoyulub və 440 milyon ton neft hasil edilməklə Azərbaycan ümumilikdə 125 milyard dollardan çox birbaşa mənfəət əldə etmişdir.

Ölkəyə neftdən gələn xarici valyutanın daxil olması Dövlət Neft Fondunun yaranmasını zəruri etdi. Fond vasitəsilə bir sıra dövlət əhəmiyyətli layihələr maliyyələşmiş və bu proses davam etməkdədir:

- Dövlət büdcəsinə transfertlər- 88 576,0 mln. man.
- Qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması -2 302,7 mln. man.
- Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi- 779,6 mln. man.
- Samur-Abşeron suvarma sisteminin yenidən qurulması -1 469,6 mln. man.
- Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsi -90,0 mln. man.
- Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsi -748,6 mln. man.
- Xaricdə təhsil üzrə Dövlət Proqramı- 212,7 mln. man.
- "Star" neft emalı kompleksinin tikintisi -1 663,3 mln. man.
- AÇG layihəsində ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi - 87,6 mln. man.
- Cənub Qaz Dəhlizi -1 530,3 mln. man.

Azərbaycan Respubikasının Mərkəzi Bankına transfert -3 949,5 mln. man. və s. (5)

Əlbəttə, Şirkətin Azərbaycanda fəaliyyətini yalnız iqtisadi tərəflərlə məhdudlaşdırmaq olmaz.

**2. BP-nin sahibkarlığın inkişafında rolu**

2007-ci ildə başlanan "Sahibkarlığın inkişafı və təlim proqramı"nı (SİTP) həyata keçirməkdə BP şirkətinin məqsədi güclü biznes potensialına malik yerli şirkətləri müəyyən etmək, onların beynəlxalq standartlara cavab verməsinə dəstək göstərmək, rəqabət qabiliyyətliliyini artırmaqdır. Uzunmüddətli perspektivdə SİTP regionda sənayeyə məhsul və xidmətlər təchiz edə biləcək yerli şirkətlərin sayını artırmaq və bununla da yerli iqtisadiyyatın inkişafına töhfə vermək üçün nəzərdə tutulmuşdur. Bu proqram yerli şirkətlərə 2017-cı ildə BP ilə dəyəri 93 milyon dollardan artıq olan beynəlxalq müqavilələr bağlamasına səbəb oldu.

2017-ci ildə bu proqramı 19 şirkət başa çatdırdı və bununla da proqramı başa çatdırmış şirkətlərin sayı 218-ə çatdı. 2017-ci ildə SİTP daha 51 şirkətin ilkin qiymətləndirilməsi aparıldı. Proqramın nəticəsi olaraq, 2017-ci ildə Azərbaycanda tərəfdaşlarla birlikdə 279 yerli şirkətlə işbirliyi quruldu ki, bunların 231-i kiçik və orta müəssisələr, fiziki şəxslərdir. 2017-ci ildə Azərbaycandakı birgə əməliyyatlara və layihələrə ümumilikdə 5,4 milyard dollara yaxın vəsait xərclənmişdir ki, bunun bir hissəsi kimi yerli şirkətlərlə birbaşa xərclər təxminən 1,8 milyard dollar olmuşdur. Dünya səviyyəli layihələri həyata keçirməkdə yerli şirkətlərin bərabərhüquqlu iştirakı BP şirkətinin Azərbaycana verdiyi növbəti töhfə kimi qiymətləndirmək olar.




**Şəkil 2.** BP-nin yerli şirkətlərə xərcləri 2013-2017 (milyon ABŞ dolları)

**Milli işçi qüvvəsinin inkişafı.** BP-nin icra göstəriciləri yüksək səriştəli, əzmkar və istedadlı işçi qüvvəsindən asılıdır. Əməliyyatların təhlükəsiz və etibarlı şəkildə yerinə yetirilməsi, işçilərə müəyyən bilik və bacarıqlar əldə etmək məqsədilə şirkət tərəfindən mütəmadi olaraq təlimlər təşkil olunur. Şirkətin fərdi müxtəlifliklərə hörmətlə yanaşmaq və bütün əməkdaşlara bərabər fürsət və imkanlar yaratmaq kimi öhdəliyi mövcuddur. Sərt bazar şərtlərinin davam etdiyi bir dövrdə iqtisadi səmərəliliyi artırmaq və xərcləri daha yaxşı idarə etməklə rəqabət qabiliyyətliliyi yüksəltmək üçün Şirkət daima yollar axtarır. Şirkət belə hesab edir ki, Azərbaycanda güclü milli işçi qüvvəsi yetişdirmək əsas prioritetlərdən biri olaraq qalır. İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmayə qoyulur, yeni istedadları cəlb edir və bütün karyera səviyyələrində işçilərə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edilir.

2013-cü ilin noyabrında BP Azərbaycan və SOCAR şirkətləri arasında razılaşdırılmış beşillik milliləşmə planı həm ümumi, həm də funksional səviyyədə 2014-cü ildən 2018-ci ilədək hər il üzrə milliləşdirmə hədəflərini müəyyənləşdirir. Sənəd həmçinin xarici vətəndaşların tutduqları hazırkı və gələcək vəzifələr üzrə milliləşdirmə qrafikini də əhatə edir.

Şirkətin həmçinin SOCAR-la işəgötürmə sahəsində əməkdaşlığa dair anlaşma memorandumu da mövcuddur. Milliləşdirmə strategiyasının tərkib hissəsi olaraq BP mütəxəssisləri Bakı Ali Neft Məktəbinin tələbələri üçün 20-dən artıq proqramdankənar sessiya və digər təhsilə yardım tədbirləri keçirməkdədir. BP Azərbaycanda öz milliləşdirmə planlarını hazırlayıb həyata keçirmələri üçün podratçılarını dəstəkləməyə davam edir. Bu işlərə təcrübə mübadiləsi, icra göstəricilərinin hazırlanmasına kömək etmək və onların tətbiqinə nəzarət etmək daxildir.

2017-ci ilin sonuna BP-nin ixtisaslı işçi heyətində ölkə vətəndaşlarının nisbəti 86% idi, əvvəlki ildə isə bu göstərici 87% olmuşdu. Yalnız daimi işçiləri nəzərə alsaq, göstərici 90%-dir ki, bu da 2016-cı illə müqayisədə artım təşkil edir. Təsadüfi deyil ki, BP-nin Azərbaycanda yüksək vəzifə tutan yerli işçilərinin sayı 2017-ci ildə 343 nəfərə çatmışdı. Bu, yerli ofisdə çalışan yüksək vəzifəli işçilərin 60%-i və əvvəlki illə müqayisədə 2%-ə yaxın artım deməkdir. Onların təxminən 19%-i qadınlardır. BP-nin Azərbaycanda işləyən orta vəzifəli işçilərinin 94%-i ölkə vətəndaşlarıdır.

BP-nin məqsədi əməkdaşların bir-birinə hörmət və ləyaqətlə yanaşdığı və öz potensiallarını tam aça bildikləri pozitiv bir iş mühiti yaratmaq və saxlamaqdır. Bu məqsədə nail olmaq üçün düzgün adamların düzgün işə seçilməsi əsas şərtdir. Şirkətin

əməkdaşların işə götürülməsində və işdə irəli çəkilməsində hər kəsə qabiliyyətinə görə imkan yaratmaq öhdəliyi mövcuddur.




**Şəkil 3.** BP-nin Azərbaycandakı ixtisaslı daimi işçi heyəti

**Kredit almağa dəstək proqramı.** "Əsrin Müqaviləsi"ndə qeyd edilmişdir ki, Azərbaycan vətəndaşları əcnəbi vətəndaşlar kimi tibbi sığotaya və digər sosial imtiyazlar paketlərindən istifadə hüquqlarına malikdirlər. Məsələn, Azərbaycanda sosial imtiyazlar paketinin bir hissəsi kimi, "Kreditə Dəstək Proqramı" işçinin bank qarşısında borc öhdəliklərini öz üzərinə götürmək məqsədi daşıyır.

"Kreditə Dəstək Proqramı"nın əsas məqsədi aşağıdakılardan ibarətdir:

- BP Azərbaycan şirkəti yerli işçilərinin imtiyazlar paketini genişləndirmək və rəqabətədavamlılıq səviyyəsini təmin etmək;
- Kredit almaq imkanı yaratmaqla işçiləri motivə etmək və onların şirkətdə qalmasına töhfə vermək;
- Təşkilata istedadlı işçilər cəlb etmək.

Bu dəstək aşağıdakı səbəblərə görə götürülən kreditlərə şamil edilir:

- Mənzil /Evlərin alınması (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- Evlərin tikilməsi (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- Mənzil /Evlərin təmiri (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- İşçinin 18 yaşdan kiçik uşaqlarının təhsili üçün (3,səh.100).

2017-ci il ərzində 300-dən artıq əməkdaş bu proqram üzrə kredit almaq üçün ərizə vermiş, bununla da 2012-ci ildə proqramın başlanmasından etibarən iştirakçıların ümumi sayı 2400-ü keçmişdi. Ümumilikdə, proqram üzrə verilən kreditlərin məbləği 52 milyon dollardan çox olmuşdur.

**İnkişaf təşəbbüsləri.** Layihə müvafiq yardım göstərilə bilməsi üçün uşaqlarda əlillik və inkişafdan geri qalma hallarını mümkün qədər erkən dövrlərdə aşkar etmək istiqamətində xidmətlərin göstərilməsini nəzərdə tutur. Bu layihə çərçivəsində görülən işlər erkən müdaxilə mərkəzlərinin yaradılmasını, erkən müdaxilə mütəxəssislərinə təlimlərin keçilməsini, valideynlərin öz uşaqlarının inkişafında fəal iştirak etməsinə şərait yaradılmasını və ictimaiyyətin erkən müdaxilənin əhəmiyyəti barədə maarifləndirilməsini əhatə edir. 2017-ci ildə 13 rayonda keçirilmiş 18 icma görüşündə 529 icma nümayəndəsi iştirak etmişdir. İştirakçılara həkimlər, tibb bacıları, müəllimlər, sosial sahədə işləyən şəxslər və

valideynlər daxil idi.

**Sözünü azad şəkildə demək mədəniyyəti**

Əməkdaşlar və podratçılar arasında açıq danışmağı təşviq etmək etik davranış və qaydalara uyğunluq strategiyası üçün həlledici əhəmiyyət daşıyır. Mövcud olan hər hansı bir pozuntuya qarşı öz narazılığını bildirmək hamı üçün mühümdür, bunun kimi təkmilləşdirmə imkanları barədə danışmaq, müxtəlif baxışları və ya hətta yeni ideyanı bölüşmək də əhəmiyyətlidir. Açıq danışmaq biznesin uğuru üçün həlledici əhəmiyyət daşıyır, proses və əməliyyatları təkmilləşdirməyə imkan yaradır. Eyni zamanda əməkdaşların, podratçıların və digər üçüncü tərəflərin davranış kodeksinə əməl olunmaması ilə bağlı narahatlıqları və ya sadəcə, hər hansı vəziyyətlə bağlı şübhələri varsa, sözlərini açıq deməyə hər cür şərait yaradılır.

"Qisasçılığa qarşı BP-nin sıfır dözümlülük" prinsipinin dəstəklənməsi kodeksində rəhbər işçilər birbaşa cavabdehdirlər. Sözü açıq demək lazım gəldikdə çox vaxt işçilərin ən böyük qorxusu bunun əks nəticələri ilə bağlı olur. BP-nin "OpenTalk" (açıq söhbət) qlobal yardım xətti həm əməkdaşların, həm də üçüncü tərəflərin narahatlıq doğuran məsələləri qaldırması üçün məxfi vasitədir. Müstəqil bir şirkət tərəfindən idarə olunan bu yardım xətti həftənin hər günü, gündüz və gecə istənilən vaxt işləyir və 75-dən artıq dildə zəngləri qəbul edir. "OpenTalk" vasitəsilə qaldırılan məsələlər qiymətləndirilmənin aparılması və müvafiq olduqda, tədbirlərin görülməsi üçün təqdim edilir.

2017-ci ildə Azərbaycanda, Gürcüstanda və Türkiyədə baş vermiş hadisələrlə bağlı "OpenTalk" yardım xəttinə 55 müraciət daxil olmuşdur. Azərbaycan, Gürcüstan və Türkiyədə normalara əməl etməmə ilə bağlı araşdırmalar nəticəsində 2017-ci il ərzində intizam tədbiri ilə nəticələnən 18 fakt mövcud olmuşdur.

**Ətraf mühit.** Ətraf mühitə təsirlərin idarə olunması neft və qazın məsuliyyətli şəkildə hasil olunması prosesinin mühüm tərkib hissəsidir. BP harada iş görürsə, ətraf mühitə təsir göstərməmək, təsirləri minimuma endirmək və azaltmaq yönündə işləyir. Atmosferə emissiyalar yanacağın daxili yanma mühərriklərində yandırılması, qazın məşəldə yandırılması və havaya buraxılması nəticəsində əmələ gəlir. Həmçinin şəhər elektrik şəbəkəsindən alınan elektrik enerjisinin istifadəsi ilə bağlı dolayı emissiyalar yaranır. 2017-ci ildə havaya 3,33 milyon ton istixana qazı (İXQ) buraxılmışdır ki, bu da 2016-cı ilin göstəricisi ilə müqayisədə 6% azdır. İXQ-nin yaranmasında ən çox Mərkəzi Azəri platformasının (24,47%), Dərinsulu Günəşli platformasının (18,64%) və Səngəçal terminalının AÇG hissəsinin (20,43%) payı var (4). Diqqətin qazın məşəldə yandırılmasının azaldılmasına yönəldilməsi ona gətirib çıxardı ki, 2016-cı ildə əməliyyat qurğularında 196 min ton qaz məşəldə yandırıldığı halda, 2017-ci ildə bu göstərici 153 min ton oldu. Qeydə alına bilən hallar Mərkəzi Azəri platformasının qazın nəqli və laya vurulması kompressorlarında, eləcə də bütün dəniz platformaları qaz kompressorları ilə əlaqədar səmt qazının məşəldə yandırılmasının azaldılması sayəsində olmuşdur. BP iqlim dəyişikliyinin aktuallığını başa düşür və bu problemin həllində iştirak etmək niyyətindədir.

**Xəzər suitilərinə təsirinin monitorinqi.** Azərbaycandakı son geoloji kəşfiyyat işlərinin bəziləri ölkənin Abşeron Milli Parkının yaxınlığında olmuşdur. Bura flora və faunaya aid beynəlxalq səviyyədə mühafizə edilən təxminən 75 növün mövcud olduğu ərazidir. Bu növlərin arasında Xəzər suitiləri də var. İldə iki dəfə köç edən bu növün nəsli kəsilmək təhlükəsi mövcuddur. Şirkət öz işinin bir hissəsi olaraq minlərlə fut dəniz təkinin geoloji strukturunun mənzərəsini yaratmaq üçün Xəzər dənizində seysmik çəkilişlər aparır. Ən təhlükəsiz yolu razılaşdırmaq üçün alimlər və tənzimləyici orqanların nümayəndələri ilə görüşlər keçirərək köç mövsümünün intensiv dövründə çəkiliş dayandırılır, seysmik işlərdən əvvəl və işlər gedən zaman ərazidəki mütəxəssislər suitilərlə bağlı məlumatları

toplayır və onlara suitilər əraziyə daxil olduğu vaxt işi saxlamaq səlahiyyəti verilir. Eyni zamanda suiti müşahidə olunduqda onlara çıxıb getməyə vaxt vermək üçün iş dayandırılır. Səs dalğalarının intensivliyini tədricən artıran "yumşaq start" texnologiyasından istifadə edilir. Suiti köçlərinin daha yaxşı öyrənilməsi üçün hökumət rəsmiləri, akademiklər və alimlərlə məsləhətləşmələr aparılır.

**Ətraf mühitin monitorinqi.** BP Azərbaycan-Gürcüstan-Türkiyə regionunda 1995-ci ildən bəri öz işlək obyektləri ətrafında ətraf mühitin monitorinqini həyata keçirir. Monitorinq BP Azərbaycan şirkətinin müqavilə sahələrindəki fəaliyyətlərinin dəniz, sahil və quru ətraf mühitlərinə potensial təsirlərini müəyyənləşdirmək və başa düşmək üçün aparılır.

2017-ci ildə ətraf mühit üzrə 16 monitorinq tədqiqatı həyata keçirilmişdir. Dənizdə Çıraq, Qərbi Azəri, Dərinsulu Günəşli və Şahdəniz Alfa platformaları çevrəsində ətraf mühit üzrə monitorinq tədqiqatı aparılmışdı. 2017-ci ildə Şəfəq- Asiman, Şahdəniz və Azəri yatağının mərkəzi şərqi ərazilərində təklif edilən geoloji kəşfiyyat qazmasının yerlərində ətraf mühitin ilkin vəziyyəti ilə bağlı üç tədqiqat aparılmışdı. Bu tədqiqatlar ərazidə makrobentik və plakton aləminin paylanmasının və bolluğunun araşdırılmasını əhatə edirdi. Səngəçal terminalı, BTC boru kəməri və Qərb İxrac Boru Kəməri, eləcə də Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyekti ətrafında 9 tədqiqat aparılmışdır ki, bu monitorinq araşdırmaları atmosferdəki havanın keyfiyyətini, havadakı səsi, bütün obyektlərdə qrunt sularının keyfiyyətini, Səngəçalda səth suyunun keyfiyyətini, Sərəncə ətrafında torpağın sabitliyinin və bitki örtüyünün monitorinqini, eləcə də BTC boru kəməri dəhlizi boyunca bioloji bərpa göstəricilərini (bitki növlərinin müxtəlifliyi və bitki örtüyü) əhatə edirdi.

**İcmalarla iş**

BP müntəzəm şəkildə Bakı-Tbilisi-Ceyhan (BTC) və Cənubi Qafqaz Boru Kəməri (CQBK) marşrutu boyunca yerləşən icmalara öz planları barədə məlumat verir və onları narahat edən məsələləri öyrənir. Bunun üçün şirkət, icma görüşlərindən və maarifləndirici vəsaitlərin paylanmasından tutmuş rəsmi yazışma və icma üzvləri tərəfindən qaldırılmış sual və ya şikayətlərə baxılmasına qədər bir çox formalardan istifadə edir. Məsul əməkdaşlar ictimaiyyətlə məsləhətləşmələr aparır və icmalarla əlaqədar şikayət və təkliflərə baxırlar.

2012-ci ildən şirkət "İcmalar üçün ingilis dili" layihəsinə start verdi və birinci mərhələ üzrə Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarının 47 məktəbindən 75 müəllim öz dil və müəllimlik səriştələrini inkişaf etdirmişdir. 2017-ci ildən etibarən bu layihənin ikinci mərhələsində 11 icmadan 165 müəllim – Hacıqabul, Qaradağ, Kürdəmir, Ucar, Ağdaş, Yevlax rayonlarındakı 62 məktəbdən 90 nəfər yeni ingilis dili müəllimi iştirak etməkdədir. Layihənin məqsədi icma üzvlərinin məşğulluq imkanlarının artırılmasına kömək edəcək səriştə və bacarıqlar yaradılması səylərinə dəstək olmaqdır. Layihə "British Council" tərəfindən həyata keçirilir (4).

Bundan başqa Şirkət 2017-ci ildə layihələrin təsir dairəsinə düşən müxtəlif icmalarda sosial infrastruktur layihələrinə başlamışdır:

• Ağstafa, Şəmkir və Tovuz rayonlarında beş uşaq bağçası binasının bərpası və əsaslı təmiri

• Yevlax, Ucar, Ağstafa, Şəmkir və Tovuz rayonlarında səkkiz uşaq bağçası üçün mebelin alınması və quraşdırılması

**"Şirin qızıl".** Şirkət 2017-ci ilin dekabr ayında "Şirin qızıl" layihəsinə başladı. Layihənin məqsədi Azərbaycanda neft daşınmalarının təsirə məruz qalan icmalarda gəlirlərin artırılmasıdır. Layihə çərçivəsində BTC və CQBK boru kəmərləri boyunca

yerləşən altı rayonda – Yevlax, Samux, Goranboy, Şəmkir, Tovuz və Ağstafa rayonlarında əlavə 600 arıçı yetişdiriləcək. Layihə nəticəsində, həmçinin bal arıları üçün nektar mənbəyi olacaq 60000 ağacın əkilməsi də gözlənilir.

**Layihələri İdarəetmə Məktəbi.** BP öz tərəfdaşları adından 2010-cu ilin noyabr ayında layihələrin idarə edilməsi təlimləri üzrə dünya miqyasında tanınmış "ESI İnternational" şirkəti ilə Azərbaycanda Layihələri İdarəetmə Məktəbi (LİM) təsis etmək üçün saziş imzaladı. 2016-cı ilin yanvar ayından başlayaraq bu proqram "Twenty Eighty Strategy Execution" tərəfindən həyata keçirilir. Proqram yeddi moduldan ibarətdir və beynəlxalq miqyasda tanınan Corc Vaşinqton Universitetinin layihələri idarəetmə ixtisası üzrə magistr sertifikatı verir. Fəaliyyətə başlayandan bəri LİM kurslarında özəl və dövlət sektoruna aid 141 təşkilatdan 377 təmsilçi iştirak etmişdir. Bundan əlavə Corc Vaşinqton Universitetinin dinləyicisi sertifikatını almış 357 məzundan 334 nəfəri magistr sertifikatı almışdır. BP universitet tələbələri üçün Azərbaycan Biznes Keys Müsabiqəsini dəstəkləyir. Müsabiqədə komandalar maliyyə və marketinqdən tutmuş mühasibat və menecmentə qədər sahələri əhatə edən biznes fənləri üzrə biliklərindən istifadə edərək real həyatdan götürülmüş biznes məsələlərini həll etməyə çalışırlar. Onlar öz həll yollarını Azərbaycandakı iri biznes təmsilçilərindən ibarət münsiflər heyətinə təqdim edirlər. Müsabiqədə iştirak etmək üçün Azərbaycandan 55 komanda müraciət etmişdi, onlardan dördü finala çıxdı. Müsabiqəyə hazırlaşmaq üçün tələbələr biznes keys təhlili və strategiya hazırlamaq barədə beş həftəlik məşq və praktiki təlimlərdən keçdilər. BP-nin sponsorluq töhfəsi 5 300 dollar oldu və əməkdaşların müsabiqəyə təlimçi, məşqçi və münsif kimi öz töhfələrini verdilər.

Eyni zamanda Şirkət Milli Olimpiya və Paralimpiya Komitələri ilə rəsmi tərəfdaş kimi çıxış edir. Buraya Azərbaycan Milli Olimpiya və Paralimpiya komandalarına və atletlər qrupuna sponsorluq daxildir. BP 12 – 22 mayda keçirilmiş Bakı IV İslam Həmrəyliyi Oyunlarının rəsmi tərəfdaşı olmaqdan qürur duydu. Bu tərəfdaşlıq BP-nin Azərbaycanda idmanın inkişafına dəstək verməklə bağlı öhdəliyinin bir hissəsi idi və şirkətin Azərbaycan Milli Olimpiya və Paralimpiya komitələri ilə uzunmüddətli uğurlu tərəfdaşlığını tamamlayırdı.

**Nəticə**

BP şirkəti və digər xarici neft şirkətləri ilə müttəfiqliyin Azərbaycana gətirdiyi faydalar sırasında aşağıdakıları qeyd etmək olar:

-"Əsrin Müqaviləsi" paytaxt Bakının, ölkənin regionlarının, bütünlükdə Azərbaycanın gözəlləşməsini, iri sosial layihələrin reallaşmasını təmin etdi, həm müasirlərimiz, həm də gələcək nəsillər üçün Neft Fondu formalaşdı;

- Azərbaycana müasir kəşfiyyat, neft çıxartma, istifadə və nəqliyyat texnologiyalarının ölkəyə daxil olması ilə neft sənayesinin aktivlərini yeniləmə və neft qaz sənayesinin inkişafına kömək edə biləcək müəssisələr qurma imkanı vermişdi;

- İmzalanan müqavilələr nəticəsində artan neft hasilatı, büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur;

- Azərbaycan qlobal iş güvvəsi və xammal bazarlarına daxil olabilmə və ölkənin inkişafı üçün gəlir qaynağı olaraq xammal sahəsindəki üstünlüyündən müvəffəqiyyətlə faydalanabilmə imkanını əldə etmişdir;

- Artan neft və təbii qaz hasilatı məşğulluğun artmasına, yeni infrastruktur layihələrinin həyata keçirməsinə səbəb olmuşdur və olmaqdadır;

- "Sahibkarlığın inkişafı və təlim" proqramının, "Kredit almağa dəstək" proqramının, "Ətraf mühit və onun monitorinqi", "Sözünü azad şəkildə demək mədəniyyəti və inkişaf

təşəbbüsləri", icmalarla iş, təhsilin, mədəniyyətin və idmanın dəstəklənməsi və s. bu kimi layihələrin reallaşması "Əsrin Müqaviləsi" çərçivəsində BP şirkətinin üzərinə götürdüyü öhdəliyin bir hissəsidir ki, bu gün də uğurla icra olunmaqdadır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. "Əsrin müqaviləsi", Bakı, 20 sentyabr, 1994, http://e-qanun.az
2. Mehdiyev R.Ə., İnkişafın Azərbaycan modeli, "Oskar"NPM, Bakı: 2010
3. Mikayilova N.Y., Azərbaycan iqtisadiyyatı, dərslik, Bakı:2018
4. https://www.bp.com/az_az/caspian/aboutus.htm
5. https://www.oilfund.az/
6. https://www.milli.az/

**Нурангиз Микаилова**

## РОЛЬ БП В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ АЗЕРБАЙДЖАНА

***Резюме***

В статье говорится об истории нефтяной промышленности в Азербайджане, интеграции в эту промышленность впоследствии компании БП и о полученных положительных результатах. Одновременно была исследована роль компании БП в социально-экономической жизни Азербайджана, были определены инвестиции, вложенные в Азербайджан со стороны компании БП. В то же время были проанализированы некоторое невидимые стороны деятельности компании БП в Азербайджане, в конце проведены обобщения о выгодах данной компании в страну.

***Цель*** - изучить роль ВР в социально-экономическом развитии Азербайджана в рамках «Контракта века»

***Методология*** - Использован системный подход к исследовательской работе, использованы методы экономико-статистического анализа.

***Результат*** - в Азербайджане выявлены преимущества альянса с иностранными нефтяными компаниями.

***Ключевые слова:*** Компания БП, экономический рост, развитие предпринимательства, развитие национальной рабочей силы, социальные проекты, окружающая среда

**Nurangiz Mikayilova**

## BP'S ROLE IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN

***Summary***

The article deals with the history of the oil industry in Azerbaijan, the BP's integration with this industry after gaining independence and the positive results. At the same time, studied BP's role in the socio-economic life of Azerbaijan, and determined BP's investment in Azerbaijan during its partnership. At the same time, the article analyzed some aspects of the BP's activities in Azerbaijan, and then summarized by the company's benefits to the country.

***Purpose* -** to study BP's role in the socio-economic development of Azerbaijan within the "Contract of the Century"

***Methodology* -** Systematic approach to the research work, methods of economic - statistical analysis were used.

***Findings* -** The benefits of the alliance with foreign oil companies have been identified in Azerbaijan.

***Keywords:*** BP Company, Economic Growth, Entrepreneurship Development, National Workforce Development, Social Projects, Environment

**UOT 33.63**

**Hicran Mirzəyeva**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***i.ü.f.d., dosent***
*akademiya_sm@mail.ru*

# AQRAR SAHƏDƏ BİZNESİN TƏŞKİLATİ-İQTİSADİ ƏSASLARI

*Məqalədə bazar iqtisadi sistemində kənd təsərrüfatı məhsulları istehsal və istehlakı üzrə proses və fəaliyyətlərin fərqli məcralarının reallaşdırılması məsələləri araşdırılır. Bu qarşılıqlı əlaqə zənciri istehsaldan sonrakı tədarük-satış mərhələlərini əhatə edən aqrobiznesin təşkili və idarə olunması üzrə istehsalın səmərəliliyinin yüksəldilməsini şərtləndirir. Eyni zamanda məqalədə yeni istehsal münasibətləri şəraitində aqrobiznesin mahiyyəti, səmərəli təşkilində dövlət tənzimlənməsinin rolu araşdırılır.*

***Məqsəd*** - aqrobiznesin mahiyyətini açmaq, bu sahədə səmərəli fəaliyyətin qurulması prinsiplərini tədqiq etmək və burada dövlətin rolunu əsaslandırmaqdan ibarətdir.

***Metodologiya -*** kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin artırılmasında iqtisadi – statistik modeldən istifadə edilmişdir.

***Tədqiqatın nəticələri -*** Kənd təsərrüfatı məhsullarının istehsal və realizasiyasında kiçik sahibkarlığın formalaşması üçün əlverişli şəraitin təmin edilməsindən ibarətdir.

***Açar sözlər:*** aqrar islahat, kiçik ölçülü təsərrüfatlar, ailə-kəndli təsərrüfatları, fermer, kooperasiya-inteqrasiya, dövlət tənzimlənməsi.

## Giriş

Ötən əsrin 80-ci illərinin sonlarından etibarən sosialist təsərrüfatçılıq sisteminin tənəzzülə uğraması, sovetlər ittifaqının dağılması çoxsaylı müstəqil dövlətlərin yaranması ilə nəticələndi. Azərbaycan da XX əsrin sonlarında bu konteksdə öz müstəqilliyini bərpa etdi. Lakin heç bir iqtisadi bazası olmayan ölkənin suverenliyinin təmin olunması ciddi problemlər yaradırdı. Erməni faşizmi tərəfindən başladılmış müharibə vəziyyəti daha da gərginləşdirirdi. Belə bir agır şəraitdə xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə qayıdan Ulu Öndər H.Əliyev ölkənin milli təhlükəsizliyinin iqtisadi təhlükəsizlikdən asılı olduğunu əsas götürərək bazar iqtisadiyyatına keçid məsələsini ortaya qoydu.

Beləliklə, ilkin olaraq aqrar sahədə islahatlara başlanıldı. Azərbaycanda aqrar islahat nəticəsində özəl təsərrüfatçılıq sisteminə keçilməsi kollektiv təsərrüfatçılığa (kolxoz) və dövlət sahibkarlığına (sovxoz) əsaslanan iri kənd təsərrüfatı müəssisələrinin torpağının və digər mülkiyyətinin kənd əhalisi arasında əvəzsiz paylanması ilə nəticələndi. Başqa sözlə, iri istehsal müəssisələrinin əvəzinə çoxsaylı xırda əmtəə istehsalçıları meydana gəldi. Bunlardan 71,3%-nin 3,0 ha qədər, 17,1%-nin 3,0-4,9 ha, 8,4%-nin 5,0-9,9 ha, 2,2%-nin 10,0-19,9 ha, 1%-nin 2,0-50 ha və 0,4%-nin isə 50,0 ha-dan yuxarı torpaq payları vardı.

Aqrar islahatın ilkin mərhələsində məhsul istehsalında irəliləyişin olması ilə qismən özünü doğrultsa da bu kiçik və özəl təsərrüfatlar məhsuldarlığın aşağı olması, istehsal xərclərinin yüksəkliyi, investisiya cəlbediciliyinin olmaması səbəbindən geniş təkrar istehsalı təmin edə bilmədilər. Belə bir mühitin yaranması qeyri-adi hal deyildi, çünki oxşar islahat prosesini həyata keçirən ölkələr üçün keçid iqtisadiyyatlı ölkələrin böyük əksəriyyətində bu kimi vəziyyətlərə rast gəlinmişdir. Adətən bu kimi hallarda yeganə çıxış yolu – formaları və ölçüləri müxtəlif olsa da mahiyyətcə eyni olan təsərrüfatları birləş-

dirərək optimal ölçülü təsərrüfatlar yaratmaqdan, müştərək fəaliyyət göstərən sahibkarları formalaşdırılmaqdan ibarət olmalıdır. Bu əsasda islahatların başlanğıcından keçən 15 illik təcrübə əsasında hazırda respublikada iri fermer təsərrüfatlarının yaradılması, xidmət sahələrinin genişləndirilməsi və kooperasiya-inteqrasiya münasibətlərinin inkişafı istiqamətində mühüm işlər görülür, müsbət nəticələr əldə olunur.

**1. Yeni təsərrüfatçılıq formaları**

Azərbaycan kənd təsərrüfatı qismində artıq dayanıqlı inkişaf trendinə malikdir. Ölkənin ərzaq təminatında yerli istehsal həlledici üstünlük qazanmışdır. Kənd təsərrüfatı və ərzaq məhsullarının illik istehsal artımı ölkə əhalisinin artım tempini üstələyir (cədvəl 1)

*Cədvəl 1*

**Əsas kənd təsərrüfatı məhsullarının istehsalı və məhsuldarlığı**

| | 2017-ci il | 2018-ci il ilkin məlumat | 2018-ci ildə 2017-ci ilə nisbətən | |
|---|---|---|---|---|
| | | | % | +, - |
| **İstehsal, ton** | | | | |
| Taxıl-cəmi*) | 2 928 845 | 3 309 244 | 113,0 | 380 399 |
| Pambıq | 207 525 | 232 231 | 111,9 | 24 706 |
| Dən üçün günəbaxan*) | 30 607 | 24 288 | 79,4 | -6 319 |
| Şəkər çuğunduru*) | 434 993 | 299 449 | 68,8 | -135 544 |
| Tütün | 5 316 | 6 315 | 118,8 | 999 |
| Kartof | 913 899 | 898 914 | 98,4 | -14 985 |
| Tərəvəz | 1 405 619 | 1 521 931 | 108,3 | 116 312 |
| Bostan məhsulları | 438 080 | 401 943 | 91,8 | -36 137 |
| Meyvə və giləmeyvə | 954 785 | 1 010 816 | 105,9 | 56 031 |
| Üzüm | 152 843 | 167 591 | 109,6 | 14 748 |
| Yaşıl çay yarpağı | 775,2 | 868,6 | 112,0 | 93,4 |
| **Məhsuldarlıq, sent/ha** | | | | |
| Taxıl-cəmi*) | 29,8 | 30,0 | 100,7 | 0,2 |
| Pambıq | 15,3 | 17,5 | 114,4 | 2,2 |
| Dən üçün günəbaxan*) | 20,1 | 20,6 | 102,5 | 0,5 |
| Şəkər çuğunduru*) | 316 | 350 | 110,8 | 34,0 |
| Tütün | 16,6 | 19,0 | 114,5 | 2,4 |
| Kartof | 150 | 149 | 99,3 | -1,0 |
| Tərəvəz | 155 | 163 | 105,2 | 8,0 |
| Bostan məhsulları | 187 | 191 | 102,1 | 4,0 |
| Meyvə və giləmeyvə | 68,4 | 68,0 | 99,4 | -0,4 |
| Üzüm | 84,1 | 92,8 | 110,3 | 8,7 |
| Yaşıl çay yarpağı | 11,1 | 11,1 | 100,0 | 0,0 |
| **Heyvandarlıq məhsulları istehsalı, ton** | | | | |
| Ət (diri çəkidə) | 540 536 | 556 644 | 103,0 | 16 108 |
| Ət (kəsilmiş çəkidə) | 316 827 | 326 024 | 102,9 | 9 197 |
| Süd | 2 024 143 | 2 080 410 | 102,8 | 56 267 |
| Yumurta, min ədəd | 1 714 024 | 1 674 747 | 97,7 | -39 277 |
| Yun | 16 040 | 15 849 | 98,8 | -191 |
| Barama | 245,2 | 513,9 | 2,1 dəfə | 268,7 |

*) ilkin çəkidə

*Mənbə: "Regionların sosial-iqtisadi inkişafı" Statistik məcmuə, 2019*

Cədvəldən göründüyü kimi kənd təsərrüfatında özəl sahibkarlıq mühitində məhsul artımı əsasən məhsuldarlığın yüksəldilməsi hesabına əldə edilmişdir. Təbii ki, potensial məhsuldarlıqdan qat-qat aşağı olan bu artım əksəriyyəti ailə-kəndli kateqoriyasından olan istehsalçıların özünü maliyyələşdirmə problemlərinin həllinə həlledici şərait yaratmır. Sahənin inkişafına yönəldilmiş dövlət dəstəyinə baxmayaraq ixrac potensialından istifadə istənilən səviyyəyə çatmamışdır.

Dünya praktikasında fermer təsərrüfatları kənd yerlərində sahibkarlıq fəaliyyətinin sivil formalarından biri hesab edilir. Aqrar sahədə sağlam rəqabət mühiti fermer təsərrüfatlarının inkişafından asılı olur. Bu təsərrüfatlar vətəndaşların layiqli həyat səviyyəsini və ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə aqrar-sənaye kompleksində əsaslı aqrar dəyişikliklərin və sosial-iqtisadi potensialın reallaşdırılma vasitəsi kimi də qiymətləndirilir.

İqtisadi münasibətlərin sahibkarlıq təsərrüfatçılıq sistemi özlüyündə rəqabət mübarizəsinin strategiya və taktikasının işlənib hazırlanmasını, sərmayə qoyuluşu və qoyulmuş kapitalın optimal müddətlərdə əvəzinin çıxarılmasını, tələbin müəyyən edilməsini, bazar konyukturunun və təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsini, bir sözlə, biznesin iqtisadi sərbəstliyinin və mütərəqqiliyinin qorunmasını şərtləndirir.

Məlumdur ki, təsərrüfatçılıq sisteminin formlaşmasına bir sıra amillər təsir göstərir. Bu amillər iki qrupa bölünür:

- sistemin cari vəziyyətinin qorunub saxlanmasını təmin edən amillər (fəaliyyət amilləri);
- sistemin inkişafını, müəyyən hədəflərə nail olunmasını təmin edən amillər (inkişaf amilləri).

Aqrobiznes sistemində sahibkarlıq fəaliyyətinin inkişafını təmin edən amillər sırasına eyni zamanda aşağıdakı sistem komponentlərinin daxil edilməsi də tövsiyə olunur:

- ixtisaslaşma, kooperasiyalaşma, inteqrasiya və təmərküzləşmə prinsipləri;
- intensiv idarəçilik prinsipləri;
- texnika və texnologiyadan istifadə intensivliyi; (1)

Qeyd edilənlərlə yanaşı sistemin formalaşdırılmasında təbii, bioloji, siyasi, elmi-texniki, sosial – demoqrafik, təşkilati-hüquqi, iqtisadi xarakterli sistemyaradıcı tərkib hissələri ilə dialektik qarşılıqlı vəhdətdə olan sistem komponentlərinin də nəzərə alınması zəruridir.

Kənd təsərrüfatında mütərəqqi azad sahibkarlıq qurumlarından biri kimi fermer təsərrüfatında istehsal kollektivinin əsasını ailə - kəndli təsərrüfatları təşkil edir. Burada istehsalçı eyni zamanda həm işəgötürən, həm də muzdlu işçi rolunda çıxış edir. Torpaq islahatında və torpaq paylarının ayrılmasında bu kimi təsərrüfatların yaradılmasının sosial hədəfi – öz əməyinin nəticələri barəsində sərəncam vermə hüququnu formalaşdıran sahibkarlıq hissini aşılamaqdan ibarətdir. Fermer təsərrüfatları könüllülük qaydasında, üzvlərin şəxsi ərizələri, müvafiq əmlaka ömürlük sahiblik hüququnu təsdiq edən dövlət aktları əsasında yaradılır və bu aktlar fermer təsərrüfatının yaradılması faktını təsdiq edən əsas sənəd sayılır.

Keçid iqtisadiyyatlı ölkələrin böyük əksəriyyətində kəndli – ailə təsərrüfatları, Qərbi Avropada isə cuzi bir qrup təşkil edən yarıkapitalist təsərrüfatlar fəaliyyət göstərir. Məhz bu baxımdan, fermer təsərrüfatlarına kəndli təsərrüfatlarının digər növlərindən özünün böyük ölçülərinə, istehsal edilən və realizə olunan məhsulun həcminə, əmtəəliyin daha yüksək səviyyəsinə, daha məhdud ixtisaslaşmaya, kənd təsərrüfatında məşğulluğun daha yüksək həddinə və hüquqi şəxs yaratmaqla istehsal prosesinin daha yaxşı təşkili meyarlarına görə fərqlənən bir növü kimi tərif verilir.

**2. İstehsal münasibətlərinin formalaşdırılmasının əsas prinsipləri**

Ümumiyyətlə, fermer təsərrüfatı kateqoriyasının qanunverici və elmi-nəzəri səviyyələrdə tərifləri çoxdur. Bu təriflər əsasən torpağa sahiblik və əməyin nəticələri barəsində sərəncam vermək hüququ kimi anlayışlarla bağlıdır. Adətən fermer təsərrüfatı dedikdə, bir qayda olaraq, həyat və məişətləri əmtəəlik kənd təsərrüfatı məhsulları, ərzaq və xammal istehsalına, bütövlükdə təsərrüfatın və onun üzvlərinin rifahını təmin etmək məqsədi ilə gəlir əldə edilməsinə yönəldilmiş şəxsi əmlakla bağlı olan kənd sakinlərinin ailəvi iş birliyi başa düşülür.

Rəqabət mühitində fəaliyyət göstərən və müvafiq surətdə inkişaf etmiş fermer təsərrüfatının bazar infrastrukturu dedikdə, üfüqi kooperasiya və şaquli inteqasiya ilə ilk növbədə şəxsi təsərrüfatlara, kəndli təsərrüfatlarına və fermer təsərrüfatlarına xidmətlər göstərən koopreasiya strukturlarına malik olan ailəvi əmək müəssisəsi başa düşülür. Bu infrastruktura malik olmayan fermer təsərrüfatları, öz fəaliyyətlərində uzunmüddətli səmərəliliyi təmin edə bilmirlər. Çünki, fermer təsərrüfatları ailə-kəndli təsərrüfatlarından qismən imkanlı olsalar da ölçüsü o qədər də böyük olmayan, texniki vasitələrdən istifadə səviyyəsi çox aşağı olan qrumlardır. Bu səbəbdən, belə təsərrüfatlar bütün texnoloji əməliyyatları şəxsi texniki vasitələri ilə yerinə yetirmək iqtidarında olmur və rəqabətqabiliyyətli istehsala nail ola bilmirlər.

Fermer təsərrüfatına xas olan cəhətlərdən biri də onların ənənəvi istehsal formaları ilə müqayisədə xeyli kiçik miqyasda natural əmtəə təsərrüfatının xüsusiyyətlərini özündə birləşdirmələridir.

Bir çox tanınmış tədqiqatçıların qeyd etdiyi kimi, fermer təsərrüfatlarının sabit, davamlı və səmərəli fəaliyyəti çox cəhətdən dövlətin maddi və maliyyə köməyi ilə səciyyələnir. Təsərrüfatın səmərəli idarə edilməsi üçün fermer müəyyən şəxsi keyfiyyətlərə, məsələn, ixtisaslaşma, iş təcrübəsi, kənd həyat tərzini qəbul etmək kimi xüsusiyyətlərə malik olmalıdır. Bu zaman ilk növbədə rəqabət mühiti və bazar infrastrukturu yaradılmalıdır, onda hətta xırda fermer təsərrüfatları da ailə-kəndli təsərrüfatları kimi gəlirlə işləyə bilərlər. Yəni, fermer fəaliyyətinin səmərəliliyini təmin edən əsas amil məhz rəqabət mühiti və təşkilati xarakteristikaların parametrlərinə riayət edilməsi ilə şərtlənir.

Kəndli sahibkarlar tərəfindən rəqabət konfiqurasiyasının kooperasiya formalaşmaları ilə qarşılıqlı təsirdə olan istehsal strukturları şəklində təşkil edilməsi probleminin həllində, iqtisadiyyatın başqa sahələri (fermer təsərrüfatlarını istehsal vasitələri ilə təchiz edən sənaye, məhsulun tədarükü, emal edilməsi, saxlanması, daşınması, realizə edilməsi sahələri) ilə iqtisadi cəhətdən əsaslandırılmış və səmərəli sahələrarası əlaqələrin qurulmasının da böyük əhəmiyyəti vardır. Fermer təsərrüfatlarının fəaliyyətinin səmərəliliyi və bazar münasibətləri şəraitində aqrobiznesin formalaşması sahələrarası qarşılıqlı əlaqələrin əsaslandırılma dərəcəsindən asılı olur. Fermer təsərrüfatlarının optimal fəaliyyət dairəsi aqrobiznesin təşkilatı strukturunda təzahür edir.

Aqrobiznes dedikdə, fermer təsərrüfatlarının maksimum gəlir əldə etmək məqsədilə kənd təsərrüfatı xammalının və qida məhsullarının istehsalı, saxlanması, emalı və realizə olunması üzrə bütün əməliyyatların məcmusu başa düşülür. Məlumdur ki, texnoloji və təşkilati baxımdan qarşılıqlı əlaqəli olan sənaye, nəqliyyat və ticarət sahələrinin kənd təsərrüfatı ilə bu şəkildə əlaqələndirilməsi "şaquli inteqrasiya" adlanır. Bu halda xammal istehsalından hazır məhsulun istehlakçıya çatdırılmasına qədər bütün texnoloji proseslərin vəhdəti və fasiləsizliyi təmin olunur. Aqrosənaye inteqrasiyasının ən geniş yayılmış müqavilə əsaslı forması – sənaye və ticarət şirkətləri və müvafiq kooperativlərlə fermerlərin qarşılıqlı inteqrasiyasıdır.

Aqrar islahatlar şəraitində iqtisadi münasibətlər sisteminin təkmilləşdirilməsinin

mahiyyəti kənd təsərrüfatı əmtəə istehsalçılarının mənafelərini müdafiə etməkdən, onların şaquli tipli inteqrasiya proseslərinə və xidmətlər təqdim edən kooperativ müəssisələrin yaradılmasına cəlb edilməsindən ibarətdir. Bu, iri həcmli aqrobiznesin üstünlüklərindən isfadə etməyə imkan verəcəkdir. İri təsərrüfatlar böyük həcmli alqı-satqı əməliyyatları aparmaq, faiz dərəcəsi yüksək olmayan kreditləri almaq imkanı və sair üstünlüklərə malik olduqlarından xırda təsərrüfatlar da kooperasiya yolu ilə bu üstünlüklərdən yararlana bilərlər. Bir çox hallarda eyni sahəyə aid müəssisələr əksər hallarda iri həcmli müəssisə yaratmaq üçün deyil, məhsulun müxtəlifliyi hesabına daha çox qənaətə nail olmaq məqsədilə birləşirlər. Məhsulun hər hansı çeşidi üçün qənaətə üstünlük verilməsi başqa mallara tələbatı və nəticə etibarilə məhsulun müxtəlifliyi hesabına xammala qənaət edilməsinə imkanlar aça bilər. Eyni tipli müəssisə və istehsalatların (məsələn, yem istehsalçıları və heyvandarlıq kompleksləri, fermalar, tədqiqat müəssisələri, damazlıq heyvandarlıq müəssisələri və s.) sahələrarası kooperasiyası kimi üfüqi inteqrasiya kənd təsərrüfatı məhsulları istehsalının klaster formasında təşkilinin tərkib elementi hesab edilir.

İqtisadiyyatın aqrar sektorunun sağlamlaşdırılması və eyni zamanda vasitəçilik əlaqələrinin aradan qaldırılması üçün klaster qurumlarından əlavə, inteqrasiya edilmiş müasir birliklər-açıq səhmdar cəmiyyətləri formasında aqrar-sənaye-maliyyə qrupları da yaradıla bilər.

İnkişaf etmiş ölkələrdə fermer təsərrüfatlarının həcmi artırılmadan istehsalın artırılmasına nail olmağa yönəlmiş tədbir kimi, kənd təsərrüfatı kooperativləri və şaquli inteqrasiyalı başqa fermer strukturları arasında müxtəlif vasitəçilik əlaqələri kifayət gədər geniş yayılmışdır. Kənd təsərrüfatı məhsullarının tədarükü, emalı, topdan və pərakəndə satışı üzrə kooperativlər daha geniş yayılmışdır. Məsələn, Yaponiya, İslandiya, Niderland, Finlandiya və Danimarkada əmtəəlik südün 90-100%-i, Skandinaviya ölkələrində kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlarında realizə edilmiş südün və ətin 80%-i kooperativlər tərəfindən emal edilir. Kooperativlərin digər qrupu fermer təsərrüfatlarını istehsal resursları ilə (İsveçdə və Finlandiyada - texnikanın 60 %-i, Fransada və AFR-də gübrələrin və yemlərin 50 %-i, Fransada-toxumluq taxılın üçdə iki hissəsi, Niderlanddagübrələrin 33 %-i və yemin 55 %-i) təmin edir və ya kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərini (məsələn, kartof, taxıl, müxtəlif bitkilərin toxumları, damazlıq mal-qara və s.) yetişdirir və reallaşdırır.

Kooperasiya hərəkətinin inkişafı kooperativlər arasında qarşılıqlı əlaqələr sisteminin təkmilləşdirilməsi-şaquli inteqrasiya ilə bağlıdır. Bu halda bir qrup kooperativ məhsulun istehsalı və bölgüsü üzrə inteqratorun iqtisadi funksiyalarını yerinə yetirir, aqrosənaye birliklərində isə bütün bu funksiyalar şaquli istiqamətdə, yəni bir firma-inteqrator tərəfindən həyata keçirilir (2). Məsələn, südçülük istiqaməti üzrə belə kooperasiya birlikləri südün emalı və satışından əlavə süd fermalarının zəruri avadanlıqlarla təchizatı ilə məşğul olur, damazlıq təsərrüfatlarının işinə nəzarət edir, məsləhət xidmətləri və bir sıra başqa xidmətlər də təqdim edə bilir.

Təhlillər göstərir ki, iqtisadiyyatın aqrar sektorunda islahatların başlanğıcında realizə kanalları olan hər bir kənd təsərrüfatı müəssisəsinin müstəqilliyi bu müəssisələrin hamısının mənfəətlə fəaliyyət göstərməsini təmin edə bilmirdi. Yüksək səmərəliliyə yalnız müstəqil müəssisələr arasında bağlanmış sazişlər əsasında vahid sistem kimi fəaliyyət göstərən şaquli marketinq sistemləri (istehsalçılar və ya kooperativlər, topdansatış və pərakəndə satış müəssisələri) zəmanət verə bilər. Üfüqi marketinq sistemində isə eyni səviyyəli bir neçə müəssisə yeni marketinq imkanlarını mənimsəmək üçün birgə səy göstərir və öz kapitallarını, istehsal qüvvələrini və marketinq resurslarını birləşdirir. Bu halda həmin müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyinin əhəmiyyətli dərəcədə

artması müşahidə olunur. İnteqrasiya əlaqələri ilə bağlı istehsalat birlikləri halında müəssisələr öz iqtisadi müstəqilliyini, bəzi hallarda isə həmçinin hüquqi müstəqilliyini xeyli dərəcədə itirir və vahid təsərrüfat strukturu şəklində birləşə bilirlər.

Dövlətin dəstəyi ilə kooperativlər yaradılması və onların təşəkkülü perspektivi də pay torpaq sahiblərinin çoxunun inkişafına və fermer təsərrüfatlarının təşkilinə kömək edə bilər. Amma bunun üçün həmin kooperativlərin təşkilati strukturu və ilk növbədə - texniki vasitələrin əldə edilməsi üçün investisiyalara ehtiyacları ilə əlaqədar, həmçinin gələcəkdə onların özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyətinin səmərəli olacağını əsaslandıran hesablamalar aparılmalıdır.

Ümumiyyətlə, kiçik aqrar sahibkarlığın təşkilati forması kimi fermer təsərrüfatlarının formalaşması hazırda ölkəmizdə kənd təsərrüfatının inkişafında müsbət addım hesab edilir. Çünki fermerin şəxsində mülkiyyətçiyə, istehsalatın təşkilatçısına, sahibkara və işçiyə xas olan keyfiyyətlər cəmləşmişdir. Xarici təcrübə göstərir ki, məhz bu məqam, torpaqdan səmərəli istifadə məqsədilə orada təsərrüfat fəaliyyəti ilə məşğul olmağa yüksək motivasiya formalaşmasını təmin edir. Bu isə kənd təsərrüfatı məhsulları istehsalının uğurlu olması üçün əsas şərtdir.

Azərbaycanda fermer təbəqəsinin yaranması imkanının mövcudluğu iqtisadiyyatın aqrar sektorunda aparılan islahatların nəticəsidir. Bu təbəqənin yaranmasının və inkişafının elmi cəhətdən əsaslandırılmasında çoxsaylı yerli alimlər və xarici məsləhətçilər iştirak etsə də, onların da bu islahatların nəticələrinə görə hər hansı məsuliyyət daşımadıqları təbiidir. Ona görə inkişafın bu istiqamətini kompleks şəkildə qiymətləndirmək və onun yalnız torpaq paylarının birləşdirilməsi və ya kooperasiyanın inkişafı əsasında mümkün olduğunu göstərmək lazımdır. Bunun üçün istehsalçıların bir – birlərinə inam və etimadı olmalıdır, belə olduğu halda tənzimləmə vasitələrini reallaşdıra bilər.

Fermerlər təbəqəsinin formalaşmasına və inkişafına dövlət dəstəyi siyasəti özündə aşağıdakıları əks etdirməlidir:

maliyyə-kredit siyasətinin təkmilləşdirilməsi;

xarici iqtisadi fəaliyyətin stimullaşdırılması;

kənd təsərrüfatı məhsulları istehsalının mütərəqqi texnologiyalarının və başqa innovasiyaların tətbiqinə kömək;

informasiya təminatı;

kadrların hazırlanması və yenidən hazırlanması.

Bu halda kiçik və orta sahibkarlığa hərtərəfli dəstək tədbirləri mərkəzi, regional və yerli hakimiyyət orqanlarının iştirakı ilə həyata keçirilir (3).

**Nəticə**

Aqrobiznesin təşkilində və idarə olunmasında dövlət tənzimləməsinin mahiyyəti onun funksiyaları ilə müəyyən olunur. Bazar iqtisadiyyatının bütün subyektlərinin, xüsusi halda, kənd təsərrüfatı məhsullarının istehsalı və reallaşdırması sahəsində kiçik sahibkarlığın formalaşması və səmərəli inkişafı üçün əlverişli şəraitin yaradılması bu funksiyaların əhəmiyyətliliyini artırır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Гречников Н.Н. «Регулирование предпринимательской деятельности» Москва, 2002, 704 с.
2. Учебник «Организация сельскохозяйственного производства». Москва, «Колос», 2002, 503 с.
3. Salahov S.S. "Aqrar sahənin dövlət tənzimlənməsi problemləri". Bakı, 2004, 503 s.

**Мирзоева Х.А.**

# ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИЕ ОСНОВЫ БИЗНЕСА В АГРАРНОМ СЕКТОРЕ

***Резюме***

В статье исследуется реализация различных направлений процессов и видов деятельности по производству и потреблению сельскохозяйственной продукции в системе рыночной экономики. Такое взаимодействие обуславливает повышение эффективности производства в организации и управлении агробизнесом, включающего этапы поставки-продажи, следующие за производством. В то же время в статье рассматривается сущность агробизнеса в условиях новых производственных отношений, а также роль государственного регулирования в эффективной организации агробизнеса.

***Цель*** - раскрытие сущности агробизнеса, исследование принципов эффективной деятельности и роли государственной обоснованности в этой сфере.

***Методология*** **-** для повышения экономической эффективности сельскохозяйственного производства использовалась экономико - статистическая модель.

***Результат*** **-** обеспечение благоприятных условий для формирования малого бизнеса по производству и реализации сельскохозяйственной продукции.

***Ключевые слова:*** аграрная реформа, мелкие хозяйства, семейно-крестьянские хозяйства, фермер, кооперация-интеграция, государственное регулирование.

**Mirzoyeva H.A.**

# ORGANIZATIONAL AND ECONOMIC FOUNDATIONS OF BUSINESS IN THE AGRICULTURAL SECTOR

***Summary***

The article are being investigated the issues in the transition of production and consumption of agricultural products, in the process and activities in different codes to the market economy system.

The chain of interconnection conditioned the organization of agribusiness, covering the post-production management. At the same time it is being investigated the essence of agribusiness in the context of production relations and the role of effective organization of state regulation.

***Purpose*** **-** to reveal the essence of agribusiness, to study the productive principles of establishment in this field and to justify the role of the country.

***Methodology*** **-** of research is use of economic – statistical models to improve the economic efficiency of agricultural production.

***Findings*** **-** is to create favorable conditions for the establishment of small business in the production and sale of agricultural products

***Keywords*****:** agrarian reform, small-sized farms, family-peasant farms, farmers, cooperation-integration, state regulation.

**UOT 330.004**

**Niyar Umarova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***tex.ü.f.d.***
*Niyar61@list.ru*

# İNFORMASİYA CƏMİYYƏTİNDƏ İKT VƏ İQTİSADİYYATDA ROLU

*Məqalədə İC-nin məxsusi yenilikləri, milli iqtisadiyyatın inkişafı istiqamətində İKT-nin rolu, bu sahəyə dövlətin dəstəyi, qəbul edilmiş sistemli tədbirlər, İKT-nin müstəqil elm sahəsi kimi formalaşmasının iqtisadi artıma təsiri və dayanıqlı inkişafda onun rolu araşdırılmış, inkişaf indeksi göstərilmiş, bulud texnologiyası tətbiqinin üstünlükləri haqqında məlumat verilmişdir. Ölkə iqtisadiyyatının maddi əsaslarının formalaşmasında yüksək texnologiyalardan istifadə, İKT-nin cəmiyyətin iqtisadi inkişafında, idarəetmədə, rəqəmsal xidmətlərin göstərilməsində rolunun, tətbiqin üstünükləri qeyd olunmuşdur.*

***Məqsəd* -** İnformasiya kommunikasiya texnologiyalarının rəqəmsal iqtisadiyyatın inkişaf perspektivində təsirinin müəyyənləşdiriməsi.

***Metodologiya* -** İqtisadiyyatda, idaretmədə İKT-nin təsir metodlarnın işlənməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir**.**

***Tədqiqatın nəticələri* -** İKT-nin iqtisadi sahələrdə, idarəetmədə, bank sistemlərinin virtual əlaqələrində təsiri araşdırılmış, rəqəmsal iqtisadiyyatda, elektron platformada məsafəli təsir metodlarının istiqamətləri müəyyən edilmiş, inkişaf perspektivləri göstərilmişdir.

***Açar sözlər:*** İC və İKT, İnternet, elektron biznes, kosmik sənaye, rəqəmsal bank, idarəetmədə İKT, Bulud texnologiyası, kiberhücum, Forex valyuta, elektron ödəniş.

## Giriş

Müasir cəmiyyət informasiya kommunikasiya texnologiyaları tətbiqi nəticəsində informasiyanın bolluğu və dünya üzərindəki sürətli dövriyyəsi ilə seçilən cəmiyyətdir. Analitiklərin fikrinə görə XXI əsr yeni “Mindcraft” (“ağıl peşəsi”, “intellekt peşəsi”) əsrdir. Bu isə insan şəxsiyyəti ilə informasiya kommunikasiya texnologiyalarına (İKT) əsaslanan intellektual texnologiyaların vəhdətidir. Hazırki cəmiyyətdə informasiya mübadiləsində birbaşa rolu olan İKT avadanlıqlarından sərhədsiz istifadə olunması, internet əlaqələrinin sürətlə artması, şəbəkələrdən istifadəyə maraqların yaranması, yeni sosial şəbəkələrin yaradılması, virtual əlaqələrin əhatə dairəsinin genişlənməsi və istifadəsi nəticəsində dünya sürətlə qloballaşır. Yəni, mikroelektron texnologiyası, İKT sistemləri və vasitələri sürətlə inkişaf edərək tədricən cəmiyyətdə lider rolunu oynayır. Bu sahənin mütəxəssisləri, elm adamları virtual aləmlə əlaqəli geniş həcmli təcrübələr aparır, intellektual sistemlərin analizində, neyron şəbəkələrin tətbiqində çox böyük nailiyyətlər və uğurlar, yeni kəşvlər əldə edirlər. İntellektual sistemlərin təsiri və tətbiqi iqtisadiyyatda, biznesdə perspektiv imkanları yaradaraq:

- İstehsalın idarə edilməsinə
- İstehsalda planlaşdırmaya
- İstehsalda proqnozlaşdırmaya
- Satışın idarə edilməsinə

- Marketinqin, maliyyə menecmentinin inkişafına
- İstehsalda risklərin azalmasına
- Bank sahəsinin, ticarətin genişlənməsinə
- Fond birjalarının fəaliyyətinə və s. müsbət təsir edir.

İKT-dən istifadənin geniş əhatəli və digər sahələrə innovasiya olması qeyri ixtisaslı kadrlarda da bu texnologiyanın tətbiqinə çox böyük maraq yaradır. Yeniləşən texnologiyanın tətbiqi eyni zamanda yüksək keyfiyyətə, vaxta qənaət etməyə imkan yaratmaqla bərabər, həm də intellektual səviyyəni artıraraq məntiqi təfəkkürü inkişaf etdirir. İntellektual sistemlərin tətbiqinin artması, hissiyatla, düşüncə ilə idarəolunan sistemlərdən istifadə, nanotexnologi avadanlıqların yaranması və tətbiq olunması bu sahə üzrə öndə gedən istiqamətlərdən hesab edilir. İKT vasitəsilə proseslərin bilikləri sərvətə çevirməsi və əlçatan olması, fiziki əməyin intellektual əqli əməklə əvəz olunması mikroelektron texnologiyası sahəsinə xüsusi maraq yaradır. Bütün bunlar isə öz növbəsində bilavasitə iqtisadiyyata təsir edir və iqtisadi inkişafda mühüm rol oynayır. Yəni, İKT vasitələrindən düzgün istifadə günün tələbidir.

**1. İnformasiya Cəmiyyətində İKT**

Hazırki cəmiyyət informasiya cəmiyyətidir (İC). (BMT Baş Assambleyasının 27 mart 2006-cı il tarixli qərarı ilə hər il 17 may "Ümumdünya Telekommunikasya və İnformasiya Cəmiyyəti" günü kimi qeyd edilir.) İnformasiyalaşmış cəmiyyətin fundamentini elmi-texniki inqilabın yüksək pilləsi sayılan informasiya texnologiyalarına dayanan sistemlərdən istifadə, əsasını isə informasiya resursları və özünə məxsus əlaqə vasitələri təşkil edir:




İC-nin məxsusi yenilikləri, özünə xas xarakterik xüsusiyyətləri, komponentləri, göstəriciləri, müxtəlif elmi nəzəri baxışları və leksikonumuza özü ilə gətirdiyi yeni sözləri var. Məsələn, virtual valyuta, spam, forex biznesi, hostinq, patent müharibəsi, informasiya infrastrukturu, internetşünaslıq, şəbəkə münasibətləri, neyron şəbəkələr, kibercinayət, elektron demokratik təsisatlar, kiberhücum, elektron biznes, netetiket, distant təhsil, elektron hökumət, elektron ticarət və s.

Cəmiyyətdə informasiya-biliklərin rolunun artmasinda bilavasitə rolu olan İKT və İnternet əlaqələrinin təzahürü ilə informasiya mübadiləsində *çeviklik* (münasib vaxtda, yerdə və tempdə məşğul olmaq imkanı və konkret vaxtın müəyyən edilməməsi), m*odulluq*

(elektron sistem vasitəsilə müstəqil imkanın yaradılması), p*aralellik* (iş yerindən ayrılmadan, paralel olaraq əlaqənin yaradılması), *əhatəlilik* (eyni vaxtda dünyanın bir çox biznes mərkəzlərinə, verilənlər bankına müraciət etmək, şəbəkə vasitəsi ilə qarşılıqlı ünsiyyət qurmaq imkanı), q*ənaətcillik* (obyektlərdən, infrastrukturdan, nəqliyyat vasitələrindən istifadə etmədən xərclərə qənaət), t*exnolojilik* (iqtisadi əlaqələrdə yeniləşən texnogiyaların, İKT-nin yeni nailiyyətlərindən istifadə imkanı), s*osial bərabərlik* (yaşayış yerindən, sağlamlıq vəziyyətindən, maddi təminatından asılı olmadan hər kəs üçün bərabər imkanların yaradılması), b*eynəlmiləlçilik* (istənilən xidmətlər bazarında yeni nailiyyətlərinin dünya üzrə ixracı və idxalı) və s. kimi müxtəlif imkanlar yaradılır [2].

İC-nin əsas texnologiyası hesab edilən İKT iqtisadiyyatın bütün sahələrində səmərəliliyin artırılmasına imkan yaradır. Yəni, cəmiyyətin inkişaf tempinin yüksəldilməsində yeniləşən texnologiyaların rolu əvəzedilməzdir. İKT özlüyündə isə inkişaf indeksi ilə xarakerizə olunur.

İKT-nin *inkişafı indeksi* - dünya ölkələrində İKT-nin inkişaf dinamikasını xarakterizə edən əsas göstərici hesab olunur. İKT isə qarşılıqlı, görüntülü, paralel ünsiyyəti təmin edən aparat qurğularını, müvafiq proqram təminatını, telekommunikasiya sistemlərini, informasiyanın mikroelektron emalını təmin edən vasitələri özündə birləşdirir. Q*lobal sosial-texniki inqilab* kimi qeyd olunan və bizimlə paralel inkişaf etdiyinə görə daima yeniləşən *İKT* ictimai həyatın informasiyalaşdırılması prosesində ən güclü vasitədir. Bu texnologiyalardan istifadə insan potensialını inkişaf etdirərək, intellektual səviyyəni artırır və iqtisadi yüksəlişə imkan yaradır, eyni zamanda dövlət və ictimai sektorlarda mühüm rol oynayır. İnternetin informasiya resurlarindan bilik mənbəyi kimi istifadə olunur. Elektron sənəd mübadiləsi, elektron ticarət və s. müxtəlif elektron əlaqələr iqtisadiyyatın yüksəldilməsi və bütövlükdə ictimai həyatın demokratikləşməsində mühüm rola malikdir. Yəni, Amerika publisisti Piter Drakerin təbirincə desək: "Hakimiyyət və nəzarət tədricən kapital sahiblərindən bilik və informasiya sahiblərinə, onlardan effektli istifadə texnologiyalarına malik olanlara keçir". M.Kastelsə görə isə internet elektriklə ekvivalentir. (Bildiyimiz kimi ətraf aləmdə hər şey elektriklə idarə olunur, yəni, elektrikin kəsilməsi bilavasitə böhrana yol açan əsas amildir).

İKT vasitələrindən, internet şəbəkələrindən istifadənin müsbət tərəfləri ilə bərabər, bəzi təhlükəli tərəfləri, özünə xas problemləri və müəyyən çatışmamazlıqları var. Məsələn:

- Bu vasitələrə çəkilən xərclərin onun gəlirindən çox olması (bu əsasən mütəssisələr tərəfindən İKT-yə qoyuluş xərclərinin kortəbii sürətdə olmasıdır. Dünya ölkələri ildə İKT vasitələrinə 1 trl. dollardan yuxarı vəsait xərcləyir);
- Yüksək ixtisaslı kadrların azlığı;
- İnformasiya mühafizəsində yaranan problemlər və onlara qarşı yönələn kiberhücumlar və s.

Texnoloji avadanlıqlardan istifadə günün tələbidir və elektron mühitin yaradılması inkişaf etmiş ölkələrdə vacib rol oynayır. Lakin, İC-yə xas olan və son zamanlar kütləvi informasiya vasitələrində tez-tez rastlaşdığımız kiberhücumların vurduğu zərərlərə aid informasiyalara daha çox rast gəlirik. Bu isə iqtisadiyyata bilavasitə mənfi təsir edən vacib amillərdəndir. İnternet üzərindən informasiyalara yönələn hücum informasiyaların oğurlanmasına (məsələn, 2016-cı il ərzində "FriendFinder Netwoks", "MySpace", "Yahoo" şirkətlərindən 2,2 milyard informasiya, "Skimming" şirkətidən 482, "Fishing" şirkətindən 203 məlumat sızması olmuşdur. 2015-ci ildə oğurlanmış parolların sayı təqribən 151 milyon olmuş, 2017-cı ildə isə 3,2 milyarda qədər artmışdır), virus zərbələrinə (məsələn, 2017-ci il 12 may tarixində beynəlxalq kiber məkanda "WannaCry" adlandırılmış qlobal virus epidemiyası qeydə alınıb), milyardlarla zərərlərə (məsələn, Symantec şirkətinin

hesabatına əsasən 2017-ci ildə kiberhücumlar 158 milyard dollar ziyan vurmuşdur. Amerikanın "Seba Security Sevice" tədqiqat şirkətinin araşdırmalarına əsasən kiberhücumlar 2016-cı ildə 40 saniyə fasilə ilə dünya biznesinə hücum edirdisə, 2021-ci ildə isə bu müddət 10-11 saniyə aralığında olacaq) səbəb olmuşdur.

Avtomatlaşdırmada, idarəetmə sahəsində yeniliklərin yaranması və onların məsafəli idarə olunması, əlaqələrin bir mərkəzdə birləşdirilməsi, iqtisadi araşdırmaların aparılması İC-də günün tələbidir. Bu proseslərin həyata keçirilməsində isə əsas vəzifə İKT sektorunun üzərinə düşür. Yəni, İKT sisteminin, vasitələrinin tətbiqi iqtisadiyyatda informasiya mübadiləsinə əsaslanan informasiya sektoru və informasiya iqtisadiyyatının daha sürətlə inkişaf etməsinə səbəb olur.

(İnformasiya iqtisadiyyatı İKT tətbiqinin təzahürü ilə informasiya gəlir gətirən obyektə çevrilərək, yeni bir sahənin, informasiya iqtisadiyyatı sahəsinin yaranmasına səbəb olmuşdur [2]. Bu termin XX əsrin 70-ci illərində M.Porat tərəfindən istifadə edilmiş və K. Erroy və C. Stenqli tərəfindən şərh edilmişdir. Müasir iqtisadi inkişafın, istehsalın əsas faktorları isə torpaq – kapital - əmək və *informasiya* ardıcıllığından asılıdır.)

İC-ində fiziki əməyin intellektual əməklə əvəz olunması elektron biznesi inkişaf etdirir, bu isə öz növbəsində iqtisadiyyata müsbət təsirini göstərir. (Elektron biznes elektron ticarətə əsaslanan biznesdir.) Hazırda şəbəkə üzərindən açılan netetiket (virtual məkanda firmalara uyğun etiketin qəbul olunması və təstiqlənməsi), məsafədən təhsilə imkan verən distant təhsil, elektron portalları özündə birləşdirərək zaman və məsafəli məkan problemlərində itirilmələrin qarşısını həll edən elektron hökumətin tətbiqinə bütün sahələrdə rast gəlirik.

XX əsrdə dünya iqtisadiyyatının bünövrəsini əsasən neft, qaz, qızıl təşkil edirdi. XXI əsrdə isə əlavə olaraq iqtisadiyyatının bünövrəsində yeniləşən mikroelektron texnologiyası və onun müvafiq sistemləri, proqramları dayanır. Yəni, İKT müasir cəmiyyətin formalaşmasında əsas yeri tutur.

XXI əsr İC əsridir. İC-də şəbəkə əlaqələri və ondan istifadə əsas rol oynayır. Çünki, internet inkişafda olan ölkələrin qarşılıqlı əlaqəsinə imkan yaradır. Şəbəkələr üzərindən aparılan qarşılıqlı əlaqələr və e-kommersiya günü-gündən artır. İKT-nin tətbiqindən yararlanaraq Nyu-York, London, Tokio, Dubay və s. yerlərdə dünya bazarları, birjalar, ümumdünya ticarət təşkilatları ani vaxt ərzində virtual əlaqə yaradaraq, iqtisadi tempə bilavasitə təsir edir.

Hazırda internet üzərindən alış-veriş, məqsədyönlü informasiyaların alınması və sosial şəbəkələrdən istifadə ən aktiv sahələrdən hesab edilir. Məsələn, təqribən 59 faiz insan bir neçə sosial mediyadan paralel istifadə edir, və yaxud maşın alqı-satqı proseslərdə insanlarin 89 faizi internetdən yararlanır, 91 faiz insan gündəlik informasiyanı internetdən alir və s.

Müasir cəmiyyətə xas olan intellektual əməyin fəaliyyət dairəsini genişləndirmək, dünyada tanınmaq və mənfəət əldə etmək üçün internet üzərindən reklam aparılır, çünki, bu zaman:

1. İnternetdə (sosial mediada və s.) istifadə olunan reklamlarin aktivliyi preduktlarin satisini artirir
2. Markanin adi güclənir
3. Etibarliliq artir
4. Dünyaya çıxışa imkan yaradılır
5. Pula (məsələn, yol xərcləri) qənaət olunur
6. Vaxta qənaət (məsələn, sosial media üzərindən xususi anket doldurmaqla) edir və s.

İC-də qloballaşan dünya bazarı ilə ayaqlaşmaq və onun tələbatını təmin etmək üçün

mərkəzləşdirilmiş idarəetmə sistemlərindən istifadə çox vacibdir, burada da əsas rolu İKT sistemləri təşkil edir.

**2. Azərbaycanda İKT və iqtisadiyyatda rolu**

Yeniləşən informasiya emalı texnologiyalarına yiyələnmək və tətbiq etməyi bacarmaq, yenisini yaratmaq, savadlı kadrlar hazırlamaq ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan amillərdəndir. İnsanın həyat fəaliyyətində lazımi məsələlərin emalı proseslərində İKT zaman və məkan problemlərini minimum səviyyəyə endirir. Bu texnologiyanın tətbiqi və istifadəsi qarşılıqlı şəkildə sürətli informasiya mübadiləsinə imkan yaradır. Müasir mikroprosessor sistemlərinin, kommunikasiya rabitə texnologiyalarının inkişafı, tətbiqi olmasaydı, yəqin ki, müasir (hazırkı) İC olmazdı.

Ölkəmizdə İC və İKT-nin inkişafı, tətbiqi ilə əlaqədar olaraq müəyyən qərarlar qəbul edilir və cəmiyyətin inkişaf tempinə uyğun daim yenilənir. Hazırda Azərbaycan Respublikasında İKT müstəqil və yeni elm sahəsi kimi formalaşır.

Azərbaycan Qafqaz regionunda ilk süni peyki olan ölkə olmaqla bərabər, həm də regional kosmik sənaye mərkəzinə çevrilir.

ABŞ-ın "Orbitral Sciences Corporation" şirkəti tərəfindən istehsal olunan İlk "Azerspace -1" süni peykimiz (ümumi dəyəri 232.93 mln. dollar, bir il müdətində sığortası 17,41 mln. dollar, istismar-fəaliyyət müddəti 15 il, çəkisi isə 3,2 ton) Fransadan 08.02.2013-cü ildə orbitə buraxılmışdır. Peykin 2017-ci ildə gəliri 23 mln. dollar olmuşdur (9 mln. dollar "Azersky" peykinin, 14 mln. dollar "Azerspace-1" peykinin gəliridir). 2018-ci ilin iyuluna kimi "Azərspace-1" və yer səthinin məsafədən müşahidə peyki "Azersky" peyklərinin gəliri 12,7 mln. dollar olmuşdur [5].

Peykimizdən gəlir gətirən ölkələr
(2018-ci ilin birinci yarısında 12,7 mln. $.

| Ölkələr | Gələn gəlir mln.$. |
|---|---|
| Malaziya | 4,2 mln. $. |
| Fransa | 5,7 mln. $. |
| BƏƏ | 0,74 mln. $. |
| Almaniya | 0,476 mln. $. |
| Gürcüstan | 0,292 mln. $. |




Əhatə zonası isə Avropa ölkələri, Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq və Afrika ölkələri olan süni peykimizin (peykin fəaliyyətinə Malayziya, Azərbaycan və Naxçıvan Muxtar Respublikasından (ehtiyat idarəetmə mərkəzi) üç məntəqə nəzarət edir. İqtisadi cəhətdən gəlirin 20%-i ölkənin ehtiyatlarının ödənilməsi üçün, 80%-i isə kommersiya məqsədlidir) imkanlarına aiddir:

- Rəqəmsal TV xidmətlərinin göstərilməsi
- VSAT multiservis şəbəkələrinin yaradılması
- Məlumatların ötürülməsi
- Hökumət rabitəsinin təşkili və s.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin (qafqazın ilk peyk operatoru olan bu cəmiyyət 2010-cu ilin mayında yaradılıb, 2017-ci ildə kommersiya fəaliyyətindən gələn gəliri 23 milyon dollar olmuşdur) sifarişi ilə Kanadanın "Space Systems Loral" şirkəti tərəfindən istehsal olunan və 2018-ci ilin sentyabrında orbitə buraxılan "Azerspace – 2"

(“Azerspace – 2”/İntelsat 38”) süni peykimizin əhatə dairəsi Avropa, cənub-şərqi Asiya, Yaxın Şərq və Afrika ölkələridir. Qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayan və istismar-fəaliyyət müddəti 15 il nəzərdə tutular süni peykimizin imkanlarına aiddir [5]:

- Rəqəmsal teleradioyayım xidmətləri
- İnternet şəbəkəsinə daxil olma xidmətləri
- Məlumatların ötürülməsi
- VSAT multiservis şəbəkələrinin yaradılması və s.

Yeniləşən informasiya emalı texnologiyalarına yiyələnmək, tətbiq etməyi bacarmaq, yenisini yaratmaq, savadlı kadrları hazırlamaq ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan amillərdəndir.

Ölkəmizdə İC və İKT-nın inkişafı və tətbiqinə lazımi maliyyə dəstəyi göstərilərək, işgüzar mühit yaradılır, ona görə də hazırda Azərbaycanda İKT müstəqil sahə kimi inkişaf edir. Ölkə iqtisadiyyatının maddi əsaslarının formalaşmasında yüksək texnologiyaların rolu, tətbiqi və düzgün istifadəsi əvəzedilməzdir. E-hökümətin fəaliyyəti, e-verginin yaradılması, e-imzanın, e-təsisatların mobillə əlçatan olması bu sahəyə xüsusi maraq yaradır.

Yüksək texnologiyalara əsaslanan istehsal sahələri sürətlə inkişaf edir. İqtisadi inkişafda İKT neftdən sonra əsas yer tutmağa başlamışdır. Azərbaycanın İKT sahəsində son 10 il üzrə orta illik artım tempi 20-30% təşkil edib.

Yeniləşən texnologoyanın tətbiq olunmasına şəraitin yaradılması və bu sahənin inkişafı üçün Azərbaycan Respublikasında müxtəlif istiqamətli bir çox işlər görülür. Məsələn, İKT-dən istifadə üçün əlverişli mühitin yaradılması, İKT sənayesinin (yəni, İKT məhsullarının istehsalı) inkişaf etdirilməsi, milli proqram vasitələrinin yaradılması, informasiya təhlükəsizliyinin təmin olunması, ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyası və s.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2013-cü il 16 yanvar tarixli 2664 nömrəli Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında *"İnformasiya-kommunikasiya texnologiyaları ili"* elan edilmişdir.

Cənubi Qafqaz regionunun TİER III beynəlxalq sertifikatlı yeganə Data Mərkəzi Azərbaycanda fəaliyyət göstərir və işləmə səviyyəsi 99,982 faizə bərabərdir. Müştərilər yalnız istifadə etdikləri resurslara görə ödəniş edirlər. İstənilən qurumlar bu mərkəzin xidmətlərindən yararlana bilər, çünki, burada ən son elmi-texniki yeniliklərə əsaslanan İKT-nin geniş tətbiqinə xüsusi diqqət yetirilir. Data Mərkəzi ölkə səviyyəsində kompleks İT xidmətləri göstərir və şirkətlərə kapital xərclərini sıfıra endirməyə, istismar xərclərini isə 30-40 faiz azaltmağa imkanı yaratmaqla məhsuldarlığı artırır, biznesə kömək edir [6].

**Bir neçə dövlət qurumlarını bir mərkəzdə cəmləşdirməyi bacaran** “Asan xidmət” 13 iyul 2012-ci ildə yaradılmışdır. Yaranmasından qısa vaxt keçməsinə baxmayaraq “Asan xidmət”-in iş funksiyasını bir çox Avropa ölkələri öyrənir. 2014-cü ilin fevralında Avropada keçirilən konfransda Azərbaycan “Asan imza” – “mobil imza”, “rəqəmsal imza” mövzusunda uğurla çıxış edərək, bu sahəyə aid maraqlı məlumatlar vermiş, eyni zamanda “Asan xidmət”-ə aid yeni texnologiyaya əsaslanan video görüntülər təqdim etmişdir. Bu sahə üzrə Estoniyalı mütəxəssis Yana Krimpe əlçatmazlığı təmin edən “Asan xidmət”-i *“Azərbaycanın brendi”* adlandırmış və “Mobil imza”, “Asan imza” sistemlərinin fəaliyyətini yüksək qiymətləndirmişdir. Bu texnologiyanın tətbiqinin üstünlüklərindən biri də vaxta qənaəti təmin etməklə təhlükəsiz və keyfiyyətli audit xidmətini yarada bilməsidir. Digər tərəfdən “elektron xidmət” “mobil xidmətə” çevrilir. (Ölkəmiz bu sahə üzrə hələ ki, dünyanın 79 ölkəsi ilə qarşılıqlı, 43 ölkə ilə isə birbaşa əməkdaşlıq edir.)

Azərbaycan iqtisadi inkişafda dünya sisteminin təcrübəsini daim öyrənir. Hazırda

vahid bazarın rəqəmsal strategiyası ən vacib amillərdəndir**.** Texniki hazırlıq elektron tarazlığın yaradılmasına şərait yaradır, rəqəmsal platforma inkişaf edir.

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyaları Nazirliyinin tabeliyində fəaliyyət göstərən *"İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu"* Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 15 mart tarixli 2095 nömrəli Sərəncamı ilə yaradılması və İT sənayesinin inkişafına xidmət etməsi bu sahəyə qoyulan qiyməti göstərir. İKT iqtisadi inkişafın dinamik yüksəlişində informasiyaların rolunu, gücünü, təsirini daha da artırır**.** Sevindirici haldır ki, inkişaf tendensiyasına uyğun olaraq daima yeni qərarların qəbul edilməsi və tətbiqi bu sahəyə nə qədər yüksək qiymət verildiyini göstərilir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" haqqında **fərman** imzalayıb. Azərbaycan Respublikasında İC-nin inkişafına dair 2014 - 2020-ci illər üçün MİLLİ STRATEGİYA-nın (Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir) əsas məqsədi qeyri-neft sektorunun inkişaf etdirilməsi və bu istiqamətdə tərəqqiyə nail olmaqdır [7]. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 12 yanvar 2018-ci il tarixli "Nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" müvafiq Fərmanın verilməsində məqsəd **İKT sahəsinə xidmət etməkdir.** Layihə çərçivəsində quraşdırılacaq yeni stansiyalar bir milyon istifadəçini müasir telekommunikasiya xidmətləri ilə təmin etməlidir. Həmçinin kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində yeni süni peyklərin orbitə buraxılmasını, İpək Yolunun keçdiyi Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiya ölkələrini birləşdirən "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihələrini də qeyd etmək olar.

Ölkəmizdə yüksək texnoloji iqtisadiyyatın qurulmasında İKT-nin modernləşdirilməsi və müvafiq islahatların aparılması Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edir. İKT-nin təsiri nəticəsində bilik və informasiya insan fəaliyyətinin bütün sferalarında əsas rol oynayır. Ölkə əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir**.** Onu da qeyd edək ki, internet kanallarının ümumi tutumu 820 Qeqabitədək artırılıb. **2017-ci ilin** müvafiq dövrü ilə müqayisədə 2018-ci ildə İKT sektoru üzrə investisiya qoyuluşu 69 faiz artaraq 225 milyon manat olub. Sektorun gəlirləri isə 1,1 milyard manatdan 1,2 milyard manata yüksəlib, gəlirlərin artım tempi isə 7,7 faiz təşkil edib. Ölkəmizdə "Açıq Hökumət Məlumatları"nın Portalında açıq məlumatların sayı 655-ə bərabər olmuşdur. Yerli startap və innovativ layihə müəlliflərinə səfər qrantlarının verilməsinə başlanılıb. Dünya İqtisadi Forumunun 2018-ci il üzrə "Qlobal Rəqabət qabiliyyətlilik Hesabatı"nın "Qlobal Rəqabət qabiliyyətlilik İndeksində Azərbaycan dünyanın 140 ölkəsi arasında 69-cu, "İnfrastruktur" göstəricisi üzrə 46-cı yerdədir. Biznes İnkubasiya Mərkəzində bu il 25 startap qəbul edilib [3].

| **Hər 100 nəfərə düşən (2017):** | | | | |
|---|---|---|---|---|
| **İKT-dən istifadə səviyyəsi göstəricisinin mobil abunəçiləri alt göstəricisi üzrə** | **mobil genişzolaqlı abunəçiləri göstəricisi üzrə** | **sabit genişzolaqlı internet abunəçiləri göstəricisi üzrə** | **fiber-optik internet istifadəçiləri göstəricisi üzrə** | **İnternet istifadəçiləri göstəriciləri üzrə** |
| **97-ci yer** | **88-ci yer** | **53-cü yer** | **55-ci yer** | **36-cı yer** |

Azərbaycanda İKT-nin inkişafı üzrə görülən işlərə misal olaraq, Azərbaycan Dünya İqtisadi Forumunun *"Qlobal İnformasiya Texnologiyaları 2017"* hesabatında (beynəlxalq

təşkilatların hesabatları) “*Şəbəkələşmə Hazırlığı İndeksi”nə* dünyanın 139 ölkəsi hökumətin gələcəklə bağlı İKT sektoruna yanaşması üzrə dünya ölkələri arasında 8-ci yeri, İKT sektorunun təbliğində hökumətin uğuruna görə 8-ci yeri, hökumətin xidmətlərinin səmərəliliyində İKT-dən istifadə üzrə isə 12-ci yeri tutmuşdur.

**Azərbaycan Respublikasının tədris prosesində elektron sistemlərin tətbiqinə xüsusi diqqət ayrılır, bu isə dünyada ölkə təhsilinə marağı artırır. Ölkədə təhsil alan xarici ölkə tələbələrinin sayının artması buna əyani misaldır. Məsələn, 2018-ci ildə** Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan türkiyəli tələbələrin sayı 2175 nəfər olub [4] Azərbaycanda təhsil alan əcnəbi tələbələr sırasında İran (809), Rusiya (635), Gürcüstan (591), İraq (420), Pakistan (196), Türkmənistan (178), Banqladeş (153), Çin (104), Nigeriya (91), Qazaxıstan (62), Suriya (60), Hindistan (58), Özbəkistan (45), İordaniya (37), Ukrayna (35), Şri Lanka (35), Fələstin (32), Əfqanıstan (28), ABŞ (26), Nepal (21), Yəmən (17), Koreya (17), Sudan (14) İsrail (14) və digər ölkələrin (151) vətəndaşları olub. **Xarici ölkə tələbələrinin Azərbaycanda təhsil almasının iqtisadiyyata müsbət təsiri var.**

İqtisadi tempin əsas aparıcısı olan İKT bütün sahələrdə hesablamaların aparılmasında bizim ən yaxı köməkçimizdir. Məsələn, İKT vasitəsilə informasiya və rabitə xidmətlərindən əldə olunan gəliri yaxud ölkə daxilində qeyri-neft sektorunun əsas göstəricilərini ani vaxt ərzində hesablanmaq mümkündür [4]:


İnformasiya və rabitə xidmətlərdən əldə olunan gəlir

| 2018 | |
|---|---|
| Cəmi | 1 897 046 |
| rabitə xidmətləri | 1 441 646 |
| informasiya xidmətləri | 455 400 |






Qeyri-neft sektoru üzrə 2018-ci ildə ölkə sənayesində 15%, kənd təsərrüfatında isə 7 % artımın olması bu sahəyə xüsusi diqqət olduğunu bildirir. 2017-ci ildə əlavə dəyərin real artımı 1,4 faizə bərabər olmuşdur. 01.01.2019-cu il tarixinədək xarici və daxili dövlət borcunun ümumi məbləği 16496,2 mln. manat, adambaşına düşən borc isə 1653,9 manat olmuşdur, 2018-ci ildə dövlər satınalmaları 5813 mln.manat (2017-ci il ilə müqayisədə 31,4 % çox), satınalma sayı 10923 (2017-ci il ilə müqayisədə 22,0 % çox olmuşdur, debitor borclarının məbləği 1947922,9 min. manat (2017-ci il ilə müqayisədə 7,8 % az) olmuşdur [9].

Bank sistemində yeni texnologiyaların tətbiqi İT üzrə yeni mütəxəssislərə tələbatı artırır. Mütəxəssislərin rəyinə görə 2020-ci ildə banklar üzərindən biznes kreditləşməsi artacaq. Banklardakı əsas amil təcili pul köçürmə texnologiyasının tətbiq edilməsi və Bank-müştəri əlaqələrinin rəqəmsal platformalara daşınmasıdır. Bu sahədə də Bulud (Cloud) texnologiyasına keçid lazımdır. Yeniləşən texnologiyalardan istifadə sahəsində əsas yeniliklər sırasında "bulud" (cloud) texnologiyalarından istifadə mühüm yer tutur, çünki bu sistemdən istifadə birbaşa əlaqə yaratmaqda çox böyük köməkçidir. Belə ki, iqtisadiyyatın maddi əsaslarının formalaşmasında yüksək texnologiyaların tətbiqi kimi

Bulud texnologiyaları (BT) müəyyən bir konstruksiyadır. BT sistemində resursların istifadəçilərə servislər menyusu şəklində təqdim olunması və sərbəst şəkildə artırıb-azaltmaq imkanının verilməsi bu texnologiyanın geniş tətbiqinə maraq yaradan amillərdən biridir. Buludun arxitekturuna daxil olan dövlət orqanları, kiçik təşkilatlar və s. kimi aktivlər onun istifadəçiləri hesab olunur [2]. BT texnoloji konstruksiyalar vasitəsilə resursların virtuallaşmış infrastrukturunu İnternet şəbəkəsindən istifadə etməklə istifadəçilərə servis şəklində təqdim edir.

BT-nin meydana gəlməsi son illər informasiya texnologiyaları sənayesinə böyük təsir göstərmiş və bu istiqamətdə maddi maraqlar artmışdır. Məsələn, “Google”, “IBM”, “Salesforce.com”, “Amazon”, “Microsoft” və s. dünyaca məşhur firmalar iş etibarlılıqlarını daha da yüksəltmək və biznes təşkilatlarının mənfəət götürməsi məqsədilə investisiya qoyuluşlarını əlverişli, güclü olan bu platformalara yönəltmişlər (ictnews.az-a istinadən “Cisco” şirkətinin “Cisco Global Cloud Index” 2015 – 2020 illik hesabatına görə, “bulud” trafikin həcmi 3.7 dəfə (2015-ci ildə 3.9 zettabaytdan 2020-ci ilə 14.1 zettabaytadək) artacaq). Ekspertlərə görə, "bulud" texnologiyaları mobillik imkanı yaradır və İT bazarının drayveri olmaqla bazarın özünü dəyişir.

Mobil həllər və bulud mühiti bu gün dövlət qurumlarının elektron xidmətlərini əldə etmək üçün bütün dünyada olduğu kimi, Azərbaycan Respublikasında da istifadə edilir və əsasən 2013-cü ildən etibarən bu yönümlü layihələr uğurla həyata keçirilir. BT dövlət sektorunda geniş tətbiq edilir. Bu texnologiyaların xüsusiyyətləri sırasına istifadəçilərin bulud servislərlə sərbəst işləmək bacarığının olması, buluda girişin istənilən məkandan, istənilən vaxt, istənilən qurğu (smartfon, noutbuk, planşet, leptop və s.) vasitəsilə mümkünlüyüdür. BT-nin informasiya və rabitə sistemində tətbiqi əldə olunan gəlirə öz müsbət təsirini göstərmişdir [2]. (Lakin BT informasiya mühafizəsində etibarlı vasitə sayılsada məlum olmuşdur ki, bu mühitdədə təqribən 28% təhlükənin yaranması ehtimalı var).

Müasir dünya iqtisadiyyatında vahid bazarın rəqəmsal strategiyası ən vacib amillərdəndir. Burada problemlərin həllini dünya səviyyəsində əlçatan etmək üçün:

- Bulud texnologiyasının rəqəmsal sistemlərdə tətbiqinə geniş imkanın yaradılması üçün təminatların ayrılması
- Elektron tarazlığın yaradılmasına şəraiti yaratmaq üçün texniki hazırlığa xüsusi investisiyalar yatırılmasına imkanın yaradılması (cəlb etmək)
- Startaplara xüsusi maliyyə vəsaiti və diqqətin və s. ayrılması vacib amillərdəndir.

Ölkə banklarının dünya tələbatlarına cavab verməsi üçün müəyyən şərtlərin ödənməsi (məsələn, investisiyalar qoyuluşunun həllinə maraqların yaradılması, ən son texnoloji avadanlıqlarının tətbiqi, risklərin nəzərə alınması və s.) Azərbaycanda məsafəli bank hesablamalarının açılmasının fəaliyyətə başlaması bu mühitdə inteqrasiyanın gücləndirilməsində vacib amillərdən biridir.

İKT-nin idarəetmədə roluna nəzər salsaq görərik ki, müasir dövrün tələbinə uyğun İKT idarəetmə sistemi ilə bilavasitə bağlıdır. Bu sistemlə idarəetmənin müxtəlif pillələrində iştirak edən idarəetmə subyektlərin fəaliyyət mexanizmini dayandırmadan, idarəetmə sahəsindən kənarlaşmadan digər idarəetmə subyektləri ilə əlaqə yaradır və mövcud situasiyaya uyğun olaraq qərarlar qəbul edə bilir. Çünki, bu sistem:

- Operativliyə,
- Adekvat qərar verməyə,
- Sürətli informasiya mübadiləsinə,
- Daima sistemli əlaqəyə və s. imkan yaradır.

İdarəetmənin tətbiq olunduğu sahələrdən biridə maliyyə bazarıdır. Hazırda

fəaliyyətdə olan dünya bazarlarının, müxtəlif birjaların iş sisteminin birbaşa internet şəbəkəsi ilə iqtisadiyyata birbaşa təsiri əsas amil kimi götürülür. (Məsələn, birjalardakı neft, qızıl və s. qiymətlərin dəyişməsinin dünya ölkələrində gündəlik satışa bilavasitə təsir etməsi). Belə ki, hər gün birjalarda milyardlarla dollar dəyərində alqı-satqı prosesi bilavasitə İKT-nin idarəetmədə rolu vasitəsi ilə mümkünləşir.

İqtisadiyyata təsir edən digər amillərdən biri də Forex valyuta bazarıdır [8]. Forex daim dəyişən valyuta bazarından gəlir əldə edən təşkilatdır, bu bazardan istifadə istifadəçilərə aşağıdakı imkanlar yaradılır:

- Dünya ölkələrinin valyutaları ilə ticarət imkanı
- Zaman və məkan baxımından məhdudiyyətsiz əməliyyatların mümkünlüyü
- Virtual aləmdən 24 saat açıq Forex bazarından istifadə imkanı və s.

Ölkəmizdə Forex bazarının həcmi 2019-cu ilin əvvəlindən 600 milyon manat təşkil edib.

İKT vasitəsilə dövlət orqanlarının idarəetmə mexanizmi günü-gündən aktivləşərək operativ xarakter daşıyır. Yaponiyada, ABŞ-da, Almaniyada, Fransada, İzraildə və dünyanın inkişaf etmiş müxtəlif ölkələrində İKT-dən idarəetmə sahəsində geniş şəkildə istifadə olunur və onun tətbiqi bu sahədə çox böyük uğurlara, nailiyyətlərə imza atılmasına imkanı yaradır.

Azərbaycan dövlət qrumlarının idarə olunmasında İKT-ni tətbiq edən bir çox bölmələr vardır. Lakin bu sahənində özünə xas problemləri var. Məsələn:

- Hacker-hücumları və onların dünyada aktivləşməsi
- İT sahənin özünə xas problemləri
- Mövcud situtatsiyadan asılı yaranan problemlər.

İdarəetmənin İKT sahəsində yaranan ən böyük problemlərindən biri dünya üzərindən baş verə biləcək kiber-hücumlardır (dünya səviyyəsində olan haker-hücumları). Bu hücumların arxasında müxtəliv mədsədlər dayanır, məsələn:

- Siyasi məqsədli kiber-hücumlar
- İqtisad yönümlü əks təsirli kiber-hücumlar
- Terror münasibətlərinə xidmət edən kiber-hücumlar və s.

Azərbaycana qarşı müxtəlif kiber hücumların yönəldilməsinə baxmayaraq, mütəxəssislərimiz tərəfindən bu virtual hücumların qarşısı uğurla dayandırılır.

İKT vasitəsilə idarəetmədə informasiya sistemlərinin (İİS) və müvafiq qaydada verilənlər bazasının idarə olunması sistemlərinin (*VBİS)* yaranması vacib amillərdəndir. (*İİS* - bir şirkətin idarəetmə səviyyəsində istifadə olunan müəyyən əməliyyatlar haqqında nizamlı şəkildə toplanmış hesabatlar və proqramlaşdırılmış verilənlər bazası və müəssisə sahibinin öz işini idarə edən müxtəlif qeyd üsullarının elektron avtomatlaşdırılmasıdır. *VBİS* - verilənlərin bazaya daxil edilməsi, onların yaradılması, emalı, yeniləşdirilməsi və sorğulara görə verilənlərin axtarışı əməliyyatları başa düşülür). Hazırda bu yönümlü bir çox baza proqramlardan istifadə olunur, məsələn, FoxBase+, dBase-in müxtəlif variantları, Clipper, Dbase for Windows FoxPro, R:base, Database, Informix, Ingres, Sybase, Progress, Ms Access, Paradox, Oracle, SQL Server; Delphi; SQL İnterbase; ADABAS və s. Sadə VBİS-in yaradılması üçün MS Access baza redaktorundan istifadə etmək mümkündür. Bu proqram vasitəsilə əvvəlcədən daxil edilmiş lazımi sorğu seçimini tətbiq edərək, hesablamalar aparmaq, cədvəllər arası əlaqələri yaratmaq və s. bir çox əməliyyatların icrası mümkündür [2]:




Müasir cəmiyyətin inkişaf tempinə uyğun elektron ticarət dünya iqtisadiyyatında mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda “Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanunu 2005-ci ildə qəbul edilmişdir. Lakin internet üzərindən ödəmə sistemi olmadığından, Azərbaycanda e-ticarətdə ilk addımlar 2008-ci ildə atılmışdır. Hazırda elektron ödəniş sistemlərindən dünya portallarında istifadə olunur. Elektron ticarətdə ödəmə üsulları müxtəlifdir [6]. Məsələn:

- elektron kredit kartı
- elektron teleferik maşınlar
- elektron pul köçürmələri üçün satış nöqtələri
- elektron pul
- elektron çek
- smart kart
- rəqəmsal pul kisəsi
- mobil ödəniş  və s.

Qeyd edək ki, elektron ticarətdə ödəniş vasitəsilə kredit kartlarından daha çox istifadə olunur. Azərbaycanda da müxtəlif elektron ödəniş vasitələrindən istifadə olunur. Elektron ticarətdə alış-veriş günü -gündən artır, lakin burada da müəyyən problemlər var, məsələn:

- Çatdırılma xidmətindəki problemlər (azərpoçtda, gömrükdə problemlərin yarana bilməsi ehtimalı)
- Azərbaycanın ticarət dövriyyəsinin milyonla manat səviyyəsində götürülməsi (digər ölkələrdə dövriyyə milyardlarla ölçülür. Müqayisə üçün qeyd edək ki, Çinin Alibaba elektron şirkəti 2017-ci ilin  iki saatında 7 milyard dollarlıq və ilk 16 saatda isə 13.7 milyard dollarlıq satış etmişdir. Azərbaycanda isə online üzərindən 2017-ci ilin yanvar-fevral aylarında 20 milyonluq mallar sifariş olunmuşdur. 11 ayı ərzində Azexport.az portalı 71 ölkədən 444,6 milyon ABŞ dolları həcmində “Azərbaycan brendi” adı altında malları ixrac etmişdir), yəni, iri şirkətlərin Azərbaycana nisbətən kiçik bazar kimi görməsi, kartdan istifadə edildikdə, ödənilən əlavə məbləğin faizi və s. burada bəzi problemləri yaradır.

E-ticarətin geniş miqyaslı tanınması üçün atılan addımlara daha dərin münasibət göstərmək lazımdır. Məsələn:

- Yeni əlverişli layihələrin hazırlanması və inkişaf səviyyəsinə uyğun inkişaf etdirilməsi
- Dövlətin bu sahəyə maraqlarının artması və xüsusi vəsaitin ayrılması
- Ödəniş sistemlərinin əl çatanlığının və etibarlığının təmini

Azərbaycanda biznes inkişafının sabit iqtisadi mühitdə baş verməsi (milli valyutanın sabit olması) ölkəyə investisiya qoyuluşunun artırılmasına səbəb olmuşdur [5]. Həmçinin iqtisadi inkişafa müsbət təsir edən digər amillər kimi ölkədə iri energetika və nəqliyyat layihələrinin uğurla həyata keçməsidir.

İqtisadi proqnozlara görə 2019-cu ildə Azərbaycanda 2,7 %, 2020-ci ildə 2,1 %, 2024-cü ildə isə 2,4 % iqtisadi inkişaf olacaq. Cari hesab balansı 2018-ci ildə 12,9 % olmuş, 2019-cu ildə 9,7 %, 2020-ci ildə 10 %, 2024-cü ildə isə 7,6 %-ə bərabər olacaq:




Hazırda Azərbaycan şirkətləri dünya bazarlarına öz məhsullarını çıxarır. Qətər dövlətinin Doha şəhərində 2018-ci ilin oktyabrında keçirilən "Birinci Beynəlxalq Məhsullar" sərgisində 18 şirkət öz məhsulları ilə iştirak edib.

Qeyd edək ki, İKT qurğularının hazırlanması sahəsində ölkəmizdə bir çox işlərin görülməsinə baxmayaraq, hələ ki, dünya səviyyəsində öz sözünü deyə bilməyib. Lakin görülən işlər yaxın gələcəkdə çox böyük nailiyyətlərin əldə olunacağını bildirir. Yəni, İKT üzrə ixtisaslaşmış firmalar ölkəmizi təmsil edərək, öz mallarını "Azərbaycan brendi" adı altında dünya bazarında satışa çıxararaq, Azərbaycan iqtisadiyyatına öz müsbət təsirini göstərəcəkdir.

Elektron hökumətin dövlət səviyyəsində qəbul edilməsi nəticəsində mərkəzləşmiş idarə etmə sistemi yaradılmışdır. Bu isə ilk növbədə vaxta qənaət və düzgün iş sistemi deməkdir. Ona görə də bir çox sahələrdə mərkəzləşmiş elektron sistemlərdən paralel şəkildə istifadə olunur məsələn, nəqliyyatda "İntellektual İdarəetmə Mərkəzi", GPS (Qlobal Mövqetəyinetmə Sistemi),"On-line" bilet satış, qarşılıqlı pul mübadiləsi və s. sistemlər, xəstəxanalarda vətəndaşların elektron sağlamlıq kartı, elektron **kartların tətbiqi,** banklar arası əlaqənin 4G texnologiya vasitəsi ilə qurulması və i.a.

Hazırda ölkəmiz öz iqtisadi yüksəlişi ilə dünyada özünə maraq yaradır. Məsələn, turizm sahəsindəki sürətli artım tempi, beynəlxalq yarışların və müsabiqələrin keçirilməsi, dünya səviyyəli sərgilərin uğurlu təşkili, xaricə ixrac olunan "*Made in Azerbaijan*" brendli mallar və s. "Baku Expo Center" Sərgi və Konfrans Mərkəzində beynəlxalq əhəmiyyəytli sərgilərin, konfransların, işgüzar tədbirlərin keçirilməsi üçün dünya standartlarına cavab verən bütün şəraitlər var. Ona görə də burada vaxtaşırı "Beynəlxalq Telekommunikasiya", "İnnovasiya və Yüksək Texnologiyalar", "Təhsil", "Karyera", "İnşaat" və s. bir çox yönümlü beynəlxalq sərgilər uğurla keçirilir.

**Nəticə**

İnternet mühitində iqtisadi sistemin tənzimlənməsi, bazar strukturlarının virtual mühitə adaptasiya olunması, formalaşması müasir iqtisadiyyatda çox böyük rol oynayır. Lakin bu məsələlərin həlli yönümündə müəyyən vaxt tələb olunmaqla bərabər, həm də bəzi problemlər yaranır, məsələn:

- Kiber cinayətkarlıqla mübarizə problemləri
- Elektron kommersiyanın tənzimlənməsi problemləri
- İntellektual mülkiyyət hüquqlarının qorunması problemləri
- İnternetdə istifadə və fəaliyyəti zamanı meydana çıxan problemlər və s.

Müasir cəmiyyətin istənilən sahələrində İKT vasitələrinin, internetin tətbiqi qaçılmazdır, çünki bu texnologiya cəmiyyətin formalaşmasında mühüm rol oynamaqla bərabər, təkanverici, aparıcı, vaxta qənaətedici, inkişaf etdirici qüvvədir. Bu sistemlərdən istifadə edərkən səmərəlilik əldə etmək və dünya inkişaf səviyyəsi ilə ayaqlaşmaq üçün müəyyən addımlar atılmalıdır. Məsələn:

- Cəmiyyətin İKT məhsullarına, xidmətlərinə artan tələbatı təmin olunmalı
- İqtisadiyyatın real sektorlarında yeni texnologiyaların tətbiqinə imkan yaradılmalı
- Dövlət idarəçiliyində, sahibkarlıqda, yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi genişləndirilməli və inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmalı
- Informasiya təhlükəsizliyi təmin olunmalı, kiber hücumlara qarşı daha etibarlı proqramlar hazırlanmı
- Daha yüksək ixtisaslı kardların yetişdirilməsi üçün şərait yaradılmalı,
- Rəqəmsal platformaya keçid dünya səviyyəsində təmin olunmalıdır.

Çox sevindirici haldır ki, Azərbaycan Respublikası bu yönümdə uğurlu addımlar ataraq, nəaliyyətlər, uğurlar əldə edir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. S.Q.Kərimov. "İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri". səh. 84-85, 174-179. Dərslik. Bakı, 2010
2. N.Ə.Umarova. İKT (İnformasiya kommunikasiya texnologiyası) səh. 11-19, 129-136. Dərs vəsaiti İTİ nəşriyyatı, Bakı 2016
3. https:// baktelecom.az/
4. www.stat.gov.az
5. www.sputnik.az
6. https://finans.az/xeber/
7. https://president.az › articles
8. https:// foreks.az/
9. http://sai.gov.az/upload/files/xulese.pdf
10. İnformasiya cəmiyyəti problemləri. AMEA İnformasiya Texnologiyaları İnstitutu.Jurnal №2. Bakı 2010.
11. "Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə Dəstək" – Hesabat kitabçası

**Нийар Умарова**

## ИКТ В ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ И ЕГО РОЛЬ В ЭКОНОМИКЕ

***Резюме***

В статье показаны спецальные новшества информационного общества, роль ИКТ в развитии национальной экономики, государственная поддержка этой области, предпринимаемые систематические меры, влияние формирования ИКТ, как самостоятельного научного сектора, исследован его роль в устойчивом развитии, указан индекс развития, и дана информация о преимуществах применения облачных технологий. Отмечены использование высоких технологий в формировании материальной базы экономики, роль ИКТ в экономическом развитии общества, в управлении, в предоставлении цифровых услуг и преимущества его применения.

***Цель*** **-** Определение влияния информационно-коммуникационных технологий на перспективы развития цифровой экономики.

***Методология*** **-** Был использован метод сравнительного анализа при разработке влияния методов ИКТ в экономике и управлении**.**

***Результаты исследования*** **-** Исследовано влияние ИКТ на экономические, управленческие, виртуальные отношения банковских систем, определены направления методов дистанционного воздействия в цифровой экономике, электронная платформа, показаны перспективы развития.

***Ключевые слова*****:** ИКТ и информационное общество, интернет, электронный бизнес, космическая промышленность, цифровой банк, ИКТ в управлении, облачные технологии, кибератака, валюта Forex, электронные платежи.

**Niyar Umarova**

## ICT AND ITS ROLE IN THE INFORMATION SOCIETY

***Summary***

The article has been explored specific innovations of the IC, the role of ICT in the development of the national economy, government support in this area, the systematic improvements, the impact of the formation of ICT as an independent science sector, its role in sustainable development, the development index, and the advantace of cloud computing application. There have been noted the use of high technologies in the formation of the material basis of thecountry's economy, the role of ICT in the economic development of society, management and digital services.

***Purpose*** **-** Determining the impact of information and communication technologies on the digital economy development prospects.

***Methodology*** **-** A comparative analysis method has been used in the development of ICT methods in the economy and management**.**

***Findings*** **-** Influence of ICT on the economic, management, virtual systems of banking systems has been studied, directions of remote influence methods in digital economy, electronic platform are defined, development perspectives are shown.

***Keywords*****:** ICT and ICT, Internet, e-business, space industry, digital banking, ICT in management, Cloud technology, cyber-attack, Forex currency, electronic payment.

**УДК-336**

**Саадат Гулиева**
***Азербайджанская Академия Труда и Социальных Отношений,***
***д.ф.н.***
*13sada@mail.ru*

# РАСПРЕДЕЛЕНИЕ ДОХОДОВ И РАСХОДОВ В БЮДЖЕТНЫХ ОРГАНИЗАЦИЯХ

*В условиях постоянно растущей рыночной экономики и научно-технического прогресса чрезвычайно важна проблема повышения качества, развития и управления бюджетными организациями, а также совершенствования бюджетных доходов и расходов, которая лежит в основе общей проблемы. Проблема повышения эффективности финансирования бюджетных организаций выходит на первый план. В данной статье как один из эффективных механизмов управления расходованием средств, выделенных из государственного бюджета, рассматривается группировка расходов бюджетов всех уровней и подробно рассматривается их группировка по экономическому содержанию.*

***Цель*** – рассмотреть доходы и расходы государственного бюджета и определить, как они распределяются в бюджетных организациях.

***Методология*** – теоретическое исследование.

***Результат*** – выявлены источники формирования средств в бюджете и определить статьи затрат в зависимости от экономического содержания.

***Ключевые слова:*** бюджет, государственный бюджет, бюджетные организации, доходы, расходы.

На протяжении многих лет Азербайджанская Республика как независимое государство прошла свой новый политический и экономический путь развития и отказалась от идеи административного управления. Это привело к необходимым изменениям в экономической и социальной жизни, создало переход к рыночной экономике и развитие рыночного сектора в стране. Данный переход не снижает значения и роли государственного бюджета, но также подразумевает необходимость его разработки с учетом рыночной экономики и социальных условий. В такой системе хозяйствования бюджетные организации выступают главным субъектом экономических отношений, таких как образование, здравоохранение, научные исследования, социальная защита, культура, государственное управление и др.

Коротко отметим, что бюджетные организации являются некоммерческими учреждениями, созданные правительством Азербайджанской Республикой в целях осуществления работ или оказания услуг, деятельность которых строго подчинена органам государственной власти и строго контролируется законодательством Азербайджанской Республики.

Государство содержит бюджетные организации за счёт государственного бюджета Азербайджанской Республики, бюджета Нахичеванской Автономной Республики и местных бюджетов. Как мы знаем местные бюджеты же состоят из бюджетов городов, находящиеся в подчинении Республики, из бюджета районов и из бюджета

муниципалитетов. Рассмотрим подробно доходы государственного бюджета, которые формируют финансовую базу государства [8].

В системе государственных финансов бюджетная классификация обеспечивает учет и систематизацию информации о состояниях бюджета. Бюджетная классификация представляет собой группировку доходов и расходов бюджетов, источников финансирования дефицитов бюджетов и используется для составления и исполнения бюджетов, обеспечивает сопоставимость показателей бюджетов всех уровней бюджетной системы. Бюджет можно классифицировать по подразделениям.

В первый подраздел входит группировка доходов бюджетов всех уровней бюджетной системы в соответствии с источниками их формирования. Финансами данного подраздела выступают средства, полученные органами государственной власти и местного самоуправления в соответствии с законодательством Азербайджанской Республики при условии неуплаты и невозврата. Доходы бюджета представляют собой экономические отношения между государством и бизнесом, организациями и общественностью в процессе сбора средств. Доходы государственного бюджета формируются из следующих доходов:

• специальные налоговые поступления в государственный бюджет (государственные налоги и сборы, штрафы и пени, предусмотренные налоговым законодательством Азербайджанской Республики, таможенные пошлины и таможенные сборы, государственные пошлины), исключая налоговые поступления, предоставляемые в виде нормативных доходов на другой уровень бюджетной системы Азербайджанской Республики;

• специальные неналоговые доходы, такие как доход от использования государственного имущества, доход от продажи государственного имущества, доходы от платных услуг, предоставляемых соответствующими государственными органами, а также штрафы, конфискацию, компенсацию в результате применения компенсационных мер от граждан и другие неналоговые доходы;

• баланс на конец прошлого года;

• прочие доходы [9].

Доля налогов, включаемых в государственный бюджет, определяется Законом Азербайджанской Республики «О государственном бюджете» на каждый год. Закон определяет соотношение (долю) налоговых поступлений между различными уровнями бюджетов посредством бюджетного регулирования. Это разделение утверждено Законом Азербайджанской Республики о государственном бюджете на очередной финансовый год.

Во второй подраздел входят расходы бюджетов всех уровней и отражает направление бюджетных средств на выполнение основных функций государства. Они выражают экономические отношения, связанные с распределением фонда денежных средств государства и его использованием по различным направлениям. Экономическая сущность расходов государственного бюджета проявляется в том, что они служат активным инструментом экономической политики. С их помощью государство воздействует на перераспределительные процессы, рост национального дохода, структурное регулирование экономики, развитие отдельных отраслей и секторов хозяйства, повышение конкурентоспособности национальной экономики.

В третий подраздел входит группировка расходов бюджетов всех уровней по их экономическому содержанию. Она включает текущие и капитальные расходы. Финансовые средства на этом уровне распределяясь входят в разделы смет бюджетных организаций. В зависимости от экономического содержания расходы

государственного бюджета подразделяются на постоянные и текущие статьи расходов.

Сам процесс финансирования бюджета в бюджетных учреждениях происходит в несколько этапов. На первом этапе данного процесса составляется бюджетная роспись, которая подлежит утверждению. Второй этап наступает через 10 дней после утверждения росписи и приходит уведомление о бюджетных ассигнованиях на период действия утвержденного бюджета. На третьем этапе составляется смета доходов и расходов, которая в дальнейшем подлежит также утверждению и подаётся данная смета в органы, исполняющий бюджет. Ну и наконец последний этап – это лимиты бюджетных обязательств, которые представляют собой предельный объем прав получателя на принятие им денежных обязательств, оплачиваемых за счет средств соответствующего бюджета. Лимиты бюджетных обязательств в обязательном порядке должны донестись до всех распорядителей и получателей данных финансовых средств.

На основе выделенного лимита бюджетные организации имеют право осуществлять расходы и платежи путем составления платежных и иных документов в пределах, доведенных до них лимитов и в соответствии со сметой доходов и расходов. Расходование бюджетных средств осуществляется путем списания денежных средств с единого счета бюджета. Объем расходуемых бюджетных средств должен соответствовать объему подтвержденных денежных обязательств.

Расходы бюджета подразделяются на постоянные и текущие расходы в зависимости от экономического содержания бюджета. Эта классификация определяется экономической классификацией расходов бюджета. Следует отметить, что «свыше половины финансовых ресурсов, создаваемых экономикой государства, мобилизуются в систему муниципальных организаций, большая часть учреждений, входящих в данную систему, выполняет важные, социально значимые функции» [8]. В связи с этим от объемов финансовых средств, предоставляемых из бюджетной системы указанным учреждениям, от эффективности их использования зависит качество выполнения задач, стоящих перед обществом.

В целях обеспечения финансовой устойчивости в финансово-экономической деятельности бюджетных организаций, усиления контроля за прогнозированием и исполнением доходов и расходов, а также улучшения управления и повышения прозрачности в этой области необходимыми условиями выступает процедура утверждения расходных смет, которые должны быть подготовлены, и проверены на предмет их реализации.

Первостепенными задачами, которые решаются при помощи данной процедуры, являются следующие:

1. достижение и поддержание связи системы бюджетирования с системой стратегического управления бюджетной организацией.

2. рост степени достоверности на стадии планирования.

3. разработка регламентирующей базы.

4. контроль за исполнением выделенного бюджета для бюджетных организаций.

5. усиление ответственности за конечный результат за каждую расходную статью.

Подробно разберем какие расходные статьи могут присутствовать в бюджетных организациях:

- бюджетные платежи, которые включают расходы по бюджетным обязатель-

ствам в соответствии с налоговым законодательством;

- расходы на все виды заработной платы и другие выплаты;
- взносы обязательного государственного социального страхования из фонда заработной платы;
- расходные статьи на стоимость сырья и материалов, а расходы на топливо из субсидий государственного бюджета рассчитываются в соответствии с «Механизмами предоставления косвенных субсидий энергетическому сектору за не возобновляемые источники энергии»;
- расходы на связь;
- транспортные расходы;
- коммунальные расходы;
- расходы на командировки, независимо от лимита;
- затраты на исключение;
- расходы на рекламу;
- расходы на защиту;
- банковские расходы;
- представительские расходы;
- расходы на обучение персонала;
- расходы на исследования, проектирование и разработку, а также включаются затраты, связанные с подготовкой нормативных документов;
- затраты на ремонт, где должны отражать текущие расходы на техническое обслуживание. Эти затраты включают в себя все затраты, связанные с текущим ремонтом, в том числе затраты на материалы, затраты на оплату труда и другие связанные с этим расходы;
- страховые расходы;
- выплата дивидендов;
- капитальные и финансовые вложения, которые должны включать строительно-монтажные работы, приобретение оборудования, нематериальные активы, приобретение земли, приобретение ценных бумаг и процентные облигации и другие аналогичные капитальные и финансовые вложения;
- социальные расходы, которые включают в себя расходы на ремонт и капитальный ремонт непроизводственного жилья, учреждений образования и здравоохранения, непроизводственных учреждений и благотворительных пожертвований;
- прочие расходы, не указанные выше [4].

В четвертое подразделение входит классификация источников финансирования дефицитов бюджетов, где группируются заемные средства, привлекаемые Азербайджанской Республикой, субъектами Азербайджанской Республики и органами местного самоуправления для покрытия дефицитов соответствующих бюджетов.

В пятое подразделение входит ведомственная классификация расходов государственного бюджета и представляет собой группировку расходов, отражающую распределение бюджетных средств по главным распорядителям средств государственного бюджета.

Формирование бюджетных доходов и расходов, а также их распределение по видам бюджета основывается на финансовые и правовые нормы, посредством которых определяются и регулируются их полномочья. Согласно закону «о бюджетной системе» Азербайджанской Республики, определяют организационные, правовые и экономические основы организации бюджетной системы в Азербайджанской Рес-

публике, подготовки, утверждения, исполнения и контроля бюджетов, а также основные принципы взаимоотношений между государственным бюджетом и внебюджетными государственными фондами, и местными бюджетами.

Общая характеристика Государственного реестра показывает, что реформы во всех секторах экономики повлияли на количество и состав хозяйствующих субъектов, действующих в стране, в связи с реформами были созданы новые предприятия и организации, некоторые государственные предприятия были приватизированы, некоторые ликвидированы. Изменения произошли. Ряд малых предприятий объединились, но в то же время внештатный филиал стал структурным подразделением штаб-квартиры.

В первые годы независимости объем ВВП и инвестиций в основной капитал в стране резко сократился. В этих условиях были необходимы бюджетные средства для предотвращения рецессии, восстановления и стабилизации экономики. Поэтому государственные расходы на государственную поддержку и развитие расходов на потребление в последние годы значительно увеличились.

Таким образом, непосредственным предметом анализа хозяйственной деятельности являются причинно-следственные связи, составляющие основу экономических отношений, возникающих и складывающихся на уровне отдельных бюджетных организаций в ходе выполнения ими своих функций.

***Список используемой литературы:***


1. Закон Азербайджанской Республики «О государственном бюджете Азербайджанской Республики на 2018 год»
2. Закон Азербайджанской Республики «О бюджетной системе» -2002
3. Налоговый кодекс Азербайджанской Республики -2016
4. Бадалов Ш.Ш., Магеррамов Р.Б., Курбанов Ф. Бюджетная система. Учебник для вузов. Баку, 2013
5. Романовский М.,Врублевская О. Бюджетная система Российской Федерации. Москва, 2008
6. Кавалева Т.М., Бюджетная политика и бюджетное планирование в Российской Федерации. Москва, 2009
7. Vəliyev Z.T. Büdcə. Nəzəriyyə və praktika. Bakı-2010
8. Nurpaşa Novruzov, Elşən İbrahimov “Büdcə sistemi”. Ali məktəblər üçün dərslik. Bakı - 2012, 472 səh.
9. Həsənli M.X. Vergilər. Bakı-2005
10. Əsədov H.X., Talıbov S.T. Dövlət xərclərinin idarəedilməsi və xəzinədanğın təşkili problemləri. Bakı-2005


**Səadət Quliyeva**

## BÜDCƏ TƏŞKİLATLARINDA GƏLİR VƏ XƏRCLƏRİN BÖLÜŞDÜRÜLMƏSİ

***Xülasə***

Daim böyüyən bazar iqtisadiyyatı və elmi-texniki tərəqqi şəraitində ümumi problemi əsas götürən büdcə təşkilatlarının keyfiyyəti, inkişafı və idarə edilməsi, habelə büdcə gəlir və xərclərinin yaxşılaşdırılması məsələsi son dərəcə vacibdir. Büdcə təşkilatlarının maliyyələşdirilməsinin səmərəliliyinin artırılması problemi ön plana çıxır. Bu məqalədə dövlət büdcəsindən ayrılan

vəsaitlərin xərclənməsinin idarə edilməsinin təsirli mexanizmlərindən biri kimi bütün səviyyələrdə büdcələrin xərclərinin qruplaşdırılması nəzərdən keçirilir və onların iqtisadi məzmuna görə qruplaşdırılması ətraflı araşdırılır.

***Məqsəd –*** dövlət büdcəsinin gəlir və xərclərini nəzərdən keçirin və büdcə təşkilatlarında necə bölüşdürüldüyünü müəyyənləşdirmək.

***Metodologiya*** – nəzəri iş.

***Tədqiqatın nəticələri*** – büdcədə vəsaitin formalaşması mənbələrini və iqtisadi məzmundan asılı olaraq xərc maddələrini müəyyənləşdirdi.

***Açar sözlər:*** büdcə, dövlət büdcəsi, büdcə təşkilatları, gəlirlər, xərclər.

**Saadat Kuliyeva**

## DISTRIBUTION OF INCOME AND EXPENSES IN BUDGET ORGANIZATIONS

### *Summary*

In the context of a constantly growing market economy and scientific and technological progress, the issue of improving the quality, development and management of budget organizations, as well as improving budget revenues and expenses, which underlies the general problem, is extremely important. The problem of improving the efficiency of financing of budgetary organizations comes to the fore. In this article, as one of the effective mechanisms for managing the expenditure of funds allocated from the state budget, the grouping of expenditures of budgets of all levels is considered and their grouping by economic content examined in detail.

***Purpose of the research*** – consider the revenues and expenditures of the state budget and determine how they distributed in budgetary organizations.

***Methodology*** – theoretical study.

***Findings*** – identifyied sources of formation of funds in the budget and identified cost items depending on the economic content.

***Keywords:*** budget, state budget, budget organizations, income, expenses.

**UOT - 338.012**

**Təranə Vəliyeva**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
*tarana 055@mail.ru*

# İQTİSADİ SAHƏLƏRDƏ İKT-dən İSTİFADƏNİN ZƏRURİLİYİ

*Bu məqalədə göstərilmişdir ki, informasiya cəmiyyətində fiziki əməyin intellektual əməklə əvəz olunması sayəsində elektron idarəetmə inkişaf edir, elektron portalları özündə birləşdirərək zaman və məsafəli məkan problemləri aradan qaldırılır, iqtisadiyyatın bünövrəsində yeniləşən mikroelektron texnologiyası və onun müvafiq proqramları dayanmaqla İKT müasir cəmiyyətin formalaşmasında əsas yer tutur.*

***Məqsəd*** **–** iqtisadi informasiyanın texnoloji işlənməsi və iqtisadi sahələrdə İKT-nin tətbiqi.

***Metodologiya*** **–** İKT-nin iqtisadi inkişafda rolunun qiymətləndirilməsi məqsədilə müxtəlif yanaşmalardan və müxtəlif rejimlərdə iqtisadi informasiyanın texnoloji işlənməsi metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **–** iqtisadi sahələrdə elektron idarəetmənin inkişafı üçün dövlət layihələri hazırlanır.

***Açar sözlər:*** verilənlərin emalı, informasiya xidmətləri, sosial-iqtisadi inkişaf, müəssisələr arasında əlaqələrin qurulması, qlobal iqtisadi məkan, informasiya əsaslı baza, e-marketinq, e-ticarət, e-pul, İnternet reklam.

## Giriş

Son illər elm və texnikanın sürətlə inkişafı- hədsiz artan informasiya axınının işlənməsi, emal edilməsi, lazımi istiqamətlərə yönəldilməsini tələb edir. Bu mürəkkəb proseslər bütün sahələrdə İKT-dən geniş istifadə edilməsi ilə müəyyən olunur. İKT informasiya ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlığını və operativliyini çoxaltmaq məqsədilə texnoloji zəncirdə birləşdirilən metod, texniki-proqram vasitələri toplusudur.

Bütün dünya ölkələrinin qlobal informasiyalaşdırılması əsrində İKT müasir cəmiyyətin inkişaf səviyyəsinə təsir göstərən əsas amillərdən biridir. Bu texnologiyalar dövlət strukturlarını, sosial və iqtisadi sahələri, bütövlükdə insanların həyat tərzini əhatə edir.

Bu gün bəşəriyyətin gələcəyinə gedən *yol*-informasiya cəmiyyətinə istiqa-mətlənmiş yol hesab olunur. İnformasiya cəmiyyəti də elə bir cəmiyyətdir ki, burada əhalinin böyük hissəsi İKT-dən istifadə etməklə informasiyanın emalı və ötürülməsi ilə məşğul olur. Qlobal informasiya mühitinin yaradılması, informasiyanın əmtəəyə çevrilməsi, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi informasiya cəmiyyətinə xas olan xüsusiyyətlərdəndir.

Azərbaycan Respublikasında informasiyalaşdırma prosesinin inkişafına (İKT tətbiq etməklə istifadəçilərin informasiya tələbatlarının ödənilməsi üçün optimal şəraitin yaradılmasına, milli informasiya fəzasının formalaşdırılmasına, informasiyalaşdırma üzrə meydana çıxan münasibətlərin tənzimlənməsinə, dövlət informasiya ehtiyatlarının mühafizəsi üçün zəruri olan şəraitin yaradılmasına, informasiya şəbəkələrinin yaradılmasına, informasiya şəbəkələrinin beynəlxalq informasiya şəbəkələri ilə uzlaşmasına, informasiya fəzasında

iqtisadiyyatı tənzimlənməsinə, informasiyalaşdırma layihələri və proqramlarının dəstəklənməsnə, onların işlənməsi və həyata keçirilməsi üçün investisiyaların cəlb olunması mexanizminin yaradılmasına və s.) böyük stimul verilir.

**İqtisadi sahələrdə İKT-dən istifadənin zəruriliyi**

XXI əsrin əvvəlindən İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) cəmiyyətin inkişafına təsir göstərən əsas amil olaraq İnformasiya Dünyasına keçid dövrünü əhatə edir. Fərdi kompüter, İnternet, elektron poçt, elektron ticarət, elektron bank, multimedia məhsulları, IP-telefon, vertual oyunlar, intellektual sistemlər, obrazların və nitqin tanınması sürətlə cəmiyyətin məişətinə daxil olaraq gündəlik fəaliyyətdə mühüm yer tutur. İKT iqtisadi, sosioloji sahələrdə yüksək nailiyyətlər yaratmaqla insanların real ehtiyaclarını ödəyir və informasiyanın işlənməsi texnologiyası birbaşa verilənlərin emalı prosesindən asılı olur. Verilənlərin emalı prosesi iqtisadi məsələlərin həlli üçün məntiqi ardıcıllığın təşkili, istifadə olunan üsul-vasitələr toplusu və ya texnoloji əməliyyatlar *(verilənlərin qeydiyyatı, verilənlərin toplanması, verilənlərin emalı, verilənlərin ötürülməsi)* yığımıdır.

İqtisadi informasiyanın texnoloji işlənməsi müxtəlif rejimlərə malikdir:

*1. Paket rejimi*-bu rejimdə informasiya istifadəçinin tapşırığına uyğun olaraq həll edilərək hər bir həll sənəd paketi kimi tərtib edilir və bu paketlər birləşdirilərək, informasiyanın emalı prosesi avtomatik yerinə yetirilir. Bu rejimdə istifadəçinin müdaxiləsi minimuma endirilir, baş verəcək səhvlərin aradan qaldırılması vaxtında təmin edilir.

*2. Multiproqram rejimi*-bu rejim paralel emal prosesi olub, istifadəçinin tapşırıqlar yığımı müəyyən vaxt bölgüsü ilə bir neçə proqramla idarə olunur.

*3. İnteraktiv rejim*-bu rejimdə istifadəçi ilə texnoloji qurğu arasında əlaqə xüsusi menyu vasitəsilə təmin olunur.

Ümumiyyətlə, iqtisadi sahədə İKT-iqtisadi verilənlərin toplanması, emalı, ötürülməsi üçün metod və vasitələrdən istifadə etməklə məhsulun alınmasını təmin edən proseslərdir və bu proseslər şəbəkələr, proqram məhsulları, verilənlər bazaları, müxtəlif növ rabitə vasitələri və insanlardan ibarət olan bir mühiti əhatə edir. Belə ki, müəssisələrdə informasiya axınlarını və sənəd dövriyyəsini təkmilləşdirir, məhsul istehsalına və xidmətlərin göstərilməsinə qoyulan xərcləri azaldır, istifadəçilərə informasiya xidmətləri göstərir, yeni bazar münasibətləri qurur və s.

İKT müasir Azərbaycan cəmiyyətinin də ən vacib infrastrukturu, iqtisadiyyatının bir bölməsi, əmək məhsuldarlığının artım simvolu, dinamik inkişaf edən sahəsi olub, aparılan dövlət siyasəti onun zəruri sahə kimi inkişafına əlverişli sərait yaratmışdır. İKT-nin inkişaf etdirilməsi məqsədilə ilk növbədə qanuni və hüquqi baza yaradılmış, çoxlu sayda dövlət proqramları, strategiya və qanunlar qəbul olunmuşdur. Məsələn, *"Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)"* qəbul edilməsi müəyyən edilmiş məqsədlərə, fəaliyyət istiqamətlərinə layihələri planlaşdırmışdır. Digər bir Dövlət Proqramının- *"Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın(2003-2012-ci illər)* əsas məqsədi İKT-dən geniş istifadə etməklə şəffaf iqtisadi sistem yaratmaq, ölkənin demokratik inkişafına kömək etmək olmuşdur.

Daha bir Dövlət Proqramının - *"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"*nın da əsas məqsədi ölkədə informasiya cəmiyyətini bərqərar etmək, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə etmək, İKT-nin dövlət idarəçiliyində, sosial-iqtisadi və mədəni sahələrin inkişafında iqtisadi sektor kimi inkişaf etdirilməsini təmin etməkdir. İKT-yə artan tələbat keyfiyyətli xidmətlərin təqdim olunmasını və əhalinin, biznes

qurumlarının, ümumilikdə cəmiyyətin onlardan istifadə imkanlarını genişləndirir, təhsil, səhiyyə, sosial müdafiə və digər sosial sahələr üzrə göstərilən xidmətlərin keyfiyyətini yüksəldir.

İqtisadi sahələrdə İKT korporativ informasiya sistemlərinin yaradılması və onlardan istrifadənin genişləndirilməsini tələb edir, onların tətbiqi səmərəli, gəlir gətirən və ümumilikdə yüksək artım tempini təmin edən hesab edilir.

Dünyanın əksər ölkələrində İKT idarəetmə, maliyyə, bank işlərində daha çox istifadə olunur və bu ölkələr informasiya trexnologiyalarına 1 trilyon dollardan yuxarı vəsait xərcləyir. Hesablamalar göstərir ki, onun yüksək inkişaf səviyyəsinə malik olduğu ABŞ-da tətbiqi və inkişafına qoyulan xərclər əldə olunan gəliri bir çox hallarda üstələyir. Odur ki, İKT ayrı-ayrı sahələrə ardıcıllıqla tətbiq olunmalı, ümimi riskin azalmasına gətirilib çıxarılmalıdır.

İKT-yə ***investisiya qoyuluşlarının*** effektivliyinin və onların iqtisadi inkişafda xüsusi əhəmiyyəti olan rolunun qiymətləndirilməsi məqsədilə hal-hazırda müxtəlif yanaşmalar mövcuddur:

*I qrup yanaşmaya* müəssisənin mövcud vəziyyətini nəzərə alaraq ayrı-ayrı göstəricilərə görə qiymətləndirmə aid edilir. Burada ənənəvi maliyyə əmsallarının hesablanması və müqayisəli qiymətləndirilməsi həyata keçirilir.

*II qrup yanaşmada* ekspert üsullarından istifadəyə üstünlük verilməklə əldə olunacaq gəlirlərin müəyyən olunması mümkündür. Bu üsulun tətbiqi xüsusu bilik və texnoloji vərdişlələrə, işləmə bacarığına malik mütəxəssislərin meydana çıxması ilə müşayiət olunur.

*III qrup yanaşmaya* İKT-nin tətbiqinin iqtisadi inkişaf üçün nə dərəcədə səmərəli olmasını müəyyənləşdirmək və itkilər olmadan istehsalı davam etdirmək məqsədilə istifadə olunan balans üsullarının tətbiqi (məsələn, xərc və gəlirin təhlili, mülkün dəyəri, büdcə və s.) aid edilir.

İKT ***sosial-iqtisadi inkişafın*** fəaliyyət sahəsini genişləndirməklə iqtisadiyyatın artımını tənzimləmək üçün kifayət qədər potensiala malikdir. Bu potensial özünü davamlı və dayanıqlı inkişafın təmin edilməsində, intellektual potensialın gücləndirilməsində, biznesin irəliləməsində, korrupsiya ilə mübarizədə, yoxsulluq və işsizliyin azaldılmasında, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsində daha dolğun biruzə verir.

İKT sektoru iqtisadiyyatın aparıcı və dinamik inkişaf edən sahəsinə çevrilməklə ənənəvi iqtisadi sahələrin inkişafında *İnternet iqtisadiyyatını* inkişaf etdirir. İnternet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə, cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır.

Müasir şəraitdə İKT-nin ***iqtisadiyyatın bütün sahələrində geniş tətbiqi*** artıq günün ən vacib tələblərinə çevrilmişdir. Bu da elmi nailiyyətlərin artması, yeni-yeni texnoloji məhsulların ortaya çıxması baxımından irəli gələn bir tendensiyadır. Əvvəllər iqtisadiyyat daha çox neft və qaz üzərində qurulurdusa, indi bu yerə getdikcə daha çox İKT sahiblik edir.





***Sənaye, kənd təsərrüfatı məhsullarının istehsalında*** da İKT-dən istifadə günü-gündən artmışdır. Son illərdə kənd təsərrüfatı məhsullarının yeni üsullarla istehsalında, istehsal olunmuş məhsulların saxlanması və qablaşdırılmasında, yeni toxum və becərmə texnologiyalarının işlənib hazırlanmasında onun imkanlarından geniş istifadə olunur. Bu da nəticə etibarilə həmin məhsulların maya dəyərinin aşağı, keyfiyyətinin isə daha yüksək olmasını təmin edir.

Hazırda Dünya ölkələrinin inkişafında İKT-nın tətbiq istiqamətləri yeniləşir və rolunun əhəmiyyəti ildən-ilə dəyişir. Məsələn, bir neçə il əvvəl ABŞ-da İKT-nin geniş tətbiq sahəsi hərbi sahə olub, sonradan isə, mülki sahədə inkişaf etdirilərək ona çəkilən ümumi büdcə xərcləri artırılaraq iqtisadi inkişafda yüksək nəticələrin əldə olunmasının təməli qoyulub. Büdcə xərclərinin bölgüsünün dəyişməsi ölkədə iqtisadi inkişafın İKT-dən asılılığının artması və müasir tələbatda bu sahənin aparıcı rolunun yüksəlməsi ilə izah edilir.

İKT-nin istehsalında aparıcı rola malik ölkələrdə bu inkişaf daha sürətlə həyata keçirilir. Texnoloji məhsullar idxal edən ölkələrin iqtisadi inkişafında isə İKT-nin rolu aşağı səviyyədədir. İKT-nin inkişafı texnoloji xidmətlərin səviyyəsi ilə müəyyən olunur. İnkişaf etmiş Yaponiya, Cənubi Koreya, Sinqapur kimi dövlətlərlə yanaşı, son illərdə Çin, Hindistan, bir çox ərəb ölkələri və digərlərində də İKT-nin inkişaf tempi yüksəlir.

İndiki dövrdə iqtisadi sahədə yeni texnologiyaların tətbiqi, avadanlıqların istehsalı, güclü proqram vasitələri və məhsullarının istehsalında müvəffəqiyyət əldə olunmuşdur. Bunu proqram təminatı sahəsində Asiya ölkələrinin ABŞ və Qərbi Avropa ölkələri ilə güclü rəqabət aparmasında daha aydın hiss etmək mümkündür və bu ölkələrdə İKT sahəsində çalışan mütəxəssislərin, ixtisaslı kadrların sayı durmadan artır. Şərqi Avropa ölkələrində, eləcə də MDB məkanında olan ölkələrdə informasiya texnologiyalarının avadanlıqlar və proqram təminatı məhsullarının istehsalı xeyli artmışdır.

İKT-nin iqtisadiyyatda tətbiqi yeni iqtisadiyyatın yaranmasına, onun qloballaşmasına, inkişaf amillərinin daha müasir, geniş müstəvini əhatə etməsinə səbəb olmuşdur. Eləcə də, hər bir müəssisə rəhbərinin qarşısında vəsaitlərin istehsalının artırılması və ya informasiya texnologiyalarının yaradılması problemi meydana çıxır. Çünki, istənilən müəssisə bazarda öz yerini saxlamaq üçün effektiv işləyən informasiya texnologiyalarına malik olmalıdır.

İKT-nin tətbiqi iqtisadi inkişafda ***material faktorlarının roluna*** təsir edir, istehsalın artırılması problemini də həll edir ki, bu da avtomatlaşdırılmış sistemlərdə idarəetmə və istehsalı təşkil etməyə yol açır. İstənilən müəssisədə istehsal prosesinin daha düzgün qurulması bu müəssisənin fəaliyyətinin araşdırılması və təhlilinin nəticələrinə nəzərən aparılır. İKT nəticəsində maliyyə, mühasibat, proqnoz, ehtiyatların bölüşdürülməsi, vəsaitlərin sərfi qısa müddətə, obyektiv və hərtərəfli həll olunur. Ondan istifadə az işçi qüvvəsi ilə ən yaxşı variantın qısa müddətə seçilməsi, məhsul bazarının miqyasının genişlənməsi, məhsul çeşidlərinin müəyyən edilməsi, məhsula bazarda olan tələbatın öyrənilməsi, rəqabətə davamlılıq istiqamətində vaxtında tədbirlərin görülməsi işlərinə şərait yaradır.

İqtisadi inkişafda İKT-nin tətbiqi ***iqtisadi informasiyaları strateji resursa çevirir***, yəni istehlakçının istəyinə uyğun məhsul istehsalını tənzimləyir. Burada əsas materiallar, texnologiyalar, idarəetmələr, rəqiblər, qanunçuluq sferasında dəyişikliklər, alıcı və sifarişçilər massivləri təhlil edilir. Bu göstəricilər müəssisə iqtisadiyyatının inkişafının plan və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün baza funksiyasını da yerinə yetirir. Çünki, bu məlumatlar müəssisəyə istehsalın təşkili, məhsulun bazara çıxarılması və lazımi keyfiyyətinin təmini, bazar rəqabətinə davamlılığı, əldə olunan gəlirin düzgün bölüşdürülməsi, sifarişçı və istehlakşıların əldə olunması baxımından kömək edir.

İKT-nin tətbiqi ***müəssisələr arasında əlaqələrin qurulmasına şərait*** yaradır. Yəni, onlar arasında birbaşa əlaqələr saxlamaq, lazımi məlumatları qısa müddətə və dəqiqliklə əldə etmək imkanı yaradır, informasiya mübadilələri zamanı istifadə olunan informasiya yığımı və onun əldə olunması üçün çəkilən xərclər minimumlaşdırılır, şirkət və müəssisələrə məhsul nümunələri təqdim olunur, sifarişçi və istehlakçı arasında əvvəlcədən razılaşmalar əldə edilərək müqavilələr bağlanılır və sövdələşmələrdə dəyişikliklər edilir, yol xərcləri və əlavə xərclər olmadan həyata keçirilir. Müxtəlif ölkələrdə yerləşən iri kompaniya və şirkətlər arasında əlaqələr məhz İKT-nin fəaliyyəti və tətbiqi nəticəsində yaranmışdır. Məsələn, dünya ticarət mərkəzləri *(London, Nyu-York, Tokio və s.)* birjalar müasir tələblərə uyğun olaraq bütün dünyada valyutaların, aksiyaların və məhsulların alış-satışını təmin edir.



İqtisadi inkişafda İKT-nin tətbiqi ölkələr arasında sərhədləri aşaraq ***qlobal iqtisadi məkan*** yaratmışdır. Məsələn, Koka-Kola, HP və s. Bu iqtisadi nəhənglər müasir tələbat və standartlara cavab verən texnologiyalardan istifadə etməklə informasiyaların təhrif olunmadan, dəqiq, operativ və sürətlə əldə olunmasına şərait yaradırlar.

Şərqi Avropa və MDB məkanında olan ölkələrdə də iqtisadi sahədə tətbiq olunan informasiya texnologiyalarının avadanlıqlar və proqram təminatı məhsullarının istehsalı artırılır. Onların icrqa etdikləri xidmətlər müasir tələblərə uyğun qurulmaqla, yeni sistem və fəaliyyət istiqamətləri müəyyənləşdirilməklə, inkişaf etmiş dünya ölkələrinin təcrübələrindən yararlanmaqla informasiya cəmiyyətinin tələblatları yerinə yetirilir.

Bu günkü iqtisadiyyat ***informasiya əsaslı bazada*** inkişaf edir. Yəni, idarəetmədə, maliyyə məsələlərinin həllində, müəssisələrarası əlaqələrin qurulmasında, investisiyaların cəlb edilməsində, məhsulun reklamında, marketinqin təşkilində, biznesin aparılmasında və s. geniş istifadə olunur.

Müasir iqtisadiyyatın əsas fəaliyyət sahəsi olan marketinq sahəsində iri həcmli şirkət və müəssisələr öz məhsullarının satışını onun bu imkanlarından istifadə etməklə təşkil edirlər:

İnformasiya texnologiyalarının marketinqdə istifadəsi ***elektron marketinqin*** təşəkkülünə - müxtəlif coğrafi mövqeyə malik istehsalçı və istehlakçılar arasında əlaqələrin yaranması və genişlənməsinə zəmin yaratmışdır. Bu əlaqə növündə ünvanlaşdırılmış göndərmələrdən daha çox istifadə edilir, istehlakçı sifariş verərək ödəməni online aparmaqla məhsulu əldə edir. Eyni zamanda, satış bazarında potensial müştərilər müəyyənləşdirilir, alıcıların fəaliyyətləri izlənilir, əldə olunan informasiyalara əsasən satışı genişləndirmək üçün hər bir müştəriyə e-poçt xidməti göstərilir, məhsulun ekskluziv nümunələri ona təklif edilir. Məhsul istehlakçının tələbinə uyğunlaşdırılır, məhsuldan istifadə zamanı yaranan problem istehsalçı tərəfindən aradan qaldırılır.

İqtisadi sahələrdə İKT-nin ən çox tətbiq edildyi və dinamik inkişaf edən istiqamətlərindən biri ***elektron ticarətdir***. Elektron ticarət tərəflər arasında bütün növ biznes və işgüzar əlaqələri əhatə etməklə, müəssisələrlə fərdlər, fiziki şəxslər, digər müəssisələr və təşkilatlarla aparılır. Onun fəaliyyət dairəsinə məhsul və xidmətlərin reklamı, onların hərəkəti, məhsulun satış bazarında müəyyən şərtlər daxilində şəraitinin seçilməsi, satış və ödəmələrin tənzimlənməsi, satılmış məhsulların çatdırılması, satışdan sonrakı təminatı və s. aiddir. Elektron ticarətin ən müasir inkişafı İKT-nin tətbiqi ilə aparılan bütün kommersiya əməliyyatlarını (sifarişin qəbulu və tərtibatını, satılan məhsulun çatdırılması, satışa görə ödəniləcək məbləğlərin ödənilməsi, satıcı ilə alıcı arasında əlaqələrin yerləşmə məkanından asılı olmayaraq İnternet vasitəsilə aparılmasını) həyata keçirməkdir.

İKT-dən istifadə və iqtisadi inkişafdan asılı olaraq elektron ticarətin müxtəlif dünya ölkələrində səviyyəsi fərqlidir. Belə ki, bu sahədə lider ABŞ-dır, Avropa ondan 2-3 il geri qalır. Dövlətin ehtiyaclarının ödənilməsi üçün, ilkin şərt, ölkədə istehsal olunan məhsullar və göstərilən xidmətlərə uyğun nizamlanmaya imkan verən verilənlər bazasının təşkil olunmasıdır. İkinci şərt, informasiya-marketinq şəbəkə sisteminin yaradılmasıdır. Sistemin də əsas vəzifəsi dövlət strukturlarını bazar haqqında analitik informasiya ilə təmin etməkdir. Bu şəbəkə elektron imzaları təsdiq edən elektron ödəmə sistemlərinin mövcudluğunu təmin edir. Üçüncü şərt isə, elektron ticarətin ölkə daxilində fəaliyyətinin monitorinqini aparan mərkəzin olmasıdır.

İKT-nin tətbiqi ilə təkmilləşmə, müxtəlif vasitələrlə həvəsləndirmə və cəlbetmə məhsul satışının müvəffəqiyyətinin təməlidir. İnternet vasitəsilə məhsul satışının əsas elementi ***İnternet reklam*** işidir. Bu işin təşkilində reklam unikallığının təmini ən ümdə məsələdir və onunla birbaşa reklam şirkətləri məşğul olur. Adətən, reklam şirkətləri İKT-nin tətbiqi ilə məhsul reklamı saytlarında müxtəlif gündəlik məlumatlar yerləşdirməklə geniş istifadəçi kütləsi cəlb edirlər. Bu şirkətlərin imkanlarından daha çox istehsalçılar istifadə edir.

İnkişaf etməkdə olan ölkələrdə elektron reklamın təşkili daha çox İnternet saytlarının xüsusi bölmələrində aparılır. Onların təcrübəsi göstərir ki, İnternet axtarış sistemlərinin (Google, Yahoo, Rambler, Yandex və s.) xüsusi səhifə və saytlarında reklamların yerləşdirilməsi, istifadəçi və ya müştərilərin çox müraciət etməsi, cəlb olunması prosesin uğurla aparılması prinsipini dəstəkləyir. Bunun üçün əsas şərt- layihə və proqramlardan istifadə etmək, veb səhifələrin operativliyini təmin etməkdir.

İqtisadiyyatın mühüm qolu olan **kredit, bank və maliyyə sahələrində** də verilənlərin emalı və ötürülməsi elektron formada standart kontraktların - pul vəsaitlərinin köçürülməsi, valyuta və qiymətli kağızlarla sövdələşmələr, ödəniş və hesablaşmaların plastik kartlarla aparılması, müştərilərin bank əməliyyatlarını birbaşa kompüterlə aparmaları və s. həyata keçirilməsi ilə aparılır.

Elektron kredit, bank və maliyyə əməliyyatları ***elektron sənəd dövriyyəsinin*** tətbiqinə əsaslanır. Bank sferasında bu dövriyyəni təmin edən **SWIFT***(Society for World Wide Interbank Financial Telecommunications-Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti)* XX əsrin 70-ci illərindən fəaliyyət göstərir.

Elektron kredit, bank və maliyyə əməliyyatları ***elektron pul*** anlamı ilə xarakterizə olunurlar. Elektron pul- bank depozitinin ekvivalenti olub, bank əskinazlarını və sikkələrini əvəz edən, kompüter və şəbəkələrdə, daxilində mikroprosessor olan kartrlarda yazılmış şifrələnmiş rəqəmlər seriyasıdır. Elektron pullardan istifadə vergidən yayınmanı, "çirkli" pulların yuyulmasını, maliyyə əməliyyatlarını tənzimləyir.

ABŞ-da böyük məbləğdə köçürmələrlə ödənişlər etmək üçün FEDWIRE və CHİPS sistemlərindən istifadə olunur. FEDWIRE sistemi – elektron şəbəkə olub, 12 federal

ehtiyat bankı əlaqələndirir və 11000-dən artıq depozit müəssisələrinə malikdir. CHİPS isə, həm ölkədaxili, həm də beynəlxalq pul köçürmələrini həyata keçirir ki, bunların da 90%-dən çoxu beynəlxalq ödəmələr və valyuta əməliyyatlarının payına düşür.

Böyük Britaniyanın CHARS avtomatlaşdırılmış banklararası hesablaşma sistemi kimi, banklar arasında 7000 funt sterlinqdən yuxarı məbləğlərdə sövdələşmələrə uyğun ödənişlər həyata keçirir.

Yaponiyanın ümummilli telekommunikasiya şəbəkəsindən istifadə edərək səmərəli və stabil ödəmə funksiyalarına malik BOJ NET elektron sistemi orta hesabla ayda 231000 əməliyyat yerinə yetirir.

Almaniyanın DEUTSCHE BUNDESBANK sistemi poçt və teleqraf idarəsinin xidmətlərindən istifadə eməklə vəsaitlərin köçürülməsi əməliyyatlarını idarə edir.

Bütün dünya ölkələrinin maliyyə institutları və bankları elektron sistemə daxilolma və ondan istifadə etmə məcburiyyətindədirlər. Elektron kredit, bank və maliyyə əməliyyatlarının inkişaf etməkdə olan ölkələrdə də müvəffəqiyyətlə tətbiqi bu sahədə təcrübəyə malik ölkələrin köməyi və mövcud sistemlərinin istifadəsinə əsaslanır, bu ölkələrin beynəlxalq hesablamalara qoşulmasına imkan verir.

Son illərdə elektron ödəmə sistemlərinin tətbiqi ***beynəlxalq kredit kartlarından*** istifadənin yüksək sürətlə inkişafına təkan vermişdir. Yüksək gəlir gətirən turizmin və digər iqtisadi sahələrin inkişafı Visa, Mastercard, American Express kimi beynəlxalq şirkətlərin kredit kartlarının dünyanın müxtəlif coğrafi məkanlarında istifadəsinə və yekunda elektron kredit, bank və maliyyə əməliyyatlarının mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. Respublikamız da daxil olmaqla əksər dünya ölkələrində əmək haqqlarının, təqaüdlərin, sosial təyinatlı ödənişlərin elektron kart sisteminə keçidi geniş vüsət almışdır.

İKT sahəsi üzrə Azərbaycan Respublikasının gələcək inkişaf strategiyasının əsas istiqamətləri qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma və tərəqqiyə nail olmaqdır. Bu məqsədlə iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmləri yaradılır və inkişaf etdirilir. Mövcud resurslardan istifadə olunaraq sosial-iqtisadi inkişafın müasir tələblər səviyyəsində təmin edilməsi və iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi milli məhsulların dünya bazarında layiqli yer tutmasına şərait yaradır.

Respublikamızda İKT davamlı və dayanıqlı inkişafın təmin edilməsi və biznesin irəliləməsində əlverişli vasitə olaraq qəbul edilir. Bütün sahələrdə yeni dəyərlər yaradan İKT ictimai-iqtisadi münasibətlərin vacib tərkib hissəsidir. İnternet mediasının inkişafı, sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. Onlar yeni istifadə və iştirak mühitləri yaratmaqla məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır.

İKT-nin iqtisadiyyatda tətbiqi səmərəli, gəlir gətirən və ümumilikdə yüksək artım tempini təmin edən hesab edilir və onların inkişafına yeni investisiyalar cəlb edilir. Bu investisiya qoyuluşlarının effektivliyi və iqtisadi inkişafda əhəmiyyəti onların informasiya sistemlərinin inkişafında rolları ilə qiymətləndirilir. Beləliklə, İKT-nin müasir iqtisadiyyatda rolunu və perspektivlərini səciyyələndirmək üçün bu xarakterik xüsusiyyətləri qeyd etmk lazımdır:

*1. İKT məhsullarının keyfiyyət və məhsuldarlığının artması onların qiymətlərinin nisbətən düşməsinə səbəb olur.* Bu ondan irəli gəlir ki, texnoloji qurğuların məhsuldarlığı mikrosxemlərin xüsusiyyəti və keyfiyyəti ilə müəyyənləşdirilir. Mikrosxemlərin hazırlan-

masında heç bir fasilə olmadan yenisinin hazırlanması və bazara çıxarılması baş verir. Prosesin bu cür təşkil edilməsi satış bazarında və ümumilikdə, mikrosxem biznesində istehsalçının öz yerini tutmasını təmin edir. İstehsalçı yeni nəsil mikrosxem bazara çıxarılana qədər əvvəlki nəsildən olan mikrosxemdən daha çox sayda satmalıdır ki, xərcləri ödəyərək gəlir əldə edə bilsin. Ona görə də, hər yeni nəsil mikrosxem buraxıldıqda yeni məhsulun qiyməti istehsalçı tərəfindən çox qaldırılmır. Həm də növbəti nəsil mikrosxemin ortaya çıxması həmin andan əvvəlki nəsil mikrosxemlərə olan tələbatı azaldır, köhnə texnika ucuzlaşır və yeni yeni texnikanın qiymətinin qaldırılmasına imkan verilmir. Nəticədə, alıcı eyni məbləğdə pula daha məhsuldar texnika əldə edə bilir.

*2. İKT istehlakçıları ilə birbaşa əlaqələrin inkişaf etdirilməsi onların fərdi sifarişlərinə uyğun işləri təşkil edir.* Belə ki, xüsusi sifarışlə keyfiyyətli texnoloji məhsul əldə etmək olar, lakin bu həmişə mümkün deyil. Çünki, İKT istehsalçısının əsas məqsədi istehlakçının fərdi maraqlarının ödənməsi deyil, istehsalın təşkili və inkişafıdır. Məsələn, istehsalçılar alıcılara alacaqları məhsulun texniki parametrlərini xüsusu informasiya sistemindən istifadə etməklə müəyyən etməyi təklif etdikdə bu məhsulun qiyməti artmır, ancaq onun şatışının miqdarı və bazarda rəqabətə davamlılığı yüksəlir.

Beləliklə, iqtisadi sahələrdə İKT-nin tətbiqi üçün maksimal informasiya aşkar olunmalı, dövlət strkturlarının idarəetmə və fəaliyyətində İKT-nin rolu təkmilləşdirilməli, dövlət ehtiyaclarının ödənilməsinə yönəldilmiş elektron idarəetmənin səviyyəsi yüksəldilməli, İKT-lərin tətbiq və istifadə sahələrinin genişləndirilməsi ilə bərabər, ölkədə texniki vasitələrin istehsalı artırılmalı, müasir İKT-nin inkişafına təkan verilməklə maliyyə dəstəyi gücləndirilməli, bu sahəyə yerli və xarici investisiyalar cəlb olunmalı, İKT məhsullarının istehsalı və idxalı sürətləndirilməlidir.

**Nəticə**

İqtisadi sahələrdə elektron idarəetmənin geniş miqyaslı tanınması üçün dövlət layihələri hazırlanır, ödəniş sistemlərinin inkişaf etdirilməsi və rəqəmsal sistemlərdə tətbiqinə geniş imkan yaradılması üçün təminatlar ayrılır, elektron tarazlığın inkişafına şərait yaratmaq üçün texniki hazırlığa xüsusi investisiyalar qoyulmasına diqqət edilir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. S.Q.Kərimov. “İdarəetmənin informasiya texnologiyaları və korporativ informasiya sistemləri”. Dərslik. Bakı, 2010
2. R.Hümbətəliyev, H.Tağıyev, F.Quliyeva “İqtisadi informatikanın əsasları”, Dərslik, Kooperasiya nəşriyyatı, Bakı 2014
3. N.M.Quliyeva “İdarəetmə fəaliyyətində informasiya texnoloqiyalarmdan istifadə olunması”. Bakı 2015
4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”
5. G.Verdiyeva “İqtisadiyyat və idarəetmə”. Bakı: Kitab Yurdu.org nəşriyyatı, 2015
6. N.Umarova. İKT (İnformasiya kommunikasiya texnologiyası). Dərs vəsaiti İTİ nəşriyyatı, Bakı 2016
7. http://www.stat.gov.az/source/
2. 8.http://www.itu.int/net4/ITU-D/

**Тарана Велиева**

## НЕОБХОДИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ ИКТ В ЭКОНОМИЧЕСКИХ СФЕРАХ


### *Резюме*

В этой статье показано, что в информационном обществе электронное управление развивается путём замены физического труда интеллектуальным трудом, решения пространственных проблем времени и расстояния путём интеграции электронных порталов, а также благодаря использованию микроэлектронных технологий и связанных с ними программ, ИКТ играет центральную роль в современном обществе.

***Цель –*** технологическое развитие экономической информации и применение ИКТ в экономической сфере.

***Методология –*** с целью оценивания роли ИКТ в экономическом развитии использовались различные подходы и методы технологической обработки экономической информации в различных режимах.

***Результат –*** разрабатываются правительственные проекты для признания электронного управления в экономических областях.


***Ключевые слова:*** обработка данных, информационные услуги, социально-экономическое развитие, установление контактов между предприятиями, глобальное экономическое пространство, информационная база данных, э-маркетинг, э-торговля, э-деньги, Интернет реклама.

**Tarana Valiyeva**

## THE NECESSITY OF USE OF ICT IN THE ECONOMIC FIELDS


### *Summary*

The article describes the development of the electronic management in the information society by the replacing of physical labor with the intellectual labor, solving spatial problems of time and distance by integrating electronic portals and as well as thanks to the use of microelectronic technologies and related program, ICT plays a central role in the shaping of modern society.

***Purpose*** - technological development of economic information and application of ICT in the economic fields.

***Methodology*** - with the purpose of evalution the role of ICT in the economic development various approaches and methods of technological processinq economic information in various modes were used.

***Findings*** - electronic government recoqnition projects are beinq developed in the economic fields.


***Keywords:*** data processing, information services, social and economic development, establishing of relations between enterprises, global economic space, information database, e-marketing, e-trade, e-money, Internet advertising.

**UOT-332.12**

**Nahid Almasov**
***Azərbaycan Neft və Sənaye Universiteti, dissertant***
*nahid.almasov@mail.ru*

# TİKİNTİNİN İNKİŞAFINDA DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ İNKİŞAFININ ROLU

*Məqalədə tikinti sferasında təşkilatların strukturu, fəaliyyəti və formalaşması məsələləri ilə əlaqəli xarici və yerli tədqiqatlar təhlil edilmiş, tikinti təşkilatlarının bloklara ayırmasının müxtəlif üsulları göstərilmişdir.*

*Tikinti təşkilatının strukturunun formalaşması elementləri açıqlanmış, onun inkişaf etdirilməsində dövlət-özəl tərəfdaşlığının rolu göstərilmiş, dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi və özəl tikinti-investisiya şirkətlərinin əməkdaşlığa cəlb edilməsinin məqsədəuyğunluğu elmi cəhətdən əsaslandırılmışdır.*

***Məqsəd*** – tikinti təşkilatlarının srtukturunun formalaşması xüsusiyyətlərini təhlil etməklə dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi məqsədilə özəl tikinti-investisiya şirkətlərinin bu sahəyə cəlb edilməsinin məqsədəuyğunluğunun əsaslandırılmasıdır.

***Metodologiya*** – tikinti sferasının təhlilində iqtisadi –statistik modeldən istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – tikinti təşkilatlarının srtukturunun formalaşması üçün əlverişli şəraitin təmin edilməsindən ibarətdir.

***Açar sözlər:*** tikinti, təşkilat, struktur, formalaşma, özəl şirkətlər, cəlb edilmə.

## Giriş

Bazar şəraiti və regionların iqtisadi sərbəstliyinin yüksəldilməsi tikinti komplekslərinin idarəedilməsinin yeni prinsipial mexanizminin işlənilməsini tələb edir. Belə ki, tikinti komplekslərinin yeni idarəetmə mexanizmi bilavasitə tikinti müəssisələrinin səmərəli fəaliyyətini təmin etməlidir. Bu halda tikinti komplekslərinin strukturunun yeniləşdirilməsi, onun təşkilati quruluşu və idarəetmə strukturunun transformasiyası, əsas istehsal fondlarının bərpası, təsərrüfat subyektlərinin bir-biri arasında qarşılıqlı əlaqənin qurulması prinsipial şəkildə yeni iqtisadi münasibətlərin formalaşması ilə şərtləndirilir. İqtisadi sistemin əsas kompleksi hesab edilən tikinti kompleksi regionun aparıcı sahələrinin inkişaf etdirilməsini təmin edir və real iqtisadi şərait investisiya prosesi iştirakçılarının qarşılıqlı əlaqəsinin xarakterini və tərkibinin keyfiyyətini dəyişərək onların funksiyalarını bölüşdürür. Belə ki, tikinti istehsalı iqtisadiyyatın digər sferalarında fəaliyyət göstərən müəssisələrlə, investorlarla, bank strukturları, maliyyə-sənaye qrupları və digər institusional formalarla sıx qarşılıqlı əlaqədə olur.

Müəssisənin iqtisadi mexanizmi bir tərəfdən gəlir əldə edilməsi şəraitini yaradan daxili əlaqələri, digər tərəfdən müəssisə daxilində istehsal şəraitinin inkişaf etdirilmə istiqamətini təmin edir. Müəssisələrin iqtisadi mexanizmi mürəkkəb quruluşa malik olur və onun təşkiledici elemetlərinə resursların (kapitalın) bölüşdürülməsi və formalaşması; əsas fondaların idarə edilməsi; dövriyyə fondlarının idarə edilməsi; əmək resurslarının idarə edilməsi; xərclərin idarə edilməsi; maliyyənin idarə edilməsi; motivasiya və bazarla

qarşılıqlı əlaqə mexanizmləri daxildir. Daxili iqtisadi mexanizmin strukturu təşkilati-texniki sistem və onun bütün bölmələrlə əlaqəsi, bölmələrin fəaliyyətinin planlaşdırılması, onların fəaliyyətinə nəzarət və qiymətləndirilmə sistemləri, bölmələrin material cavabdehliyinin yaradılması və fəaliyyətin motivasiya mexanizmləri vasitəsi ilə müəyyən edilir.

**1. Tikinti müəssisələrinin tədqiqatı üzrə ədəbiyyatların təhlili**

Tikinti müəsisələri material istehsalı və bazarın sərbəst subyekti olan hüquqi şəxs hüququna malikdir və texnoloji, sosial və iqtisadi münasibətlərin sərbəst birgə sistemi olmaqla tikinti məhsulları istehsal edən təsərrüfat vahididir. Təsərrüfat subyekti kimi tikinti təşkilatlarına sənaye və texniki birliklər, təşkilati-inzibati və iqtisadi müstəqilliyi olan subyektlər aid edilir [2]. Müxtəlif tədqiqatçılar bazar şəraitində fəaliyyət göstərən müasir tikinti təşkilatlarının mühüm xüsusiyyətlərinə aşağıdakıların aid olduğunu qeyd edirlər:

- təşkilat vahidi: tikinti təşkilatı bütün daxili istehsal quruluşu və idarəetmə qaydasına malik olan kollektiv tərəfindən müəyyən bir formada təşkil edilir, iqtisadi fəaliyyətin təşkilinin iyerarxik prinsipinə əsaslanır;
- istehsal vasitələrinin müəyyən kompleksi: tikinti təşkilatları gəlirin maksimallaşdırılması məqsədi ilə istehsal üçün iqtisadi resursları birləşdirir;
- əmlak öhdəliyi: tikinti təşkilatı öhdəliklərinə görə bütün əmlakına tam məsuliyyət daşıyır;
- inhisarçı: tikinti təşkilatı birbaşa inzibati idarəetmə formalarına əsaslanan inhisarçı münasibətləri təmin edir;
- sərbəstlik: öz adı ilə iqtisadi dövriyyədə çıxış edir, sərbəst balansa, banklarda cari və digər hesablara, möhürə, tikinti-quraşdırma işlərini yerinə yetirməyə və öz məhsullarının (evlər, qurğular, işlər) realizasiya edilməsinə malikdir;
- əməliyyat-təsərrüfat və iqtisadi sərbəstlik: tikinti təşkilatı sərbəst olaraq müxtəlif müqavilə və əməliyyatlar həyata keçirir, gəlir əldə edir və ya ziyanla işləyir, gəliri əsasında stabil maliyyə vəziyyətini və gələcəkdə istehsalatın və digər infrastrukturun genişləndirilməsi fəaliyyətini təmin edir [3].

Beləliklə, müasir şəraitdə tikinti təşkilatlarının normal fəaliyyətini təmin etmək üçün onların tərkibində əsas istehsal (tikinti-quraşdırma işlərini yerinə yetirən), köməkçi istehsal (yarım fabrikattların hazırlanması) və əsas tikinti istehsalına xidmət göstərən (nəqliyyat, təchizat bölmələri və s.) bölmələr olmalıdır.

Tikinti təşkilatının strukturu iki əsas amillə müəyyənləşdirirlir və o, texniki-iqtisadi konyuktur, elmi-texniki tərəqqi və sisial-iqtisadi proseslərin təsiri ilə daimi korrektirovka edilir:

- tikinti təşkilatının ölçüsünə görə;
- sahə və texnoloji ixtisaslaşmaya görə.

Tikinti təşkilatlarının bütün struktur bölmələri idarəetmə sistemi vasitəsilə öz aralarında əlaqələndirilir ki, bu da onun əsas orqanı hesab edilir. Tikinti-quraşdırma idarəsi (TQİ) və tikinti işlərinin idarə rəisi (İİR) bilavasitə bina və qurğuların tikintisinin gedişatında resursları istifadə etməklə investisiya layihələrinin və ya onların ayrı-ayrı hissələrinin realizasiyası ilə məşğul olurlar.

Tikinti təşkilatının yeni təşkilat quruluşunu seçdikdə, onun idarəetmə aparatını formalaşdırdıqda təşkilatın qarşısında duran vəzifəni və işin yerinə yetirilmə şərtlərini dəqiq müəyyənləşdirmək lazımdır. İnzibati-təsərrüfat xərclərinin azalmasına tikinti müddətinin azaldılması, əmək məhsuldarlığının artırılması, tikintinin konsentrasiyası, tikinti təşkilatlarının təşkilati strukturunun yaxşılaşdırılması (yeniləşmə və ixtisaslaşma, tikinti istehsalının idarə edilməsində lazımsız əlaqələrin aradan qaldırılması), tikintidə uçot və

hesablaşma sisteminin sadələşdirilməsi və s. əsas amillər səbəb olur [5].

Bazar iqtisadiyyatı təşkilatların, o cümlədən tikinti kompleksi təşkilatlarının istehsal fəaliyyətinin yaxşılaşdırılması ilə birbaşa əlaqəlidir. Bazardakı dəyişiklərlə əlaqəli problemlər tikinti təşkilatlarının idarə edilməsinin təkmilləşdirilməsində xüsusi aktuallıq kəsb edir və bu da yeni təşkilati quruluşa keçilməsini tələb edir. Xarici təcrübədən göründüyü kimi, tikinti firmalarının təşkilati quruluşu, istehsal prosesinin səmərəliliyinə və əlverişli nəticəsinə nail olmaq üçün daim təhlil olunan və şüurlu şəkildə dəyişdirilən çox çevik bir elementdir.

Tikinti təşkilatlarının adaptasiyası (uyğunlaşma problemləri) istehsalın və idarəetmənin təşkili, istehsal və texniki avadanlıqlar sistemi, maşın və mexanizmlər parkının quruluşu, tikinti təşkilatlarının ixtisaslaşması, subpodratçılarla münasibətləri və bir çox digər məsələləri əhatə edir. Hal-hazırda sənaye obyektlərinin inşasında ixtisaslaşmış tikinti təşkilatlarının adaptasiya prosesi onlardan ciddi daxili islahat tələb edir və maddi, maliyyə, təşkilati, sosial və sosial-psixoloji xarakterli böyük problemlərin həllini özündə birləşdirir. Eyni zamanda, həmin təşkilatlar uzun müddət fəaliyyətdə olan qeyri-istehsal müəssisələrində çalışan bütün tikinti təşkilatları ilə bazarda yer uğrunda rəqabətə başlamalıdır [10, səh.18-25].

Belə ki, istehsalın təşkili funksiyası ictimai əməyin bir funksiyasıdır və yalnız müəssisənin fəaliyyəti dövründə deyil, həmçinin də onun yaradılması (layihələndirilməsi və tikintisi) mərhələsində də həmin funksiyanı yerinə yetirir.

Ölkəmizdə investisiya və tikinti kompleksinin (İSK) inkişafı təşkilatlar arasındakı daxili qarşılıqlı münasibətlər sistemində əhəmiyyətli dəyişiklikləri müəyyənləşdirir. İSK-nın texnoloji səviyyəsinin artması, tikinti və tikinti istehsalının yüksək konsentrasiyası tikinti təşkilatlarını yeni təşkilati strukturda fəaliyyətə qərar qəbul etməyə şərtləndirir. Məlumdur ki, hazırda tikinti kompleksinin bir çox təşkilat və müəssisələri bazar münasibətlərini uğurla mənimsəmək və işin səmərəliliyini artırmaq, tikintinin təşkilati-texniki səviyyəsi və keyfiyyətini artırmaq üçün müxtəlif yollar araşdırır və tapırlar.

Tikinti təşkilatının strukturunun formalaşmasına daxildir:

- təşkilatın strukturunun formalaşması və dəqiqləşməsi;
- idarəetmə üsullarının müəyyənləşməsi;
- təşkilatın parametrlərinin, onun bölmələrinin iş rejimi və onlar arasında münasibətlərin yaradılması;
- təşkilatın lazımi resurslarla təmin edilməsi;
- daxili mədəniyyətin yaradılması.

Təşkilatın strukturunu bölmələr, onların qruplaşması və koordinasiyasını əks etdirən şöbələrin, sektorların, təşkilatın digər xətti və funksional vahidlərinin tərkibi kimi təcvir etmək mümkündür. Bu zaman təsvir edilən struktur tikinti müəssisəsinin məqsədinə uyğun gəlməlidir, əgər bu cür mütənasiblik yoxdursa, ya onu yenidən təşkil etmək, ya da yenilsi ilə əvəz etmək lazımdır. Təşkilatın strukturu formalaşdıqda onun ölçüsü, istifadəsində olan texnologiyalar və işçi heyət nəzərə alınır.

Təşkilatın strukturunun formalaşması onun istehsalat vahidlərinə - bloklara bölünməsi vasitəsilə həyata keçirilir. Bloklar isə öz aralarında nisbətən iri vahidlər kimi birləşə bilər və bu proses departamentalizasiya (şöbələşmə) adlanır. Ümumiyyətlə, tikinti təşkilatlarının bloklara ayırmasının müxtəlif üsulları vardır:

1. Yerinə yetirdikləri funksiyalara görə - bu halda hər bir blokun məqsəd və vəzifəsi aydın şəkildə müəyyən edilir - bu proses funksional şöbələşmə adlanır.

2. Buraxılmış məhsul növünə görə bloklara ayrılma - bu məhsuldar şöbələşmə adlanır və istehsal edilmiş məhsulun çeşidi kəskin çoxaldığı halda baş verir.

3. Təşkilat genişləndikcə digər ölkələrdə, şəhərlərdə (regionlarda) şöbələrin yaranması qaçılmazdır. Burada təşkilatın strukturunun ərazi əsasında formalaşması məqsədəuyğun hesab edilir - bu coğrafi şöbələşmə adlanır [9, səh. 40-43].

Təşkilatın strukturuna seçilmiş idarəetmə üsulu əhəmiyyətli dərəcədə təsir göstərir və bu da onun tipologiyasını müəyyən edir. İdarəetmənin fərdi və birgə üsulları tətbiq edilir.

Tikinti təşkilatlarının funksiyalarının yerinə yetirilməsi özündə müxtəlif məsələlərin həllindən ibarətdir və onların aşağıdakı mərhələlərə ayrılması məqsədəuyğundur:

- təşkilati strukturun formalaşması və korrektirovkası;
- təşkilati strukturun bölmələri arasında qarşılıqlı əlaqənin yaradılması;
- nəzarət və onların fəaliyyətinin tənzimləməsi yolu ilə təşkilatın və bölmələrinin daxilində bölmələr və işçi heyət arasında qarşılıqlı əlaqələrin təmin edilməsi [9, səh.35-37].

Tikinti təşkilatlarının inkişaf etdirilməsində dövlət-özəl tərəfdaşlığının xüsusi əhəmiyyəti danılmazdır.

Tikintidə dövlət-özəl tərəfdaşlığı (DÖT) layihələrinin tədqatçıları L. Tang, Q. Shen və s. əldə etdiyi nəticələr əsasında gələcək tədqiqatların bu istiqamətdə aparılmasının zəruriliyini təklif etmişlər [14, səh.683-694].

Tikintidə dövət və özəl tərəfdaşlığının qarşılıqlı münasibətlərinin inkişafında müxtəlif variantlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir:

- dövlət subsidiyaları (kapital xərclər həddən çox yüksək olduqda, yəni kredit və səhm kapitallarına xidmətin adekvatvatlığını təmin edən gözlənilən gəlirin kifayət səviyyədə olmadığı halda əsaslı tikintiyə kapital qoyuluşu xərclərinin hissə-hissə maliyyələşdirilməsi);
- kommersiya krediti (kommersiya kreditinin iki əsas-bank krediti və layihə səhmləri forması);
- səhm kapitalının cəlb edilməsi [ 4, səh.34-38].

V.R.Aleksandrın tədqiqatlarinda qeyd edildiyi kimi, dövlət-özəl tərəfdaşlığının (DÖT) bir neçə tipi vardır ki, buraya dövlət, özəl və qeyri kommersiya tərəfdaşları cəlb edilə bilər [ 11, səh.1-19].

P.Bloomfield tədqiqatlarından belə bir nəticəyə gəlmişdir ki, populyar "dövlət-özəl tərəfdaşlıq" nişanına sahib olan geniş yayılmış müqavilələrə bələdiyyələr və özəl şirkətlər arasında mürəkkəb uzunmüddətli müqavilələr daxildir. Nəzəri cəhətdən, bu yenilikçi müqavilələr, xidmət keyfiyyətinin yaxşılaşdırılması, özəl sektorla paylaşılan risklər və xərclərin azaldılması da daxil olmaqla əhəmiyyətli ictimai faydalar təqdim edir. Bununla birlikdə, praktikada uzunmüddətli müqavilələrin yaratdığı problemlər yerli səviyyədə onların uğurlu icrasına xələl gətirə bilər [ 12, səh.400-411].

M.D.Sarang tədqiqatlarında qeyd edir ki, dövlət-özəl tərəfdaşlığı Hindistan kimi inkişaf etməkdə olan ölkələrin infrastrukturunun qurulmasında çox etibarlı, həyati və inkişaf edən üsul hesab edilir. Dövlət sektoru infrastrukturun qurulmasında dominant rol oynamağa davam etsə də, DÖT bizə özəl sektorun investisiyalarının infrastrukturun inkişafına yönəldilməsinə imkan verdi. Nəzərə alsaq ki, ölkəmizdə hələ də yüksək səviyyədə inkişaf üçün zəruri olan infrastruktur yoxdur, hər iki sektor arasında birgə müəssisələrin inkişafı üçün imkanlar böyük və arzuolunandır. Eyni zamanda, Hindistanda DÖT modelinin işlənilməsində bəzi problemlər meydana gəldi. Əsas problemlərdən bəziləri özəl sektorun tənzimləməsi və maliyyələşmənin əlçatan olması ilə əlaqəlidir. Hindistan hökuməti də öz növbəsində bu cür tərəfdaşlığın ölkəyə verə biləcək faydalarından tam xəbərdardır və bu problemlərin bəzilərinin həll edilməsi üçün tədbirlər görür. O, öz araşdırmasında tərəfdaşlığın ölkədəki əhatə dairəsini, gələcək inkişafını və risklərini əsaslandırmağa cəhd etmişdir [13, səh. 512-513].

Dövlət-özəl tərəfdaşlığı üzrə yaradılan tikinti müəssisələrinin tipləri seçildikdə real vəziyyətə uyğun olmasına xüsusi diqqət yetirilməlidir. Bu tip birgə müəssisələrin uğursuzluq dərəcəsi yüksək olduğundan tərəfdaşlara müəssisə yaradılan ölkədəki həm daxili, həm də xarici şəraitə nəzarət etmək tövsiyə olunur. Əsas amilləri bilməklə birgə müəssisələr yaradıla və lazımi qaydada saxlanıla bilər. Digər amillər arasında daxili amillər özündə tərəfdaş uyğunluğunu, tərəfdaşlıq münasibətlərini və quruluş xüsusiyyətlərini əks etdirirdiyi halda, xarici amillər müəssisə yaradılan ölkələrin şərtləri və layihə risklərini cəmləşdirir [13, səh. 490].

## 2. Azərbaycanın tikinti sektorunda edilən islahatların müsbət cəhətləri və əldə edilmiş nəticələrin təhlili

Son illərdə Azərbaycanda da tikinti sektorunun inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq ölkə rəhbərliyi islahatlar aparır və bu ölkədə həyata keçirilən sosial-siyasətin tərkib hissəsidir. Azərbaycan hökumətinin sosial siyasətinin əsas məqsədlərindən biri də vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Son illər ərzində ölkə əhalisinin sayının artması onların mənzilə olan tələbatının təmin olunması məsələsini, xüsusilə az və orta təminatlı əhali təbəqəsinin, gənc ailələrin mənzil probleminin həll edilməsini prioritet vəzifə kimi müəyyən edir və aktuallaşdırır. Ölkədə həyata keçirilən islahatlar nəticəsində tikinti sektorunun inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 11 aprel 2016-cı il tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi Azərbaycan Respublikası vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək, habelə bununla bağlı şəhərsalma və tikinti sahələrində dövlət idarəetməsini təkmilləşdirməkdən ibarətdir. Eyni zamanda, ölkədə çoxmənzilli yaşayış binalarının tikintisini həyata keçirmək, əhalinin güzəştlə mənzillər əldə etməsinə şərait yaratmaq, bu məqsədlə ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır [18].

"MİDA" MMC-nin ümumi fəaliyyətinə Müşahidə Şurası nəzarət edir və yoxlayır, onun ali idarəetmə orqanı iştirakçılarının ümumi yığıncağıdır. Müşahidə Şurasının tərkibi sədr və sədr müavini daxil olmaqla 5 nəfər üzvdən ibarətdir. "MİDA" MMC-nin fəaliyyətinin təşkilinin səmərəliliyi məqsədi ilə bir sıra xarici ölkələrin, o cümlədən Almaniya, Sinqapur, Türkiyə, Rusiya və s. təcrübəsi öyrəlilməklə tətbiq edilir. "MİDA" MMC-nin səmərəliliyi fəaliyyətinin təşkilinin məqsədi ilə ölkə ərazisində tikilməsi təklif edilən dövlət-özəl tərəfdaşlığını əks etdirən layihələrin təşkilinə Azərbaycanda da başlanılmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi" ilə müəyyən edilən tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi dövlət-özəl tərəfdaşlığı layihələrinin inkişafını genişləndirir [1]. Dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi və özəl tikinti-investisiya şirkətlərinin əməkdaşlığa cəlb edilməsi məqsədilə keçirilmiş investisiya müsabiqəsində "Enerji qrup" MMC ilə "Elektrikquraşdırma" müəssisəsi, "19 saylı Tikinti Təmir İdarəsi" MMC ilə "İnşaat İstehsalat-Tikinti Quraşdırma İnşa" müəssisəsi və "Kristal Abşeron MTK" investor kimi iştirak edərək investisiya qoyuluşu müqabilində "MİDA" MMC-nin sifarişi ilə hazırlanmış və müvafiq qaydada dövlət ekspertizasından keçirilmiş layihə-smeta sənədlərinə uyğun olaraq yaşayış kompleksinin

tikintisini aparmaq imkanını əldə etmişlər [19].

Müəssisələrin struktur bölmələrinin idarə edilməsində idarəetmə strategiyasının düzgün seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Strategiya sahəsində tədqiqatlar aparmış G.Johnson, K.Scholesin fikrincə müəssisədə strategiyanın formalaşdırılması şüurlu, qeyri-rəsmi və idarə olunan düşüncə prosesi olmalıdır [15]. Tikinti müəssisələrinin strukturunun formalaşması ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır və bu inkişaf da əsaslı tikintinin təşkili və idarəedilməsinin təkmilləşdirilməsindən kəskin dərəcədə asılıdır. Tikinti təşkilatlarının təsərrüfatçılıq formalarının təyin olunma prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- təşkilati strukturun zəruri müxtəliflik prinsipi;
- təsərrüfatçılıq formasının təşkilnin adekvatlıq prinsipi;
- idarəetmə sisteminin ümumi sərhəddinin qapalılıq prinsipi;
- idarəetmədə mərkəzləşmə və qeyri-mərkəzləşmənin rasionallıq prinsipi;
- təşkilati strukturun səmərəlilik prinsipi.

Feniosky P.M., Moonseo P. teztikilən (yığılan) binaların tikitinsi üzrə apardıqları tədqiqatlarda qeyd edirlər ki, yüksək sürətli inşaatın dinamik davranışına yönəldilmiş dinamik planlaşdırma metodologiyası, sürətli izləmənin mənfi təsirini minimuma endirən strategiyalar, əməyə nəzarət siyasətləri və digər düzəlişlər yüksək sürətli tikinti layihələrinin planlaşdırılması və idarə edilməsini yaxşılaşdırmaq məqsədi ilə həyata keçirilir [16].

Keçmiş sovetlər ittifaqı ölkələrinin təcrübəsində tikintinin təşkili və idarə edilməsində "ənənəvi" başpodratçı yanaşmasından istifadə edilir. Bina konstruksiları və xidmətləri bazarında təkliflər, bina və tikililərin müasir tələblərə cavab verən dizaynlarının seçimi və həlli artan tələblərə cavab verə bilmədiyindən yeni tikinti materiallarından, avadanlıq və texnologiyalarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Tikintidə mərtəbə və döşəmələrin qaldırılması metodu ənənəvi ardıcıllıqla yerinə yetirilən metodun tərsidir. Binaların bu üsulla tikilməsi, ənənəvi metoddan özünəməxsus xüsusiyyətlərinə görə fərqlənir. Belə ki, ənənəvi metodda bina aşağıdan yuxarıya doğru qurulur və müvafiq yüksəklikdə monolitik dəmir-beton konstruksiyalardan istifadə edilir. Baxılan metodda isə böyük ölçülü bina konstruksiyaları əvvəlcədən hazırlanır və bütün işlər mərtəbələrdə yerinə yetirilir. Tikinti müddətinin azaldılması əlaqəli tikinti-quraşdırma proseslərinin maksimum birləşməsi hesabına əldə edilir [7, səh. 22-24]. "Ənənəvi" başpodratçı yanaşmasını aşağıdakı kimi xarakterizə etmək olar: sifarişçi layihənin yerinə yetirilməsi üçün layihələndiricini və onun icra edilməsi üçün başpodratçını seçir; tikintinin başlanmasına kimi layihələndirmə sənədləri tam hazır olmalıdır; başpodratçı müqavilədə qeyd edilmiş qiymətə uyğun olaraq layihənin yerinə yetirilməsini üzərinə götürür; müqavilə qiymətinin artırılmasına başpodratçı cavabdehlik daşıyır. Başpodratçı yanaşmasının müvafiq təşkilati forması şəkil 1-də verilir.




***Şəkil 1.* Tikintinin təşkili və idarəedilməsinə ənənəvi yanaşmanın təşkilati forması**
*Qeyd:* [6] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Son illərdə xarici ölkələrdə tikinti müəssisələrinin müqavilə şərtlərinə uyğun və strukturundan asılı olaraq idarəetmənin müxtəlif təşkilati formaları aktiv inkişaf etmişdir. Inkişaf etmiş ölkələrdə tikinti sektorunda istifadə edilən müqavillələri beş əsas qrupa ayırmaq olar: sabit qiymət müqaviləsi (Lump Sum Contract); zəmanətli maksimum qiymət müqaviləsi (Guaranteed maximum or upset price control); ”qiymət-plyus” müqaviləsi (Cost-Plus); layihə-tikinti müqaviləsi (Design-build); tikinti idarəetmə müqaviləsi (Construction management). Qeyd edilmiş bu beş tikinti layihələrinin idarə edilməsini ənənəvi və idarəetmə yanaşmalarında qruplaşdırmaqla onlara təsir göstərən əsas amillər cədvəl 1.1-də verilir.

İstehsalın təşkili funksiyası ictimai əməyin funksiyası olmaqla yalnız fəaliyyət dövrində deyil, həmçinin onun yaranma (layihələndirmə və tikinti) mərhələsində də yerinə yetirilir. Belə ki, tikintinin layihələndirildiyi mərhələdə müəyyən texnologiya bazasında müəssisənin tərkibi, strukturu, ölçüləri və bölmələri, istehsalın bütün bu elementlərinin birləşməsi və qarşılıqlı təsiri modelləşdirilir, tikilmə mərhələsində isə bu model (layihə) maddi cəhətdən yerinə yetirilir. Bu baxımdan, fəaliyyət göstərən müəssisələrdə istehsal prosesinin müəyyən edilmiş təşkilati parametrlərinin saxlanılmasında onun alt sistemlərinin idarəedilməsi əsas rol oynayır ki, bu da müəssisənin nisbətən səmərəli fəaliyyətinin təmin edilməsini nəzərdə tutur.

*Cədvəl 1*

**Tikinti layihələrinin idarəedilməsi yanaşmaları və onlara təsir göstərən amillər**

| *S/N* | *Yanaşmaya təsir göstərən amillər* | *Ənənəvi yanaşma* | *İdarəetmə yanaşması* |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Müəyyən edilmə | Faktiki dəyərindən asılı olmayaraq müəyyən edilmiş qiymətə görə layihənin yerinə yetirilməsinə razılıq | Razılaşdırılmış qiymət çərçivəsində layihənin yerinə yetirilməsinə razılıq |
| 2 | Cavabdehlik | Baş podratçı əlavə xərcləri ödəyir | İdarəedici direktor (menecer) əlavə xərcləri ödəyir |
| 3 | Layihələndirilmə | Layihə sənədləri tikintinin başlanmasına hazırdır | 1. Tkinti layihə sənədlərinin hazırlanmasının sona çatdırılmasına kimi başlana bilər<br>2. Layihə qərarlarının alternativ variantları hazırlanır və onlardan ən yaxşısı seçilir<br>3. Öncədən hazırlanmış qərarlar korrektə edilə bilər<br>4. Uzunmüddətli tintidə innovasiyadan istifadə etmə imkanının mümkünlüyü |
| 4 | Təşkilati forma | Ənənəvi-baş podratçı Layihələndirmə-müqavilə bağlanması-tikinti | Tikintinin idarə edilməsi. Müqavilə bağlanması-layihələndirmə-tikinti |
| 5 | İştirakçılar | Sifarişçi. Layihələndirici. Baş podratçı. Subpodratçılar | Sifarişçi. İdarəedici direktor (Sifarişçi. Baş podratçı və firmanın icraedici direktoru). Layihələndirici. Podratçı |

*Cədvəl 1-in ardı*

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 6 | Yanaşmaların nöqsanları | 1.Yüksək rislərə görə baş podratçı qiymətin qalxmasına meyllidir<br>2.İri tikinti layihələrində tikinti müddətində layihə qərarları mənəvi cəhətdən köhnəlir<br>3.Tikinti aparan tikintinin keyfiyyətinin yüksəlməsində maraqlı deyildir<br>4. Yerinə yetirilmə müddəti və smeta dəyərinin ifrat dərəcədə artırılması | 1.İxtisaslaşdılımış idarəetmə mütəxəssislərinin xərclərinin çoxluğu<br>2.İdarəedici direktorun yüksək riski<br>3.Müvafiq yanaşmanın üstünlüyü yalnız yüksək səmərəli idarəetmədə həyata keçirilir |
| 7 | Yanaşmaların üstünlükləri | 1.Tikintinin idarəedilməsi üzrə mütəxəssislərin cəlb edilməsini tələb etmir<br>2.Sifarişçi üçün aşağı risklərin olması<br>3.Sifarişçi nöqteyi nəzərindən nisbətən sadə yanaşmadır | 1.Tikinti müddətinin qısaldılması<br>2.Dəyərin, müddətin və keyfiyyətin optimallaşması hesabına qənaət edilməsi<br>3.İştirakçılar arasında iddia və münaqişələrin minimallaşdırılması<br>4.Tikinti aparanların və layihəçilərin qarşılıqlı təsirindən nisbətən səmərəli texnoloji qərarların qəbul edilməsi |
| 8 | Yanaşmalardan istifadə edilməsi | 1.Tikinti miqyasının azaldılması şəraitində-baş podratçılar aşağı qiymətlə razılaşmağa məcburdur<br>2.Kiçik, sadə və tipik layihələr yerinə yetirildikdə optimal idarəetmədən əldə edilən qənaət idarəetmə xərclərini ödəmir | 1.İri layihələrdə idarəetmədən əldə edilən qənaət idarəetmə xərclərindən artıq olur<br>2.Mürəkkəb və innovasiya layihələri üçün<br>3.Tikintisinə təcili başlanılması lazım gələn layihələrdə<br>4.Tikintinin çox vüsət alması şəraitində podratçıların qiymət qaldırma imkanı olduqda<br>5.İdarəetmə üzrə mütəxəssislərin həddən çox olması şəraitində |

**Qeyd:** [8, 16,17] əsasında müəllif tərəfindən hazırlanmışdır

**Nəticə**

Beləliklə istehsalın təşkili funksiyası layihə-tikinti və idarəetmə təşkilatları arasında bölüşdürülür. İnşaat proseslərinin səmərəliliyini və keyfiyyətini daim artırmağa yönəldilmiş yüksək mütəşəkkil istehsalat qruplarının çatışmazlığının vacib səbəblərindən biri bazar iqtisadiyyatının dayanıqlı inkişafı şəraitində istehsal qurğularının formalaşması və istifadəsinin nəzəri və praktik aspektlərinin kifayət qədər inkişaf etməməsi və son nəticələrin əldə edilməsinə istiqamətlənmiş tikinti istehsalının sistemli şəkildə fəalyyəti hesab edilir.

Qeyd etmək lazımdır ki, təşkil və idarəetmə tikintinin sərbəst prosesidir, bir-biri ilə sıx əlaqəlidir və bir-birinə təsir göstərir, lakin qarşılıqlı əvəzedilə bilmirlər. Elə bu aspektdən də tikinti müəssisəsinin təşkili və idarəedilməsi üzrə təkmilləşdirilmənin əsas məsələləri onun ölçüsünün optimallığı, yəni tikinti təşkilatının gücü, tikinti sənayesinin bazasının mərkəzləşdirilməsi və qeyri-mərkəzləşdirilməsi, təşkilati strukturun ixtisaslaşmasının dəqiqliyi və tikinti prosesinin idarə edilməsinə nəzarət hesab edilir.

Fikrimizcə, inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq Azərbaycanda tikinti müəssisələrinin strukturunun formalaşmasında dövlət tərəfindən maliyyələşmənin minimuma endirilməsi məqsədilə dövlət-özəl tərəfdaşlığı çərçivəsində özəl tikinti-investisiya şirkətlərinin tikinti sahəsinə cəlb edilməsini məqsədəuyğun hesab edilir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı.
2. Eyniyev T., Qeybullayev Q., Məmmədov M. Tikintinin iqtisadiyyatı və idarə edilməsi. Bakı. Nurlan, 2001, 322 s.
3. Mehdiyev İ.Ə., Şirəliyev V.M. Tikintinin iqtisadiyyyatı. Bakı. 2005, 333 S.
4. Аносова А.В. Организационно-экономические аспекты финансирования проектов государственно-частного партнерства. Налоги и финансы. 2012, № 3, с. 34-38.
5. Голубова О. С., Валицкий В. С. Экономика строительства. Минск. 2009, 180 с.
6. Жуков В.А. Совершенствование систем управления в строительстве. -М.: Стройиздат, 1989, 192 с.
7. Калашникова Л., Шелягов А. Структурные перемены умножают резервы // Служба кадров. 2002, №11, с. 22-26
8. М.И. Ковальский. Управление строительством: опыт США, Японии, Великобритании, ФРГ, Канады. М.: Стройиздат, 1994, 408 с.
9. Лыткина Ю.А. Формирование и развитие организационных структур управления в процессе реструктуризации строительных предприятий. Диссертация на соискание ученной степени кандидата экономических наук. Пенза, 2007, 171 с.
10. Сулейманов Р.Н. Организационно-экономические основы формирования и эффективного развития регионального строительного комплекса. Диссертация на соискание ученой степени канд. экономических наук. Вологда. 2005, 187 с.
11. Alexandru V.R. A Guide to Public-Private Partnerships (PPPs): What Public Procurement Specialists Need To Know.NİGP.The İnstitute for public procurement. 2015, 19p.
12. Bloomfield P. The challenging business of long-term public-private partnerships: Reflections on local experience. Public Administration Review. 2006,66(3), pp. 400-411.
13. Sarang M. D. Public private partnership in construction industry. Journal jf research. November-2018, Volume-7, pp.512-513
14. Tanq L.Y.,Shen Q., E.Cheng. A review of studies on Public–Private Partnership projects in the construction industry. Journal of project management, Oct. *2010, v. 28, no. 7,* pp. *683–694*
15. Johnson, G & Scholes, K Strategy Formulation as a Process of Conception..1993.pp.231-249
16. Feniosky P.M., Moonseo P.Dynamic Planning for Fast-Tracking Building Construction Projects. Journal of constrution Engineiring and Management. December 2001,volume 127, issue 6.
17. Griffis (Bud) F.H., Butler F.M. Case For Cost-Plus Contracting Journal of Construction Engineering and Management.1988. Volue 114, №1, pp.83-94
18. https://mida.gov.az/documents/MIDA_FS_2018_AZE.pdf
19. https://www.mida.gov.az/mmc/?/az/newsread/419/692/


**Нахид Алмасов**

## РОЛЬ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА В РАЗВИТИИ СТРОИТЕЛЬСТВА

### *Резюме*

В статье анализируются зарубежные и местные исследования, связанные со структурой, функционированием и формированием организаций в строительном секторе, а также показаны различные способы разделения строительных организаций на блоки.

Выявлены элементы формирования структуры строительной организации, показана

роль государственно-частного партнёрства в её развитии, научно обоснована минимизация государственного финансирования и вовлечение частных строительных и инвестиционных компаний.

***Цель*** – обосновать целесообразность привлечения частных строительных и инвестиционных компаний в эту область для минимизации государственного финансирования путём анализа особенностей структуры строительных организаций.

***Методология*** – Экономико-статистическая модель использовалась при анализе строительной отрасли.

***Результат*** – исследования призваны обеспечить благоприятные условия для формирования структуры строительных организаций.

***Ключевые слова:*** строительство, организация, структура, формирование, частные компании, вовлеченность.

**Nahid Almasov**

## THE ROLE OF STATE-PRIVATE PARTNERSHIP IN THE DEVELOPMENT OF CONSTRUCTION

***Summary***

The article analyzes foreign and local studies related to the structure, functioning and formation of organizations in the construction sector, and also shows various ways of dividing construction organizations into blocks.

The elements of forming the structure of a construction organization are revealed, the role of public-private partnership in its development is shown, the minimization of state financing and the involvement of private construction and investment companies are scientifically substantiated.

***Purpose*** - to justify the feasibility of involving private construction and investment companies in this area to minimize government financing by analyzing the features of the structure of construction organizations.

***Methodology*** - The economic and statistical model was used in the analysis of the construction industry.

***Findings*** - to provide favorable conditions for the formation of the structure of construction organizations.

***Keywords:*** construction, organization, structure, formation, private companies, involvement.

**UOT - 338.1**

**Səbinə İsmayılova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***Magistr***
*sebineismayilova966@gmail.com*

# ELMİ TƏDQİQATLARIN TƏŞKİLİ VƏ MALİYYƏLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

*Məqalədə tədqiqatlar sahəsində aparılan nəzəri metodların dövrün tələbləri və aktuallığını əhatə edən mövzuya uyğunluğunun təmin edilməsi yollarından bəhs edilir. Həmçinin göstərilir ki, tədqiqat nəticəsində əldə olunan yanaşma prinsipləri tədqiqatçının mövzusunu tam formada əhatə etməli və fikir mübadiləsi zamanı məqalənin mövzüsunun istiqamətini dəqiq araşdırmağa imkan verməlidir.*

*Tədqiqatda müxtəlif fikirlər cəmləşdirilmiş, ümumilikdə tədqiqatların təşkilinin formalaşdırılmasına və maliyyələşdirilməsinə zəmin yarada biləcək üsulların seçilməsi müəyyənləşdirilmişdir.*

***Məqsəd –*** Elmi tədqiqatların təşkilinin araşdırılması və onların maliyyələşmə mənbələrinin öyrənilməsi.

***Metodologiya –*** Seçmə üsul və statistik təhlil əsasında tədqiqatın işlənilməsi

***Tədqiqatın nəticələri –*** Elmi tədqiqatların aparılmasına yeni istiqamətdə yanaşılma metodologiyasının nəzəri aspektlərinin müəyyən edilməsi

***Açar sözlər*:** Elmi tədqiqat, mənbə, formalaşdırılma, maliyyələşdirilmə, nəzəri yanaşmalar.

## Giriş

Elmlə məşğul olan hər bir insanın əsas məqsədi elmi bilikləri əldə edib onları sistemləşdirməkdən ibarətdir. Tarixi inkişaf prosesində elm inkişaf etmiş cəmiyyətin məhsuldar qüvvəsinə və istehsal gücünə çevrilərək inkişaf etmiş və bu prosesdə insan amilinin rolu danılmazdır.

Qədim Yunanıstan Avropada elmin vətəni sayılır. Yunanlar ilk dəfə olaraq ətraf mühitdə baş verən təbiət hadisələrinin öyrənilməsini "hiss edərək öyrənməkdən" abstrakt biliklərə keçməklə baş verə bilən faktların qanunauyğunluqlarını öyrənməyə səy göstərmişlər.

Orta əsrlərdə elm teologiyanın təsiri altına düşərək inkişafı ləngimişdir. Daha sonra C.Brunonun, Q.Qalileyin kəşfləri vasitəsilə elm yenidən təkamül etmiş və insanların gündəlik həyatında mühüm rol oynamışdır. XVI əsrin sonlarından XVII əsrin əvvəllərindən başlayaraq artıq Avropada elmi cəmiyyətlər, konfranslar yaranmış, alim anlayışı geniş təşəkkül tapmış, elmi mərkəzlər isə ictimai qurum kimi formalaşmışdır. XIX əsrin sonlarından elmin yeni formaları: institutlar, elmi problemlərlə məşğul olan araşdırma mərkəzləri, laboratoriyalar və s. meydana gəlmişdir. XX əsrdə elm cəmiyyətin və istehsalın mənəvi dayağına çevrilmiş və cəmiyyətdə baş verən proseslərin öyrənilməsində həlledici amillər sırasına daxil olmuşdur.

Müasir elmin tərəqqisi və onun cəmiyyətlə qarşılıqlı əlaqədə olaraq inkişaf etməsi tədqiqatların yeni müstəviyə qədəm qoymasına zəmin yaratmışdır. Hər zaman elmə digər fəaliyyət sahələrində inqilaba təkan verici qüvvə kimi baxılır və o, lazımi bilik səviyyəsi əldə edərək onları müxtəlif üsullarla registrasiya etməklə deyil, nəzəriyyə, qanun və

hipotezlərin köməyi ilə izah edir. Elm daimi olaraq cəmiyyətdə müəyyən təsirlərə məruz qalmış və sistemli xarekter daşımışdır. Aparılan elmi tədqiqatların vəziyyətinə cəmiyyətdə mövcüd olan texniki bazanın təsiri danılmazdır. Fundamental elmlərin məqsədli aparılması praktiki elm sahələrinin inkişafına da stimul vermiş, müasir cəmiyyətdə elm xüsusilə sınaqlarda aparılan araşdırmaların problemlərini tədqiq edərək onların daha kiçik elementlərə bölünməsinə əsaslanan analitik yanaşmalara əsaslanmışdır. Müasir elmi araşdırmalar tədqiqat obyektinin hərtərəfli əhatə olunmasına can atır.

**1. Müvafiq ədəbiyyatlara istinad**

Elm haqqında normativ hüquqi aktlara əsasən elmi tədqiqatlar təyinatına görə fundamental, tətbiqi, axtarış və işlənmələr növündə olur.

Fundamental elmi tədqiqatlar insanın, cəmiyyətin, ətraf və təbii mühitin strukturunun, fəaliyyətinin və inkişafının əsas qanunauyğunluqları haqqında yeni biliklərin əldə edilməsinə yönəlmiş təcrübi və ya nəzəri fəaliyyətdir. Məsələn, hüquqi dövlətin təşəkkülü və fəaliyyəti qanunauyğunluqları, yaxud cinayətkarlığın dünya, regional və ölkə meylləri ilə bağlı araşdırmaları fundamental tədqiqatlar sırasına aid etmək olar.

Tədqiqatlar üzrə müxtəlif fikirlərə əsaslanaraq qeyd etmək olar ki, tətbiqi elmi tədqiqatlar əsasən praktiki məqsədlərə nail olmaq və konkret məsələlərin həlli üçün yeni biliklərin tətbiqinə yönəlmiş tədqiqatlar hesab oluna bilər. Başqa sözlə, onlar fundamental tədqiqatlar nəticəsində əldə edilmiş elmi biliklərin praktiki fəaliyyətlərində istifadə problemlərinin həllinə yönəlmişdir. Məsələn, tədbiqi şəxslərin ayrı-ayrı cinayət növlərinin araşdırılması taktikası və metodikası, yaxud ayrı-ayrı ərazilərdə və ya müəssisələrdə cinayətlərin qarşısının alınması ilə bağlı işlərə necə baxılması qaydalarının müəyyənləşdirilməsi aid edilə bilər. Hüquq elmləri sahəsində elmi tədqiqatlar çox vaxt iki növün vəhdətini təşkil edir və buna görə də onları nəzəri-tətbiqi növlər adlandırmaq lazımdır [2].

Mövzu üzərində işin perspektivliyinin müəyyən edilməsinə, elmi məsələlərin həlli yollarının tapılmasına yönəlmiş elmi tədqiqatlar axtarış tədqiqatları adlandırılır.

Konkret fundamental və tətbiqi tədqiqatların nəticələrinin praktikaya tətbiq edilməsi istiqamətində müxtəlif tədqiqatçılar məşğul olmuşdur. Elmi tədqiqatların müddəti uzunmüddətli, qısamüddətli və ekspres tədqiqatlara bölünür. Tədqiqatın forma və metodlarından asılı olaraq, bəzi müəlliflər onları eksperimental, metodik, təsviri, eksperimental-analitik, tarixi-bioqrafik tədqiqatlar və qarışıq tipli tədqiqatlar tipinə ayırırlar. Hər bir elm müəyyən istiqamətə aid edilə bilər. Elmi istiqamət dedikdə, elmin aparıldığı sahə və ya onun elm kompleksi başa düşülür (məsələn, texniki, sosial və s.) və bu istiqamətdə tədqiqat aparılır. Elmi istiqamətin struktur vahidləri kompleks problemlər, mövzular və elmi məsələlərdir. Problem cəmiyyətdə həll olunan mürəkkəb nəzəri və praktiki vəzifələrin (bilik və cəhalət arasındakı ziddiyyət) məcmusudur. Bu zaman insan təcrübəsi çətinliklərlə qarşılaşır və məqsədə nail olmağın "mümkünsüzlüyünə" qarşı çıxır. Elmi tədqiqat mövzusu problemin tərkib hissəsidir. Elmi tədqiqatların istiqamətinin, probleminin, mövzusunun seçilməsi və elmi məsələlərin qoyuluşu olduqca məsuliyyətli vəzifədir. Problem və elmi tədqiqat mövzusu seçilərkən əvvəlcə tədqiq olunan istiqamətdəki ziddiyyətlərin təhlili əsasında problemin özü formalaşdırılır və gözlənilən nəticələr ümumi şəkildə müəyyən edilir, sonra problemin strukturu işlənilir, mövzular, məsələlər, icraçılar seçilir, onların aktuallığı müəyyən edilir. Elmi və akademik tədqiqatlar ənənəvi olaraq iki fərqli ölçüdə qurulur: ontoloji ölçü (obyektivlik/subyektivlik səviyyəsi ilə əlaqəli) və epistemoloji ölçü (bilik əldə etməyin yolu kimi). Hər bir tədqiqata qoşulmuş paradiqmalar təbii və sosial dünyanı sosioloji bir şəkildə anlaya bilər. Burrell və Morgana görə, bu anlayışlar daha radikal və ya funksionalist bir nöqtədə meydana gələn iki fərqli perspektivlə əlaqələndirilə

bilər. Birinci struktur milli, subyektivliyin tədqiqat səviyyəsinə, ikinci cəmiyyətin quruluşuna və mürəkkəb hadisələri şərh etməyin əlaqəli yollarına əsaslanır. Senikin fikrincə isə bu ölçülər status-sosial nizama, sosial inteqrasiya və birlik səviyyəsinə, həmrəyliyə əsaslanan istiqamətləndirmə və məmnuniyyət tələblərinə görə şərtləndirilir [2].

Hazırda postsovet ölkələrində fundamental tədqiqatların maliyyə təminatının həcmi inkişaf etmiş ölkələrin səviyyəsindən xeyli geri qalır. Bu baxımdan fundamental elmi tədqiqatların maliyyələşdirilməsinin nəzəri aspektlərinin kompleks təhlilinin aparılması zəruridir. Bu təhlil Azərbaycanın fundamental elminin maliyyələşdirilməsi sisteminin inkişafı və onun maliyyə dəstəyinin optimal modelinin qurulması üçün geniş istifadə edilə bilər [1].

"Nə?", "necə?" və" kim üçün?" istehsal hər hansı bir iqtisadiyyatın əsas problemidir. Bu sualların qoyuluşu eyni zamanda elmi tədqiqatların iqtisadiyyatı və maliyyə sahəsi üçün məqbuldur. "Nə?"- elmi-tədqiqatların və təcrübi-konstruktor işlərinin effektiv maliyyələşdirilməsinin təşkili zamanı (ETTKİ) hansı elmi tədqiqatların prioritet olduğunun və maliyyələşdirilmənin vacibliyinin müəyyən edilməsidir; "necə?"- maliyyə resurslarının verilməsinin həcmi və formaları, vəsaitlərin alınması şərtləridir; "kim üçün?"- cəmiyyətdə aparılan tədqiqatların nəticələri bütövlükdə və ya ayrı-ayrı şəxslər üçün maraqlıdır. Bu aspektdən iqtisadiyyatın yuxarıda qeyd etdiyimiz suallara cavabı elmi tədqiqatların maliyyə təminatının prinsiplərini müəyyən etməkdən ibarətdir. Elmi-tədqiqat institutlarının maliyyələşdirilməsində üç nəzəri yanaşma mövcuddur, onların hər birinin əsasında cəmiyyətin formalaşdırılmasında, inkişafında roluna və elmi tədqiqatların maliyyələşdirilməsinin öz prinsiplərinə elmin xüsusi konseptual baxışı durur [3].

**2. Elmi tədqiqatların işlənilməsinə metodoloji yanaşma**

Elmi tədqiqatların işlənilməsində müxtəlif yanaşmalar mövcuddur. Bunlardan üç yanaşmanı təhlil edək.

Birinci yanaşma, nəzəri (fundamental) elmin əhəmiyyətinə, yəni fundamental tədqiqatların nəticələrinin sonrakı mərhələdə tətbiqinə bağlı olmadan tədqiqatın işlənilməsinin əsası götürülür. Bu yanaşmaya misal olaraq Nyuton (Neutonian Science) yanaşmasını qeyd etmək olar ki, bu da əsas elmin son nəticədə daha çox sosial-iqtisadi effekt verəcəyini əvvəlcədən proqnozlaşdırmağın mümkün olmaması ilə əsaslandırıla bilər. Elm təmiz şəkildə ətraf aləmin quruluş qanunauyğunluqları haqqında yeni biliklər gətirən fəaliyyət forması kimi vacibdir, deməli, fundamental tədqiqat layihələrinin əhatə dairəsinin həcmi və genişliyi üzrə maksimum maliyyələşmənin aparılması zəruridir. Bununla yanaşı, cəmiyyətin inkişafı baxımından iqtisadi, sosial, siyasi və ya ümumiyyətlə, sırf elmi biliklərin əldə edilməsindən effekt əldə edilib-edilməyəcəyi qətiyyən vacib deyildir. Nəticədə, istənilən elmin kəşfi gec-tez sosial və ictimai-iqtisadi həyatın transformasiyasına gətirib çıxaracaq. Beynəlxalq səviyyədə Nyuton elminin nümunəsinə fizika, kimya, tibb və fiziologiya, iqtisadiyyat, ədəbiyyat sahəsində görkəmli nailiyyətlərinə görə mükafat təqdim edən Nobel Komitəsinin fəaliyyətini, eləcə də bütün dünyada sülhün əldə olunmasına yardım göstərməsini qeyd etmək olar [3].

İkinci yanaşma, tanınmış ingilis filosofu və dövlət xadimi F.Bekonun adı ilə adlandırılmış Bekonovski (Baconian Science) yanaşmasıdır ki, bu da elmi praktiki dəyərli biliklərin əldə edilməsi üzrə fəaliyyət kimi adlandırılır. Fundamental elm özlüyündə vacib deyil, tətbiqi elmi tədqiqatlardan və digər tədqiqatlardan irəli gələn əməli nəticədir ki, bu da fundamental tədqiqatların aparılması xərclərinin planlaşdırılması mərhələsində nəzərə alınır. Bu yanaşma mövqeyindən yalnız o fundamental layihələr maliyyələşdirilməlidir ki, bu layihələr üçün əvvəlcədən onların nəticələrindən praktiki istifadənin mümkün istiqamət-

lərini görmək mümkün olsun. Müvafiq olaraq, bu yanaşma çərçivəsində təsərrüfat subyekt-lərinin fəaliyyəti ilə bağlı, potensial olaraq müəssisələrdə istehsalın və idarəetmənin xarakterini təkmilləşdirə biləcək elmi layihələrə üstünlük verilir. Məsələn, neft və neft məhsullarının hasilatı və emalı ilə məşğul olan şirkət ağır neft qalıqlarının yüngül neft məhsullarına çevrilməsi haqqında fundamental biliklərin əldə edilməsində maraqlı ola bilər ki, bu da neft emalının səmərəliliyini artıra bilir [3-4].

Üçüncü yanaşma, Amerika prezidenti T.Ceffersonun şərəfinə adlandırılır (Jeffersonian Science) və bu, ilk iki yanaşma mövqeyinin birləşməsinə əsaslanır. Funda-mental elm üçün bu yanaşmaya görə, Bekon yanaşmasının təklif etdiyi kimi, fundamental tədqiqatların nəticələrinin praktiki istifadəsinin konkret istiqamətlərini əvvəlcədən görmək mümkün deyildir. Aparılan araşdırmalar zamanı fundamental tədqiqatlar təkcə elm sahə-sində baş verən problemlərin deyil, müəyyən sosial problemlərin həllinə yönəldilməlidir. Beləliklə, Cefferson yanaşmasında fundamental elmi tədqiqatların ən prioritet istiqamətləri yalnız elmin özü götürülmür, həm də bütün cəmiyyətin inkişafı üçün bu tədqiqatlar mövcüd imkanlara, potensial faydalara əsaslanaraq nəzərdən keçirilir. Bu tip yanaşma məhdud ixtisaslaşdırılmış Bekon yanaşması ilə müqayisədə daha qlobal xarakter daşıyır. Hazırda bu yanaşmanın uğurla reallaşdırılmasına nümunə kimi Rusiya Tibb Elmləri Akademiyasının fəaliyyətini, tibb sahəsində fundamental tədqiqatlar aparan böyük elmi mərkəz və yüksək ixtisaslı tibbi yardım göstərən tibb ocağını qeyd etmək olar [3-4].

Yuxarıda qeyd edilmiş yanaşmalara əsaslanaraq fikrimizcə belə bir ümumi nəticəyə gəlmək olar ki, bu üç yanaşma içərisində elmi tədqiqatlar üçün ən effektiv yanaşma Cefferson yanaşması hesab edilir. Bu yanaşmanın əsas üstünlüyü ondadır ki, o ayrı-ayrı iqtisadi sahələrin inkişaf etdirilməsində mühüm əhəmiyyətə malikdir.

**Nəticə**

İstənilən elmi layihənin həyata keçirilməsinə görə maliyyə resurslarına olan tələbatı ödəmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsinin ümumi həcmi çox əhəmiy-yətli olmalıdır ki, bu da büdcə vəsaitlərinin çatışmaması şəraitində xüsusilə çətindir. Bu, ayrı-ayrı fundamental elmi layihələrin həyata keçirilməsinə büdcə ayırmalarının çatışmaz-lığı nəticəsində maliyyələşdirilməsinin məhdudlaşdırılmasına gətirib çıxarır. Bu zaman prioritet layihələrin seçilməsi təşkilatın və ya maliyyə orqanının təşkilatdaxili məqsədlərin-dən irəli gələrək həyata keçirilir. Buradan belə bir fikir formalaşdırmaq olar ki, ən perspek-tivli layihələrin maliyyələşdirilmə riski artır, bu problem dövlət hakimiyyəti orqanlarının korrupsiyalaşması şəraitində dəfələrlə güclənir. Qeyd edək ki, bu cür fundamental tədqiqat layihələrinin nəticəsi ictimai problemlərin həllinə kömək etməyən və elmi ictimaiyyət tərəfindən son dərəcə mənfi qarşılanan bir haldır. Belə ki, bu istiqamətdə əldə edilmiş nəticələr onları uzun illər konservasiya edən və ya tətbiq etməyə çalışan sifarişçiyə-yəni, dövlətə verilir ki, bu da vətəndaşların həyat keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarmır.

Yuxarıda qeyd olunan yanaşmaların təhlili bu sahədə mövcud olan problemlərin üzə çıxarılması baxımından zəruridir. Bu yanaşmalardan ölkəmizdə elmi tədqiqatların maliyyə-ləşdirilməsi zamanı istifadə edilən zaman mənfi nəticələrin qarşısının alınmasına, sosial və iqtisadi səmərəliliyin ələ olunmasına şərait yarana bilər.

**İstifadə edilmiş ədəbiyyat:**

1. İnqilab Şahbazov-Tədqiqatlar metodları
2. Methodology: Theoretical & Empirical Methods Jewishgen.Org
3. Р.А.Аландаров,“Анализ теоретических подходов к финансированию фундаментальных научных исследований”
4. Suberleninka.ru

**Исмайлова С.А.**

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ОРГАНИЗАЦИИ И ФИНАНСИРОВАНИЕ НАУЧНЫХ ИССЛЕДОВАНИЙ

***Резюме***

В статье рассматриваются теоретические методы в области исследований, охватывающие требования и актуальность проводимой исследовании. Также указаны принципы подхода, которые охватывают темы исследования, конкретные направления при обмене мнений разных исследователей. Даётся теоретический подход к методам исследований, проводимым в условиях инновационной структуры, которые организуются в виде массового формирования.

Обобщены различные взгляды исследователей, а также указан выбор методов, которые могут способствовать формированию исследований в целом.

***Цель –*** Исследование организации научных исследований и изучение их источников финансирования.

***Методология*** – Разработка исследования на основе методов отбора и статистического анализа

***Результат –*** Определение теоретических аспектов методологии подхода к проведению научных исследований в новом направлении.

***Ключевые слова:*** научное исследование, источник, формирование, финансирование, теоретические подходы.

**Ismayilova S.E.**

## THEORETICAL ASPECTS OF RESEARCH ORGANIZATION AND FINANCING

***Summary***

The article deals with theoretical methods in the field of research covering the requirements and relevance of the research. The principles of the approach that cover the research topics, specific directions in the exchange of opinions of different researchers are also indicated. A theoretical approach is given to research methods conducted under the conditions of an innovative structure, which is organized in the form of mass formation.

The various views of researchers are summarized, and the choice of methods that can contribute to the formation of studies as a whole is indicated..

***Purpose –*** to study the organization of scientific research and the study of their sources of funding.

***Methodology –*** development of a study based on the selection method and the statistical analysis method

***Findings –*** definition of theoretical aspects of the methodology of the approach to scientific research in a new direction

***Keywords*:** scientific research, source, formation, financing, theoretical approaches

**UOT - 336**

**Məmmədova Ülkər Şahin qızı**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
*ulker555@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASININ BÜDCƏ KƏSİRİ VƏ ONUN ARADAN QALDIRILMASI YOLLARI

*Məqalədə büdcə kəsirini doğuran səbəblər, onun iqtisadi inkişafa təsiri və örtülməsi üsulları göstərilmişdir. 2017-2019-cu illər üzrə dövlət büdcəsinin göstəricilərinin və ÜDM-in büdcə kəsiri ilə əlaqəsinin təhlili aparılmışdır.*

***Məqsəd –*** *Azərbaycan Respublikasının büdcə kəsirinin aradan qaldırılmasının yollarının araşdırılması.*

***Metodologiya –*** *məqalədə iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.*

***Tədqiqatın nəticələri –*** *aparılmış struktur dəyişikliyinə müvafiq olaraq növbəti ildən xaricdən cəlb edilmiş kreditlər icmal büdcənin xərclərindən çıxarılaraq dövlət büdcəsinin xərclərinə əlavə edildiyinə görə, həmin vəsait dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə yönəldiləcəkdir.*

***Açar sözlər –*** *dövlət büdcəsi, büdcə kəsiri, emissiya, istiqraz, ÜDM, daxili borc, xarici borc.*

**Giriş**

Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın böhranlı şəraitində iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrindən biri olan tarazlı büdcənin yaradılmasına həmişə nail olmaq mümkün olmur. Xüsusilə də keçid iqtisadiyyatı şəraitində büdcə kəsiri qaçılmazdır. Büdcə kəsiri maliyyə ilində dövlət büdcəsinin xərclərinin onun gəlirlərindən artıq olan hissəsinə deyilir.

İqtisadiyyatın böhranlı vəziyyəti işgüzar fəallığın, investisiya tələbinin yüksəldilməsi ilə aradan qaldırıla bilər. Bu da öz növbəsində dövlət xərclərinin artırılması və gəlirlərin azaldılmasını tələb edir. Dövlət xərclərinin artırılması və gəlirlərinin azaldılması tənəzzül şəraitində olan iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədinin reallaşmasına xidmət edir. Vaxtilə C.M.Keyns göstərirdi ki, iqtisadiyyatın tsiklik enmə dövründə işgüzar fəallığın canlandırılmasında, investisiya tələblərinin stimullaşdırılmasında defisitli büdcə şəraitində maliyyələşmə həlledici və önəmli rola malikdir. Belə stimullaşdırıcı iqtisadi siyasət büdcə kəsirinin yaranması zərurətini ortaya çıxarır (1).

Ortaya çıxmış büdcə kəsiri müəyyən vasitələrlə aradan qaldırılmalıdır. Bu zaman elə üsullar seçilməlidir ki, iqtisadi siyasətin stimullaşdırıcı effektini neytrallaşdırmasın.

Büdcə kəsirinin kəmiyyət qiyməti obyektiv olaraq aşağıdakı faktorlarla şərtləndirilir.

1. Adətən dövlət xərclərinin həcmini qiymətləndirərkən iqtisadiyyatın dövlət sektorunda amortizasiyası nəzərə alınmır, bu da obyektiv olaraq büdcə kəsirinin həcminin artmasına gətirib çıxarır.

2. Dövlət xərclərinin mühüm maddəsi kimi borclanmaya xidmət etmək çıxış edir. Belə ki, borclanma üzrə faizin ödənilməsi və borcun əsas məbləğinin tədricən ödənilməsi əsas göstəricidir.

3. Makrosəviyyədə dövlət büdcəsi kəsirinin qiymətləndirilməsi zamanı yerli

büdcələrin vəziyyəti (hansılar ki, büdcə artıqlığına malik ola bilər) nəzərə alınmır. Bəzən yerli hakimiyyət orqanları məqsədyönlü olaraq dövlət büdcəsinə vergi ayırmalarını azaltmaq üçün, yerli büdcələrin vəziyyəti haqqında statistik informasiyanı təhrif edirlər.

4. Keçid iqtisadiyyatında dövlət büdcəsi kəsirinin müəyyən edilməsi ilə yanaşı, onun Mərkəzi Bankın, həmçinin dövlət müəssisələrinin və kommersiya banklarının qeyri-həqiqi büdcə fəaliyyəti ilə şərtləndirilmiş gizli kəsiri də mövcud olur.

Büdcə kəsirini doğuran səbəblər aşağıdakılardır:

- müharibə, iri təbii fəlakətlər və ya digər sosial konfliktlər zamanı dövlət xərclərinin artırılması;
- büdcə xərclərinin qeyri-rasional strukturu;
- iqtisadiyyatın stimullaşdırılması məqsədilə vergilərin azaldılması;
- seçkilər ərəfəsində dövlət xərclərinin artırılması;
- səhiyyəyə, təhsilə, sosial təminata və yeni iş yerlərinin yaradılmasına dövlət xərclərinin artırılması.

Büdcə kəsiri iqtisadiyyata aktiv təsiri olan mürəkkəb bir anlayışdır. Adətən büdcə kəsiri iqtisadiyyata mənfi təsir göstərir. Büdcə kəsirinin iqtisadi inkişafa təsiri ilə bağlı bir sıra nəzəri konsepsiyalar mövcuddur.

Büdcə xərclərinin defisitli maliyyələşmə konsepsiyasının tərəfdarları hesab edirlər ki:

- büdcə kəsiri dağıdıcı amil hesab edilməməlidir;
- büdcə gəlirlərini üstələyən büdcə xərcləri milli iqtisadiyyat üçün təhlükə yaratmır, əksinə ölkənin sosial-rifah vəziyyətini yaxşılaşdırır;
- büdcə kəsiri büdcədən maliyyələşən əhalinin və ev təsərrüfatlarının gəlirlərini artırır ki, bu da alıcılıq qabiliyyətinin yüksəlməsini və milli istehsalın genişlənməsini stimullaşdırır. Bu isə öz növbəsində vergi daxilolmalarının artımına gətirib çıxarır.

Bu konsepsiyanı qəbul etməyən iqtisadçılar büdcə kəsiri ilə bağlı aşağıdakı mülahizələri irəli sürürlər:

- müntəzəm mövcud olan büdcə kəsiri gələcəkdə yüksək vergilərin tətbiqini şərtləndirir;
- büdcə kəsirinin örtülməsi üçün müxtəlif mənbələrdən gəlirlərin cəlb edilməsi.

Pul emissiyası və borclanmanın artırılması pul-kredit siyasətinin effektivliyinə mənfi təsir göstərir. Büdcə kəsirinin artımı zamanı dövlət qiymətli kağızları üzrə faiz dərəcəsinin yüksəlməsi xüsusi investisiyanın sıxışdırıb çıxarma effektinə səbəb olur.

Tarazlaşdırılmış büdcə konsepsiyasının tərəfdarları isə büdcənin gəlir və xərclərinin balansına nail olmağı zəruri hesab edirlər. Bu konsepsiyanın mahiyyətinə görə iqtisadi artımın azalması fonunda dövlət vergiləri azaltmalı və xərcləri artırmalı, iqtisadi artımın yüksəlməsi fonunda isə dövlət vergiləri artırmalı və xərclərini isə azaltmalıdır. Bu zaman birinci halda büdcə kəsirini, ikinci halda isə büdcə artığını şərtləndirir. Bu konsepsiyanın praktiki reallaşdırılması zamanı isə problem yarana bilər. Belə ki, iqtisadi artımın azalması və yüksəlməsi prosesləri davamlığına görə bir-birindən fərqlənir.

Hökümət büdcə kəsirinin maliyyələşdirilməsi zamanı kapital bazarına daxil olmalıdır və vəsait əldə etmək üçün xüsusi sektorla rəqabətə girməlidir. Bu zaman pula tələb artır. Mərkəzi Bank isə onun təklifini məhdudlaşdırır. Bu da faiz stavkalarının artmasına səbəb olur. Nəticədə isə daxili investisiyanın aşağı düşməsi baş verir. Digər tərəfdən isə daxili bazarda faiz stavkalarının qalxması həmin ölkənin qiymətli kağızlarına xarici tələbi artırır ki, bu da xarici kapital axınına səbəb olur və dövlətin xarici borcunun məbləğinin artmasına gətirib çıxarır. Xarici hüquqi və fiziki şəxslər qiymətli kağızları əldə etmək üçün, əvvəlcə həmin ölkənin milli valyutasını əldə etməlidirlər. Bu isə milli valyutanın

beynəlxalq qiymətinin və ya onun dəyişmə kursunun qalxmasına səbəb olur.(2)

Son islahatlar respublikada həyata keçirilən iqtisadi islahatlar digər sahələrdə olduğu kimi dövlət maliyyə sistemində də makroiqtisadi sabitliyin təmin olunmasına və eləcə də dövlət maliyyə sisteminin əsas elementlərindən biri olan dövlət büdcəsinin gəlir və xərclərinin artımına öz təsirini göstərmişdir.

**2017-2019-cu illər üzrə dövlət büdcəsinin göstəriciləri (mln. manat)**

| 2017-2019-cu illər üzrə dövlət büdcəsinin göstəriciləri (mln. manat) | | | | |
|---|---|---|---|---|
| | ***2017 fakt*** | ***2018 fakt*** | ***2019 proqnoz*** | ***2018-ci ilin göstəriciləri ilə 2019-cu ilin proqnozunun müqayisəsi*** |
| | | | | fərq (+;-) |
| ***Gəlirlər*** | 16516,7 | 22411,3 | **22917,5** | 506,2 |
| ***Xərclər*** | 17594,5 | 22718,9 | **24780,1** | 2061,2 |
| ***Büdcə kəsiri*** | 1077,8 | 307,6 | **1862,6** | 1555 |

*Mənbə:* Maliyyə Nazirliyinin hesabatları, 2018 (3)

Dünya təcrübəsindən büdcə kəsirinin örtülməsinin bir neçə üsulları məlumdur. Belə ki:

1) pul emissiyası (monetizasiya)
2) istiqrazların buraxılışı
3) dövlət büdcəsinə vergi daxilolmalarının artırılması

Büdcə kəsirinin örtülməsi üsullarından biri kimi dövlətin əlavə pul emissiyası çıxış edir. Bu üsul monetizasiya da adlanır. «Monetizasiya» termininin mənası – dövlət büdcəsi xərclərinin pul emissiyası yolu ilə maliyyələşdirilməsidir. Kəsirin monetizasiyası zamanı «seneoraj» yaranır. Seneoraj – emissiya olunan banknotların nominal həcmindən həmin banknotların çap olunması və tədavülə buraxılmasının təşkili ilə əlaqədar olan xərclər çıxıldıqdan sonra yaranan fərqdən ibarətdir.

Dövlət maliyyəsinin kəsirinin örtulməsi mənbələrindən biri də onun banknot çapı hüququndan istifadə etməklə əldə etdiyi emission gəlirdir. Belə ki, dövlət pul nişanlarının çap olunması və dövriyyəyə buraxılması vasitəsilə cəmiyyətdən real resursların cəlbini həyata keçirərək öz fəaliyyətini maliyyələşdirə bilir.

Aşağı inflyasiya səviyyəsi mövcud olduğu şəraitdə pul siyasətini həyata keçirən dövlət, pula olan tələbin artım tempini keçməməklə pul bazasının həcmini artıraraq emissiya gəliri əldə edir. Əgər iqtisadiyyatda pul bazası ümumi daxili məhsulun 15 faizinə bərabərdirsə, deməli iqtisadi artımın hər bir faizinə görə dövlət 0,15% emission gəlir əldə etmək imkanına malikdir.

Lakin yüksək inflyasiya səviyyəsində dövlətin emission gəlir əldə etmək imkanları məhduddur. Çünki yüksək inflyasiya şəraitində əhalinin əlində olan pul qalıqları öz dəyərini itirir və əhali həmin pul nişanlarından imtina etməyə başlayır. Başqa sözlə, dövlətin emission gəlir əldə etməsinin həddi vardır. Aparılmış araşdırmalara görə inkişaf

etmiş ölkələrdə dövlət banknot buraxılışından maksimum gəlir ÜDM-in 1%-i qədər, inkişaf etməkdə olan ölkələr isə ÜDM-in 25 faizinə qədər əldə edə bilir.

Büdcə kəsirinin örtülməsinin digər üsulu kimi dövlət qiymətli kağızlarının buraxılışı və reallaşdırılması çıxış edir. Bu üsul da eyni zamanda müəyyən müsbət və mənfi cəhətlərə malikdir.

Müsbət cəhət ondan ibarətdir ki, dövlət qiymətli kağızlarının buraxılışı büdcə kəsirinin örtülməsində nisbətən qeyri-inflyasiyalı üsul hesab edilir. Bu onunla bağlıdır ki, qiymətli kağızların buraxılışı pul kütləsinin artmasına səbəb olmur.

Mənfi cəhəti isə ondan ibarətdir ki, dövlət qiymətli kağızlarının buraxılışı pul bazarında pula olan tələbi artırır. Bu, pulun qiymətini - faizin orta bazar stavkasını yüksəldir. Nəticədə isə bu xüsusi sektorda investisiyanın aşağı düşməsinə, xalis ixracatın enməsinə, müəyyən qədər də istehlak xərclərinin azalmasına gətirib çıxarır. Nəhayət etibarilə "sıxışdırılıb çıxarma effekti" yaranır ki, bu da fiskal siyasətin stimullaşdırıcı effektini zəiflədir.

"Sıxışdırıb çıxarma effekti" nəzərdə tutur ki, verilmiş investisiya tələbi əyrisində faiz stavkalarının qalxmasına görə xüsusi investisiya azalır. İnvestisiya tələbinin artması "sıxışdırıb çıxarma effektini" hissə - hissə və ya tam kənarlaşdıra bilər.

Azərbaycanda büdcə kəsirinin maliyyələşdirilməsi mənbələri kimi daxili və xarici maliyyələşdirmə mənbələri qeyd olunmalıdır. Büdcə kəsirini örtmək üçün dövlət həm daxili, həm də xarici mənbələrindən istifadə edir. Birinci halda dövlətin daxili borcu, ikinci halda isə xarici borcu yaranır.

Respublikamızda büdcə kəsirini daxili borclanma hesabına örtmək, faktiki olaraq mümkün deyil. Birincisi, ölkədə güclü maliyyə bazarı formalaşmayıb. İkincisi, fiziki və hüquqi şəxslər dövlətin qiymətli kağızlarla bağlı verdiyi zəmanətin ciddiliyini qəbul etmirlər və daxildə qiymətli kağızların alınmasına yönəldilməli olan kifayət qədər vəsait yoxdur. Xarici borclanma hesabına kəsirin örtülməsi ölkəyə "başıucalığı" gətirən fakt olmasa da, dövlətlərin əksəriyyəti buna gedir. Burada həmin borcların sonradan qaytarılması və ya faizlərin ödənilməsi ən mühüm məsələ olur. Borcun çox hissəsini uzunmüddətli və yalnız komisyon haqqı ödənilən kreditlər təşkil edir. Qeyd edim ki, beynəlxalq maliyyə institutlarının elə kreditləri olur ki, onlar yalnız büdcə kəsirinin örtülməsinə istifadə edilə bilər. (4)

Büdcə kəsiri bir sıra makroiqtisadi göstəricilərlə əlaqəlidir. Büdcə kəsirinin ÜDM-lə əlaqəsini nəzərdən keçirək:

**Büdcə kəsirinin ÜDM-lə əlaqəsi**

| İllər | ÜDM (mln. man) | Büdcə kəsiri (mln. man) |
|---|---|---|
| 2017 | 70135,1 | 1077,8 |
| 2018 | 79797,3 | 307,6 |
| 2019 (proqnoz) | 5929,5 (yanvar) | 1862,6 |

*Mənbə:* AR Dövlət Statistika Komitəsi (5)

**Nəticə**

Göründüyü kimi, büdcə kəsiri ÜDM-dən sıx asılıdır. 2019-cu ildə dövlət büdcəsinin kəsirinin yuxarı həddi 1862,6 mln. manat məbləğində nəzərdə tutulur. Onun maliyyələşdirilməsi dövlət büdcəsinin vahid xəzinə hesabının qalığından, xaricdən cəlb edilən kreditlər və özəlləşmədən daxilolmalar hesabına həyata keçiriləcəkdir. 2019-cu ildə dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,3% təşkil edəcəkdir. Aparılmış struktur dəyişikliyinə müvafiq olaraq növbəti ildən xaricdən cəlb edilmiş kreditlər (1695,6 mln. manat) icmal

büdcənin xərclərindən çıxarılaraq dövlət büdcəsinin xərclərinə əlavə edildiyinə görə, həmin vəsait icmal büdcənin kəsirinin maliyyələşdirilməsinə deyil, dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə yönəldiləcəkdir. (6)

Beləliklə, yaranmış büdcə kəsirinin aradan qaldırılması üçün qeyd etdiklərimizdən elə üsul və istiqamətlər seçilməlidir ki, maliyyə-büdcə siyasətinin stimullaşdırıcı effektini neytrallaşdırmasın.

**İstifadə edilmiş ədəbiyyat:**

1. N.A.Novruzov, X.Ə.Hüseynov "Maliyyə", Bakı 2007
2. S.M.Məmmədov "Maliyyə", Bakı 1997
3. http://maliyye.gov.az/
4. Ş.Ş.Bədəlov, R. B.Məhərrəmov, F.Ə.Qurbanov "Büdcə sistemi", Bakı 2003
5. https://www.stat.gov.az/
6. "AR-nın 2019-cu ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı" AR-nın Maliyyə Nazirliyi, Bakı 2018

**Улькер Мамедова**

## БЮДЖЕТНЫЙ ДЕФИЦИТ И ПУТИ ЕГО ПРЕОДОЛЕНИЯ

***Резюме***

В этой статье рассматриваются причины бюджетного дефицита, его влияние на экономическое развитие и методы покрытия бюджетного дефицита. Также проанализирована взаимосвязь бюджетных показателей и ВВП с бюджетным дефицитом.

***Цель*** – исследование способов преодоления бюджетного дефицита Азербайджанской Республики.

***Методология*** – метод экономико-статистического анализа.

***Результат*** – в соответствии со структурными изменениями, в следующем году за счёт иностранных кредитов, отчисленных из расходов консолидированного бюджета и добавленных в расходы государственного бюджета произойдёт финансирование бюджетного дефицита.

***Ключевые слова:*** государственный бюджет, бюджетный дефицит, эмиссия, облигация, ВВП, внутренний долг, внешний долг.

**Ulker Mammadova**

## THE BUDGET DEFICIT AND WAYS OF ITS REPAYMENT

***Summary***

This article discusses the causes of the budget deficit, its impact on economic development and methods to cover the budget deficit. Also analyzed the interrelation of budget indicators and GDP (gross domestic product) with budget deficit.

***Purpose*** – study of ways to repayment the budget deficit of the Republic of Azerbaijan.

***Methodology*** – the economic-statistical analysis method

***Findings*** – the budget deficit will be financed in accordance with structural changes, next year, due to foreign loans deducted from the consolidated budget and added to the state budget.

***Keywords*****:** the state budget, budget deficit, emission, obligation, GDP, domestic debt, external debt

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

**Elmi-praktik jurnal**

**№ 2 (12), 2019**

**Redaktorlar:**
*Xanımbacı Cəfərli, Aygün Bağırzadə*

**Kompyuter tərtibatı:**
*İradə Əkbərova*

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 08.12.2019
Çapa imzalanıb: 12.12.2019
Format: $70x100^{1/8.}$ 17,75 ç.v. Tiraj: 200